Azərbaycan Milli Elmlər Akademiyası
Milli Azərbaycan Tarixi Muzeyi

MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ
– 2015 –

“Elm və təhsil”
Bakı – 2015

Milli Azərbaycan Tarixi Muzeyinin
Elmi Şurasının qərarı ilə nəşr edilir

Təsisçi:
AMEA Milli Azərbaycan Tarixi Muzeyi

Redaksiya heyəti:
Nailə Vəlixanlı – AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru (baş redaktor), ***Gülzadə Abdulova*** – tarix üzrə fəlsəfə doktoru, ***İlyas Babayev*** – AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, ***Fərhad Cabbarov*** – tarix üzrə fəlsəfə doktoru (məsul katib), ***Firdovsiyyə Əhmədova*** – tarix üzrə fəlsəfə doktoru, ***Nərgiz Əliyeva*** - tarix üzrə elmlər doktoru, ***Adil Məmmədov*** – tarix elmləri doktoru, professor, ***Əli Rəcəbli*** - tarix elmləri doktoru, professor, ***Səbuhi Əhmədov*** – tarix üzrə fəlsəfə doktoru, ***Nasir Quluzadə*** – tarix üzrə fəlsəfə doktoru, ***Məhfuzə Zeynalova*** - tarix üzrə fəlsəfə doktoru

Redaksiyanın ünvanı:
Bakı şəhəri, H.Z.Tağıyev küçəsi, 4.
Tel.: 012 493 23 87, Faks: 598 52 11
E-mail: aztarmuzey@azhistorymuseum.az

Milli Azərbaycan Tarixi Muzeyi – 2015. Bakı, "Elm və təhsil", 2015, 472 səh.

ISBN 978-9952-8142-9-3

© "Elm və təhsil", 2015



Nailə Vəlixanlı

Milli Azərbaycan Tarixi Muzeyinin 95 illik inkişaf yolu

2015-ci ilin iyun ayının 15-də Milli Azərbaycan Tarixi Muzeyinin 95 yaşı tamam oldu. İlk addımlarını «Doğma diyarın tədris muzeyi» kimi atmağa başlayan muzeyin bu adına az sonra Azərbaycan Cümhuriyyətinin Parlamentinin ildönümü münasibətilə 1919-cu ildə açılmış, lakin fəaliyyət göstərməyə macal tapa bilməmiş "İstiqlal" muzeyinin varisi kimi "İstiqlal" adı da əlavə olunur. 1920-ci ilin oktyabr ayının 25-də muzeyin statusu daha da genişləndirilmiş, Xalq Maarif Komissarlığının (XMK) sərəncamı ilə ona "Azərbaycan SSR Dövlət Muzeyi" adı verilmişdir. Qeyd olunmalıdır ki, bu dövrdə Azərbaycanda hakimiyyəti ələ keçirmiş İctimai Şura Hökumətinin "kommunist ideologiyası"nı rəhbər tutan "mədəni inqilab" proqramına görə muzeylər maarifləndirici təşkilat funksiyasını yerinə yetirməli, bu zaman, başqa sahələrdə olduğu kimi "partiya rəhbərliyi" prinsipini əsas tutmalı, partiyanın direktivləri, onun qərar və göstərişləri ilə istiqamətlənməli idilər. Azərbaycan SSR XMK kollegiyası hələ 1920-ci ilin iyun ayının 14-də məktəbdənkənar təhsil şöbəsini açmaqla kütlələrin mədəni səviyyəsini yüksəltməyi, onların siyasi-kommunist tərbiyəsini, biliyə olan marağını artırmağı və s. əsas məqsəd etdi. Bu şöbənin nəzdində başqa seksiyalarla yanaşı Muzey-ekskursiya (Muzekskurs) yarımşöbəsinin yaradılması ilə Azərbaycanda muzey quruculuğunun özülü qoyuldu. İlk dövlət muzeyi özünün ilk addımlarını məhz həmin qurumun tərkibində və bilavasitə onun rəhbərliyi altında 1920-ci ilin iyulun 1-dən yerləşdiyi Hacı Zeynalabdin Tağıyev sarayında atmağa başladı. 1921-ci ilin fevralında Muzekskursu XMK-da bu vaxtadək fəaliyyət göstərən Ali Məktəb Şöbəsinin yerinə açılmış Akademik Şöbənin tərkibindəki Muzey-arxiv (Muzarxiv) yarımşöbəsi əvəz etdi. Bu yarımşöbə Dövlət Muzeyi ilə yanaşı Dövlət Arxivini, Qədim Abidələrin və İncəsənətin Mühafizə Komissiyasını da özündə birləşdirirdi. Bütün bu müəssisələr o vaxtlar "Yoldaş Davud Hüseynov adına Elm Sarayı" adını almış Tağıyev mülkündə yerləşdirilmişdi.

1921-ci ilin mayında Muzey Azərbaycanın sovetləşməsinin birinci ildönümünə həsr olunmuş yubiley sərgisinin açılışı ilə ilk tamaşaçılarını qəbul etdi.

Azərbaycanda ilk demokratik respublikanın devrildiyi, sosialist sistemli dövlətin hakimiyyətə gəldiyi zaman kəsiyində yaradılmış dövlət muzeyinin ilk onillər fəaliyyəti sovet totalitar rejiminin qaydalarına uyğunlaşdırılırdı. Yeni ideoloji məfkurənin tələblərinə uyğun gəlməyən məqamların, o cümlədən bu məqamları yaradan şəxslərin aradan götürülməsi prosesi başlamışdı. Hələ 20-ci illərin ikinci yarısında, yəni muzeyin təşkilindən bir neçə il sonra, yeni qurulmuş İctimai Şura cəmiyyətində baş verən ciddi yeniləşdirmələr Azərbaycan tarixinin tədqiqi və bununla bərabər təbliği yönünün dəyişməsini tələb etdi. Hakim kommunist-bolşeviklər partiyasındakı müxalifətçi trotskiçi blokuna qarşı mübarizə hər sahədə olduğu kimi tarixin öyrənilməsində və təbliğində də "problemlərin" olduğunu "üzə çıxartdı." Sovet totalitar rejiminin ideoloji hökmləri ölkənin ictimai-siyasi həyatına, xalqın mədəni inkişafına mənfi təsir göstərdiyi kimi Azərbaycan tarixini, eləcə də xalqın tarixinin əyani güzgüsü olan muzeyi də "mədəni inqilabın aləti"nə, ideologiyanın ifadəçisinə çevirdi. 1928-ci ildə muzeydə artıq 5 ildən bəri uğurlu fəaliyyət göstərən, muzey üçün çox işlər görən istedadlı alim - Davud Şərifov direktor vəzifəsindən uzaqlaşdırıldı. Muzeyin yeni təyin olunmuş erməni müdiri keçmiş "İstiqlal" muzeyindən qalma, eləcə də muzey işçilərinin böyük zəhmətlə əldə etdikləri digər mühüm və qiymətli eksponatların (Azərbaycan Xalq Cümhuriyyətinin bayraqları, Parlamentin materialları, İstiqlal bəyannaməsinin əsli və s.) Moskvada açılan İnqilab Muzeyinə göndərilməsi sərəncamını verdi. Bu və bunun kimi tədbirlər müstəqil Xalq Cümhuriyyəti tarixinin uzun illər yaddaşlardan silinməsinə gətirib çıxaran ilk amillərdən biri oldu. Azərbaycan Dövlət Muzeyinin parçalanması da bununla başlandı.

1934-cü ilin mayında böyüməkdə olan nəslin totalitar rejimin ideologiyasına uyğun tərbiyələndirilməsi məqsədilə məktəblərdə tarix və coğrafiya fənlərinin tədrisinin mükəmməlləşdirilməsini, daha doğrusu, sosialist quruluşunun "üstünlüklərinin" cəmiyyətin üzvlərinə aşılanmasını nəzərdə tutan xüsusi sərəncam qəbul edildi. Bu sərəncama görə məktəblərdə, tarixi tədqiqat müəssisələrində, eləcə də muzeylərdə görülən işlər, həyata keçirilən tədbirlər tarixin marksist dərkini təmin etməli idi. Tarixin tədrisinə və təbliğinə artırılan bu diqqət yeni tipli tarix və tarix-diyarşünaslıq muzeylərinin yaranması ilə müşayiət olundu. Azərbaycan Dövlət Muzeyi tarixin ideologiyalaşdığı bu dövrdə Xalq Komissarları Şurasının 1936-cı il 31 mart tarixli, muzeyin yenidən qurulmasına həsr olunan qərarı ilə Azərbaycan Tarixi Muzeyinə çevrildi. Elə həmin ildən muzey yenicə təşkil olunmuş İttifaq Elmlər Akademiyasının Azərbaycan filialının tərkibinə daxil edildi.

Beləliklə, yeni sistem tarix profilli muzeylər şəbəkəsini genişləndirdi, muzeylərin sovet təbliğat mexanizminə çevrilməsini, onlardan bir rupor kimi

istifadə edilməsini daha da gücləndirdi. Bununla belə, muzeyin elmi-tədqiqat sahəsində qazandığı uğurlar vətən tariximizə dair biliklərin zənginləşməsinə, yeni məqamların açılmasına təkan verdi. Məhz buna görə Milli Azərbaycan Tarixi Muzeyinin 95 illik fəaliyyəti haqqında danışarkən tez-tez "birinci" və "ilk dəfə" sözlərindən istifadə etmək lazım gəlir. Belə ki, 1925-ci ildən başlayaraq 60-cı illərədək - arxeoloji işlərin aparılması EA-nın Tarix İnstitutuna həvalə edilənədək, respublikanın arxeoloji mərkəzi olan Tarix Muzeyi arxeoloqlar Davud Şərifov, Yevgeni Paxomov, İshaq Cəfərzadə, Mövsüm Salamov, Saleh Qazıyev, Məmmədəli Hüseynov və b-nın rəhbərliyi ilə Xocalıda, Naxçıvanda, Qəbələdə, Gəncədə, Xaraba Gilanda, Örənqalada, Mingəçevirdə və b. yerlərdə aparılan qazıntılarla Azərbaycan ərazisinin qədim maddi-mədəniyyət abidələrinin elmi baxımdan öyrənilməsinin əsasını qoydu. Məhz bu ekspedisiyalar, eləcə də Muzeyin təşkil etdiyi etnoqrafik səfərlər zamanı əldə olunan və bu gün muzeyin fondlarında qorunan material ekspozisiyanı, o cümlədən muzey kolleksiyasını zənginləşdirdi, neçə-neçə kitab və dissertasiya üçün mənbə rolunu oynadı.

Muzeyin 1936-cı ildən başlayaraq fəaliyyət istiqamətinin dəyişməsi bu vaxtadək onun tərkibində olan Təbiət, Ateizm və din, Ədəbiyyat, İncəsənət bölmələrinin öz fondları və işçiləri ilə birlikdə ayrılaraq müstəqil qurum olmaları ilə nəticələndi (muzeydə 20-ci illərdən bir şöbə kimi fəaliyyət göstərən "Teatr" bölməsi isə artıq 1934-cü ildən şöbə müdiri Ağakərim Şərifovun başçılıq etdiyi müstəqil Teatr Muzeyinə çevrilmişdi). 1935-1940-cı illərdə sosializmin təbliğat "aləti"nə çevrilən Azərbaycan Tarixi Muzeyində (1938-1939-cu illərdə o hətta Azərbaycan Xalqlarının Tarixi Muzeyi adlandırıldı) Sovet Azərbaycanını tərənnüm edən sərgilər təşkil olundu. Elə həmin illərdə, Muzeyin filialı olan Şirvanşahlar sarayında açılmış və XVI-XVII əsrlər Azərbaycan tarixinə həsr olunmuş sərgi də sinfi mübarizəni - əsasən zəhmətkeş kəndlilərin feodallara qarşı mübarizəsini təbliğ edirdi.

30-cu illərin sonu-40-cı illərin əvvəlində baş verən kütləvi repressiya və müharibə alimlərin və muzey işçilərinin sıralarını seyrəltdi. Akademiyanın ayrı-ayrı institutlarında struktur dəyişiklikləri edildi. Hətta 1941-ci ildə, bu vaxtadək müstəqil qurum olan Tarix Muzeyi öz fəaliyyətini yeni təşkil olunmuş Tarix, Dil və Ədəbiyyat İstitutunda Muzey şöbəsi adı ilə davam etdirdi. 1943-cü ildən Azərbaycan Tarixi Muzeyi SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının qərarı ilə Rəyasət Heyətinin nəzdində müstəqil vahid qurum kimi təsdiq edildi.

1945-ci ildə Azərbaycan SSRİ Elmlər Akademiyasının yaradılması ilə əlaqədar Azərbaycan Tarixi Muzeyi Akademiyanın İctimai Elmlər Bölməsinin tərkibində elmi-tədqiqat idarəsi kimi bu gün də davam edən fəaliyyətə başladı.

Muzeyin 1940-1953-cü illər fəaliyyəti isə bilavasitə Şirvanşahlar Sarayı ilə bağlı olmuşdur. Belə ki, 1920-ci ildən bəri məşhur sahibkar və maarifpərvər xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin yaşayış mülkündə yerləşən Muzey həmin illərdə

xüsusi hökumət sərəncamı ilə İçəri Şəhərə, Şirvanşahlar sarayına köçürülmüşdü. Tağıyev mülkü isə 1953-cü ilə kimi Xalq Komissarları Sovetinə (Nazirlər Sovetinə) verilmişdi. Ekspozisiya sahəsinin daralmasına, II Dünya müharibəsinin başlaması ilə bağlı işçilərin sayının azalmasına baxmayaraq Muzey bu dövrdə də fəaliyyətdən qalmamış, öz işini Vətənin arxeoloji tədqiqinin gücləndirilməsinə yönəltmişdi. Məhz bu illərdə Muzeyin arxeoloqları (İshaq Cəfərzadə, Yevgeni Paxomov, Saleh Qazıyev, Tamara Qolubkina, Güllü Mustafayeva və b.) Qobustan, Gəncə, Mingəçevir, Qəbələ və b. bu kimi yerlərdə arxeoloji tədqiqat işləri aparmış, lakin buna rəğmən muzey üçün spesifik olan ekspozisiya və fond işləri bir qədər kölgədə qalmışdı. 1953-cü ildə Muzeyin yenidən Tağıyev mülkünə qaytarılması və nəhayət, 1956-cı ilin martında yeni ekspoziya ilə öz qapılarını tamaşaçıların üzünə açması ilə onun fəaliyyətində yeni səhifə açılır.

Onu da demək lazımdır ki, məhz həmin illərdə Azərbaycanın tarixçi alimləri ümumiləşdirilmiş vətən tarixinin yazılması üzərində işləyirdilər. Respublika Elmlər Akademiyasının struktur vahidi olan Azərbaycan Tarixi Muzeyinin elmi işçiləri də bu istiqamətdə fəaliyyət göstərməklə yanaşı qədim və zəngin tariximizi muzey eksponatlarının dili ilə - əyani surətdə təbliğ etmək məqsədilə yeni ekspozisiya yaratmış, müxtəlif mövzularda sərgilər təşkil etmişdilər. Əlbəttə, obyektiv vahid tarixi konsepsiyanın olmaması tarixi həqiqətləri əks etdirən ekspozisiyanın yaradılmasında da çətinliklər törədirdi. Belə ki, sovet totalitar rejiminin ideologiyasından kənara çıxmaq təhlükəsi təkcə vətən tarixinin obyektiv yazılmasına deyil, onun muzey vasitəsilə obyektiv təbliğinə də mane olurdu. Bununla belə, xüsusilə, II Dünya müharibəsindən sonrakı illərdə, respublikanın arxeoloq və etnoqraflarının çoxsaylı ekspedisiyalardan əldə etdikləri zəngin materialın tədqiqi, tarixçi alimlər tərəfindən Azərbaycan tarixinə dair müxtəlifdilli mənbələrin elmi dövriyyəyə gətirilməsi, xüsusilə, qədim və orta əsrlər tarixinə dair biliklərin genişlənməsinə, tədqiq edilən dövrlərin mühüm və prinsipial məsələlərinin daha ətraflı və dərin faktlarla zənginləşməsinə və bütün bunların nəticəsi olaraq muzeyin müxtəlif tarixi dövrlərə dair ekspozisiyasının daha da təkmilləşməsinə kömək etdi. Lakin, həm həmin dövrdə, həm də bir qədər sonra - şəxsiyyətə pərəstişin mənfi nəticələrinin aradan qaldırılmasına böyük cəhdlər göstərildiyi mürəkkəb illərdə də, hazır ideoloji qəliblərdən birdən-birə kənara çıxmaq çox çətin, bəlkə də qeyri-mümkün idi. Bununla belə, muzey mövcud olduğu bütün dövrlərdə öz əsas funksiyasını zamana və imkana uyğun səviyyədə yerinə yetirirdi.

60-cı illərdən başlayaraq muzey bilavasitə arxeoloji ekspedisiyalar təşkil etməsə də, yeni bir sahənin- sualtı arxeoloji tədqiqatların mərkəzinə çevrildi. 1968-72-ci illərdə Muzeyin əməkdaşı, tarixçi-arxeoloq Viktor Kvaçidzenin başçılıq etdiyi qəvvaslar qrupu Xəzər dənizində və sahilyanı ərazidə (Bəndovan I, Bəndovan II,Bilgəh və s.) tədqiqat işləri aparmış, bu gün ekspozisiyada görkəmli yer tutan

sualtı arxeoloji materialı aşkar etmiş, su altında qalmış orta əsr yaşayış yerlərinin tapılması və öyrənilməsi işinin əsasını qoymuşlar.

Yarandığı ilk gündən mədəni-maarif və elmi-tədqiqat müəssisəsi kimi fəaliyyətə başlayan bu ilk dövlət muzeyi Azərbaycan xalqının tarixini əks etdirən maddi sərvətin ekspozisiya və sərgilərdə nümayişi, təbliği, eləcə də onların toplanması, mühafizəsi, tədqiqi və nəşri ilə məşğul olmuşdur. Muzeyin fondlarında və əksəriyyəti nadir kitab-lardan ibarət zəngin kitabxanasında 300 mindən artıq maddi abidə qorunur. Bu gün bu kolleksiya tamaşaçıya və tədqiqatçıya ölkəmizin ən qədim dövrdən bu günədək tarixini, xalqımızın keçmişini, məişətini və mədəniyyətini öyrənmək, tariximizlə bağlı istənilən məsələni araşdırmaq imkanı verir.

Muzeydə aparılan elmi-tədqiqat işləri Azərbaycanda tarix elmini inkişaf etdirməklə yanaşı muzeyin özünün başlıca vəzifəsini yerinə yetirir: onun simasını-ekspozisiyasını formalaşdırır. Müxtəlif ekspedisiyaların nəticələri, gərgin axtarışlardan sonra əldə edilən qiymətli arxeoloji, etnoqrafik, nu-mizmatik, sənədli və əşyayi materiallar ekspozisiyada nümayiş etdirilir və xalqımızın özünəməxsus çoxəsrlik mədəniyyətinə və tarixinə şəhadətlik edir.

Muzeydə hal-hazırda 11 fondla yanaşı 6 elmi şöbə, o cümlədən, arxeologiya, etnoqrafiya və numizmatika elmi-fond şöbələri, bərpa laboratoriyası və kitabxana fəaliyyət göstərir.

2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin birbaşa təşəbbüsü ilə dünya standartları səviyyəsində təmir və bərpa olunan muzeydə Azərbaycan tarixinin ən qədim dövrlərdən 1920-ci ilədək tarixini əks etdirən yeni ekspozisiya qurulmuşdur. Muzeyin 9 zalında onun yerləşdiyi binanın sahibi Hacı Zeynalabdin Tağıyevin xatirə muzeyi də fəaliyyət göstərir. Həm ekspozisiya, həm xatirə muzeyindəki material buraya gələn yerli və xarici tamaşaçıların böyük rəğbətini qazanmaqla yanaşı, onları Azərbaycan xalqının keçdiyi tarixi yol, zəngin dövlətçilik ənənələri ilə tanış edir, Azərbaycan (Atropatena, Adurbadaqan) adlı dövlətimizin ilk dəfə 2400 il bundan əvvəl təşəkkül tapdığını təsdiqləyir.

Tarix Muzeyinin təşəkkülü və inkişafı, onun iri tədqiqat müəssisəsinə, respublikada muzeyşünaslığın mərkəzinə və mühüm mədəni-maarif ocağına çevrilməsi, ekspozisiya və çoxsaylı sərgilərin yaradılması, material axtarışı və fondların formalaşması, elmi işlərin nəşri və kütləvi informasiya vasitələrində çıxışlar 95 ildən artıqdır ki, öz fəaliyyətini muzeylə bağlayan bir neçə tarixçilər nəslinin fədakar əməyi, bacarıq və istedadının nəticəsidir. Məhz bu alimlər muzeyin kolleksiyasının zəngin materialını müxtəlif illərdə nəşr etdirdikləri onlarla kitab, buklet, kataloq, albom və məqalələr vasitəsilə daha geniş oxucu kütləsinə çatdırmış və təbliğ etmişlər. "Azərbaycan Tarixi Muzeyi" adı ilə 2001-ci ildən başlayaraq hər il nəşr olunan elmi toplu (2007-ci ildən "Milli Azərbaycan Tarixi Muzeyi"

adı ilə) Muzeyin hələ ötən əsrin 50-ci illərindən çıxan və burada aparılan elmi tədqiqat işlərinin nəticələrinə həsr olunan elmi məqalələr toplusunun davamıdır. "Maestro Niyazi", "Azərbaycan generalları", "Elmin qızıl fondu", "Azərbaycan bayraqları", "Antropomorf fiqurlar", "Azərbaycan müdafiə silahları", "Mirzə Fətəli Axundzadə-200", "Xurşidbanu Natəvan-180", "Şirvanın bədii metallı", "Əziz Əliyev", "Bakının teatr həyatı", "Qarabağ xalçaları", "Bakı, Quba, Şirvan xalçaları", "Azərbaycan süfrəsinin mis qabları", "Azərbaycanda kağız pul nişanları və qiymətli kağızlar", "Azərbaycanda arxeoloji qızıl və gümüş əşyaları" kataloqları, "Azərbaycan Tarixi Muzeyi", "Azərbaycanda dövlətçilik və onun rəmzləri", "Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasının inciləri", "Hacı Zeynalabdin Tağıyev" kitab albomları, "Azərbaycan numizmatikası", "Azərbaycanda muzey işinin tarixindən", "H.Z.Tağıyevin qız məktəbinin tarixindən", "Naxçıvan-ərəblərdən monqollaradək", "Onlar Belarus uğrunda döyüşüblər", "Müasirləri H.Z.Tağıyev haqqında" kitabları və neçə-neçə belə əsərlər muzeyşünas alimlərimizin əməyinin məhsuludur.

Bütün fəaliyyəti ərzində dünyanın müxtəlif muzeyləri ilə əməkdaşlıq edən, sərgilərdə, toplantı və forumlarda iştirak edən Azərbaycan Tarixi Muzeyi müstəqillik illərində də bu ənənəni davam etdirmiş, Rusiya, Türkiyə, ABŞ, Almaniya, Çin, Norveç, Vatikan, Çexiya və b. ölkələrlə əlaqələr qurmuş, Rusiyanın Dövlət Tarix Muzeyində video-filmlə (2005), Norveçdə (2007), Almaniyada (2008),Vatikanda (2012), Çexiyanın Ostrava (2012-2013) və Praqa (2014-2015) şəhərlərində, eləcə də respublikanın şəhərlərində (Gəncə və s.) sərgilərlə çıxış etmişdir. Muzeyin elmi əməkdaşları (N.Vəlixanlı, Ə.Rəcəbli, N.Əliyeva, M.Zeynalova, F.Cabbarov, S.Əhmədov, N.Quluzadə, G.Abdulova, H.Əliyeva, A.Rüstəmbəyova, S.Həmzəbəyova, A.Məmmədova, F.Ağayev, P.Gözəlov və b.) Norveçdə, Rusiyada, Türkiyədə, Suriyada, Birləşmiş Ərəb Əmirliklərində, Macarıstanda, İtaliyada, Fransada, İspaniyada, Avstriyada, Belarusda, Ukraynada, Özbəkistanda, Yaponiyada, Çində, Polşada, Almaniyada, Vatikanda, Çexiyada, Hindistanda, Serbiyada, Albaniyada, Makedoniyada, Misirdə və b. ölkələrdə keçirilən konfrans, forum və simpoziumlarda məruzələrlə iştirak etmişlər.

2005-ci ildən "milli" statusunu almış Milli Azərbaycan Tarixi Muzeyi bu gün ölkə prezidentinin qayğısı ilə respublikanın çox mühüm elmi-mədəni ocağına çevrilmişdir. Onun dəfələrlə, hər dəfə köklü dəyişikliklərə məruz qalan ekspozisiyası həm nümayiş olunan zəngin materialına görə, həm də elmi-texniki təchizatına görə dünyanın ən tanınmış muzeylərinin ekspozisiyası səviyyəsindədir.

Muzeyin 90 illiyi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 mart 2010-cu il tarixli sərəncamı ilə dövlət səviyyəsində qeyd edilmiş, ona həsr olunan tədbirlər 1-3 noyabr tarixlərində "Muzeylər və mədəni irs" beynəlxalq konfransı və noyabrın 24-də keçirilən təntənəli mərasimlə başa çatdırılmışdır.

Böyük uğurla keçən konfrans və təntənəli mərasimdə ölkəmizin dövlət, elm, mədəniyyət xadimləri ilə yanaşı Rusiya, Türkiyə, İran, Misir, Gürcüstan, Ukrayna, Qətər, Suriya, Belarus, Özbəkistan, Qazaxıstan, Macarıstan, Norveç və b. yerlərdən gəlmiş numayəndələr iştirak etmiş, konfrans münasibətilə təşkil edilmiş "Milli Azərbaycan Tarixi Muzeyinin inciləri" sərgisinin açılışında olmuşlar. Həmin günlərdə Milli Azərbaycan Tarixi Muzeyinin 22 nəfər əməkdaşı Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adına və "Tərəqqi" medalına layiq görülmüş, 30 nəfər Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri Fərmanı ilə təltif olunmuş, muzeyin direktoru "Şöhrət" ordeninə layiq görülmüşdür.

Bu gün Muzeyin fəaliyyətinin əsas istiqamətlərini tarix elminin son illərdə əldə etdiyi uğurlara və muzeyşünaslığın dünya təcrübəsi ilə təsdiq olunan müasir prinsiplərinə əsaslanaraq ekspozisiyanın qurulması, onun daim zənginləşdirilərək təkmilləşdirilməsi təşkil edir. "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında gostərildiyi kimi milli-mənəvi dəyərlərin qorunmasına, milli tariximizin, mədəniyyətimizin və dilimizin obyektiv və əsaslı konseptual tədqiqinə yönədilmiş araşdırmalar ölkənin sosial-iqtisadi və mədəni-mənəvi inkişafına uyğun prioritet elmi istiqamət olaraq qəbul edilmişdir. Bundan irəli gələrək, Milli Azərbaycan Tarixi Mu-zeyi bu yaxın illərdə öz fəaliyyətini bir sıra əsas konseptual istiqamətlərdə qurmaq niyyətindədir. Hər şeydən əvvəl xalqımızın çoxəsrlik tarixinin müstəqillik və müasir inkişaf dövrünün tələblərinə uyğun tədqiq və təbliğ olunması, nümayişi və mühafizəsi; davamlı inkişaf strategiyası əsasında dövlət muzey siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak; muzey işində yeni prinsiplərin və texnologiyaların tətbiqi; muzeyimizin cəmiyyətin tələblərinə uyğun müasir, ölkənin əsas və baş muzeyi, informasiya və turist mərkəzi kimi yeni imicinin yaradılması; muzeydə yeni ekspozisiyaların və sərgilərin təşkili, stasionar ekspozisiyanın daim təkmilləşdirilməsi, cəmiyyətin tələbatına ünvanlanmış yeni layihələrin həyata keçirilməsi və müasir servis infrastrukturunun yaradılması; əlbəttə ki, muzey fondlarının daim yeni materiallarla təchiz olunması, onların mühafizəsinin və təhlükəsizliyinin təmin olunması məqsədilə müasir infrastrukturanın təşkili; dünya muzeyləri ilə əməkdaşlıq mübadiləsinin aparılması, qarşılıqlı sərgilərin, kütləvi-mədəni tədbirlərin təşkili; Azərbaycan xalqının tarixinin və mədəniyyətinin təbliği məqsədilə xarici dillərdə kitab-albom, kataloq və bukletlərin nəşri, elektron resursların hazırlanması, beynəlxalq muzey layihələrində iştirak; tarixə dair biliklərin kütləvi informasiya vasitələri ilə cəmiyyət arasında populyarlaşdırılması; dövlətin əsaslı investisiyaları hesabına muzey eksponatlarının bərpası və konservasiyası işinin, muzey fondlarının yeni materialla zənginləşdirilməsi məqsədilə satınalma fəaliyyətinin gücləndirilməsi; Azərbaycan tarixinə dair muzey materiallarının tədqiqi, nəşri və s. və i.a.

Tarix Muzeyinin əsas vəzifələrindən biri də tarixi həqiqətin muzeydə qorunan maddi sərvətlər vasitəsilə təqdim və təsdiq olunmasıdır. Tariximizin, mədəniyyətimizin qorunub saxlanması üçün isə mütləq tarixçi, arxeoloq və etnoqraflarımızın, eləcə də yorulmaq bilməyən muzey işçilərimizin böyük zəhmət və məhəbbətlə topladıqları eksponatlar qayğı və mütləq sevgi ilə mühafizə edilməlidir. Son illər müstəqil ölkəmizdə dövlət səviyyəsində həyata keçirilən mədəniyyət siyasəti milli irsimizin qorunması sahəsində uğurlu addımların atılmasına səbəb olmuşdur. Bu siyasətin bariz nümunəsi kimi respublikanın ən mühüm muzeylərinin təmir və bərpasını, onların dünya standartları səviyyəsində təminatını, yeni muzey binalarının tikilməsini, tarix, ədəbiyyat və incəsənət muzeylərinə milli status təqdim edilməsini, tarixi memarlıq abidələrimizin bərpa və konservasiya edilməsi üçün sərəncamlar verilməsini və s. göstərmək olar.

Azərbaycan Prezidentinin xüsusi sərəncamı ilə onun Ehtiyat fondundan, Nazirlər Kabinetinin qərarı ilə dövlət büdcəsindən respublikanın ilk muzeyi olan Milli Azərbaycan Tarixi Muzeyinə eksponatların alınması və restavrasiyası üçün 2008-2009-cu, eləcə də 2011-ci illərdə hər dəfə bir milyon manat vəsait ayrılması tarixi əhəmiyyət daşıyan, heç bir qiymətlə ölçüyə gəlməyən bir çox sənət nümunəsini xalqa qaytardı; bu vəsaitə 6851 yeni eksponat alınmış, 6532 eksponat bərpa və restavrasiya olunaraq ikinci həyatını yaşamağa başlamışdır. Dövlətin, dövlət başçısının böyük əhəmiyyətə malik bu əvəzsiz dəstəyinin dəyərini yüksək qiymətləndirən muzey cəmiyyət qarşısında hesabat məqsədilə 2010-2012-ci illərdə yeni alınmış və bərpa olunmuş həmin eksponatlardan "Muzey eksponatlarının ikinci həyatı" adlı iki, "İrsimizin itirilməmiş inciləri" adlı bir sərgi təşkil etmiş, "Mədəni irsin qorunmasında Muzeylərin fəaliyyəti və problemləri" mövzusunda elmi-praktiki seminar keçirmişdir.

Muzeyin həyatında dəfələrlə, çox vaxt köklü surətdə dəyişikliklərə məruz qalan, hər il təkmilləşdirilən ekspozisiya ilə yanaşı müxtəlif mövzulara həsr olunmuş sərgilər də xüsusi yer tutur. Əgər sovet hakimiyyəti illərində təşkil edilən sərgilər əsasən sosialist cəmiyyətini, onun uğurlarını tərənnüm edirdisə, müstəqillik illərindəki sərgilər Azərbaycan tarixinin ən mühüm məqamlarına həsr olunmuşdur. 1991-ci ildə Tarix Muzeyi, yaranmış yeni şəraitdə, birinci Azərbaycan Respublikasının-Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə həsr olunmuş stasionar sərgi təşkil etdi. Böyük ictimai rezonansa malik bu və bundan sonrakı illərdə nümayiş etdirilən sərgilər minlərlə tamaşaçını muzeyə cəlb etdi.

Üçüncü minillik muzeyin həyatına zəngin silah kolleksiyası sərgisinin açılması ilə qədəm qoydu. Daha sonra Naxçıvan Muxtar Respublikasının 75 illiyinə, Azərbaycanda yaşayan Avropa yəhudilərinə, müstəqilliyimizin bərpasının 10 illik yubileyinə, görkəmli bəstəkar və dirijor Niyazinin 90 illiyinə, dünya azərbaycanlılarının I qurultayına, ulu öndər Heydər Əliyevin xatirəsinə, Xocalı və

20 yanvar soyqırımlarına həsr edilmiş tematik sərgilər tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılandı. 2010-2013-cü illərdə muzeydə hər il 6 sərgi keçirməklə cəmi 24 sərgi təşkil olunmuş, 5 beynəlxalq, 4 respublika səviyyəli elmi konfranslar, eləcə də yeni çap olunmuş kitabların təqdimatları, seminarlar və s. keçirilmişdir. Bunlardan "Arşın mal alan: dövr, insanlar, personajlar" (29 sentyabr – 31 dekabr 2013), "20 yanvar – hüzn və qürur günümüz" (6 yanvar – 14 mart 2014), "Dost ellərin hədiyyələri" (16 may – 1 sentyabr 2014), "Azərbaycan neft salnaməsi" (16 sentyabr 2014 - 15 yanvar 2015), "Azərbaycan ikinci dünya müharibəsi illərində" (5 may - 15 sentyabr 2015) sərgiləri, "Məmmədəli Hüseynov" (23 iyun – 1 sentyabr 2014) fotosərgisi respublika ictimaiyyətinin böyük marağına səbəb olmuşdur.

2013-2014-cü illərdə səyyar sərgilərin təşkili ənənəsi də davam etdirilmiş, Gəncə şəhərindən başqa, Bakıda açılan XII Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisində muzeyin nəşrləri nümayiş olunmuş (2013), Azərbaycanda və regionda ilk dəfə olaraq keçirilən I Azərbaycan Beynəlxalq "Müdafiə sənayesi" ("ADEX 2014") sərgisində muzeyin pavilyonu qurulmuşdur.

2014-cü ilin noyabrın 29-da Çexiya Milli Tarix Muzeyi ilə bağlanılan memoranduma əsasən Praqa şəhərində Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında "Azərbaycan – möcüzəli odlar yurdu" sərgisi açılmış, 2015-ci ilin 15 fevralınadək davam etdirilmişdir. Sərgi çex tamaşaçısını və ölkənin qonaqlarını Azərbaycanın tarixi, dövlətçilik ənənələri, mədəniyyəti, o cümlədən musiqisi ilə əyani olaraq tanış etməklə yanaşı, Çexiyanın "Naprstek" muzeyində qorunan Azərbaycanla bağlı 50 eksponatı da ziyarətçilərə təqdim etmişdir.

Son illər xarici dövlətlərin Azərbaycandakı səfirlikləri ilə əlaqələr daha da intensivləşmiş, Türkiyə Respublikası, Rusiya Federasiyası, Belarus Respublikası, Niderland krallığı səfirlikləri, eləcə də Türkiyə Kültür Mərkəzi, Rusiya Mədəniyyət Mərkəzi ilə birgə tədbirlər keçirilmişdir. Bakının erməni-bolşevik qüvvələrindən azad edilməsinin 95 illiyinə həsr olunmuş "Qafqaz İslam Ordusu və Bakının azad edilməsi - 95" sərgisi Türkiyə səfirliyi və Türkiyə Kültür mərkəzi ilə birlikdə qurulmuşdur (açılışı 16.09.2013); Belarus uğrunda vuruşmuş azərbaycanlılara həsr olunmuş "Они сражались за Беларусь" ("Onlar Belarus uğrunda vuruşmuşlar") kitabının təqdimatı Belarus səfirliyi və Azərbaycan-Belarus dostluq cəmiyyəti ilə birlikdə keçirilmişdir (27.06.2013); Muzey tərəfindən həmin kitabın və fotosərginin Minsk şəhərindəki Belarus Milli Tarix muzeyində təqdimatı da olmuşdur (iyun 2014).

Muzeyin əməkdaşları regionlarda muzey işinin inkişafına kömək məqsədilə Gəncə şəhərindəki qala kompleksində "Gəncənin hərb tarixi" muzeyinin və Xaçmaz şəhərində "Əziz Əliyevin xatirə muzeyi"nin ekspozisiyasının yaradılmasında (2014) fəal iştirak etmişlər.

Muzeyin əlaqələrinin genişləndirilməsi istiqamətində ardıcıl iş davam etdirilmiş,

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Xəzər Universiteti, Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Uşaq və Gənclərin Sülh şəbəkəsi, uşaq yaradıcılıq mərkəzləri, orta məktəblər, turizm şirkətləri ilə əlaqə qurulmuş, onların muzeylə əməkdaşlığı təmin edilmişdir. 2013-cü ilin birinci yarısında 20-dən artıq orta təhsil müəssisəsinin iştirakı ilə "Tarix muzeyi uşaqların gözü" ilə adlı rəsm müsabiqəsi keçirilmişdir. Azərbaycan Tarixçiləri İctimai Birliyi ilə əldə olunmuş razılığa əsasən Muzeydə UNİCER məktəbi şagirdləri ilə mütəmadi olaraq məktəbdənkənar tarix dərsləri aparılır, ali məktəblərin tarix fakültəsinin tələbələri ilə görüşlər keçirilir, "Muzey balacaların gözü ilə" proqramı çərçivəsində bir sıra uşaq bağçalarının tərbiyəçi və uşaqlarının muzeyə ekskursiyaları təşkil edilir.

Muzeydə 2013-cü ildə yaradılmış "Hacı Zeynalabdin Tağıyev klubu" görkəmli Azərbaycan sahibkarı və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinə həsr olunmuş məşğələləri mütəmadi olaraq davam etdirir.

Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Bakı Baş Təhsil İdarəsi ilə muzeyin birgə hazırladığı "Elm-təhsil-muzey vəhdətinə məntiqi yanaşma" layihəsi əsasında Bakı məktəbliləri ilə 2014-cü ilin noyabr ayından başlanan və bu gün də davam etdirilən mütəmadi görüşlər gənc nəslin maarifləndirilməsi məqsədi ilə uğurla həyata keçirilir.

Muzeyin 2010-cu ildən fəaliyyət göstərən rəsmi internet səhifəsi "Milli İnternet Mükafatı – NETTY 2013" müsabiqəsində iştirakçı kimi qeydiyyatdan keçirilmiş, respublikanın 50 ən yaxşı saytı sırasına daxil olaraq, sertifikat ilə təltif edilmişdir. Bununla yanaşı, Muzeyin "Twitter" və "Facebook" sosial şəbəkələrində yaradılan səhifəsində, mütəmadi olaraq məlumatların yeniləşməsi işi aparılır.

Sözsüz ki, bütün bu sadalanan işlər muzey əməkdaşlarının gərgin, axtarışlarla dolu fəaliyyəti nəticəsində ərsəyə gəlmişdir. Bu gün də Milli Azərbaycan Tarixi Muzeyi 95 il ərzində olduğu kimi, ölkəmizdə həm tarixi tədqiqatların aparıldığı, həm də xalqımızın maddi sərvətlərinin qorunduğu mühüm elm və mədəniyyət müəssisəsi kimi fəaliyyətini uğurla davam etdirməkdədir.

Nərgiz Əliyeva

Azərbaycan Tarixi Muzeyində qədim və orta əsrlər tarixinin tədqiqi və təbliğinə dair

(1960-1970-ci illər)

Açar sözlər: *Muzey, elmi əməkdaşlar, Azərbaycan tarixi, arxeologiya, etnoqrafiya, numizmatika*

Hər bir xalqın mədəniyyət göstəricisi onun mədəni irsinin zənginliyi ilə ölçülür. Azərbaycan xalqı da onların arasında istisna deyil. Xalqımızın mədəni irsinin toplandığı muzeylər və o cümlədən Milli Azırbaycan Tarixi Muzeyi zəngin irsin toplandığı məkanlardandır. Burada təşkil olunan ekspozisiya ən qədim dövrlərdən başlayaraq son günlərə qədər Azərbaycan tarixini əks etdirir. Azərbaycan Tarixi Muzeyi 1920-ci ildə - Azərbaycanda Sovet hakimiyyətinin ilk ilində yaranmasına baxmayaraq onun ilk ardıcıl ekspozisiyası 1955-ci ildə 28 zalda təşkil edilmişdir. Bu vaxtdan etibarən muzey ekspozisiyasının elmi cəhətdən zənginləşdirilməsi işi davam etmişdir. Ekspozisiyanın zənginləşdirilməsi üçün materialların toplanması, tədqiq edilərək araşdırılması işinin yükü Muzeyin elm ocağına cəm olunmuş görkəmli alimlərinin çiyninə düşür. Məqalədə Azərbaycanın qədim və orta əsrlər dövrünün tədqiqatı ilə məşğul olan alimlərin elmi fəaliyyətindən bəhs olunacaq. Onların arasında 1960-70-ci illərdə yaradıcılığında Azərbaycanın qədim və orta əsrlər tarixi tutan Y.Paxomov, Ə.Rəcəbli, Ş.Sadıxzadə, Ə.Hüseynov, R.Məmmədov, G.Əbilova, Z.Yampolski, S.Aşurbəyli, N.Qolubkina, M.Hüseynov, V.Kvaçidze, V.Fomenko, V.İslamova, H.Quliyev, M.Quliyev, M.Atakişiyeva, Q.Qaraqaşlı və b. qeyd etmək lazımdır. Onlardan bəziləri Arxeologiya fondundakı materiallara müraciət etmiş, bir çoxları isə arxeoloji, etnoqrafik və numizmatik ekspedisiyalarda iştirak etmişlər.

1959-cu ilin ikinci yarısından başlayaraq, 1960 və 70-ci illərdə, xüsusilə, aşkar edilmiş obyektlərin dövrünü nisbi də olsa təyin etmək məqsədi ilə Azərbaycan Tarixi Muzeyi Azərbaycanın şimal rayonlarında (Xızı, Xaçmaz və Xudat), Ağcabədi, 1970-ci illərdə isə şimal bölgələri olan Quba, Qonaqkənd, Dəvəçi və Qusar rayonları ilə birlikdə Naxçıvan, Qəbələ və Abşerona kəşfiyyat xarakterli arxeoloji, numizmatik və etnoqrafik ekspedisuyalar, və nəhayət, Xəzər dənizi suları altında qalmış maddi-madəniyyət nümunələrini aşkar etmək üçün ekspedisiyalar təşkil edilmişdi.



G.Əbilova, S.Qazıyev və Y.Paxomov

1959-cu ildə Ağcabədi rayonundakı yeni su kanalı tikintisi ilə əlaqədar rayonun Hindarx kəndi ətrafında müxtəlif arxeoloji materiallar (on ədəd gil qab, qayıqvari dən daşı, ipəyirən, kiçik qab formasında oyuncaq, şüşə muncuqlar, tuncdan qolbaq hissəsi, təkər formasında yumru daş kütləsi və s. tapılmışdı. Azərbaycan Tarixi Muzeyinin əməkdaşları bu abidənin xarakterini və dövrünü müəyyənləşdirmək məqsədi ilə həmin yerə ezam edildilər. Tədqiqatın nəticələri G.Əbilova və Ş.Sadıqzadənin həmmüəllif olduğu "Müxtəlif təbəqəli yeni arxeoloji sahə" adlı məqalədə çap olundu (45).

Materialların ilk dəfə öyrənilməsi nəticəsində müəyyən edidi ki, bunlar müxtəlif dövrlərə aid olub həmin sahənin bir neçə mədəni təbəqəyə malik olduğunu söyləməyə imkan verir. Müəlliflər belə nəticəyə gəldilər ki, Ağcabədidən tapılan qablar öz hazırlanma texnikalarına görə tunc dövründən başlayaraq, ilk orta əsrlərə qədər olan uzun bir dövrü əhatə edir. Müqayisələr aparan müəlliflərə görə onlar daha çox Mingəçevirin küp qəbirləri və Xocalı-Gədəbəy, həmçinin Qurtqaşen rayonu (hazırda Qəbələ-N.Ə.) Türyançay boğazında aşkar edilmiş arxeoloji materiallarla oxşardır. Ağcabədi tapıntılarının öyrənilməsi belə söyləməyə əsas vermişdir ki, Yaloylutəpə mədəniyyəti yalnız Azərbaycanın şimal rayonlarında deyil, eyni zamanda Kür çayının sağ sahili rayonlarında da yayılmışdı.

1970-ci illərin əvvəllərində Arxeoloji materialları tədqiq edən Muzeyin əməkdaşı T.Qolubkina Azərbaycanda tapılmış küp qəbirlərini tədqiq edərək onların antik formada olub yüksək ixtisaslı Alban dulusçuları tərəfindən hazırlandığı qənaətinə gəlmişdir. Müəllifə görə onlar böyük istedad və fantaziya ilə öz sənət nümunələrinə yerli özünəxas mədəniyyət elementləri gətirmişlər (52, c. 13-16).

Azərbaycanın şimal rayonlarına (Xızı, Xaçmaz və Xudat) olan arxeoloji ekpedisiyalarda Azərbaycan Tarix Muzeyinin əməkdaşı Şərqiyyə Sadıxzadə, Muzeyin rəssamı Əlisəttar Molla Pənah oğlu və elmi işçi Qardaşxan Aslanov iştirak etmişdilər. Səfər vaxtı Xızınn Fındığan kənd xarabalığı daşları arasında üzərində üz-üzə durmuş iki tovuz quşu həkk edilmiş daş abidə elmi işçilərdə maraq oyatmışdı. Onların hazırladığı hesabatda göstərilirdi ki, Azərbaycan ərazisində boğazında lent olan üz-üzə dayanmış qoşa tovuz quşlarının təsvirinə ikinci dəfədir ki, təsadüf edilir. Birinci dəfə



Ş.Sadıxzadə




Rəssam Əlisəttar

1949-cu ildə Mingəçevir arxeoloji qazıntılarında R.Vahidov Alban məbədində buna təsadüf etmişdi. Q.Çubinaşviliyə əsaslanan Ş.Sadıqzadə qeyd edirdi ki, bu forma- lentli tovuz quşlarının təsvirləri Zaqafqaziyanın başqa yerlərində də tapılmışdır (17, s. 118-119). Əsasən xristianlığa aid belə təsvirin qarıqlarına Azərbaycanın başqa yerlərində təsadüf edilməsi müəlliflərdə maraq oyatmışdı. Q.Çubinaşvili qeyd edirdi ki, Zaqafqaziyada xristianlıq abidələrinin bu nişanələri XVIII əsrə qədər davam etmişdi (43). Eyni zamanda, Ekspedisiyanın nəticələrinə görə, arxeoloqlar belə belə hesab etmişlər ki, VII-VIII əsrlərdə hazırkı Findığan ərazisində orta əsr şəhəri mövcud olmuşdur.

Elmi işçilər Xudat meşəsində üzərində yazı olan çoxlu qəbir daşlarını da tədqiq etmişlər. Həmin yazılara görə, Xaçmaz və Xudat rayonlarında aşkar edilmiş qəbir abidələrini onlar tunc dövrünə aid etmişlər.

Arxoloji qazıntılar nəticəsində Azərbaycan ərazisində əldə edilmiş və Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda mühafizə edilən qədim nəqliyyat vasitələrinin öyrənilməsinə ilk təşəbbüs də Ş.Sadixzadəyə müyəssər olmuşdur. Arxeoloq arxeoloji qazıntılar nəticəsində son illər ərzində Azərbaycan Tarixi Muzeyinin arxeoloji fonduna daxil olmuş Azərbaycanda qədim nəqliyyat vasitələrinə aid bir neçə materialı tədqiqat süzgəcindən keçirmişdir. Ş.Sadıxzadə boyunlarında keçmə dəlik olan öküz heykəlləri haqqında məlumat verərək onların birinci dəfə Kültəpə qazıntıları zamanı aşkar olduğunu qeyd edirdi. Müəllif paralellər apararaq belə nəticəyə gəlir ki, bu deşik onlardan qoşqu heyvanı kimi istifadə edildiyini göstərir (18, s. 22). Müəllif bütöv təkərli araba modeli haqqında da məlumat verərək göstərir ki, bu model (14) 1947-ci ildə Mingəçevirdə Kür çayının sol sahilində, geniş qəbristanlıqda tam bükülü vəziyyətdə basdırılmış skeletin



Q. Aslanov (sağdan 2-ci), V. Fomenko (3-cü), R. Vahidov (4-cü)

yanında tapılmışdır. Müəllif sonda göstərir ki, bu araba modelləri Azərbaycanda yalnız nəqliyyat vasitələrini deyil, eyni zamanda yarımköçəri həyat formasının (yaylaq-qışlaq) meydana gəlməsini öyrənmək üçün qiymətli tarixi materiallardır.

1961-ci ilin aprel ayında Yardımlı rayonunun Dəlləkli kəndində təsərrüfat işləri ilə əlaqədar yer qazılarkən arxeoloji materialların tapılması ilə əlaqədar həmin əraziyə Muzeyin kiçik elmi işçisi Q.Aslanov ezam olundu. Daha sonra, 1963-cü ildə abidənin tədqiqi ilə məşğul olan Ş.Sadıxzadənin "Yardımlı rayonundan tapılmış arxeoloji materiallar" adlı məqaləsi muzeyin toplusunda çap olundu. Məqalədə göstərilirdi ki, indiyə qədər Yardımlı rayonunda arxeoloji qazıntılar aparılmamışdır. Ona görə də haqqında bəhs edilən kup qəbri həmin rayonda əldə edilən ilk tapıntı kimi qiymətləndirilməlidir. Göstərilir ki, bu küp, materiallarına görə, bu günə kimi tapılan küplər arasında müstəsnalıq təşkil edir. Belə ki, adi küp qəbirləri içində adətən bir ölü və nadir hallarda iki ölü skeletinə təsadüf edldiyi halda, bu küpün içində üç insan skeleti yerləşdirilmişdir. Mingəçevir və Azərbaycanın digər yerlərindən tapılmış küp qəbirləri materialları ilə müqayisələr aparan müəllif bu əşyaların e.ə. I və e. I-II əsrlərinə aid edir (44, s. 5-9).

Xəzər dənizi suları altında qalmış Səbail şəhərinə aid Azərbaycan orta əsrlər dövrü tarixi üzrə yaddaqalan elmi məqalələr yazmış Əhməd Hüseynovun maraq dairəsinə muzey eksponatlarının öyrənilməsi (4, s. 324-328; 5, s. 142-151) ilə bərabər epiqrafik abidələrin tədqiqi də daxil olmuşdur (21, s. 44-55; 6, s. 68-73). O, hələ 1956-cı ildə Xaldan və Samux rayonlarının su altında qalan epiqrafik abidələrini tədqiq edərək, onların XIX-XX əsrin əvvəllərinə aid nəsx və nəstəliq xəttilə Azərbaycan dilində yazılmış abidələr olduğunu, onlardan birinin üzərində isə hətta Azərbaycan şairi Vidadinin bir beytinin məharətlə işləndiyini təyin etmişdir.

Hələ 1950-ci llərin sonunda Ə.Hüseynov qeyd edirdi ki, "Azərbaycan və onun paytaxtı Bakı tarixi əhəmiyyətə malik abidələrlə zəngindir. Bu abidələr Azərbaycan tarixinin bəzi qaranlıq səhifələrini aydınlaşdırmaq işində çox mühüm rol oynayır. Keçmişdən bizə miras qalmış Abşeron abidələri içərisində "Səbail", yaxud "Bayıl daşları" son dərəcə qiymətli və maraqlı tarixi sənəddir"(7). Tədqiqatçı orta əsr səyyahları, coğrafiyaşünas və tarixçilərinin qeydlərinə əsasən yazırdi ki, XIV əsrdə Xəzər dənizinin səviyyəsinin müntəzm olaraq dəyişməsi nəticəsində bir sıra adalar, o cümlədən "Səbail" abidəsi suya qərq olmuşdur. Məşhur orta əsr tarixçisi Əbdürrəşid Bakuvinin "Xəzər dənizinin ləpələri o zaman İçəri şəhərdə yerləşən Cümə məscidinə (XIV əsr) qədər gəlib çatırmış" məlumatı ilə yanaşı, müəllif



Elmi işlər üzrə direktor müavini Ə. Hüseynov



Sağdan: Ş.Sadıxzadə, Ə.Hüseynov, R.Məmmədov və T.Qolubkina

xalq arasında deyilən rəvayəti də oxucuya təqdim edir. Rəvayətə görə, Bakı şəhərinin ilk hakimlərindən biri dəniz tərəfdən xarici hücum və basqınların qarşısını almaq məqsədilə şəhərdən gün çıxana doğru həmin qalanı tikdirmişdir. Burada olan gözətçi məntəqəsindən məşəl yandırılmaqla düşmənin hücumu və ya hər hansı bir şübhəli hadisə barəsində qabaqcadan şəhərə xəbər verilirdi. Ə.Hüseynov XVII-XIX əsrlərdə yaşamış və bu qəribə tikinti barədə fikirlərini söyləmiş A.Bakıxanov, B.Dorn, İ.Berezin, İ.Şopen, S.Bronevski kimi görkəmli alimlərin adlarını çəkir. Müəllif daha sonra yazır ki, abidə yalnız 1938-1940 –cı illərdə Az.SSR EA Tarix İnstitutu tərəfindən arxeoloji tədqiqat aparılaraq dərindən öyrənilmişdir. Abidə haqqında geniş məlumat verən Ə.Hüseynov sonda yazır ki, abidənin nə məqsədlə tikilməsi indiyə qədər müəyyən olunmamışdır. Bakı limanında tədqiqat işləri aparan İ.M. Cəfərzadənin fikrincə, bu abidə atəşpərəstlərə məxsus dini ayin tikintisidir. Keçmişin dəyərli yadigarı olan üzəri yazılı və təsvirli daş lövhələri Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında və Bakı Şirvanşahlar sarayında nümayiş etdirilir.

1960-ci illərin əvvəllərində Ə.Hüseynov daha bir yeni epiqrafik abidəni Azərbaycan tarixşünaslığına töhfə edir. 1954-cü ildə Bakı qala divarları təmir olunarkən Qoşa qala qapıları adlanan yerdə qala bürclərinin birindən yazılı daş aşkar edildi. Bakı şəhərinin qədim tarixi üçün son dərəcə qiymətli sənəd olan bu kitabə mütəxəssislər arasında mövcud olan bir sıra qarışıq və mübahisəli fikirləri müəyyən dərəcədə həll etmiş oldu. Üç sətirlik kitabədə şəhər qalasının "... Böyük şirvanşah Əbül Heca Mənuçehr tərəfindən tikildiyi" yazılmışdı (6, s. 68-73). Müəllif tədqiqatı zamanı müəyyən etmişdi ki, Bakının kitabədə göstərilən qala divarı Əül Heca ləqəbli Şirvanşah II Mənuçehrin (1120-1149) əmri ilə bina edilmişdir. Bu dövrdə Xəzər dənizində əsas və əhəmiyyətli liman hesab olunan Bakı şəhəri hər hansı xarici hücumlardan mühafizə olunmaq üçün qala divarları ilə möhkəmləndirilmişdi. Müəllif məxəzlərə əsasən yazır ki, XII əsrdə şirvanşahlar Xəzər dənizində hətta möhkəm donanma yaratmışlar. Müəllif göstərir ki, kitabəli daşın iri həcmi və burada verilmiş əzəmətli cümlələr tarixi sənəd kimi bu fikri təsdiq edir. Bakıda iri donanmanın olması fikrini muzeyin dissertantı olmuş tarix üzrə fəlsəfə doktoru Samir Məmmədov "IX əsrin sonu- XIII əsrin əvvəllərində Şirvanşahlar dövlətinin hərbi gəmiləri haqqında"kı məqaləsində (35, s. 39-44) yeni faktlar əldə edərək bir daha təsdiqlədi.

Məlumdur ki, xalqlar arasında əlaqələrin öyrənilməsi gələcək üçün böyük



M.Hüseynov və G.Əbilova

əhəmiyyət kəsb edir. Əhməd Hüseynovun 1963-cü ildə işıq üzü görmüş monoqrafiyası bu mövzuya- son orta əsrlər Azərbaycan-rus əlaqələrinə aiddir. Müəllif haqlı olaraq göstərirdi ki, "Azərbaycan-Rusiya əlaqələrinin tarixi həm də Azərbaycanın özünün tarixidir" (22, s. 4). XVIII əsrə qədər Azərbaycan-rus qarşılıqlı əlaqələrini çoxsaylı mənbə və ədəbiyyat əsasında təhlil edən müəllif belə nəticəyə gəlmişdir ki, bu əlaqələrin demək olar ki, min illik bir tarixi vardır. Müəllif göstərir ki, Azərbaycan və rus xalqının dostluğu bir çox əsrlər ərzində ərsəyə gəlmiş, inkişaf etmiş və möhkəmlənmişdir. Şirvan Yaxın Şərqdə və Qafqazda birinci dəfə olaraq Rus dövləti ilə diplomatik əlaqələr yaratmışdır. Azərbaycan tacirlərinin Rusiya ilə ticarəti Azərbaycanın Rusiya ilə əlaqələrinin faktiki başlanğıcını tutur. Bu ticarətdə əsas rol ipək xammalına məxsus idi. XV-XVII əsrlərdə Rusiya hökuməti və Azərbaycan arasında qarşılıqlı əlaqələrin yaranması və inkişafında da əsas rol bu və ya digər tərəf arasında həm də diplomat rolunu oynayan tacirlərə məxsus idi. Lakin, təəssüf ki, bu əlaqələr heç də həmişə rəvan getməmiş, bəzən enişli-yoxuşlu olmuşdur. IX-XIII əsrin əvvəllərində Şirvanşahlar dövlətinin Xəzər dənizində əsas rəqibi ruslar idi. Onlar Bərdəyə qarət məqsədi ilə bir neçə dəfə hücum etmişlər. Şirvan hərbi-dəniz donanması tərəfindən 1174-1175-ci il tarixində keçirilmiş strateji əməliyyat nəticəsində onlar tamamilə məğlub edilmişlər.

Muzeydə nümayiş etdirilən orta əsr maddi-mədəniyyət nümünələrinin öyrənilməsində də Ə.Hüseynovun böyük rolu olmuşdur. O, hazırda ekspozisiyada nümayiş edilən Azərbaycanın orta əsr idmana aid materiallara həsr olunmuş çox əhatəli və geniş bir məqalə həsr etmişdir (24, c. 23-37). R.Məmmədovla birgə yazılan bu məqalədə müəlliflər qədim yunan, latın, hind, ərəb, fars, türk məxəzləri, Qərbi Avropa və rus səyyahlarının qeydlərindəki məlumatları üzə çıxararaq yazırlar ki, Azərbaycanda idman tarixinə dair dəyərli məlumat vardır. Xüsusilə, Azərbaycan klassikləri Nizami, Xaqani, Qətran Təbrizi, Füzuli, Xətai və digərlərinin əsərlərində çovqan, nərd və şaxmat oyunlarına, oxatma, atçapma, güləşmə və sairəyə dair zəngin materiallara təsadüf edilir. Müəlliflər orta əsr mənbələrinin verdiyi məlumatlarla yanaşı müzeydə saxlanılan ilk orta əsrlərə dair zərə oxşayan oyun daşları, maddi-mədəniyyət abidələri üzərində saxlanılmış təsvirləri tədqiq edərək belə nəticəyə gəlirlər ki, hələ qədim dövrlərdən Azərbaycanda müxtəlif oyunlar mövcud idi. Məxəzlər üzərində aparılan araşdırma nəticəsində müəlliflər göstərirlər ki, orta əsr Azərbaycan şəhərlərində- Bakı, Təbriz, Şamaxı, Gəncə, Ərdəbil, Bərdə, Şəki, Naxçıvanda xüsusi idman yerləri- zorxanalar var idi. Tədqiqatda Azərbaycan Tarix

Muzeyində saxlanılan şərq idman alətləri və canbaz geyimləri də xüsusi əhəmiyyət kəsb etdiyi göstərilmişdir. Sonda müəlliflər belə nəticəyə gəlir ki, Azərbaycan xalqının zəngin idman ənənələrinin tarixi öz kökü etibarı ilə çox qədimlərə gedib çıxır. Azərbaycan xalqının milli idman tarixini maddi mədəniyyət abidələri, qədim və orta əsr məxəzləri əsasında öyrənmək faydalı və əhəmiyyətli məsələlərdən biridir. Bu sahədə tədqiqatı gələcəkdə də davam etdirmək lazımdır. Müəlliflərin sözünə qüvvət bu mövzu Muzey əməkdaşları tərəfindən yeni əldə olunmuş sənədlərə əsasən hazırda da davam etdirilir (20, s. 49-66).

Muzeydə fəaliyyət göstərmiş Azəbaycan arxeoloqlarından Məmmədəli Hüseynov 1960-cı ildə çap etdiyi məqalədə Muzeyin Arxeologiya fondunda qorunan daş alətlər haqqında ətraflı məlumat verir (23, s. 14-22). Bunlar İ.Cəfərzadə tərəfindən Dəstəfur rayonunda və Y.Qummel tərəfindən Xanlar rayonunda tapılan daş alətlər haqqındadır. Onları tədqiqat süzgəcindən keçirərək müqayisəli təhlil edən müəllif güman edir ki, bunlar daş dövrünə aiddir. Həmin rayonlarda yaşayış olmasını göstərən müəllif əlavə olaraq qeyd edir ki, buna baxmayaraq, hələlik daş dövrü insanlarının düşərgələri aşkar edilməmişdir.


Muzeyin Arxeologiya fondunun əməkdaşı V.Fomenko isə orta əsr Mingəçevir materiallarına müraciət edir (34, s. 23-27). Müəllif göstərir ki, şüşə qolbaqlar V-VII əsrlərə aid katakopmba qəbirlərindən tapılmasımna baxmayaraq, şüşə məmulatı müxtəlif dövrlərə aid qəbirlərdən, hətta, e.ə. IX-VIII əsrlərə aid abiədlərdən də əldə edilmişdir. Lakin, hələlik, müəllifin qənaətinə görə, şüşə istehsal edən ocaqlar və yerlər müəyyən edilmədiyindən, bu məsələnin ciddi işlənməyə və tədqiqə ehtiyacı vardır (16, s. 38-40).

Muzeyin zənginləşməsində Azərbaycan ərazisindən tapılmış sikkə nümunələrinin böyük rolu olmuşdur. Hələ 1952-ci ildə Ağdam rayonu Xındırıstan kəndində İsmayılbəy tərəfindən tapılmış dəfinəni öyrənən Numizmatika fondunun əməkdaşı A.Rəhimov daha sonra Gədəbəy dəfinəsini tədqiq edərkən müəyyən etmişdir ki, dəfinəyə daxil olan sikkələrin hamısı Səfəvi sülaləsinin hakimiyyəti dövrünə aiddir. O, 1961-ci ildə arxeoloji qazıntılar zamanı Beyləqandan tapılmış möhür üzüyünü tədqiq edərək onu XII-XIII əsrlərə aid edir və bu nadir tapıntının vəqf sənədlərinin və başqa müqavilələrin təsdiqi üçün istifadə edildiyi ehtimalını irəli sürmüşdü.



A.Rəhimov

Böyük numizmat alim Yevgeni Paxomov 1960-ci illərdə elmi fəaliyyətini davam etdirmişdir. Professor Y.A. Paxomov özünün "Монетные клады Азербайджана, других республик, краев и областей" adlı silsilə



Y.Paxomov

əsərlərinin 1966-cı ildə nəşr olunmuş IX buraxılışında 1950-1960-cı illərdə Azərbaycan ərazisində tapılan numizmatik tapıntıların dəqiq və yiğcam təsvirini vermiş, 1961, 1963-cü illərdə çapdan çıxmış "Монеты Азербайджана" adlı monoqrafiya (Azərbaycan sikkələrin Korpusunun I və II buraxılışlarında) e.ə. III və eramızın IX yüzilinədək Azərbaycanda zərb olunmuş sikkələrin geniş elmi təsvirini vermişdir. O, elmi məqalələrində arxeoloji materiallara və təsadüfi tapılan sikkələr üzərində apardığı tədqiqatlara əsasən aydınlaşdırır ki, hələ e.ə. IV əsrdən Azərbaycan ərazisinə başqa ölkələrdən pul sikkələri gətirilirdi. Müəllif qeyd edir ki, ticarətdə pul dövriyyəsi ilə əlaqədar olaraq I əsrdən etibarən bi proses daha da artır. 1958-ci ildə Şamaxının Xınıslı kəndində tapılmış dəfinədə eyni zamanda Makedoniyalı İsgəndərin və ya selevkilərin dirhəmlərinə təqlidən kəsilən, yazısı olmayan yüzlərlə sikkə tapılmışdır. Müəllif təqlidən yaradılan belə sikkələri Albaniyada yerli pul zərbinin ilk nümunəsi hesab etmişdir (36, s. 74-76).

1960-ci ildə Y.Paxomovun tələbəsi, hələ o vaxtlar gənc Əli Rəcəbli numizmatika elmi sahəsində uğurlar əldə etməyə başlayır. O, Sovet numizmatikasında 60-cı illərə qədər öyrənilməmiş Səfəvilər dövlətində məskukət işinin təşkili məsələsini araşdırmağa başlayır (37, s. 46-62). "Təzkirət əl-Mülük", "Ayini Əkbəri", gürcü mənbəyi "Düstürlamali" kitablarından, XVI-XVIII əsrlərdə İranda və Azərbaycanda olmuş Avropa səyyahları və missionerlərinin xatirələrindən alınan məlumatları qarşılıqlı surətdə öyrənən müəllif Səfəvilər zərbxanaları haqqında yeni maraqlı məlumatlar vermişdir.

Səfəvilər dövlətində I Şah İsmayıl və I Şah Abbasın sikkə-pul islahatları, yeni əsas pul vahidləri şahi və abbasilərin təsviri, mis sikkələr zərbi məsələləri ümumi pul dövriyyəsinin 1960-ci illərə qədər çox az öyrənilmiş sahələrindən birini təşkil edirdi. Numizmat alim Əli Rəcəbli buna görə öz tədqiqatını bu məcraya yönəldti. Onun Səfəvilər dövlətində məskukət işi haqqında yeni məqaqləsi 1962-ci ildə çap olundu. Bu dəfə müəllif Səfəvilər dövlətində məskukət işi mövzusuna müraciət etmişdi. Səfəvi şahı II İsmayıl hakimiyyət başına gəldikdən sonra dövlətin daxili siyasəti sahəsində həyata keçirdiyi ilk və mühüm tədbirlər içərisində islam dininin iki əsas təriqəti-şiəliklə sünnülük arasındakı nifaqı ləğv etmək məqsədi ilə bir sıra fərman vermişdi. Yazılı mənbələrə müraciət edən müəllif göstərir ki, bu dini islahat məskukət işinə də təsir göstərmiş, II İsmayının adı ilə vurulan sikkələrin üzərindəki yazılardan bir təbliğat vasitəsi kimi istifadə olunmuşdu. Bu sikkələrin tədqiqi II İsmayılın hökmranlığı zamanı zərbxanaların ixtisara salındığını təsdiq

edir. Prof. Ə.Rəcəbli göstərir ki, həmin vaxt zərbxanaların sayı 13-dən çox deyildi və həmin zərbxanaların əksəriyyəti Azərbaycan şəhərlərində yerləşdirilmişdi (38, s. 85). Alim 1963-cü ildə çap etdirdiyi digər elmi məqalədə bu məsələləri tədqiqat çevrəsinə daxil edərək, Səfəvilər dövlətində mis sikkə buraxılışının muxtar xüsusiyyəti daşıdığını, yəni ayrı-ayrı vilayətlərin mərkəzi şəhərlərində vurulan mis sikkələrin yalnız öz vilayətlərinin iqtisadi və ticarət ehtiyaclarını ödəmək məqsədini daşıdığını, beləliklə də, zərb olunduğu yerdən başqa, digər şəhər və vilayətlərdə tədavüldə iştirak etmədiyini sübut edir. Bu da, öz növbəsində, müəllifin qeyd etdiyi kimi, yerli hakimlərin bundan sui-istifadə etməsinə səbəb olur, ölkədə daxili, şəhərlərarası ticarətin inkişafına maneçilik törədir, digər tərəfdən də əhalinin maddi vəziyyətinə mənfi təsir göstərirdi (39, s. 53-68).



Sağdan: Ə.Rəcəbli, S.Məmmədova, Z.Ələsgərova, R.Əliyev

1960-1970-ci illərdə Azərbaycan numizmatikası elmi məsələlərin həllində yeni fazaya qədəm qoydu. Yeni numizmatik materialların tapılması, muzeydə numizmatık materialların toplandığı baza əsasında sikkə zərbi və orta əsr Azərbaycanın pul dövriyyəsinin ayrı-ayrı məsələlərini tədqiq edən bir sıra əsərlərin meydana gəlməsi həll edilməsi vacib olan məsələlər dairəsini daha da genişləndirmək imkanı verirdi. Onillikdə tapılmış sikkə dəfinələri nəinki sikkə zərbi tarixi və pul tədavülü məsələlərini öyrənməyə yardım edir, eyni zamanda Azərbaycan tarixinin ictimai-iqtisadi həyatının ayrı-ayrı sahələrini, eləcə də müxtəlif tarixi dövrlərdə onun xarici aləmlə mədəni, siyasi və digər əlaqələrinin öyrənilməsinə kömək edirdi. Xınıslı dəfinəsindən sonra 1960-cı illərdə tapılmış Gədəbəy (1967-ci il), Çuxur-Qəbələ (1963-cü il) və Əli Bayramlı (1961-ci il) pul dəfinələri, müəllifin qeyd etdiyi kimi, qədim Azərbaycanın yerli pul dövriyyəsi və ticarət-pul tədavülünün inkişaf dərəcəsi haqqında alimlərin fikrini əhəmiyyətli dərəcədə dəyişdirdi. Daim axtarışda olan Əli Rəcəbli yeni tapılmış sikkə dəfinələrinin (Gədəbəy, Çuxur-Qəbələ, Cəlilabad, Qazax və Zaqatala dəfinələri) Azərbaycan tarixinin öyrənilməsi üçün rolunu aşkara çıxara bildi



Ə.Rəcəbli



V.Kvaçidze

(40, s. 204-212). Müəllif yeni dəfinələrin tapılma dövrünü mərhələlərə bölməklə elmi təsnifatını vermiş, Azərbaycanın qədim və orta əsrlər dövrü tarixinin öyrənilməsi üçün qiymətli mənbə kimi əhəmiyyətini göstərmişdir.

1960-cı illərin sonlarından başlayaraq Azərbaycanın sualtı arxeologiyasının öyrənilməyə başlanması qədim və orta əsrlər dövrünün öyrənilməsinə də yeni bir səhifə açdı. Xəzər dənizində aşkar edilən maddi-mədəniyyət abidələri- Bakı buxtasındakı Bayıl qəsri, dənizin dərinliklərinə qədər uzanan Dərbənd səddi və s. dənizdə aparılan sualtı-arxeoloji tədqiqatların böyük elmi perspektivə malik olduğunu göstərirdi. SSRİ Nazirlər Soveti yanında Elm və Texnika Dövlət Komitəsi, Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan SSR Elmlər Akademiyasının 1968-ci il fərmanı ilə Xəzər dənizi sahillərində tarixi-arxeoloji abidələrin öyrənilməsi Azərbaycan Tarixi Muzeyinə tapşırıldı. Xəzər dənizinin sualtı arxeoloji ekspedisiyaların təşəbbüskarı kimi Azərbaycan Tarixi Muzeyi 1971-ci ilin may ayında SSRİ Elmlər Akademiyası Sualtı tədqiqatlar üzrə Okeonoqrafiya Komissiyasının üzvlüyünə qəbul olundu.

Azərbaycanın sualtı arxeologiyasının ilk dəfə olaraq öyrənilməsi Milli Azərbaycan Tarix Muzeyinin əməkdaşı arxeoloq Viktor Kvaçidzenin adı ilə bağlıdır (31, s. 238-240; 32, s. 23-27). Sualtı arxeoloji ekspedisiya işləri 20 ilə yaxın çox, 1968-1986-cı illərdə davam etmişdir. Qeyd etmək lazımdır ki, Xəzər dənizində aparılmış sualtı kəşfiyyat və tədqiqat işləri nəticəsində sualtı tədqiqat üçün iki maraqlı rayon təyin edildi: dəniz sərhədi ilə quru arasında yerləşən Bəndovan şəhər yeri (Nord-Ost-Kultuk) və Qalagah və Amburan burnu (Abşeronun şimal sahili) arasında yerləşən qədim Bilgə port-dayanacağı. Sualtı arxeoloji ekspedisiya işləri zamanı dənizin dibindən və sahil zolağından iki min arxeoloji əşya aşkar edildi. Onların arasında sadə və şirlənmiş qablar, dulusçuluq məmulatı, tikinti materialları, əmək alətləri IX-XVIII əsrlər sikkə və bəzək əşyaları aşkarlandı.



Ekspedisiyada

1973-cü il yanvarın 19-da Respublika Elmlər Akademiyasının Rəyasət Heyəti 1973-cü il yanvarın 19-da Azərbaycan Tarixi Muzeyinin direktoru, Azərbaycan SSR EA-nın müxbir üzvü P.Əzizbəyovanın "Muzeyin sualtı tarixi-arxeoloji tədqiqatlarının nəticələri"

haqqında elmi məruzəsini dinlədi. Rəyasət Heyəti muzeyin aşkara çıxardığı Kür çayı mənsəbində Xəzər sularında qərq olmuş orta əsr şəhər yeri Bəndovan və Amburan burnundakı (Bilgəh kəndi) dəniz limanı izlərinin tapılmasını Azərbaycan xalqının maddi-mədəniyyət tarixinin öyrənilməsi işində qiymətli nəaliyyət kimi qeyd etmiş və SSRİ Elmlər Akademiyasının Rəyasət Heyətində dinlənilməsini məsləhət görmüşdür. Məruzədə göstərilirdi ki, Nord-Ost-Kultukda (Bəndovan) aparılan axtarışların arxeoloji kəşfiyyat məqsədi daşıdığına baxmayaraq, hər halda müəyyən nəticələrə gəlməyə imkan yaradır. Şübhə yoxdur ki, həmin ərazidə Azərbaycanın orta əsr şəhərlərindən birinin qalıqları mövcud olmuşdur. Çox ehtimal ki, bu şəhər tarixi ədəbiyyatda qeyd olunan, lakin, hələ də yerləşdiyi mövqeyi müəyyənləşdirilməyən yaşayış məntəqələrindən biridir. Tikinti və mədəni təbəqənin qalıqları dənizin dibindən tapılan IX-XIII əsrlərə aid sinxron arxeoloji materiallarla birlikdə dəniz sahili şəhər yerinin IX-XIII əsrlərə aid olduğunu söyləməyə imkan verir. 900-dən çox arxeoloji tapıntı əldə edilmişdir. Hazırda Azərbaycan Taruixi Muzeyinin əməkdaşları "Xəzər dənizinin Azəbaycan sahilində yerləşən və sulara qərq olmuş şəhər və yaşayış yerləri" probleminin tədqiqi ilə məşğul olarkən əsas sualtı tədqiqat obyektlərini müəyyənləşdirmişdir: Kür çayı mənsəbi ilə Bəndovan burnu arasındakı ərazi və Abşeronun şimal sahilindəki Amburan burnundan Şüvəlan burnunadək olan sahə. Məruzəçi hidroarxeoloqların əldə etdikləri ilkin nailiyyətlər haqqında danışaraq göstərdi ki,onlar Xəzər dənizinin qədim sahil xəttini üzə çıxarmaq və arxeoloji mədəni təbəqələrin dövrünü müəyyənləşdirməklə elmin bir çox sahələrinə və hər şeydən əvvəl bilavasitə Xəzərin dinamikası və geomorfologiyası ilə məşğul olan tədqiqatçılara misilsiz xidmət etmiş olacaqlar (46).



Fotoqraf M.Nəsirov ekspedisiya üzvü kimi



P.Əzizbəyova

Sonrakı illərdə həyata keçirilən ekspedisiyaların sayı azalsa da, əldə olunan materialın tədqiqi işi ardıcıl olaraq aparılmışdır. 2010-cu il yanvar ayında "Sualtı arxeologiya -40 il" sərgisi açılmış və Viktor Kvaçidzenin "Xəzər Atlantidası" kitab-albomunun (8) təqdimat mərasimi keçirilmişdir. Şimali Kipr Türk Cümhuriyyətinin Qazi-Mağusa şəhərində 18-20 mart 2010-cu il tarixində keçirilən 4-cü "Sualtı Tədqiqatlar" Beynəlxalq konfransında Muzeyin əməkdaşı t.e.n.



S.Aşurbəyli

Fariz Xəlilli "Milli Azərbaycan Tarixi Muzeyində sualtı arxeoloji materiallar" mövzusunda məruzə etmişdir.

Bakı ilə bağlı mövzuya Muzeyin əməkdaşı, bir müddət Muzeyin "Azərbaycanın Orta əslər tarixi" şöbəsinin müdiri vəzifəsində çalışmış Sara Aşurbəyli də müraciət etmişdi. Onun 1967-ci ildə yazdığı məqalə Bakı yaxınlığında Pir Allahi adası haqqında idi. Abşeronun toponimikasını tədqiq edən S.Aşurbərli Pirallahi adasının adının "Allah Əkbər" ifadəsindən götürüldüyünü, ikinci hissəsinin düşdüyünü, "Allah" sözünün saxlandığını göstərir. Məlumdur ki, İslamın yayılmasının ilkin dövründə ərəb qəbilələrinin bu əraziyə köçürülməsi barədə ərəbdilli mənbələrdə məlumat verilmir. Azərbaycanla əlaqədar məlumatlar isə çox azdır. Müəllif ərəb müəllifləri əl-Məsudi (X əsr) Əbu Həmid əl-Əndəlusi (XII əsr), anonim "Mücəm ət-təvarix və-l-qısas"ın və digər orta əsr müəlliflərinin Bakı yaxınlığında Pirallahi adası haqqındakı məlumatına Həmdullah Qəzvininin Bakının əks istiqamətində yerləşən Hirallahı ilə bərabər Şamaxıdakı "Allah Əkbər" adlı yerə dair məlumatı təhlil edərək belə nəticəyə gəlmişdir ki, ərəb dilinə tərcümədə hər iki yerin adı "Allah böyükdür" ifadəsindən götürülmüşdür. Bu ifadə fəthlər zamanı ərəb ordusunu müharibəyə çağırış səsidir (nidasıdır). Yaxın vaxtlara qədər adadakı ibadət yeri (məbəd, müqəddəs yer) və orada müqəddəs şəxsin -dərvişin dəfn edilməsi haqqında deyimlər (rəvayət) vardır. Bu adadakı məbədə və yanar oda sitayiş etmək üçün ətraf yerlərin kədlərindəndən ziyarət üçün əvvəllər atəşpərəst olmuş sakinlər ziyarət üçün gəlirdilər (19, s. 54-67). Bu məlumatlar islamın yayılmasını daha erkən dövrlərə aparıb çıxarır.

Azərbaycanın orta əsrlər tarixinin öyrənilməsində dəsti-xətti olan alimlərdən biri də muzeydə Orta əsrlər şöbəsinin müdiri, daha sonra muzeyin elmi katibi vəzifəsində çalışmış R.Məmmədov idi. O, dərin biliyi, işgüzarlığı və vətənpərvərliyi ilə respublikanın elmi ictimaiyyəti arasında böyük hörmət qazanmış alimlərimizdəndir. O, AMEA sistemində Azərbaycan Tarixi muzeyindən əlavə, Sara xanım Aşurbəyli kimi, Tarix Institutunda da çalışmış, Muzeydə işlədiyi ilk illərdən muzey işləri ilə yanaşı bilavasitə Azərbaycanın orta əsrlər tarixinin tədqiqi ilə məşğul olmuşdur. İşlədiyi müddətdə orta əsrlər Azərbaycan şəhərlərini hərtərəfli dərindən tədqiq etmək üçün yazılı mənbələrlə yanaşı Azərbaycanın müxtəlif bölgələrində aparılmış arxeoloji qazıntılarda da iştirak etmişdir.

Hələ 1961-ci ildə M.Nəsirli ilə birgə yazdığı ilk məqalələrindən sayılan "Gələsən-Görəsən" qalası haqqındakı 11 səhifəlik məqaləsindən (15, s. 68-79) Rauf Məmmədovun ciddi bir tədqiqatçı olduğu görünür. O, məqalələri yazarkən

mövzunu dərindən əhatə etmək üçün mövcüd olan bütün mənbə, arxiv materialları, hətta, şifahi məlumatlar və rəvayətlərdən də bacarıqla istifadə edərək öz tənqidi münasibətini bildirmək qabiyliyyətinə malik idi.

R.Məmmədov istinad etdiyi mənbələrə əsasən yazır ki, bu alınmaz qalada XVIII əsrin ortalarında üsyan etmiş şəkililər gizlənirdi və qalanın 30000-lik İran ordusu tərəfindən şiddətli və uzunmüddətli mühasirəsi uzun sürmədi, Nadir şah böyük itkilərdən sonra, mühasirədən əl çəkdi. Yerli sakinlərin cəsarəti onlara qalanı qorumağa imkan verdi. Məqalədə birinci dəfə olaraq qala və onun ərazisində yerləşən quyuların ölçüsü barədə məlumat verilir. Sonda müəllif bu möhkəm qalanın nə vaxt və kim tərəfindən tikilməsi məsələsini öyrənməyi gələcək tədqiqatçılara həvalə edir.

Hər bir elmi əsərin daha qiymyəti olmasını göstərən amil onun ilk dəfə elmi dövriyyəyə buraxılmasıdır. Rauf müəllim Naxçıvan tarixinin kompleks şəkildə ilk dəfə olaraq öyrənən alimlərdəndir. Onun böyük zəhməti sayəsində ərsəyə gələn "Naxçıvan şəhərinin tarixi oçerki" adlı əsəri (9) də bu qəbildəndir. Bu əsər yazılmamışdan əvvəl Rauf Məmmədov dəfələrlə Naxçıvanda arxeoloji ekspedisiyada olmuş və bir neçə samballı elmi məqalələr yazmışdır. Onlardan birincisi Naxçıvan diyarının qədim və orta əsrlər tarixinə həsr olunan 1962-ci ildə Azərbaycan Tarix Muzeyinin əsərlərində dərc etdirdiyi "Naxçıvan şəhərinin qədim və ilk orta əsrlər tarixindən" adlı məqaləsidir (10, s. 3-5). Məqaləni oxuyarkən, elə ilk səhifələrindən bu diyar haqqındakı məlumatlarını çoxsaylı ərəb, fars dilindəki mənbərlərdən, Qərbi Avropa, rus və erməni tədqiqatçılarının əsərlərindən damla-damla toplayaraq yazan müəllifin necə ciddi və dəqiq bir tədqiqatçı olduğu görünür. Müəllifin yazdığı hər bir cümlə, hər bir yeni fikrin arxasında onlarla mənbə, arxeoloji, numizmatik və epiqrafik əsərlər dayanır. Rauf müəllim yalnız bir məqalədə Naxçıvan məsələsinə toxunmuş Bəlazuri, İbn əl-Fəqih, İbn Xordadbeh, İbn Rüstə, əl-Müdəddəsi, əl- İstəxri, Əhməd ibn Lütfüllah və diğər ərəb və fars müəlliflərinin əsərlərindən 148 iqtibas gətirmişdir. Bu isə müəllifin öz işinə dəqiqliklə yanaşdığını, gəldiyi nəticənin mötəbər olmasını bir daha təsdiq edir, tədqiqatın etibarlıq dərəcəsini artırır.



R.Məmmədov

1970-ci illərin əvvəllərində Əlincəqalada ilk dəfə olaraq axtarış-kəşfiyyat işləri aparmaq da, əsasən Azərbaycanın orta əsr tarixini yazılı mənbələr əsasında tədqiq edən Rauf Məmmədova nəsib olur. O, Naxçıvana ezamiyyəti müddətində apardığı axtarış kəşfiyyat işləri nəticəsində xeyli miqdarda şirli və şirsiz saxsı qab parçaları, müxtəlif sikkə məmulatı və s. toplamışdır. Müəllif həmin saxsı qab parçalarının

X-XIII əsrlərə aid olmasını müəyyənləşdirmişdir. Rauf Məmmədov Arxeologiya fondunda qorunan bu materiallar və yazılı mənbələr və tədqiqat əsərlərindən istifadə edərək "Əlincəqalanın orta əsrlər tarixi haqqında" adlı elmi məqaləni 1973-cü ildə Muzeyin toplusunda çap etdirir (11, s. 8-16). Müəllifin tədqiqatı deməyə əsas verir ki, orta əsrlər Naxçıvan ərazisində olan Əlincəqalada iqtisadi həyat hökm sürmüş və qala sakinlərinin Yaxın və Orta Şərq şəhərləri ilə sıx əlaqələri olmuşdur.

Rauf Məmmədov səyyahların Naxçıvan haqqında söylədikləri məlumatları digər mənbələrlə müqayisə edərək çatmayan informasiyanı üzə çəxarараq tədqiqata cəlb etməyi bacaran bir alimdir. Naxçıvan tarixinə həsr etdiyi "Yaxın Şərq və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında" adlanan məqaləsində müəllif çox qiymətli hesab etdiyi türk səyyahları Evliyə Çələbi və Katib Çələbi, fransız və alman səyyahlarının əsərlərindən mənbə kimi istifadə etmişdir (12, s.11-22). Naxçıvan haqqında yazmış səyyahların məlumatlarına tənqidi yanaşan müəllif çoxsaylı ilkin yazılı mənbələrə söykənərək belə güman edir ki, e.ə. VIII-VI əsrlərdə meydana gələn Naxçıvan IX-XII əsrlərdə tərəqqi etmiş, Azərbaycanın, hətta demək olar ki, Yaxın Şərqin iri iqtisadi, siyasi və mədəni mərkəzlərindən birinə çevrilmişdi.

Qeyd olunan məqalələrdən sonra Rauf Məmmədovun Naxçıvan şəhərinin orta əsrlər tarixinin tədqiqinə həsr etdiyi "Naxçıvan şəhərinin tarixi oçerki" adlı monoqrafiyası 1977-ci ildə işıq üzü gördü (9). Müəllif VI fəsildən ibarət olan əsərində Naçxıvan haqqında dərin araşdırmalar apararaq Naxçıvanı Azərbaycanın ən qədim şəhərlərindən biri hesab edir və göstərir ki, şəhər X-XVII əsrlərdə Yaxın Şərqin mühüm iqdisadi-siyasi və mədəni mərkəzlərindən biri olmuşdur. Müəllif yazır ki, şəhər özünün əvvəlki ehtişamını və əzəmətini itirə-itirə orta əsrlərin sonuna kimi gəlib çıxmışdır. Tənəzzül uzun sürməmiş, müəyyən müddətdən sonra şəhər yenidən bərpa edilərək Naxçıvan xanlığının paytaxtına çevrilmişdir. 1828-ci ildə Naxçıvan xanlığı və onun mərkəzi Naxçıvan şəhəri, digər şimali Azərbaycan xanlıqları kimi Rusiyaya birləşdirilmişdir.

Rauf müəllim yazır ki, həmin tarixi dövrdən yüz əlli il keçir. Müəllif yazır ki, bu illər ərzində Naxçıvanın iqtisadi və mədəni həyatı xeyli dəyişmişdir. Rauf müəllim özünün yaşadığı tarixdən keçən vaxtı 150 il hesablamışdı. Müasir dövrlə hesablasaq isə 175 il ötdüyünü görmək olar. Artıq 20 ildən çoxdur ki, Azərbaycan, o cümlədən Naxçıvan müstəqillik qazanmışdır. Rəhmətlik sağ olsayda Naxçıvanın son illərdə nə qədər dəyişdiyini, Naxçıvanın bu bünkü yüksəlişini öz gözləri ilə görərdi. Bildiyiniz kimi, şəhərdə müasir dövrdə də tədqiqat aparılır. Lakin, bu şəhər haqqındakı Rauf müəllimin kitabından nəinki Naxçıvan arxeoloqları, hətta Naxçıvanın orta əsrləri ilə məşğul olan hər bir kəsin stolüstü kitabı kimi hələ də istifadə edilir (54, s. 68).

1960-ci illər ərzində Respublika əhalisi arasında aparılan elmi-ateist təbliğat



Z.Yampolski

işinə cəlb edilmiş muzeyin elmi əməkdaşları xüsusi təşviqat maşını vasitəsi ilə Azərbaycanın bir çox müəssisə və idarələrinə və s. gedərək iki ay müddətinə "Elm və din" aldı sərgi nümayiş etdirmişlər (2, s. 207). Əmək fəaliyyətinə 50-ci illərdən başlayan, 60-ci illərdə elmi yaradıcılığında dini məsələlərə yer ayıran və Muzeyin 1968-1971-ci illərdə Azərbaycanın qədim və orta əsrlər tarixi şöbəsinin rəhbəri olmuş Z.İ. Yampolski "Qədim Albaniya e.ə. III- b.e. I əsrində" adlı əsərində Albaniyaya məxsus xristian abidələri haqqında geniş məlumat verərək xristian abidələrinə münasibət bildirmişdir (41, s. 202-256). Zeliks Yampolski " İslam dinində müqəddəs yerlərə sitayişin ibtidai kökləri haqqında" adlı məqaləsində isə yerli əhalinin islam dininə münasibətini də açıqlamışdır. Məqaləsində bu problemə toxunan İ.Qoltsier və A.Ələkbərovun əsərlərinə müraciət edərək göstərir ki, onlar İslam dinində müqəddəs yerlərə pərəstişin öz kökləri ilə islama qədərki keçmişə aid olduğunu qeyd edirlər. Z.Yampolski yazır ki, ancaq islamaqədərki tarixin hansı mərhələsindən söhbət getdiyi təyin edilməmiş, müqəddəs yerlərə sitayişin sosioloji mənbələri aşkara çəxarılmamışdır. Məsələyə ateist nöqteyi-nəzərindən yanaşan müəllif göstərir ki, müqəddəs yerlərin (islam dinində və başqa dinlərdə) mənşəyi ibtidai dövrlərə aiddir. Sonda hər şeyi zəhmətkeş kütlələrın mənafeyi ilə bağlayan müəllif müqəddəs yerlərin onların əməkdə xöşbəxtlik qazanmasına mane olduğunu vurğulayır (42, s. 193-205).

Elmi fəaliyyətlə yanaşı muzey alimləri elmi təşviqat işlərini də yaddan çıxarmırdılar. Onlar Muzeydə təşkil olunmuş dərnəklərdə Azərbaycan tarixinin müxtəlif dövrlərini göstərən maddi-mədəniyyət abidələri ilə dərnək üzvlərini tanış edirdilər.

1960-cı illərdə Respublika muzey işinin təşkilində bir sıra nöqsanların olduğu da qeyd edilirdi. Azərbaycan SSR Mədəniyyət nazirliyi və Azərbaycan SSR EA Azərbaycan Tarixi Muzeyinin birlikdə keçirdiyi Muzey işçiləri seminarında qəbul edilmiş sənəddə muzeylərdə olan çatışmazlıqlardan söz açılır. Göstərilir ki, xalqın qədim keçmişini əks etdirən, rayonun və ya vilayətin təbii sərvətlərini, burada yaşayan əhalinin təsərrüfatını, mədəni həyatını əks etdilən tarixi



Z.Yampolski Qobustanda tarix dərnəyi üzvlərinə latın əlifbası ilə yazılmış kitabə haqqında danışır



V.İslamova

sənədlərin yığılması ilə az məşğul olunur. Muzeylərin özlərində belə eksponatların elmi cəhətdən işlənməsi və ekspozisiya yaradılması işi qənaətbəxş deyildir. Rayonların ölkəşünaslıq muzeyləri mərkəzi respublika muzeylərindən və habelə Azərbayacan SSR Mədəniyyət Nazirliyinin müvafiq şöbələrindən lazımi elmi kömək almırlar (3, s. 170-171).

Bunlar nəzərə alınaraq, qısa müddət ərzində etnoqrafiya sahəsində elmi tədqiqat işi gücləndirilməyə başlayır. Artıq 1960-cı illərin sonu- 1970-ci illərin əvvəllərində Etnoqrafiya şöbəsi əməkdaşları tərəfindən aparılan yenidənqurma işləri öz bəhrəsini verməyə başlayır (25; 26; 27; 28).

Bu səpgidə Azərbaycanın, xüsusilə Abşeronun təsərrüfat həyatının öyrənilməsində Muzeyin kiçik elmi işçisi, sonralar isə elmi katibi olmuş Validə İslamovanın rolunu qeyd etmək lazımdır. Bu illərdə onun Abşeronun təsərrüfat həyatının müxtəlif sahələrini əhatə edən etnoqrafik məzmunlu məqalələri çap olunmağa başladı. 1973-cü ildə "XIX-XX əsrin əvvəllərində azərbaycanlıların təsərrüfat məişəti (Abşeron etnoqrafik materiallarına əsasən)" adlı namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etdi (29). Tədqiqatçı elmi əsərində ümumi Azərbaycan fonunda Abşeronun əkinçilik, heyvandarlıq, sənətkarlıq təsərrüfatını etnoqrafik baxımdan araşdıraraq Azərbaycan xalqının müxtəlif cəhətli və dərin biliyini və zəngin əmək vərdişlərini aşkara çıxara bilmişdir. O, göstərir ki, Azərbaycanın digər zonaları üçün ənənəvi olan buğda və çəltikdən əlavə zəfəran, hövsan soğanı və yerli üzüm növü olan Bakı şanısı Abşeronun əkinçilik mədəniyyətinin spesifik xüsusiyyətlərindəndir. XIX əsrdə Abşeron heyvandarlıq təsərrüfatının xarakterik xüsusiyyəti Azərbaycanın digər ərazilərindən fərqli olaraq dəvəçilikdən istifadə olunmasıdır. Əhali Abşeronun xammal resurslarının az olmasına baxmayaraq burada olan imkanlardan maksimal dərəcədə istufadə edərək ənənəvi sənətkarlığın ilk növbədə xalçaçılıq, daşyonma, duz istehsalı ilə məşğul olmuşdur. Tədqiqatçı göstərir ki, Apşeron yarımadasının təsərrüfat həyatına xas olan xüsusiyyətlərin, bu sahədə xalqın zəngin təcrübəsinin öyrənilməsi bu gün də Abşeronun təbii sərvəti və əmək ehtiyatlarının daha tam və məqsədyönlü və səmərəli istifadə olunmasına kömək edəcəkdir. Etnoqrafik səpgidə elmi məqalələr V.İslamovadan sonra



M.Atakişiyeva Qızıl fondunda

Maya Atakişiyeva tərəfindən davam etdirilmişdir. 1962-ci ildə Etnoqraf alimin Moskvada çap etdiyi "Azərbaycanlıların qida mədəniyyəti", "Ailə və ailə məişəti", "Kənd təsərrüfatı" məqalələrindən sonra artıq ayrı-ayrı bölgələrin adət və ənənələri, məişəti haqqında məqalələr işıq üzü görməyə başlayır (48; 49; 50; 51).



M.Quliyev (sağdan 1-ci)

Artıq 1960-ci ildə H.Quliyev tərəfindən, Şamaxı rayonunun etnoqrafik cəhətdən öyrənilməsi ilə başlayan ekspedisiya Azərbaycanın digər bölgələrində davam etdirilir. Qurtqaşen şəhərində (Qəbələ-N.Ə.) yerli sakinlər tərəfindən söylənmiş məlumatlar əsasında 1967-ci ildə Maya Atakişiyeva "Qurtqaşenlilərin bəzi qədim adətləri haqqında"kı məqaləsini yazır. Məqalədə müəllif bir sıra adət-ənənə məsələləri (gəlinin belinin bağlanması, onun metaldan olan əşyanın üstünə çıxması, eləcə də, gəlin və bəyin toydan əvvəlki bir neçə il ərzində "silə qoymaq") və s. haqqında məlumat verərək digər ölkə xalqları adətləri ilə müqayisələr aparır (1, s. 64-71). 1970-ci ildə isə müəllif Azərbaycanın cənub bölgəsinin etnoqrafik cəhətdən tədqiq etməyə başlayır (51). Bu mövzu 1971-75-ci illərdə Muzeyin Etnoqrafiya şöbəsinin digər əməkdaşları təfəfindən davam etdirilmişdir.

1966-1970-ci illərdə Quba, Qonaqkənd, Dəvəçi və Qusar rayonlarında ekspediyiyada olan Muzeyin etnoqrafı Mehdi Quliyev həmin rayonların qocaman xalçaçılarından topladığı materialı təsvir edərək xalçaçılıqda istifadə edilən yumaqların qırmızı, sarı, ağ, qara, yaşıl və qəhvəyi rənglərə boyama üsullarını izah etmişdir (33, s. 72-78). Belə boyanma üsulları ilə hazırlanmış etnoqrafik materialların toplanması böyük elmi və praktik əhəmiyyət daşıyır. Bunu nəzərə alan müəllif bildirir ki, hazırda nəbati boyalarla boyanma sahəsində bilikləri toplamaq tələb olunur, çünki, belə boyanma üsulları yaxın zamanlarda unudula bilər. Qeyd etmək lazımdır ki, etnoqraf alimlərimiz bu gün də bu mövzuya müraciət edirlər. Bu il muzeyin keçirtdiyi respublika konfransında prof. N.Quliyeva və E.Həsənovun "Gəncənin XIX-XX əsr ənənəvi toxuculuq məmulatlarının tədqiqində yerli muzey eksponatlarının mənbəşünaslıq dəyəri" adlı məruzəsində bu məsələlərə də toxunulmuşdur. Müəlliflər qeyd etdilər ki, Azərbaycanda ipləri və hazır məmulatı boyamaq üçün qarağac, qoz yarpağı, nar qabığı qırmızı səndəl, soğan qabığı və s. bitki və otlardan istifadə etmişlər. Gəncədə də eynilə bu cür üsullarla boyaqçılıq inkişaf etdirilirdi. Boyaqçılıqda yuxarıda qeyd olunan maddələrlə yanaşı, mineral maddələrdən, bataqlıq gili, ağac külü, duz, zəy və iri buynuzlu heyvanların sidiyi kimi yardımçı vasitələrdən istifadə olunmuşdur. Gəncədə XIX əsrin ortalarına

kimi boyaqçılıqda təbii boyaqlardan istifadə edilmişdir. Hətta boyaqçı olmayan hər hansı evdar qadın əlinin altında olan bitkidən, meyvə yarpağından təbii boya almağı bacarmışdır. Süni boyaq maddələrinin kəşf edilməsindən sonra məmulatın əksəriyyətini süni rənglərlə boyayırdılar. Təbii rənglərə nisbətən süni rənglə boyama prosesi az əmək tələb etdiyindən boyaqçılar daha çox bu rənglərdən istifadə edirdilər.

1960-1970-ci illərdə əsas diqqəti Muzey fondlarında çatışmayan materialların toplanmasına yönəlmiş etnoqraflar Azərbaycanın şimal və şimaq-qərq zonaları ilə yanaşı artıq 1970-ci illərdə cənub və cənub-qərb zonalarına da etnoqrafik ekspedisiyalar təşkil etməyə başladılar. Belə ki, Muzeyin etnoqraf alimləri 1974-cü ildə Talış, 1975-ci ildə isə Qarabağa təşkil olunan etnoqrafik ekspedisiyalarda iştirak etdilər. 1964-1970-ci illərdə Qarabağ səhra materialları əsasında muzeyin əməkdaşı Q.Qaraqaşlının milli geyimlərdən olan baş geyimləri haqqında həmmüəllif məqaləsi 1973-cü ildə işıq üzü gördü (30, s. 79-94) Tarixi-etnoqrafik "Atlas"ın "Geyimlər" bölməsinin yazılması ilə əlaqədar təqdim edilən məqalədə əsas etibarı ilə Qarabağda yaşayan azərbaycanlıların XIX əsrin sonu, XX əsrin əvvəllərində yayılmış baş geyimlərindən bəhs olunur. Məqalədə yeni ekspedisiya materialları ilə yanaşı Muzeyin etnoqrafiya fondunda, eləcə də Leninqradın SSRİ xalqları dövlət etnoqrafiyası muzeyi fondlarında, diyarşünaslıq muzeylərinin etnoqrafiya fondlarında və s. olan materiallardan istifadə edilmişdir. Müəlliflər XIX əsrin sonu və XX əsrin əvvəllərində azərbaycanlıların ənənəvi kişi baş getimləri hazırlanma materiallarına və formalarına görə bir neçə tipə bölürlər: Qarabağ papaqları, Buxara papağı, motal papağı, araqçın və s. Qadın baş geyimləri isə təsək, kələyağı, dəsmal, yaylıq və başqalarından ibarət idi. Azərbaycan milli baş geyimlərini müqayisəli tədqiq edən müəlliflər göstərir ki, onların bəziləri həm terminoloji, həm də tipoloji cəhətdən başqa xalqların baş geyimləri ilə oxşardır. Müəlliflər əlavə olaraq göstərirlər ki, Qarabağın milli geyimlərinin bir çoxu məişətdə işlənilməkdədir. Bu geyimlər təbii-coğrafi şəraitə və təsərrüfat işlərinə uyğun olaraq istifadə edilməkdədir.



M.Quliyev

Muzey əməkdaşlarının etnoqrafik ekspedisiyalarda əldə etdikləri Azərbaycanın etnoqrafiyası üçün qiymətli olan bu materiallar ilkin işlənmədən və tədqiq ediləndən sonra Etnoqrafiya fonduna təhvil verilmişdi. 1970-ci illərdə davam edən ekspozisiyanın elmi əsasının təşkili və zənginləşdirilməsi işində bu materialların əhəmiyyətli dərəcədə rolu olmuşdur.

1975-ci ildə Respublikanın elmi-təfəkkür mərkəzi olan Azərbaycan Elmlər Akademiyasının 30 illik yubileyi qeyd edildi. Bu illərdə xalqımızın maddi-mədəni irsinin toplandığı Tarix muzeyinin də öz yubileyi

mümasibəlilə bir sıra tədbirlər keçirdi. 1973-cü ildə Azərb.SSR EA müxbir üzvü prof. P.Əzizbəyovanın redaktəsi altında "Azərbaycan Tarix Muzeyinin 50 illiyi" adı altında Muzeyin kitab-albomu nəşr olundu (46). Kitab albomda Azərbaycan elmi ekspozisiyasının qurulmasında Azərbaycan qədim və orta əsr tarixini tədqiq edən alimlərimizin rolu da unudulmamışdı. Albomu vərəqlədikcə təkcə eksponatlar deyil, Qədim tarix ekspozisiyası və fondu şöbəsi, Orta əsrlər tarixi ekspozisiyası şöbəsi əməkdaşlarının tədqiqatları da göz önündə canlanır.

Elmlər Akademiyası Azərbaycan Tarixi Muzeyinin əlli illik yubileyi münasibətilə Azərbaycan Tarixi Muzeyində sərgi də keçirilmişdi. Bu sərgidə XIX əsrin sonu-XX əsrin əvvəllərində Elmi ekspozisiyasında geniş yayılmış sənətkarlıq məmulatının nümunələri nümayiş etdirilirmişdi. Sərgi haqqında muzeyin Etnoqrafiya şöbəsinin müdiri olmuş, tarix elmləri namizədi Mehdi Quliyev məlumat verərək göstərirdi ki, əldə edilmiş arxeoloji materiallara əsasən, Azərbaycanda ilk sənətkarlıq eramızdan əvvəl II- I minilliyə aiddir. Sərginin ekspiozisiyası Azərbaycan ərazisində tapılmış arxeoloji materiallarlarin nümayişi ilə başlayır. Sərginin Arxeologiya bölməsində Abşeronun qədim petroqlifləri nümayiş etdirilirdi. Buradakı insan, habelə vəhşi və ev heyvanlarının təsvirləri sonralar ornamental forma almış və ondan, demək olar ki, hər cür sənətkarlıq növləri məmulatının naxışlanmasında geniş istifadə olunmuşdur. Sərgidə dulusçuluq, ağacişləmə, misgərlik, tikmələr, ipəkçilik məmulatı, xalçaçılıq, zərgərlik, soyuq və odlu silahlar nümayiş etdirilirdi. Sərginin son bölməsi numizmatikaya həsr olunmuşdu. "Muzeyin kolleksiyaları" adlanan bu sərgi muzeyə gələnlərin arxeologiya, etnoqrafiya və numizmatuika fondları eksponatlarının bir qismi ilə taniş olmasına imkan yaratmaqla Azərbaycan sənətkarlığıının qədim tarixə malik olmasını nümayiş etdimişdir.

Deyilənlərə yekun vurularaq belə nəticəyə gəlmək olar ki, Muzeyin 1960-1970-ci illərdə Azərbaycanın qədim və orta əsr tarixi ilə məşğul olmuş muzey əməkdaşları toplama işləri və tədqiqat işlərində uğur qazanmış, muzey alimlərinin əldə etdikləri nəticələr muzeyin gələcək inkişafına zəmin yaratmışdır.

İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:

1. Atakişiyeva M.İ. Qutqaşenlilərin bəzi qədim adətləri haqqında // Azərbaycan Tarixinə dair materiallar. Azərbaycan Tarixi Muzeyinin əsərləri, IX c. Bakı: 1973.
2. Azərbaycan Tarixi Muzeyində // Azərbaycan Tarixinə dair materiallar. Azərbaycan Tarixi Muzeyinin əsərləri, V c. Bakı: 1962.
3. Azərbaycan SSR Mədəniyyət nazirliyi və Azərbaycan SSR EA Azərbaycan Tarixi Muzeyinin birlikdə keçirdiyi Muzey işçiləri seminarında qəbul edilmiş sənəd. // Azərbaycan Tarixinə dair materiallar. Azərbaycan Tarixi Muzeyinin əsərləri, III c. Bakı: 1962.

4. Hüseynov Ə.N. Azərbaycan Tarixi Muzeyində // Azərbaycan tarixinə dair materiallar. Azərbaycan Tarixi Muzeyinin əsərləri, II c. Bakı: 1957.
5. Hüseynov Ə.N. Muzeylərdə eksponatların toplanması və fond işlərinin təşkili haqqında // Azərbaycan Tarixi Muzeyinin əsərləri, III c., Bakı: 1960.
6. Hüseynov Ə.H. Bakı şəhərinin tarixinə dair qiymətli sənəd // Azərbaycan Tarixinə dair materiallar. Azərbaycan Tarixi Muzeyinin əsərləri, V c. Bakı, 1962.
7. Hüseynov Ə.H., Məmmədov R. Qərq olmuş şəhər. "Bakı" qəzeti, cümə, 26 iyun 1959-cu il.
8. Kvaçidze Viktir. Xəzər Atlantidası. Bakı, Elm, 2009.
9. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, Elm, 1977.
10. Məmmədov R. Azərbaycanın orta əsr "Arran" vilayəti və onun şəhələri tarixi xəritələrdə // Muzeyin 1983-cü il üçün elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş elmi sessiyasının materialları. Bakı, "Elm" nəşriyyatı, 1985.
11. Məmmədov R. Əlincəqalanın orta əsrlər tarixi haqqında // Azərbaycan Tarixinə dair materiallar. Azərbaycan Tarixi Muzeyinin əsərləri, IX c. Bakı: 1973.
12. Məmmədov Rauf. Yaxın Şərq və Qərbi və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında // Azərb.SSR EA-nın xəbərləri. İctimai elmlər seriyası, 1962, №4.
13. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, Elm, 1977.
14. Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondu, inv. № 745.
15. Nəsirli M. Məmmədov R. "Gələsən-görəsən" qalası haqqında // Azərbaycan Tarixinə dair materiallar. Azərbaycan Tarixi Muzeyinin əsərləri, IV c. Bakı: 1961.
16. Рагимов А.В. Печать из Байлакана // Материалы по истории Азербайджана. Б., VII т, Изд.-во АН Азерб. ССР, 1968.
17. Sadıxzadə Ş.H. Xızı, Xaçmaz və Xudat rayonlarına elmi ezamiyyət haqqında. // Azərbaycan tarixinə dair materiallar. Azərbaycan Tarixi Muzeyinin əsərləri, III c. Azərb. SSR EA nəşriyyatı, Bakı: 1960.
18. Sadıxzadə Ş. Azərbaycanda qədim nəqliyyat vasitələrinə dair (Arxeoloji fond materialları əsasında) // Azərbaycan tarixinə dair materiallar. Azərbaycan Tarixi Muzeyinin əsərləri, V c. Bakı: 1962.
19. Ашурбейли С. Топонимика Абшерона. В связи с вопросом этногенеза азербайджанцев. Изв.А.Н Аз. ССР. сер. ист. филос. и права, 1967, №2.
20. Багирова Майя, Мамедов Эмин. Из истории спорта в двевнем и средневековом Азербайджане. Национальный Музей Истории Азербайджана-2008. Баку, Элм, 2008.
21. Гусейнов А.Н. О некоторых надгробных памятниках Халданского и Самухского районов // Материалы по истории Азербайджана. Труды музея истории Азербайджана, т. I, Баку:1956.
22. Гусейнов А. Азербайджано-русские отношения XV-XVII вв. Б., 1963.

23. Гусейнов М.М. Орудия труда каменного века (по материалам археологического фонда.Материалы по истории Азербайджана. Изд-во АН Азерб. ССР, Б., 1960.
24. Гусейнов А.Н, Мамедов Р.А. О некоторых памятниках материальной культуры древного и средневекового Азербайджана. Из истории спорта в Азербайджане. // Материалы по истории Азербайджана. Труды музея истории Азербайджана, т. VII, Баку: 1968.
25. Исламова В.М. О скотоводстве на Абшероне. Всесоюзная сессия, посвященная итогам археологических и этнографических исследований 1968 года. Б., 1969; О виноградарство в хозяйстве и быту населения Апшерона. Материалы научно-теоретической конференции молодых ученых. Б., 1970.
26. Исламова В.М. О овцеводстве и верблюдоводстве на Апшероне. Изв-ия АН Азерб. ССР. № 1, 1971.
27. Исламова В.М. О выращивании шафрана на Абшероне. Всесоюзная сессия, посвященная итогаолевых археологических и этнографических исследований 1970 года. Тбилиси, 1971.
28. Исламова В.М. Некоторые этнографические данные о виноградарстве на Абшероне. Известия АН Азерб. ССР, № 2, 1972 и др.
29. Исламова В.М. Хозяйственный быт азербайджанцев XIX- начала XX вв. (по этнографическим материалам Апшерона). Автореферат на соискание ученой степени кандидата исторических наук. Б., 1973.
30. Каракашлы К.Т., Бабаян Е.Н. Об азербайджанских головных уборах (По материалам Карабахской историко-этнографической зоны) // Материалы по истории Азербайджана. Труды музея истории Азербайджана, т. IX, Баку: 1973.
31. Квачидзе В. Подводные историко-археологические исследования Музея // Материалы по истории Азербайджана. Труды музея истории Азербайджана, т, VIII, Баку: 1973.
32. Квачидзе В. К итогам подводных археологических работ 1969 г. На Каспийском море, // Материалы по истории Азербайджана. Труды музея истории Азербайджана, т. IX, Баку: 1973.
33. Кулиев М.М. Древнее ремесло Азербайджана и этноботаника // Материалы по истории Азербайджана. Труды музея истории Азербайджана, т. IX , Баку: 1973.
34. Фоменко В.П. Стеклянные браслеты из раскопок Мингечаура. Изд-во АН Азерб. ССР, Б., 1960.
35. Мамедов С. О военных кораблях военно-морского флота Государства Ширваншахов в конце IX- начале XIII веков. Национальный Музей Истории Азербайджана. Изд-во «Элм», 2012.
36. Пахомов Е.А. Чеканка в Албании подражаний монетам Македонским или Селевкидским в I в. до нашей эры. Материалы по истории Азербайджана. Труды музея истории Азербайджана, т. V, Баку: 1962.

37. Раджабли А.М. К вопросу об организации монетного дела в Сефеваидском государстве. Материалы по истории Азербайджана. Изд-во АН Азерб. ССР, Б..
38. Раджабли А.М.Из истории монетного дела в Сефевидском государстве при Исмаиле II (1576-1577). Материалы по истории Азербайджана. Труды музея истории Азербайджана, т. V, Баку: 1962.
39. Раджабли А.М. О медном чекане в сефевидском государстве (XVI- начало XVIII вв.). Материалы по истории Азербайджана. Труды музея истории Азербайджана, т. V, Баку: 1963.
40. Раджабли А.М. Значение новых нумизматических находок для изучения истории Азербайджана. Материалы по истории Азербайджана. Труды музея истории Азербайджана, т. IX, Баку: 1973.
41. Ямпольский З.И. Древняя Албания III-I вв. до н.е. Б., Изд-во АН Фз. ССР, 1962,.
42. Ямпольский З.И. О первобытных корнях культа святых в исламе (по материалам Азербайджана)//Материалы по истории Азербайджана. Труды музея истории Азербайджана, т. V, Баку: 1962.
43. Чубинашвили Г.Н. О художественной среде и хронологических рамок Мингечаурского рельефа // Azərbaycan tarixinə dair materiallar. II c. Bakı.
44. Sadıxzadə Ş. Yardımlı rayonundan tapılmış arxeoloji materiallar // Azərbaycan tarixinə dair materiallar. Azərbaycan Tarixi Muzeyinin əsərləri, VI c. Bakı: 1963.
45. Əbilova G.,Sadıxzadə Ş. Müxtəlif təbəqəli yeni sahə // Azərbaycan tarixinə dair materiallar. Azərbaycan Tarixi Muzeyinin əsərləri, V c. Bakı: 1962, s. 31-39.
46. Azərbaycan maddi-mədəniyyətinin tədqiqində yeni nailiyyətlər (P.Əzizbəyovanın məruzəsinin mətni). "Elm və həyat" jurnalı, on üçüncü il nəşri, № 3 Bakı, 1973.
47. Azərbaycan tarixi muzeyinin 50 illiyi. Azərb. SSR EA müxbir üzvü prof. P.Ə. Əzizbəyovanın redaktəsi altında.Bakı, "Elm" nəşriyyatı, 1973.
48. Атакишиева М.И. Пища азербайджанцев//Народы Кавказа. т. II, Москва: 1962.
49. Атакишиева М.И. Сельское хозяйство Азербайджана//Народы Кавказа. т. II, Москва: 1962.
50. Атакишиева М.И. Семья и семейный быт азербайджанцев//Народы Кавказа, т. II, Москва: 1962.
51. Атакишиева М.И. О некоторых обычаях ленкоранцев//Материалы Всесоюзной сессии археологических и этнографических исследований. Баку: 1970, (2 п. л.)
52. Голубкина Т. Античные формы в керамике кувшинных погребений Азербайджана. Материалы научной сессии по итогам научно-исследовательских работ за 1973 г..
53. Əliyeva N. Azərbaycanın orta əsrlər tarixinin öyrənilməsində Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı – Rauf Məmmədov yaradıcılığının rolu // "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu". III respublika konfransının materialı. Bakı, Elm, 2013.

Алиева Наргиз
Научная деятельность сотрудников Музея (1960-70 гг.)

Резюме

Ключевые слова: *Музей, научные сотрудники, история Азербайджана, археология, этнография, нумизматика*

На плечи видных ученых, сплотившихся в Музее, являющемся очагом науки, легла задача по сбору и изучению материалов с целью обогащения экспозиции. В статье повествуется о научной деятельности ученых, проводивших свои исследования в тот период. Отмечается, что особое мосто среди них занимают работы А. Гусейнова, Р. Мамедова, З. Ямпольского, С. Ашурбейли, А. Раджабли, Ш. Садыхзаде, В. Исламовой посвещавших в 1960-70 гг. свои произведения вревней и средневековой истории Азербайджана. Указывается, что собирательская работа, проводимая в 1960-70 гг. сотрудниками, изучавшими наследие древних и средних веков и их успехи в исследоаниях, способствовали дальнейшему развитию Музея.

Aliyeva Nargiz
Scientific activities of employees of the Museum (1960-70 years)

Summary

Keywords: *Museum, scientific activities, Azerbaijani history, archeology, ethnography, numismatics*

On the shoulders of eminent scholars, united in a museum, which is a hotbed of science, fell the task of collecting and studying materials to enrich the exhibition. The article tells about the scientific activity of the scientists who conducted their research in 1960-70. It is noted that a special place among them is occupied by A. Huseynov, R. Mammadov Z. Yampolsky, S. Ashurbeyli, A.Radzhabli, Sh Sadikhzade, V.Islamovoy, their works of ancient and medieval history of Azerbaijan. It is stated that the collecting work carried out in 1960-70 years by employees who studied the legacy of ancient and middle ages and their successes in research have contributed to the further development of the Museum.

Фархад Джаббаров

Из опыта музеефикации и научного исследования истории Азербайджанской Демократической Республики в Национальном музее истории Азербайджана

Ключевые слова: *Азербайджанская Демократическая Республика, Национальный музей истории Азербайджана, сбор материала, научное исследование, научные издания*

Бережное сохранение в современном Азербайджане исторической памяти об АДР является закономерным результатом непрерывного процесса изучения и популяризации истории периода 1918-1920 гг., начавшегося с конца 80-х годов прошлого столетия. Определенную лепту в этот процесс внес Национальный музей истории Азербайджана, чьей основной задачей на протяжении всей его 95-летней деятельности является сбор, сохранение, изучение и пропагандирование исторического прошлого азербайджанского народа с древнейших времен по сегодняшний день. Наряду с государственными архивами, Музей истории стал одним из главных очагов хранения наследия Первой Республики. Как известно, 7 декабря 1919 г. в здании Парламента АДР состоялось открытие музея «Истиглал», в котором были собраны материалы, связанные с историей и культурой Азербайджана. Однако музей просуществовал недолго: с падением АДР в апреле 1920 г. и установлением советской власти он прекратил свою деятельность. В июне 1920 г. новое правительство принимает решение о создании Учебного музея родного края и размещении его в бывшем особняке миллионера-мецената Г.З.Тагиева. Данным решением была заложена основа государственного музейного строительства в Азербайджане и с этой даты начинается отсчет 95-летней истории НМИА, который и поныне располагается в Тагиевском дворце.

В память об «Истиглале» новый музей получил название Учебного музея родного края – «Истиглал». Коллекция прежнего музея, состоящая из 597 предметов (материалы, относящиеся ко времени покорения Кавказа русскими, модели вышек, пушек, пароходов, экземпляры различных монет и бумажных денежных знаков и т.д.), была полностью передана в новообразованный музей (2, с. 24, 31). В Учебный музей родного края – «Истиглал» был переведен и

систематизирован архив законодательного отдела Парламента АДР, материалы, собранные Особой комиссией по изучению инородческой политики русского царизма при Министерстве иностранных дел АДР.

Однако собранные материалы не экспонировались, а хранились долгое время в фондах музея. С одной стороны, это было связано с императивом времени: в Азербайджане шло становление не только нового, советского, государственного строя, но и новой идеологии, социально-экономического уклада, культуры. Все, что предшествовало апрельской оккупации 1920 г., рассматривалось как идеологически и классово чуждое. Большевики игнорировали период 1918-1920 гг., как опыт республиканской государственности, зачастую используя вместо официального названия государства такие идеологизированные субъективные дефиниции, как «мусаватское правительство», «бекско-ханское правительство», «контрреволюционные силы» и т.п. Поэтому именно с установления советской власти и на всем протяжении ее 71-летнего господства время существования АДР стало «белым пятном» в истории нашего народа.

С другой стороны, отсутствие музейной экспозиции периода 1918-1920 гг. объясняется и объективными факторами. Дело в том, что на начальном этапе деятельности Учебный музей родного края – «Истиглал» (с октября 1920 г. стал называться Государственным музеем Азербайджанской ССР) основное внимание уделял сбору археологических, нумизматических и этнографических материалов. Музей организовывал экспедиции в районы республики, итогом которых стало пополнение коллекции богатым археологическими, нумизматическими и этнографическими экспонатами. Не случайно, что первая крупная экспозиция Госмузея, организованная в 1931-1935 гг., основывалась именно на материалах этих экспедиций (1, с.4).

Вторая половина 1920-х гг. характеризовалась в СССР крайней политизацией и идеологизацией всех сторон культуры, образования и науки. Особое внимание уделялось в этой связи общественным наукам, прежде всего, истории. Преподавание, изучение и донесение ее до широких масс стало рассматриваться как важнейшее средство идеологического воздействия на общество. В связи с этим особое значение приобретало изображение советского строя в научных трудах, учебниках как единственной идеальной модели в развитии человечества и, параллельно с этим, очернение достижений прошлого, шедшего вразрез с большевистскими представлениями об истории. На примере Азербайджана коснулось это и Государственного музея. Под лозунгом борьбы с «буржуазными традициями», с «людьми, пытавшимися использовать музеи в контрреволюционных целях» в 1928 г. от должности директора был освобожден Давуд бек Шарифов, так много сделавший для музея в самый сложный период его становления – 1923-1928 гг. (2, с. 72-73).

Борьба с «буржуазными традициями» выразилась и в невосполнимом ударе, нанесенном по наследию АДР. По распоряжению нового директора музея Серо Мануцяна, ценнейшие экспонаты, поступившие в свое время из музея «Истиглал», а также собранные кропотливым трудом сотрудников музея (знамена АДР, материалы Парламента, оригинал «Акта о независимости» и др.) были переданы в открывшийся в Москве Музей революции.

В 1935 г. в здании музея открылась выставка, посвященная 15-летию установления советской власти в Азербайджане. Естественно, создатели выставки затронули и период независимости, когда большевики вели подрывную деятельность против национальной государственности. Однако подача материала, конечно же, была в духе времени. Во вводно-историческом отделе выставки посетители знакомились с борьбой за бакинскую нефть, с деятельностью большевиков по захвату власти в Азербайджане. Сопровождалось все это фотографиями и цитатами, изображающими Советскую Россию как страну-освободительницу, принесшую процветание и счастье Азербайджану (4, с. 7-9).

В последующие годы Музей истории Азербайджана, получивший это название в 1936 г., в основном создавал лишь выставки, посвященные советизации Азербайджана и темам социалистического строительства. На всех этих выставках непременно делался исторический экскурс в прошлое, который, шаблонно выставлял досоветскую эпоху в негативных красках и который должен был создать у зрителя уверенность, что подлинную свободу и счастье Азербайджан обрел лишь в 1920 г. – после установления советской власти. Параллельно с этим шел поиск и сбор материалов по всем периодам истории страны. Как раз в советские годы музей пополнился многими материалами, которые в постперестроечную эпоху и стали основной базой для создания экспозиции, посвященной АДР. Конечно, эти материалы не собирались специально, целенаправленно, чтобы освещать АДР, в то время это было невозможно, но так или иначе собранные экспонаты относились к периоду независимости. В качестве примера можно привести материалы народного артиста С.Рухуллы, в коллекции которого была печать Президиума Азербайджанского государственного театра (1919 г.) и др.

Во второй половине 1950-х годов в Музее истории Азербайджана впервые была создана экспозиция, охватывающая историю Азербайджана с древнейших времен и включавшая, в том числе, советский период. Работа эта прошла в три этапа: в 1956 г. открылась экспозиция древнего и раннесредневекового периода, в 1957 г. – средневекового и нового, а в апреле 1958 г. - советского периодов. Последняя часть экспозиции, отражая самую актуальную для своего времени эпоху, охватывала и период существования

АДР, преподнесение материала в ней, несомненно, подчинялось устоявшимся канонам советской исторической науки.

Перестроечные процессы, начавшиеся во второй половине 1980-х гг., отразились на всех сторонах жизни общества, коснувшись и исторической науки. Освободившись от шаблонных, догматических постулатов, ученые-историки Азербайджана создали ряд научных трудов, по-новому освещающих малоизученные и неизученные проблемы истории страны. Особенно это коснулось периода 1918-1920 гг. – переломной эпохи, полной противоречий, и потому требующей от исследователей объективности, непредвзятости, скрупулезного изучения и сравнительного анализа источников. В итоге, начиная с 1988 г., появились научные, публицистические работы, освещавшие историю создания и деятельности Первой Республики. Определенным стимулом для этого послужила официальная «реабилитация» АДР – объявление в 1990 г. 28 мая Днем возрождения азербайджанской государственности, а позже переименование его в День Республики. В начале мая 1990 г. Бюро ЦК Коммунистической партии Азербайджана приняло постановление о Дне возрождения азербайджанской государственности. В постановлении было указано, что Бюро приняло предложение Музея истории Азербайджана о подготовке и экспонировании выставки, посвященной истории создания и деятельности АДР. (3, с. 1).

Новые веяния в обществе не обошли стороной и Музей истории Азербайджана. Прежняя экспозиция, призванная освещать достижения советской эпохи, уже не отвечала потребностям нового времени. Требовалась ее коренная реконструкция, а также включение в экспозицию раздела по АДР. Однако, в отличие от историков, перед которыми открылись двери архивов, музееведы-историки столкнулись с другой проблемой. Труд историков и публицистов по периоду АДР оказал большую помощь музееведам, но не решил трудностей в освещении темы в музейных экспозициях. Последние, как известно, требуют еще и зрительного восприятия документов, вещественных материалов и материалов мемориального характера. Собирательская работа музееведов, как правило, наталкивалась на большие трудности, когда речь шла о поиске материалов по периоду АДР. Забвению, а иногда репрессиям подвергались многие деятели, поэтому пропадали, исчезали их документы, личные вещи.

В конце 1980-х-начале 90-х годов сотрудники музея приступили к сбору материалов по истории АДР. Эта работа велась в архивах республики, в семейных архивах потомков отдельных деятелей АДР. По крупицам были собраны некоторые материалы члена Национального совета АДР Джавад бека Мелик-Еганова, члена делегации АДР на Парижской конференции Мамед

бека Магеррамова, заместителя председателя Парламента Гасан бека Агаева, министра государственного контроля Нариман бека Нариманбекова, студентов, отправленных правительством учиться за границу - Исмаила Ахундова, Ахмеда Раджабли, Мустафы Мустафаева. Был приобретен первый номер правительственного органа – газеты «Азербайджан», трость актера театра Гусейна Араблинского, театральные афиши и т.д. Материалы собирались с большим трудом, ибо в семьях осталось мало фотографий и документов, многое было уничтожено родственниками в страшные годы репрессий. Каждая находка была поистине уникальной, ибо раскрывала страницы совершенно новой, неизведанной эпохи независимости Азербайджана.

На основе собранных материалов коллектив музея организовал в мае 1990 г. выставку, посвященную АДР. Так как тема эта была новой, а история 1918-1920 гг. писалась заново, выставка вызвала необычайный интерес не только у научной общественности, но и простых граждан, интересующихся историей. Она стала одновременно и данью памяти историческому прошлому, незаслуженно забытым основателям и созидателям Первой Республики.

В связи с этим хотелось бы привести один маленький, но весьма трогательный эпизод. Дочь Джавад бека Мелик-Еганова Асиман ханум, придя на открытие выставки, принесла два букета цветов. Один букет она возложила к фотографии отца, сказав: «Я не знаю, где могила моего отца, но знаю, куда теперь можно приносить цветы». Второй букет Асиман ханум преподнесла Зарифе Дулаевой – старейшему историку-музееведу, главному организатору выставки. Асиман ханум настолько была впечатлена выставкой, что незадолго до своей смерти подарила музею единственную оставшуюся у нее вещественную память об отце – его портрет. Эти два поступка как нельзя лучше отражают оценку, данную труду музейных работников.

Выставка «Азербайджанская Демократическая Республика», открытая в Восточном зале музея, затем была превращена в постоянно действующую экспозицию. В этой экспозиции в течение 1991-1992 гг. регулярно проводились занятия для слушателей Бакинского Института социального управления и политологии (ныне Академия государственного управления при Президенте Азербайджанской Республики). В письме проректора института Э.С.Улькиной на имя директора музея П.Азизбековой так была выражена оценка труда работников Музея истории Азербайджана по пропагандированию истории Первой Республики: «Экспозиция данной выставки уникальна своими материалами. Небольшая по объему, она, по мнению наших слушателей, раскрывает интересные, мало изученные аспекты деятельности первых азербайджанских демократов, заложивших основы национальной государственности. Особо хочется выделить занятия, проводимые к.и.н.

Дулаевой З.А., получившие высокую оценку наших слушателей».[1]

Başdaşı olan ikinci daş lövhə üzərində yay, iki oxçu üzüyü, üç ox, dəyirmi qalxan, əyritiyəli qılınc, düztiyəli xəncər və iki cüt burun -buruna baxan çəkmələr təsvir olunub. Dəyirmi qalxanın uzun asılma ipi aydın göstərilib.

Başdaşı olan üçüncü daş lövhədə süvari, yuxarı hissəsində isə onun silahları təsvir olunublar. Süvarinin silindrvari baş geyimi, yan tərəfində olan dəyirmi qalxanı və yay qabında olan yayı aydın görünür. Silahlardan zəif əyilmiş tiyəsi olan qılınc, düz tiyəsi olan döyüş bıçağı və ucu əyilmiş çomaq şəklində olan silah görmək olar.

XIV-XV əsrlərə aid edilən sənduqə tipli daş məzarda yəhərlənmiş at təsvir olunub ki, onun yəhərinə yay qabında olan yay bərkidilib. Atdan yuxarıda silahlar təsvir edilib: uzun ayparavari tiyəsi olan qılınc; uc tərəfi azacıq əyilmiş T-vari başlığı olan uzun xəncər; oxçu üzüyü; kəmənd qarmağı (qala divarına qalxan zaman ilişdirmək üçün iki qarmağı ilə); asılma başlığı olan toppuz; beş ucluğu olan silah (nizə ?).

XV əsrə aid edilən sənduqə tipli növbəti məzar daşının bütün səthi naxışlarla bəzədilib (İçəri Şəhər Sıratağlı dini-memarlıq abidəsin, inv. № 158). Silah və geyim təsvirləri baş və ayaq tərəfdə verilib. Baş tərəfdə üzərində at belində süvari təsvir olunub ki, o da əlində nizə tutur (nizənin ucluğu arxaya baxır, sapa kiçik bayraq bağlanıb). Başında şar-konusvari dəbilqə təsvir edilən süvaridə dəyirmi qalxan var. Ayaq tərəfdə burun-buruna baxan iki uzunboğaz çəkmə təsvir edilib.

Qaradağ rayonu, Səngəçal qəsəbəsi ərazisində aşkarlanmış məzar daşları Şirvan epiqrafikası üslubunda işlənmişlər. Hazırda Qobustan Milli tarixi-bədii qoruğunun ərazisində qorunan üç ədəd sənduqə tipli məzar daşı üzərində həm ayrıca silah şəkilləri, həm də döyüş və ov səhnələri oyma üsulu ilə təsvir edilib. İşlənmə üslubuna görə daşlar XVI-XVII əsrlərə aid edilir (1, s.150).

Birinci sənduqənin sol tərəfində aşağıdakı silahların təsvirləri var: qılınc, xəncər, döyüş bıçağı, yay qabında yay və ox qabında oxlar. Qılıncın uzun tiyəsinin ucu və dəstəyinin başlığı əyilmiş vəziyyətdəir. Dəstəyə bağlanan ip aydın görsənir. Qılıncdan solda təsvir edilən xəncər əyritiyəlidir, qılıncdan sağda təsvir olunan döyüş bıçağı isə düztiyəlidir. Yay- ox qablarının təsvir olunması maraq doğurur. Məhz bu dövrə ilk dəfə olaraq yay qabı və ox qabının qayışlar vasitəsilə vahid kəmərə asılması göstərilib.

Sənduqənin sağ tərəfində ov səhnəsi təsvir olunub. Belə ki, şəkildə iki atlı vəhşi heyvanları ovlayır. Sağ tərəfdəki atlı digər fiqurlara nisbətən böyük təsvir olunub. Atlının kəmərinə asılmış yay (yay qabında) aydın göstərilib. Atlı, iki əli ilə nizəni tutaraq ondan canını qurtarmağa çalışan pələng və ya bəbiri vurur. Kompozisiyanın sol tərəfində təsvir olunan atlı əlindəki əyritiyəli qılıncı yuxarı qaldıraraq maralı təqib edir. Atlının başında təsvir edilən baş geyimi "qızılbaş tacı"nın XVI əsrin əvvəllərində yayılmış formasıdır. Atlının arxasında olan dəyirmi elementi belinə aşırmış dəyirmi qalxan hesab etmək olar. Kompozisiyanın arxa planında iki heyvan (ceyran) və güllər təsvir olunub. Ümumiyyətlə, sənduqə üzərində təsvir olunn kompozisiya XVI əsr Təbriz miniatürləri, eyni dövrə aid "qızılbaş parçaları" və xalçaları üzərində olan ov səhnələri ilə eynidir.

İkinci sənduqənin sol tərəfindəki təsvirləri iki qrupa bölmək olar: ayrıca silah təsviri; ov səhnəsi təsviri. Ayrıca silahlar bir kəmərə asılmış yay qabı ("türk yayı" ilə) və ox qabı (üç oxla) təsvirindən ibarətdir. Ov səhnəsində atlı heyvanları təqib edir. Atlı nizə ilə silahlanıb; nizənin döyüş ucluğu və kiçik son ucluğu aydın görsənir.

Atlının başında "qızılbaş tacı"nın ilkin forması təsvir olunub. Atdan kiçik, lakin at bədən qurluşunda olan beş heyvanın vəhşi qatırlar olmasını ehtimal edə bilərik.

Sənduqənin sağ tərəfindəki kompozisiya daha mürəkkəbdir. Kompozisiyanın sağ və sol qıraqlarında əllərində nizəni döyüş vəziyyətində (qabağa düşmənə tərəf uzadaraq) tutan atlılar təsvir olunub. Atlıların başlarında "qızılbaş tacı"nın ilkin formasını görmək olar. Atlılar arasında olan məkanda yeddi nəfər piyada təsvir olunub. Sol atlının qarşısında dayanan üç piyadadan ikisi əllərində iriölçülü yelpik (saray yelpiyi) saxlayırlar. Yelpiklər ortada olan üçüncü piyadanın başı üzərindədir. Hər üç piyada sola, yaxınlaşan atlıya tərəf baxırlar. Sağ tərəfdəki atlının da qarşısında üç piyada var. Onlardan ikisi əllərində olan yelpikləri sanki atlıya qarşı yönəldiblər. Üçüncü şəxs əlində enli naməlum alət tutur. Hər üç piyada sağa, yaxınlaşan atlıya tərəf baxır. Kompozisiyanın ortasında bir piyada təsvir olunub.

Üçüncü sənduqə üzərindəki təsvirlər oyma texnikası ilə deyil, cızma texnikası ilə yaradılıb. Sənduqənin sol tərəfindəki təsvirlər üç kvadrat kartuşun daxilindədir. Birinci kartuşda (baş tərəfdəki) düztiyəli, yumru başlıqlı xəncər və şahmat taxtasına bənzər fiqur, ikinci kartuşda tağvari ornament, üçüncü kartuşda yəhərlənmiş at və uzun asılma ipi olan qalxan təsvir olunub.

Sağ tərəfdə də kompozisiya üç kvadrat kartuşa bölünüb. Birinci kartuşda (baş tərəfdəki) şar-konusvari dəbilqə (üçbucaq ucluqla), qarmaqlı nizə, çəkicəbənzər toppuz, ikinci kartuşda (mərkəzdə) burun-buruna baxan uzunboğaz çəkmələr, üçüncü kartuşda bir sadağın içində yay və oxlar, asılma ipi olan dəyirmi qalxan və qılınc stilizə olunmuş formada təsvir ediliblər.

Qəbələ rayonu Həmzəli kəndinin (qədim Qəbələ şəhər yerindən 5 km cənub-qərbdə yerləşir) yaxınlığındakı meşəlikdə, qədim qəbristanlıqda XV-XVI əsr Şirvan-Abşeron daş oyma xüsusiyyətləri ilə seçilən sənduqə üzərində (baş tərəfdə) yazılarla bərabər təsvirlər də verilmişdir (17, s.66, №451). Kompozisiyanın mərkəzində yəhərlənmiş at təsvir olunub. Onun boğazının altında olan qotazlar atın zadəgana (vəzifəli şəxsə) məxsus olmasını göstərir. Atın yəhərinə dəyirmi qalxan, yay, əyritiyəli qılınc, ucuna üçbucaq bayraq taxılmış nizə taxılmışdır. Burada həmçinin burun hissələri bir-birlərinə baxan ayaqqabılar və uzunboğaz çəkmələr təsvir edilib.

Qəbələ rayonu Dzaxlı kəndinin qədim qəbristanlığında XVI əsrə aid edilən sənduqə üzərində (baş tərəfdə) yazılarla bərabər təsvirlər də verilmişdir (17, s.65-66, №450). Burada soldan sağa şaquli vəziyyətdə 4 ədəd ox (ucları aşağı baxır), burunları bir-birlərinə baxan iki uzunboğaz çəkmə, yay təsvir olunub.

Gəncə və Qarabağ epiqrafikasına aid edilən məzar daşlarında da silah təsvirləri var.

Azərbaycan Milli İncəsənət muzeyində nümayiş olunan daş at fiquru hazırda Ermənistan Respublikası silahlı qüvvələrinin işğalı altında olan Dağlıq Qarabağın

Laçın rayonundan gətirilmişdir. XVI əsrə aid edilən heykəl üzərində at ləvazimatı (yəhər, üzəngilər, mahmızlar və s.) xırdalıqlarına qədər təsvir olunublar. Abidənin sağ və sol tərəflərində oyma üsulu ilə silah təsvirləri verilmişdir. Sol tərəfdə yay, qılınc və qalxan təsvir olunub. Oymaçı usta silahların hansı tərəfdə daşınmasını dəqiq göstərib – doğrudan da döyüşçü yay qabı və qılıncı sol tərəfdə kəmərdən asır, qalxanı sol əlinə götürürdü. Qalxan dəyirmi formalıdır, mərkəzi umbon aydın göstərilib. Qılınc tiyəsinin aşağı hissəsi azacıq əyilmişdir. Dəstəyin qısa "qolları" və kürəvari başlığı var. Daşın sağ tərəfində arxada oxlar (stilizə olunmuş şəkildə beş ox; oxların kirişə taxılması üçün kəsik yeri aydın görsənir), qabaqda isə nizə təsvir edilib (nizənin üçbucaq ucluğu və sapın arxasına taxılmış son ucluğu var).

Gəncə yaxınlığında aşkar edilən, XVI əsrə aid oxşar formalı, eyni təsvirləri olan daş at fiquru hazırda Nizami Gəncəvi adına *Gəncə* Tarix-*Diyarşünaslıq Muzeyi*ndə qorunur.

Laçından aşkarlanan XVI əsr sənduqəsi üzərində ov səhnəsi təsvir olunub. Sol tərəfdəki atlı nizə ilə şiri öldürür, sağ tərəfdəki piyada oxçu keçiyə ox atır (1, s.146).

Gədəbəy rayonunda aşkarlanmış XVI əsr sənduqə tipli məzar daşı üzərində süjetli səhnə təsvir olunub. Belə ki, əlində zərbəyə hazır vəziyyətdə nizə tutan atlı onun qarşısında dayanan piyadaya tərəf gedir. Piyadanın kəmərində qılınc görsənir (1, s.155).

Mingəçevir ərazisində tapılmış sənduqə tipli məzar daşı hazırda Milli Azərbaycan Tarixi Muzeyində nümayiş olunur (2, s.57). Daş 1576-cı ilə aid edilir (1, s.145). Süjetli səhnədə iki atlı təsvir olunub. Əjdahaya nizəni sancan birinci atlı sol əlində yay və bir ox tutur. Saq tərəfdə kəmərdə ox qabı asılıb. Atlıdan aralı onun dəyirmi qalxanı təsvir olunub. İkinci atlının qolunda ov şahini oturub.

Naxçıvan və Qərbi Azərbaycan epiqrafikası nümunələrində silah təsvirləri həm ayrıca, həm də müəyyən süjet çərçivəsində təsvir ediliblər.

Naxçıvan ərazisindən aşkar edilən XVI əsrə aid daş qoç fiquru hazırda Milli Azərbaycan Tarixi Muzeyində nümayiş olunur. Fiqurun hər iki tərəfində ov səhnəsi təsvir olunub (1, s.222). Sağ tərəfdə at belində oturan ovçunun əlində əyritiyəli qılınc, başında dəbilqə təsvir edilib.

Daşın sol tərəfində piyada yaraqda, dəbilqədə yay-oxla ov edir. Əlində yay və ox tutur, daha üç ox kəmərdə olan ox qabındadır.

Piyadanın paltarı üzərində zolaqların olması onun əynində yumşaq, sırınmış parçadan ibarət yarağı göstərir. Döyüşçünün qarın nahiyəsinə enli qurşaq bağlanıb. Sinədə çarpazlaşmış iki qayış görsənir. Əyritiyəli, "durnabelli" qılınc kəmərdən asılıb. Döyüşçünün başında olan dəbilqə dəyirmi formada təsvir edilib, təpəsində boruvari ucluq var.

Naxçıvan ərazisində aşkarlanmış digər daş qoç fiquru (XVII əsr) üzərində yalnız bir şəkil – qılınc şəkli verilib (1, s.226). Qılınc əyritiyəlidir, dəstəyi "durnabelli"dir.

Oxşar qoç fiquru İçəri Şəhərdə "Sıratağlı dini-memarlıq abidəsi"ndə nümayiş olunur (İçəri Şəhər Sıratağlı dini-memarlıq abidəsi, inv. № 838). Belə ki, fiqurun yan tərəfində uzun dəstəyi olan çomaq, aypara şəklində tiyəsi əyilmiş qılınc (dəstəyinin "qolları" uzundur), düztiyəli xəncər (dəstəyin "qolları"nın ucları aşağı əyilib) və düztiyəli döyüş bıçağı təsvir edilib.

Ordubad rayonu Aza kəndi yaxınlığında pirin qarşısında tapılmış daş qoç fiquru üzərində silah təsvirləri var (18, s.67, №1030). Belə ki, üzərindəki yazısına görə, M.Nemət tərəfindən 1472/73-cü ilə aid edilən fiqurun başı və bir tərəfi qopmuşdur. Salamat qalan tərəfdə iki silah təsvir edilib. Birincisi həndəsi xətlərlə çəkilən yay və oxdur. İkinci silah ilk baxışda yayı xatırlatsa da, ənənəvi yay deyil. Belə ki, iki xətlə təsvir edilən qövsün sağ və sol ucları bir düz xətlə birləşdirilib. Bu xəttin üstündə, ona perpendikulyar olaraq yan-yana beş ədəd ox çəkilib. Analoqlara diqqət yetirilərsə, bu "çarx" (arbalet) silah növüdür.

Qərbi Azərbaycan ərazisində tapılmış məzar daşları sırasında yalnız qədim Azərbaycan torpağı olan Zəngəzurun Urud kəndi ərazisindəki qəbristanlığın daşları nisbətən ətraflı öyrənilmişdir. Erməni vandalları tərəfindən dağıdılan və ya özününküləşdirilən bu daşlar əslində türk tayfalarının tarixi yadigarıdır.

Zəngəzur rayonu Urud kəndi ərazisindəki qəbristanlıqda vəfatı 1555/56-cı ilə təsadüf edən Oqul b.Murad adlı şəxsin qəbrinin sənduqəsində çoxfiqurlu ov səhnəsi təsvir olunub (18, s.71, №1043). Piyada ovçulardan biri sol əlində türk yayı tutur, onun sağ böyründə ox qabında oxlar görsənir.

Həmin qəbristandakı vəfatı 1578/79-cu ilə təsadüf edən Məhdigar b.Əmiram adlı şəxsin qəbrinin sənduqəsinin iki tərəfində silah təsvirləri var (18, s.71, №1046). Belə ki, bir tərəfdə, iki vuruşan öküzlərin arxasında dayanan kişi fiqurunun kəmərində əyritiyəli qısa qılınc asılıb. Digər tərəfdəki səhnədə atlı fiquru (silahları seçilmir) və piyada oxçu fiquru təsvir olunub. Piyada oxçunun əlində yay, kəmərdən asılmış vəziyyətdə ox qabı görsənir.

Urud qəbristanlığındakı 1575-ci ilə aid sənduqə üzərində silah təsvirləri var (1, s.148-149). Belə ki, sol tərəfdə olan atlının kəmərində düztiyəli xəncər çəkilib (sağ budu üzərində). Atlının qarşısında dayanan piyadanın sol əlində yay, sağ əlində ox, kəmərdən asılan vəziyyətdə ox qabı təsvir edilib.

Urud qəbristanlığındakı 1575-ci ilə aid sənduqə üzərində müxtəlif fiqurlar sırasında sol tərəfində birinci piyada döyüşçü təsvir olunub (1, s.152-153). Onun sol əlində uzun çomaq, sağ əlində isə dəfnə yarpağı formasında ucluğu olan nizə var.

Urud qəbristanlığındakı XVI əsrə aid sənduqə üzərində əlində yay olan piyada ovçu ona tərəf qaçan keçiyə ox atır (1, s.156-157). Ovçunun kəmərində üç ədəd ox görsənir. Ovçunun arxasında onun yəhərlənmiş atı dayanır.

Beləliklə, XIII-XIV əsr Kubaçi divar rəsmləri və XIII- XVI əsr məzar daşları üzərində olan təsvirlərin təhlili göstərir ki, onlar XIII-XVI əsrlərdə Azərbaycanda

istifadə olunmuş silahların öyrənilməsində tarixi mənbə kimi istifadə oluna bilərlər. Kubaçi divar rəsmlərində pərakəndə döyüşçü şəkilləri ilə bərabər hərbi yarışlar və təlimlər təsvir olunub. Buradakı rəsmlərdən aydın olur ki, atlı döyüşçü nizə, yay-ox, qılıncla silahlanırdı. Yay "türk yayı" adlana növə, yay-ox qabı "sadaq" növünə olmuşdur. Bəzi rəsmlərdə ayrıca təsvir olunan ox qabı klassik türk köçəri tayfalarının ox qabı formasındadır. Azərbaycanın müxtəlif ərazilərində rast gəlinən məzar daşlarında döyüşçülərin silahlanma kompleksi xırdalıqlarına qədər dəqiq təsvir olunub. Misal üçün, oxçunun dəfn olunduğu məzarın üzərində yalnız yay-ox deyil, yay və ox qabları, hətta oxçu üzüyü göstərilirdi. Ehtimal ki, belə xüsusiyyətləri göstərməklə usta (bəlkə də, məzar daşını sifariş edən şəxsin tələbi ilə) dəfn olunanın təkcə hansı qoşun növünə aid olması deyil, hansı sosial təbəqəyə aid olmasını da bildirməyə çalışmışdır. Məzar daşlarında həmçinin nadir silah növlərinin də (çarx, qala divarına qalxmaq üçün qarmaq, beşuclu nizə) təsvirləri var.

İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:

1.Əfəndiyev R., Əfəndiyev T. Azərbaycan xalqının daş plastikası sənəti. Bakı, 2013.

2.Milli Azərbaycan Tarixi Muzeyi. Bələdçi. Daş dövründən XX yüzilədək. Bakı, 2010.

3.Алекперли Ф. Зооморфные мемориальные памятники Азербайджана // Тезисы III Международной научной конференции «Тюркологическое Искусствознание: Проблемы и Перспективы». Баку, 17 декабря 2013 г. Баку, 2013, с. 30-36.

4.Башкиров А.С. Искусство Дагестана. Резные камни. М., 1931.

5.Бретаницкий Л., Веймарн Б. Искусство Азербайджана IV-XVIII веков. М., 1976.

6.Дебиров П.М. Резьба по камню в Дагестане. М., 1966.

7.Джафарзаде И.М., Джафарзаде С.К. Азербайджанские намогильные камни. // Советская этнография, 1956, № 3, с.104-106.

8.Доде З.В. Кубачинские рельефы: новый взгляд на древние камни. Ставрополь, 2010.

9.Иванов А.А. Культура Кубачи // Во дворцах и в шатрах исламский мир от Китая до Европы. Каталог выставки. Государственный Эрмитаж. СПб., 2008, с. 116-126.

10.İsmizadə O.Ş., Ciddi H.Ə. Bakı Qız qalası yaxınlığındakı abidədən tapılan məzar daşları haqqında //Azərbaycanın Maddi Mədəniyyəti, cild VIII, Bakı, 1976, s.184-199.

11.Кильчевская Э.В. От изобразительности к орнаменту. М., 1968.

12.Котович В.М. Опыт классификации древних писаниц горного Дагестана // Древности Дагестана. Махачкала, 1974, с.29-49.

13.Маммаев М.М. Дагестано-Азербайджанские художественные связи в средние

века (по данным декоративно-прикладного искусства и архитектуры)// Вестник Института истории, археологии и этнографии. 2014, № 1, с. 125–149.
14. Маммаев М.М. Декоративно-прикладное искусство Дагестана: истоки и становление. Махачкала, 1989.
15. Мамаев М.М. Каменный рельеф XIV в. из с.Кубачи с фризовой композицией трех мужских состязаний: история изучения и интерпретация сюжетов // Вестник Института истории, археологии и этнографии. 2013, № 3, с. 85–97.
16. Маммаев М.М.. Принадлежат ли средневековые кубачинские каменные рельефы монголам? //Вестник Института Истории, Археологии и Этнографии. 2013, № 1, с. 98–116.
17. Неймат М. Корпус эпиграфических памятников Азербайджана. Том II. Арабо-персо-тюркоязычные надписи Шеки- Закатальской зоны (XIV век – начало XX века). Баку, 2001.
18. Неймат М. Корпус эпиграфических памятников Азербайджана. Том III. Арабо-персо-тюркоязычные надписи Нахчыванской Автономной Республики (XII век – начало XX века). Баку, 2001.
19. Орбели И. Албанские рельефы и бронзовые котлы // Памятники эпохи Руставели. Ленинград, 1938, с.301- 326.
20. Успенский Б.А. Семиотика искусства. М., 1995.
21. Халилов М. Древние каменные изваяния Южного Кавказа // IRS- Наследие, 2003, №8, с.52-57.
22. Шиллинг Е.М. Кубачинцы и их культура. Историко- этнографические этюды. М. – Л., 1949.
23. Azerbaijan. Jonathan M. Bloom, Sheila Blair. The Grove Encyclopedia of Islamic Art and Architecture. Oxford University Press, 2009.

Sabuhi Ahmadov

Images of weapons on the gravestones and wall reliefs of the XIII-XVI centuries

Summary

Keywords: *medieval tombstones, medieval bas-reliefs, Kubachi wall reliefs, medieval weapons*

For the study of medieval weapons are important visual sources. In addition to miniatures in Azerbaijan battle scenes and images of soldiers are found on everyday objects, and stone reliefs and gravestones. The aim of the article is the study of weapons on the stone reliefs of v. Kubachi of the XIII - XIV centuries and the gravestones of the XIV – XVI centuries. The village of Kubachi was part

of Caucasian Albania and later the state of Shirvanshahs. Academician I. Orbeli believes Kubachi reliefs "Albanian", created by descendants of immigrants from Caucasian Albania. On stone reliefs from Kubachi pictures of warriors, armed with spear, bow and arrows, sword. On the territory of Azerbaijan discovered stone gravestones of XIV – XVI centuries. Some of them have images of warriors with different weapons.

Сабухи Ахмедов
Изображения оружия на надгробных камнях и настенных рельефах XIII-XVI веков

Резюме

Ключевые слова: *средневековые надгробные плиты, средневековые настенные рельефы, Кубачинские настенные рельефы, средневековое оружие*

Для изучения видов средневекового оружия важное значение имеют изобразительные источники. Помимо миниатюр в Азербайджане батальные сцены и изображения воинов встречаются на бытовых предметах, а также каменных настенных рельефах и надгробных плитах. Целью статьи является изучение образцов оружия на каменных настенных рельефах с. Кубачи XIII-XIV веков и могильных плитах XIV – XVI веков. Село Кубачи входило в состав Кавказской Албании, а позднее государства Ширваншахов. Академик И.Орбели считает Кубачинские рельефы «албанскими», созданными потомками выходцев из Кавказской Албании. На каменных рельефах из Кубачи встречаются изображения воинов, вооруженных копьем, луком и стрелами, мечом. На территории Азербайджана обнаружены каменные надгробные плиты XIV – XVI веков. На некоторых из них есть изображения воинов, с разными видами оружия.

Sevinc Vahabova

Şifahi xalq ədəbiyyatında Azərbaycan hərb sənəti nümunələrinin təsviri

Açar sözlər: *şifahi xalq ədəbiyyatı, dastan, misri qılınc, Xorasan poladı, silahsazlıq*

UOT 94 (479.24)

Azərbaycan şifahi xalq ədəbiyyatının çox yayılımış janrlarından biri olan dastanlar nəsildən-nəslə, ağızdan-ağıza keçə-keçə yüz illərlə yaşamışdır. Başqa xalqların şifahi xalq ədəbiyyatında olduğu kimi, Azərbaycan xalqının şifahi xalq ədəbiyyatında da onun öz ictimai həyatı və məişəti ilə yaxından bağlı olan bir sıra dastanları yaranmış və yaranır. Zaman keçdikcə qədim dastanlar məzmun, məfkurə və bədii keyfiyyətindən asılı olaraq xalqın içərisində yaşayıb-yayılır. Əsrlərcə hafizələrdə yaşayan və nəsildən-nəslə keçərək zəmanəmizə qədər gəlib çatan dastanlar, xalq ədəbiyyatının digər nümunələri kimi, folklora məxsus zəruri bir dəyişikliyə uğramaqla, xalqın maddi və mənəvi varlığı ilə həmişə səsləşmiş, onun yaşadığı ictimai-siyasi quruluşla, yaşayış tərzi ilə, estetik görüşləri ilə bağlı olmuş, onun azadlıq meyllərini və ictimai-siyasi təfəkkürünü düzgün əks etdirə bilmişdir. Dastanlar millətlərin din, fəzilət və qəhrəmanlıq macəralarının hekayətləridir. Bir millətin dastanları olması üçün, onun zəngin tarixi keçmişi, böyük savaşlar, köçlər, istilalar və yeni məntəqələrdə Vətən qurmuş xalqın həyat və hafizəsini nəsillər boyu məşğul edən hadisələrin olması lazımdır (3, s. 238). dastan geniş xalq kütlələrinin yaradıcılıq məhsulu və onların estetik tələbatlarını ödəməyin qüdrətli vasitəsi kimi çıxış edirdi. Bu cür qiymətli abidələrdən biri də məşhur "Koroğlu" dastanıdır.

Dünya folklorunun məşhur epopeyalarından biri olan, əsasən türkdilli xalqlar içərisində böyük şöhrət tapan folklor incilərindən sayılan "Koroğlu" eposu çox geniş ərazidə şöhrət tapmış, dil ayrılığına, dini və milli fərqlərə baxmayaraq müxtəlif xalqların ədəbiyyatı və incəsənətində yüksək bədii keyfiyyətlərlə təcəssüm olunmuşdur (1,s.28). Dastanın əsas məzmunu yerli zülmkarlar və yadelli işğalçılara qarşı aparılan mübarizə, patriotizm, vətənpərvərlik kimi dəyərlər təşkil edir. Bununla yanaşı eposun bütün boylarında vurğulanan döyüş səhnələri, silah

istilahları, dövrün silahsazlıq adət-ənənələrinin bədii dil ilə verilməsi dastanın Azərbaycan hərb tarixi, hərb sənətinin öyrənilməsində mənbə kimi rolunu daha da qabarıq göstərir.

"Koroğlu" dastanında daha çox soyuq silah növlərinin adı çəkilir. Ümumiyyətlə, Azərbaycanda döyüşçülərin silahlanmasında soyuq silahlar mühüm yür tuturdu. Təyinatından və istifadəsindən asılı olaraq soyuq silahları aşağıdakı növlərə bölmək olar: kəsici – batırıcı silahlar (qılınc, xəncər), batırıcı silahlar (nizə, zubin), zərbə silahları (əmud, toppuz, şeşpər), zərbə - doğrayıcı silahlar (balta, təbərzin). Həmin nümunələri "uzaqvurma" qabiliyyətinə görə orta (20 m-dən 5 m-ə qədər), yaxın (5 m-dən 7 m-ə qədər) məsafəli və əlbəyaxa döyüş silahlarına ayırmaq olar. Qılınclar soyuq silahın ən mükəmməl növü sayılır. Sivri qılınc öz əyri tiyəli formasına görə düz tiyəli qılıncdan üstün idi. Çünki əyri tiyə daha çox doğrama qabiliyyətinə şərait yaradırdı. O, həm də materialın keyfiyyətinə görə də üstün olurdu. Belə qılıncların tiyələri xüsusi növ poladdan hazırlanırdı. Qılınc – qılıc, şəmşir köçərilərdə, əsasən türk xalqları arasında geniş yayılmışdı. L.N.Qumilyov qeyd edirdi ki, "təmiz formada qılınc, süvari qoşunu silahı kimi, köçərilərin, xüsusilə türklərin ixtirasıdır" (12,s.268) (şəkil 1). Dastanda qılınc istilahına dəfələrlə rast gəlmək olar.

"Həsən xan, Alının bu sözündən acıqlandı, ona qılınc çəkib hücum etmək istədi. Roşən bunu görüb aman vermədi. Qıratı Həsən xanın düz üstünə sürdü, Misri qılıncı çəkdi, boynuna bir qılınc vurdu, baş yerə dığırrandı". "Bir yannan Qırat, bir yannan Dürat, bir yannan Roşən özü şeşpərnən, Misri qılıncnan qoşun dəstəsini qırdı, dağıtdı." (2,s.278).

"Qəniminə qılınc çala,
Ölkəsinə talan sala.
Duşmanlar üstə baş ala
Özü tək gedə, tək gedə" (2,s.280)

Qılınc düz iki kəsərli tiyədən, çarpaz xaçdan, dəstəkdən və dəstəyin başından ibarət olurdu (şəkil 2). Qılıncın dəstəyi buynuzdan və ya yaxud sümükdən düzəldilirdi. Əyritiyəli qılınclar (kılıç) orta əsr şəhərləri Qəbələ, Dərbənd, Şabrandan və Yurdçu (Şərur) yaşayış yerlərindən də məlum olmuşdur (4,s.80). Əyritiyəli qılınc (kılıç) bir və ya ikiağızlı əyri tiyəsi olan doğrayıcı–batırıcı silah sayılır. Bu silah düz perpendikulyar zərbə zamanı hər iki mərhələni, yəni obyektin doğranması və obyektdən tiyənin çıxarılmasını yerinə yetirməyə imkan verir. Düztiyəli qılınc və yaxud palaşla zərbə endirildikdə silahı obyektdən əlavə səylə çıxarmaq lazım olurdu. Əyritiyəli qılıncla isə zərbə vurulduqda əyri tiyə obyekti dioğrayır və hərəkəti davam etdirərək obyektdən çıxır.

"Koroğlu Misri qılıncı çəkib qoşuna cumuldu. O, Qəcəralıya bir əmud vurub yerə yıxdı." (2,s.351).

“Hanı mənim qoş Koroğlum,
Gələ girə bu meydana?
Çəkəndə Misri qılıncı
Qəbzəsi qana boyana” (2,s.366)
“Qoyun bədöylər kişnəsin,
Misri qılınclar işləsin,
Kimi tanab qılınclasın
Kiminiz duşman üstünə!”(2,s.367)

“Kürdoğlu Fətəli adlı ustadan qılınc istədi. Fətəli ona bir neçə qılınc göstərdi. Kürdoğlu qılıncları əlinə aldı, bir-bir basdı, qırdı, o yana atdı. Usta ondan soruşdu: Sənə necə qılınc lazımdır?

Xorasan poladın yaxşısınnan seç,
Yaxşısı olmasa yamanınnan keç
Hər nəyə vuranda dayanmaya heç,
Ya fil, ya kərgədan, ya şahmar ola. ” (2,s.404)

Dastanda adı çəkilən Xorasan poladı Dəməşq poladının bir növüdür. Şərqdə, eləcə də Azərbaycanda Dəməşq poladının bir neçə növü məlum olmuşdur. Bu növlər öz adlarını xarici görünüşündən, hazırlanma texnologiyasından, ayrılma yerlərindən asılı olaraq almışlar. Onlardan ən çox məlum olan nümunələr bunlardır: Hindistanın “hindi” və “kumhindi” (“hind dalğası”), farsların “taban” (“parıldayan”) və “qarataban”, “xorasan” və “karaxorasan”, Suriyanın “şam” və türklərin “bəyaz” (11,s.11) polad növləri.

“Canım usta , mənə bir qılınc qayır-
Nə uzun, nə gödəy, bir qərar ola;
Dəstəsi şirmayı,özü qoşa noy,
Vuranda ürəydən xəbərdar ola.” (2,s.405)

Qılıncların, xəncərlərin tiyələri xüsusi tərkibli maddələrlə cilalanıb boyanırdı (14.s.89). Tiyənin düzəldilməsində sarı-qızılı, yaşıl, zeytun rəngi, qırmızımtıl və bənövşəyi rənglərin, müxtəlif rənglərin bir-birini əvəz etməsindən yaranan koloritə çox fikir verilirdi. Daha sonra, təcrübəli bilicilər şırnaqlı dalğaların axıcılığının təsvirini tiyənin dəstəsindən ucuna və ya əksinə istiqamətdə baxdıqda ayırd edə bilirdilər. Köndələninə kəsişən zolaqlar naxışların gözəlliyini göstərirdi. Təbii yolla qızdırılmış poladın soyudulması, yaxud süni yolla metal laylarının qarışdırılması zamanı düz təsviri kəsən köndələn, eninə xətlər əmələ gəlirdi. Keyfiyyətli tiyə düzəltmək mürəkkəb və çətin proses sayılırdı, ona görə də tiyə istehsalı metallurgiyanın ən çətin sahəsi sayılırdı. V.V.Arendt yazırdı ki, tiyə özündə iki, bir-birinə zidd keyfiyyəti: bir tərəfdən şırımın suvaşqanlığı və qüvvətliliyi, elastikliliyi, digər tərəfdən kəsərin maksimal möhkəmliyini birləşdirməlidir (8,s.161)

Silahın hazırlanması ilə xüsusi silah ustaları, xüsusi emalatxanalar məşğul

olurdular. Emalatxanalarda silahın düzəldilmə sirləri atadan oğula verilirdi. Bəzən silah hazırlanması ilə sexlərdən başqa bütöv bir ailə də məşğul olurdu (10,s.21).

Azərbaycan sənətkarları tiyələrin ornamentlərində çox zaman basma qızıldan, kəsmədən və cilalamadan istifadə edirdilər. Dəstək və qınlar çox zaman mina ilə bəzədilir, daş-qaşlardan firuzəyə, nefritə, əhrəmə və zümrüdə, mirvariyə üstünlük verilirdi. Dekorativ motivlərdə yazılar, ustanın adı, yeri, silahın istehsal tarixi göstərilirdi (10,s.85), (şəkil 3).

Azərbaycan silahlarının hazırlanmasında səciyyəvi cəhət gümüşlə, qarasavatla minanın və qravürlənmiş ornamentin olmasıdır. Qravür-cızma, oyma naxış və minalanmadan əlavə Azərbaycan silahsazları silahların bəzədilməsində ştamplanmadan, kəsmə, çərtmə naxışdan da istifadə edirdilər.

Hakimiyyət rəmzi sayılan qılınclar həm də bahalı hədiyyələr timsalında xələt verilir, hədiyyə olunurdu (7,s.23,32,227). Şərqdə qılıncın semantik mənaları hakimiyyət rəmzi kimi qərbdəki semantik mənalarla eynilik daşıyır: silah hakimin hərbi, məhkəmə və güc idarələrinin funksiyalarını xarakterizə edilirdi. Azərbaycanda qılıncın hakimiyyət atributu kimi baxılması faktoru Azərbaycan xanlıqlarının Rusiya tərəfindən tutulmasına qədər saxlanılırdı. Xanlıqların tamamilə ləğv olunmasına qədər çarizm bu ənənə ilə hesablaşmalı olurdu. XIX əsrin əvvəli tarixşi Mirzə Camal Cavanşir yazırdı ki, imperator I Aleksandr 19 sentyabr 1806-cı ildə Mehdiqulu xanı Qarabağ xanlığına təyin edərkən fərmanla birlikdə ona bayraq və qiymətli daş-qaşlarla bəzədilmiş qılınc göndərmişdi (6,s.128). Qarabağnamələr müəlliflərindən biri olan, həmin dövrün ictimai-siyasi hadisələrinin şahidi Mir Mehdi Xəzani qeyd edirdi ki, 1838-ci il oktyabrın 30-da imperator I Nikolay Mehdiqulqu xanın xidmətlərini qeyd edərək 1806-cı il bayrağını hakimiyyət rəmzi kimi istifadə olunmasına icazə verdi və "daş-qaşlarla bəzənmiş qılınc və cıqqa" göndərdi (cıqqa-qiymətli metal və daşlarla bəzədilmiş dekorativ lövhəsi olan başlıqdır) (5,s.234).

Azərbaycanda orta əsr döyüşçüsünün rəmzi, hücum silahı olan qılınc döyüşçünün vüqarı, fəxri sayılırdı və ailədə müqəddəs, əziz silah olduğu üçün irsən atadan oğula verilirdi. Qılınc hakimiyyət rəmzi olaraq orta əsr sikkələrinin üzərində belə təsvir olunurdu. XVII-XIX əsrlərdə mis pulların arxa üzündə müxtəlif heyvan təsvirləri, insan fiqurları, cansız predmetlərdən qılınc, gəmi, nəbati təsvirlər həkk olunurdu (13,s.173).

Azərbaycanda, eləcə də bütün Şərqdə qılıncı gəzdirməyin iki tərzi vardı: türk və fars tərzi. Farslar qılıncı avropalılar kimi tiyəsinin ucu torpağa yönəldilmiş vəziyyətdə gəzdirirdilər, qılıncın qını onun tiyəsini tamamilə bağlayırdı. Türklər əsasən atlı döyüşçülər olduqları üçün qılıncı ipək qurşaqda sağdan sola doğru vəziyyətdə gəzdirirdilər. Belə olduqda qılınc sərbəst şəkildə solda taxılır, sonluğu yuxarı baxırdı: bu vəziyyətdə qılınc asan tutulurdu və tiyənin dörddə bir hissəsini açıq saxlamaq, yəni tamamilə qının içərisinə qoymamaq olurdu (9, s.228).

Beləliklə, şifahi xalq ədəbiyyatımızın qəhrəmanlıq janrına aid ən bariz nümunəsi sayılan "Koroğlu" dastanı xalq yaradıcılığı, xalqın ədəbi-bədii təfəkkürünün incisi olmaqla yanaşı, Azərbaycan hərb tarixinin, silahsazlıq ənənələrinin öyrənilməsində tarixi mənbə kimi mühüm əhəmiyyətə malikdir.

İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:

1. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Bakı, 1981.
2. Azərbaycan ədəbiyyatı inciləri. On iki kitabda. Dastanlar. Bakı, 1987.
3. Əhmədov S.Ə., Cəfərova E.B. Azərbaycan orta əsr silahları. Bakı, 2005.
4. Heyət Cavad. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 1990.
5. Xəzani Mir Mehdi. "Kitabi-tarixi Qarabağ". Qarabağnamələr. Bakı, 1991.
6. Qarabağı Mirzə Camal cavanşir. Qarabağ tarixi. Bakı, 1959.
7. Qarabağı Mirzə Yusif. "Tarixi-safi". Qarabağnamələr. Bakı, 1991.
8. Арендт В.В.О технике клинкового производства. М.-Л., 1936.
9. Денисова М.М., Портнов М.Э., Денисов Е.Н. Русское оружие. Москва, 1953.
10. Ленц Э. Императорский Эрмитаж. Указатель отделения средних веков и эпохи Возрождения. Часть 1. Собрание оружия. С-Пб., 1908.
11. Ленц Э. Императорский Эрмитаж. Указатель отделения средних веков и эпохи Возрождения. Часть 1. Собрание оружия. С-Пб., 1915.
12. Мамедов С. А История войн и военного искусство Азербайджана (с древнейших времен до XVIII в) Баку, 1997.
13. Раджабли А.М. Нумизматика Азербайджана. Баку, 1997.
14. Хубайши Абу-л Фазл. Байан ас-санаат. Москва, 1976.

Sevinj Vahabova

Studying of military art samples in Azerbaijan verbal folk literature

Summary

Key words: *folk literature, epos, Mysry dagger, steel of Khorasan, military*

The article based on the sample of verbal folk art "Keroglu" epos and examines military art of Azerbaijan. The reviewed paper basically describes the sample of the cold steel – scimitars, its manufacture and use in the military sphere, as well as it shows the importance attached to upholding the armament of the Azerbaijani soldier in the Middle Ages.

Севиндж Вагабова

Изучение образцов военного искусство Азербайджана в устной народной литературе

Резюме

Ключевые слова: *устная народная литература, эпос, "сабля- Мисри", Хорасанская сталь, оружейное искусство*

В статье на основе образца устного народного творчества эпоса «Короглы», изучается военное искусство Азербайджана. Дается в основном описание образца холодного оружия- сабли, ее производство, применение в военной сфере, а также почетное место в вооружении Азербайджанского воина в средние века.



şəkil 1



şəkil 3



şəkil 2

Aygün Quliyeva

Şirvanşahlar Sarayı Kompleksinin tarixinə aid bəzi mənbələr haqqında
(Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)

Açar sözlər: *Şirvanşahlar sarayı, muzey, material, arxeoloji qazıntılar, maddimədəniyyət*

UOT 930.2

1921-ci ilin may ayından başlayaraq ilk tamaşaçılarını qəbul edən, o zamanlar Dövlət Muzeyi adlandırılan Milli Azərbaycan Tarixi Muzeyinin respublikada elmi-tədqiqat müəssisələrinin, eləcə də muzey işinin inkişafında böyük rolu olmuşdur. Belə ki, Azərbaycan muzeylərinin "anası" olan bu muzeyin bədii-tarixi dəyərləri əsasında 1920-30-cu illərdə təbiət-tarixi, incəsənət, teatr, ədəbiyyat, din və ateizmin tarixi muzeyləri, sonralar MEA Əlyazmalar institutuna çevrilmiş Əlyazmalar fondu və Şirvanşahlar sarayı muzey-qoruğu yaradılmışdır (8, s. 3). 1940-cı ilin sonlarında isə "Muzeylər evi" adlanan Milli Azərbaycan Tarixi Muzeyi (bundan sonra MATM) H.Z.Tağıyevin mülkündən Şirvanşahlar sarayına köçürülmuş və bir müddət burada fəaliyyət göstərmişdir (10, s. 338).

MATM-da Azərbaycan dövlətçilik tarixi üçün son dərəcə qiymətli olan və qədim dövrlərdən bu günə qədər mühafizə olunan bir çox maddi mədəniyyət nümunələri qorunub saxlanılır. Onların arasında Şirvanşahlar dövrünü təmsil edən maddi mədəniyyət nümunələri özünəməxsus yer tutur. Bu günə qədər MATM-da Azərbaycanın memarlıq incilərindən sayılan Şirvanşahlar sarayına, eləcə də onun tarixini, görünüşünü, öyrənilməsini əks etdirən çoxsaylı arxeoloji, epiqrafik, təsviri və sənədli mənbələr, o cümlədən sarayın XIX əsrin sonu-XX əsrin əvvəllərindəki görünüşünü əks etdirən rəsm əsərləri, sarayda gedən qazıntı işlərinin gedişatından bəhs edən bir çox qiymətli arxiv sənədləri qorunub saxlanılır.

Yarandığı ilk gündən MATM maddi mədəni irsin öyrənilməsini, qorunmasını və təbliğini əsas vəzifə kimi qarşısına qoyaraq bu sahədə çox böyük uğurlar qazanmış, hətta bu istiqamətdəki fəaliyyətində bir çox ilklərə də imza atmışdır. Belə ki, 1920-ci ildə arxeoloji tədqiqat işlərinin aparılması ilə məşğul olacaq hər hansı qurum olmadığından MATM bu işi öz üzərinə götürmüş, məhz bu məqsədlə Muzeyin

(Muzekskurs) nəzdində Qədim Abidələri Mühafizə Komissiyası təşkil olunmuşdur. Maraqlı məqamlardan biri də budur ki, elə həmin ilin iyun ayında ilk arxeoloji kəşfiyyat səfəri Şirvanşahlar sarayına təşkil olunmuşdur (12, s. 29).

Şirvanşahlar sarayının öyrənilməsi sonrakı illərdə də davam etdirilmişdi. Şirvanşahlar saray kompleksində aparılan təmizlənmə və təmir işləri arxeoloji qazıntılarla müşayiət olunurdu. Arxeoloji tədqiqat işləri 1924-1925-ci illərdə də davam etdirilmiş, çöl tədqiqatlarının yekunu haqqında Y.A.Paxomov məlumat vermişdir (2, s. 16). Kompleksdə arxeoloji tədqiqatlar sonralar 1932-1934-cü illərdə memar İ.P.Şeblıkinin başçılığı ilə həyata keçirilmişdir. Qazıntılar nəticəsində bəlli olur ki, sarayın mərkəzi və ona cənubi-şərqdən birləşən otaqları daha erkən dövrə aid tikili qalıqları üzərində ucaldılmışdır (2, s. 17). 1937-1939-cu illərdə Bakının İçərişəhər sahəsində, Şirvanşahlar sarayının həyətində, 1941-ci ilin yayında isə divanxananın qərb hissəsində arxeoloji qazıntılar aparılmış, V.N.Leviatov qazıntıların nəticələri, əldə olunmuş materiallar haqqında məqalə və kitabça çap etdirmişdir (2, s. 19). Kompleksdə arxeoloji qazıntılar 1944-1946-cı illərdə də V.N.Leviatovun rəhbərliyi ilə aparılır (2, s. 20).

Azərbaycan SSR-nin Xalq Komissarları şurasının 1923-cü il qərarına əsasən aparılmış təmir-bərpa işləri nəticəsində Kompleksin bəzi tikililərinin, yalnız zahiri görkəmi ilkin görünüşə qaytarılmışdır. Bütün bu arxeoloji qazıntılar nəticəsində mövcud tikililər öyrənilməklə yanaşı, orta əsrlər dövrünə aid yeni tikili qalıqları da üzə çıxarılmışdır. Aparılmış təmir-bərpa işləri isə kompleksə yeni həyat bəxş etmiş, onu Azərbaycanın orta əsrlər dövrünə aid memarlıq incisinə çevirmişdir. Təsadüfi deyil ki, Şirvanşahlar sarayı 2000-ci ildə YUNESKO tərəfindən "Dünya Mədəni İrsi" siyahısına salınmışdır. Həmçinin bu siyahıya İçərişəhər, Qız qalası və Qala divarları da əlavə edilmişdir.

Məlum olduğu kimi memarlıq inciləri təmsil olunan Şirvanşahlar kompleksində orta əsrlərə aid bir çox abidələr qorunub saxlanmışdır. Belə ki, İçərişəhər ərazisində XI əsrə aid ən qədim abidə, xalq arasında "Sınıqqala" adı ilə tanınan Məhəmməd ibn Əbubəkr məscididir ki, hicri təqvimlə 471 (1078/79)-ci ildə inşa olunduğu bildirilir. Bu tarix Şirvanşah I Fəribürzün hakimiyyət illərinə təsadüf edir. Məscidin formaca qala bürcünü xatırladan 12 m hündürlüyündə minarəsi var. İçərişəhərdə həmin dövrün abidələrindən XII əsrə aid Ləzgi və Xacə Əmir şah məscidləri də mövcuddur (3, s. 143-145).

Şirvanşahlar dövrünə aid Maştağa kəndində də vaxtilə mövcud olmuş Birə Arğutay (h. 817=1414/15) məscidinin kitabəsi böyük maraq doğurur. Kitabə dövrümüzə qədər qorunaraq Şirvanşahlar sarayının fonduna təhvil verilmişdir. Kitabənin mətnində: "Məscidlər Allaha məxsusdur, Allahdan başqasına ibadət etməyin. Ya Muhammməd! Bu mübarək məscid Məşqədəhli Birə Arğutay ibn Adəm-ibn Hacı Xəlilindir. Sultan İbrahimin hökmranlıq günlərində, səkkiz yüz on yeddinci

ildə (817=1414/15)" sözləri həkk edilmişdir (l, s. 92-93; 15, s. 58, 160).

Əsrarəngiz memarlıq kompleksinə malik Şirvanşahlar sarayı orta əsr səyyahlarının diqqətini cəlb etmiş, abidə haqqında dəyərli məlumatlar onların qeydlərində də əks olunmuşdur. XVI-XIX yüzilliklər boyu sarayı görmüş bütün səyyah və alimlər- E.Kempfer, İ.Lerx, S.Qmelin, C.Kuk, E.Eyxvald, J.F.Qamba, İ.N.Berezin və digərləri də gözəl yonulmuş iri daş blokların bir-birinə ustalıqla pərçim edilməsinə, aralarındakı tikiş yerlərinin sezilməməsinə, daş üzərinə həkk edilmiş incə oyma naxışlara heyranlıqlarını bildirmişlər (11, s. 151-166).

Əlbəttə ki, bu abidənin əcnəbi səyyahların diqqətini cəlb etməsi təsadüfi olmayıb, bilavasitə onun memarlıq quruluşu ilə bağlıdır. Belə ki, saray ikimərtəbəli olub, yerli Badamdar daşından qeyri-düzgün düzbucaqlı formasında tikilmişdir. Otaqlarının yaxşı işıqlandırılması məqsədilə sarayın cənub-şərq hissəsi girintili-çıxıntılı inşa edilmişdir. İlk əvvəl sarayda 52 otaq olmuş, onlardan 27-si birinci, 25-i isə ikinci mərtəbədə yerləşmişdir. Tədqiqatçı V.M.Sısoyev 1925-ci ildə öz kitabçasında sarayın təsvirini verərkən ikinci mərtəbədə 28 otağın olduğunu qeyd etmişdir (16, s. 4). Lakin M.Ə.Qazıyevin redaktəsi ilə nəşr olunmuş əsərdə isə birinci mərtəbənin 28 otaqdan ibarət olması ilə bağlı məlumat verilmişdir (4, s. 8). Dar yarığa oxşar pəncərələri-mazğalları olan birinci mərtəbə daha çox xidməti məqsədlər üçün, ikinci mərtəbənin otaqları tağbəndli tikilərək şah və onun ailəsi üçün nəzərdə tutulmuşdur. Ansambl tikililərinin əksəriyyəti XV əsrin ikinci yarısında ucaldılmasına baxmayaraq, saray binasının memarlıq xüsusiyyətləri tədqiqatçıların bəzilərini bu nəticəyə gətirib çıxarmışdır ki, saray binası daha əvvəl tikilmiş və öz bünövrəsi ilə əvvəllər tikilmiş yaşayış tikililərinin qalıqlarını örtmüşdür. Saray planının mürəkkəb konfiqurasiyaya malik olması və otaqların özünəməxsus şəkildə yerləşməsi binanın ayrı-ayrı hissələrinin müxtəlif vaxtlarda inşa edilməsini göstəricisi kimi qəbul edilir. Daxildə mərtəbələr arasında əlaqə divar qalınlığında yerləşən iki dar pilləkan vasitəsilə həyata keçirilmişdir. Şirvanşahlar dövlətinin süqutundan sonra saray, keşməkeşli tarix yaşayaraq müxtəlif dövrlərdə bir sıra dağıntılara məruz qalmış, XIX əsrdə çar hərbi idarəsinin anbarına çevrilərək xeyli dəyişilmişdir (3, s. 159).

Həqiqətən də, VI-XVI əsrlərdə mövcud olmuş Sirvanşahlar dövləti Azərbaycanın üç minillik dövlətçilik tarixində özünəməxsus iz qoymuş, dövrünün güclü dövlət qurumlarından biri olmuşdur (5, s. 61). Məlumat üçün bildirək ki, sərhədləri şimalda Dərbənddən başlayaraq şərqdə Xəzər dənizi, qərbdə Gəncə və Şəki ilə əhatə olunmuş Şirvanşahlar dövlətinin ilk paytaxtı Şamaxı şəhəri olmuş, Şirvanşah I Axsitanın zamanında 1191-ci ildə baş vermiş zəlzələdən sonra paytaxt Bakıya köçürülmüşdür. Bakının ən yüksək təpəsi üzərində Şirvanşah III Mənuçöhr tərəfindən möhkəmləndirilmiş qala divarlarının arasında bu dövlətin iqamətgahı - Şirvanşahlar sarayı salınaraq, daha sonralar Şirvanşah I İbrahim (m. 1382-1417),

Şirvanşah I Xəlilullah (m. 1417-1465) və Fərrux Yasar (m. 1465-1500) dövründə yeni tikililərlə daha da genişləndirilmişdir (1.səh.159).

Beləliklə, Şirvanşahlar saray kompleksinin Azərbaycan tarixində və maddi mədəniyyətində əhəmiyyətli mövqeyə malik olması şübhəsizdir. Lakin bu kompleksin tarixinə, eləcə də Şirvanşahlar dövrünə aid kifayət qədər mənbələr mövcuddur ki, onların işıqlandırılması xüsusi əhəmiyyət kəsb edir. Əlbəttə, bu mənbələrin bəzi nümunələri müxtəlif vaxtlarda muzey mütəxəssisləri tərəfindən araşdırılmış, onlar haqqında dəyərli məlumatlar əldə edilmişdir. Hazırda Şirvanşahlar dövrünə aid həmin mənbələrin bir çox dəyərli nümunələri MATM-ın ekspozisiyasında nümayiş olunur.

Tədqiqata cəlb olunmuş mənbələrin bir hissəsini əşyavi, daha dəqiq desək arxeoloji tapıntılar təşkil edir. Məlumat üçün bildirək ki, kompleks ərazisində aparılmış arxeoloji qazıntılar və təmir-bərpa işləri zamanı saray həyətindən, divanxana həyətindəki təsərrüfat quyularından və saray türbəsindən xeyli sayda müxtəlif təyinatlı əşyalar aşkar edilmişdir. Onların bir qismi MATM-ın Arxeologiya fondunda mühafizə olunur.

Arxeologiya fondunda mühafizə olunan tapıntılar arasında 1921-ci ildə Şirvanşahlar sarayının orta həyətində, Seyid Yəhya Bakuvinin məzarı təmizlənərkən aşkar edilmiş sarı şirli saxsı piyalə və 1922-ci ildə saraydan mürəkkəblə dua yazılmış qırmızı rəngli saxsı parçası var (AF 24016). Digər tapıntılar isə 1930-1940-cı illərdə aşkar edilmiş iri ölçülü şirli saxsı kasa və bosqablardır. Saray quyularından tapılmış bu qablar üzərində müxtəlif bəzəklər - dalğavari, həndəsi və nəbati naxışlar həkk edilib. Bəzilərinin oturacaqları dabanlıdır (AF 24021, AF 24251, AF 24019) ***(şəkil 1)***. Şirvanşahlar kompleksindən aşkar olunmuş tapıntıların bir hissəsi müxtəlif ölçülü və formalı küpələrdən (AF 2909, AF 2919, AF 24010), dolçalardan (AF 24003, AF 2903, AF 24009) və seladon qab parçalarından ibarətdir. Çindən idxal edilmiş seladon qablar estetik gözəlliyi ilə seçilirlər (AF 24015). Arxeologiya fondunda həmçinin Şirvanşahlar sarayının təsərrüfat quyularından aşkar edilmiş qida qalıqları da mühafizə edilir.

Artıq sirr deyil ki, qədim dövrlərdən Azərbaycan əhalisi öz məişətində müxtəlif növ işıqlandırma vasitələri yaratmış, uzun müddət onlardan istifadə etmişdir. Sözsüz ki, bu isıqlandırma vasitələrinin inkişafında Azərbaycan ərazisindən çıxan təbii yanacağın – neftin də böyük əhəmiyyəti olmuşdur. Arxeoloji qazıntılar zamanı külli miqdarda müxtəlif növlü çıraqların tapılması belə işıqlandırma vasitələri Azərbaycanda geniş yayıldığını sübut edir (9, s. 186). Neft çıraqlarının geniş yayılması orta əsrlərdə Bakı neftinin isıqlandırma vasitəsi kimi geniş istifadə edildiyini göstərir. Şirvanşahlar sarayından da müxtəlif quruluşa və rəngə malik çıraqlar aşkar edilmişdir. MATM-ın Arxeologiya fondunda saxlanılan və özünəməxsus formaya malik olan bu çıraqların lülək və ağız hissələri hislə

örtülmüşdür (AF 1673, AF 24005, AF 2901). İnventar nömrəsi AF 24020 olan çırağın üzəri qəhvəyi şirlə örtülərək anqobla naxışlanmışdır (7, s. 135).

Şirvanşahlar sarayı kompleksindən aşkar olunmuş arxeoloji tapıntılar arasında şirli divar bəzəklərinə - kaşılara da rast gəlinir. Belə ki, 1933-cü ildə Şirvanşahlar sarayında təmizləmə işləri aparılarkən üzəri firuzəyi şirlə örtülmüş başı kəsik piramida şəkilli kaşı nümunəsi diqqəti cəlb edir ***(şəkil 2)***. Ölçüləri 13x7x7 sm olan həmin kaşının gili bişirildikdən sonra qırmızı rəng almışdı. Şirvanşahlar sarayının müasir mənzərəsindən fərqli olaraq, bu cür tapıntılardan orta əsrlərdə kaşılardan geniş istifadə edildiyi məlum olur (7, s. 136). Kompleksin tikililərində şirli kaşı nümunələrindən geniş istifadəni səyyahların məlumatları da təsdiq edir. Belə ki, 1734-cü ildə Bakıdan кeçən İohann Lerx yazırdı: "Sarayın dam örtüyü (gümbəz və qübbələri) firuzəyi rəngli daşlarla, yəni kaşı parçaları ilə örtülmüşdür" (11, s. 151-166).

Şirvanşahlar dövrünə aid qiymətli tapıntıların kiçik bir hissəsini parça qalıqları təşkil edir. Həmin parça qalıqlarından biri (AF 23654) hicri təqvimlə 839 (1435/36)-cı ildə vəfat etmiş I Xəlilullahın anası Bikə xanımın məzarından tapılmışdır ***(şəkil 3)***. MATM-ın ekspozisiyasında nümayiş olunan və ölçüsü 80x73 sm olan bu parçanın böyük bir hissəsi işləməli, digər hissəsi isə sayadır. Bu parça qalığının aşkarlandığı türbə Azərbaycanın memarlıq inciləri sırasına daxil olmaqla Şirvanşah I Xəlilullah tərəfindən anası və oğlu üçün inşa etdirilmişdir. Sonralar onun digər ailə üzvləri də burada dəfn edilmişlər. Hicri təqvimlə 789-cu (1387) il təvəllüdlü saray şairi Bədr Şirvaninin Divanındakı mədh və qəsidələrdən Şirvanşahın ailə üzvlərinin adları dəqiqləşdirilmişdir. B.Şirvani türbədə dəfn edilənlərin doğum və ölüm tarixlərini göstərib şah ailəsindən olanların adlarını qeyd etmişdir. Burada I Xəlilullah, onun anası ilə yanaşı, oğulları Fərrux Yamin, Şeyx Saleh, Əmir Bəhram, İbrahim, əmisi oğlu, Şirvan ordusunun baş sərkərdəsi Əmir Təhmurəs dəfn edilmişlər.

Şirvanşahlar dövrünə aid digər parça qalığı da xüsusi maraq kəcb edir (AF 23594). Uzunuluğu 115, eni 85 sm olan həmin parça qalığının yerliyində "Bəndi-Rumi» elementi üzərinə buynuzvari naxışlar və kufi xətti ilə yazılar həkk olunmuşdur ***(şəkil 4)***. Tədqiqatçı Ə.Ələsgərzadə tərəfindən oxunmuş həmin yazıda deyilir: "Tut ağacı qurdu daha yüksək varlığa – kəpənəyə çevrilməzdən əvvəl, özünü barama ilə bürüyür. Biz də səni bu kəfənə bürümüşük ki, sonradan sən mələyə çevriləsən" (Məlumat- Şirvanşahlar Sarayı Kompleksinin elmi arxivindəki bir sənəddən əldə edilib).

MATM-da həmçinin Şirvanşahlar dövrünü təmsil edən çox kiçik ölçüdə - 2,5x1,5 sm (AF 23601) kətan və uzunluğu 30 sm olan qalın parça qalıqları (AF 2321) da saxlanılır. Bu parça nümunələri orta əsrlərdə Azərbaycanda toxuculuq sənətinin, eləcə də bədii estetik zövqün yüksək səviyyədə olduğunu göstərən mənbələrdir.

Şirvanşahlar dövrünün öyrənilməsi üçün xüsusi əhəmiyyət kəsb edən mənbələrin

digər qrupunu epiqrafik materiallar və ya daş kitabələr təşkil edir. Hazırda MATM-ın daimi ekspozisiyasında Bayıl qəsrinin kitabələrindən 2 ədədi nümayiş olunur. Onlardan birinin üzərində öküz başı təsviri və ərəb əlifbasının "dal, əlif, mim, hə" hərfləri həkk olunub (AF 23717). Digərinin üzərində isə insan (qadın) başının təsviri və ərəb əlifbasının "ra, əlif, ra" hərfləri var (AF 23718). Kitabələrin hər ikisi XIII əsrə aid edilir. Kitabələr 1969-cu ildə MATM-ın nəzdində fəaliyyət göstərmiş sualtı arxeoloji ekspedisiya tərəfindən Bayıl qəsri ərazisində axtarışlar aparılarkən Xəzər dənizinin dibindən tapılıb.

Salnamələrin verdiyi məlumata görə, ada üzərində salınmış Bayıl qəsri-1306-cı ildə baş vermiş zəlzələ nəticəsində dağılaraq suyun altında qalmışdır. Yalnız XVIII əsrin I rübündən etibarən suyun səviyyəsi tədricən enmiş və qəsrin qalıqları görünməyə başlamışdır ***(şəkil 5)***. 1939-1940-cı illərdə arxeoloq İshaq Cəfərzadənin başçılığı ilə aparılmış qazıntılar nəticəsində ölçüləri 180 x 40 metr, divarlarının qalınlığı isə 2 metr olan uzunsov, düzbucaqlı formalı qəsrin qalıqları aşkar olunmuşdur. Burada aşkarlanmış doqquz tikili qalıqlarının hər biri iki otağa ayrılırmış. Onlardan ikisində ocaq izləri də tapılmışdır (3, s. 149-154).

Ümumiyyətlə, 1939-1968-ci illər ərzində Bayıl qəsrində aparılmış ayrı-ayrı qazıntılar zamanı suyun altından təqribən 699 daş kitabə qaldırılmışdır. Hündürlüyü 73, enləri isə 40-50 sm olan həmin kitabələrdən birinin üzərində hicri tarix – 632-ci il (1234/35) yazılmışdır. Kitabələrdəki yazılar demək olar ki, daşların hündürlüyü böyüklüyündədir. Ehtimal ki, yazıların böyüklüyü onların xeyli uzaq məsafədən aydın oxunmasına xidmət edir.

Xüsusi maraq kəsb edən epiqrafik abidələrdən biri isə l954-cü ildə İçərişəhərin qala divarı yaxınlığından tapılmış XII əsrə aid daş kitabədir (6, s. 70). Düzbucaqlı yastı daş parçasından ibarət həmin kitabə üzərində gözəl kufi xəttilə Kəsrani sülaləsindən olan Şirvanşah Mənuçöhrün adı və titulları qeyd edilmişdir. Uzunluğu 202, eni 70, qalınlığı isə 14 sm olan bütöv daş parçasında xəttat-usta üç sətirlik kufi yazıları qabarıq şəkildə vermiş, hərflər arasında nəbati naxışlar-yarpaqlar salmışdır. Bu naxışlar kufi hərfləri ilə vəhdət təşkil edərək onu bir növ tamamlamışdır. Kitabə üzərində həkk olunmuş yazının məzmunu isə belədir: "Şəhər qalasının bina edilməsinə əmr etdi əzəmətli Məlik, alim, adil, müzəffər, mənsur, mücahid, dinin və dövlətin fəxri, islam və müsəlmanların istinadgahı, ən böyük Xaqan, Böyük Şirvanşah Əbül Heca Mənuçöhr bin...". Göründüyü kimi kitabədə fikir tamamlanmır. Çox güman ki, fikrin davamı başqa bir daşın üzərində həkk olunmuş, lakin dövrümüzə qədər gəlib çatmamışdır. Tədqiqat zamanı məlum olmuşdur ki, Bakının kitabədə göstərilən qala divarı Kəsrani sülaləsindən olan Əbül Heca ləqəbli Şirvanşah II Mənuçöhrün (1120-1149) əmri ilə inşa edilmişdir. Haqqında danışdığımız daş kitabə hazırda MATM-ın ekspozisiyasında nadir tarixi bir sənəd kimi nümayiş edilir (6, s. 70-72).

MATM-ın zəngin kolleksiyasında Şirvanşahlar dövrünə aid 2 ədəd numizmatik material da daxildir. Şirvanşahlar sarayı ərazisindən aşkar edilmiş həmin sikkə nümunələrindən birinin üzərinə "Bakuyə" sözü zərb edilmişdi.

Oxşar tapıntı Abşeronun Maştağa kəndi yaxınlığında "Ləhic" adlı ərazidə saxsı dibçəkdən tapılmış 21 bütöv və 1 pul qırıtısından ibarət gümüş sikkə dəfinəsindən məlumdur. Dəfinə hicri təqvimlə 785-ci (1383/84) ilə, Şirvanşah Huşəhg ibn Kavus dövrünə aid edilir. Sikkələr Bakuyə ilə yanaşı, Guştəsbi Şəbran və Şamaxıda kəsilmişlər (13)

Bilavasitə Şirvanşahlar sarayının tarixinə aid əşyavi mənbələrdən biri MATM-ın Xüsusi fondunda mühafizə edilir. İki zərgərlik nümunəsindən – qızıl sancaq və bir cüt sırğadan ibarət olan həmin əşyavi mənbələr Kompleks ərazisindəki Saray türbəsindən tapılmışdır. XV əsrin ortalarına aid edilən sancaq Şirvanşah I Xəlilullahın hicri təqvimlə 850-ci ildə həlak olmuş oğlu Əmir Bəhramın məzarından aşkar edilmişdir (14, s. 44). Qiymətli tapıntını diametri 1,5sm, iynəsinin uzunluğu isə 3,8 sm-dir ***(şəkil 6)***. Sancaq altı ləçəkli gül formasında olub, mərkəzində firuzə daşı, ətrafında isə beş yaqut daşı qalmışdır (XF 16). Bir cüt qızıl sırğa isə hicri təqvimlə 839-cu ildə vəfat etmiş I Şirvanşah Xəlilullahın anası, Bikə xanımın məzarından tapılmışdır. Sırğa qızıl halqa və bir ədəd çəhrayı rəngli kristal daşdan ibarətdir (XF 91).

MATM-ın ekspozisiyasında nümayiş olunan və l501-ci ilə aid edilən Şirvanşah Sultan Məhəmməd Qazi ibn Fərrux Yəsarın möhürü də tarixi baxımdan xüsusi əhəmiyyət kəsb edir. Taxta üzərinə bərkidilmiş metal möhür-sikkə 4,5x4,5 sm-lik dördbucaqlı formadadır (inv. 206). Möhürün üzərində kufi xəttilə "Sultan Məhəmməd Qazi Şamaxıda zərb edilib 907" sözləri həkk edilib ***(şəkil 7)***. Bu dəyərli əşya 1989-cu ilin 13 fevralında 2 nömrəli aktla Bakı şəhər sakini O.S.Parasunkodan alınıb.

Şirvanşahlar saray kompleksinin tarixini özündə əks etdirən mənbələrin bir qrupunu MATM-ın Sənədli Mənbələr fondunda mühafizə olunan foto şəkillər təşkil edir. 1930-cu illərə aid həmin foto-albomda Şirvanşahlar sarayında aparılmış təmir-bərpa işlərini əks etdirən 46 ədəd foto şəkil yer almışdır. Fotolarda həmçinin Şirvanşahlar sarayındakı otaqların 1932-1934-cü illərdə aparılmış bərpa-təmir prosesindən əvvəlki vəziyyəti də öz əksini tapmışdır. Şəkillərdə Sarayın qərb fasadında 1918-ci il soyqırımlarından yadigar qalmış gülləbaran izlərini də görmək mümkündür. İ.N.Berezinin 1842-ci il məlumatlarına əsasən yaşayış binasının bərpa edilmiş hissələrinin təsvirlərinə və XIX əsrin 50-60-cı illərində çəkilmiş şəkillərə də rast gəlinir. Albomda verilmiş foto təsvirlər arasında sarayın ən qədim 8 guşəli giriş zalını, mərtəbələr arasındakı spiralvari pilləkanları, 5-10-cu otaqların tirlərdən ibarət sütun və dam örtüklərini, Rus Hərbi İntendantlığı zamanında 6 və 7-ci otaqlarda yaradılmış "at tövlələri"ni, əlavə edilmiş və ya bağlanmış böyük və kiçik

pəncərə yerlərini görmək mümkündür (SMF-2861).

"Sənədli mənbələr" fondunda həmçinin rus tədqiqatçısı V.M.Sısoyevin dəsti-xəttilə yazılmış və 1925-ci ildə nəşr olunmuş „Краткий путеводитель по древностям гор. Баку и его районов"(16) adlı əsəri də qorunub saxlanır (SMF-500/112). Əsər həmin ildə Azərbaycan Dövlət Muzeyinin "Etnoqrafiya" şöbəsində elmi işçi kimi çalışmış Mariya Quliyevaya hədiyyə edilmişdi. Kitabda Şirvanşahlar sarayına dair dəyərli məlumatlar verilmişdir.

Tədqiqat mövzusuna aid maraq doğuran mənbələrin digər qrupunu MATM-ın Elmi arxivində saxlanılan sənədlər təşkil edir. Belə ki, arxiv sənədləri arasında 34 nömrəli qovluq diqqəti daha çox cəlb edir. Bu qovluqda arxeoloq V.N.Leviatovun rus dilində öz dəsti-xətti ilə, 33 səhifədən ibarət yazdığı "Раскопки около Дворца Ширваншахов" (biri qaralama olmaqla, 2 nüsxə) adlı məqaləsi saxlanılır. Məqalə adından da göründüyü kimi 1944-1945-ci illərdə Şirvanşahlar kompleksində aparılmış qazıntının nəticələrinə həsr olunmuşdur. Məqaləyə İ.M.Cəfərzadənin rəyi də əlavə olunmuşdu. 72 nömrəli qovluqda isə V.N.Leviatovun rus dilində yazdığı 40 səhifəlik "Археологические раскопки близ дворца Ширваншахов в г.Баку» adlı məqaləsinin əlyazmaları və 4 səhifəlik xülasə mühafizə olunur.

Şirvanşahlar sarayının tarixi və öyrənilməsi üçün xüsusi əhəmiyyət kəsb edən ayrıca mənbələr qrupu var ki, bunlar da "Neqativ fondu"nun materiallarıdır. Adı çəkilən fondda Şirvanşahlar sarayının bərpadan əvvəlki dövrünü özündə əks etdirən 101 adda neqativ material mühafizə olunur. Bu neqativlərdə kompleksin tikililərindəki portal, arabeska və kitabələrin, Divanxananın, Seyid Yəhya Bakuvi və saray türbələrinin, eləcə də məscidin 1930-40-cı illərdəki görünüşü əks olunmuşdur. Dərin tədqiqata ehtiyacı olan bu, neqativ materialların öyrənilməsi Bakı və onun əhalisi haqqında da dəyərli məlumatlar əldə etməyə imkan vermiş olar. Bu neqativlərdə Bakının bəzi məkanları – sarayətrafı yaşayış evləri, şəhər əhalisinin geyim tərzi və s. görüntülər əks olunmuşdur.

3330 inventar nömrəsi altında mühafizə olunan neqativ materialında "Divanxana" abidəsinin rotonda üzərindəki kiçik qapılarından birinin təsviri əks olunmuşdur. Neqativdə qapı ətrafındakı naxışlar, eləcə də üst hissədəki 6 guşəli medalyonda ərəb əlifbasının kufi xəttilə 3 dəfə qabarıq və 3 dəfə çökək şəkildə həkk olunmuş "Əli" adı aydın görünür. Bundan başqa, qapı tağlarından birinin üzərində bir sətirlik kitabə də diqqəti cəlb edir. XX əsrin 30-cu illərində V.M.Sısoyev həmin kitabədə "I Xəlilullah" adını və hicri tarixi ilə "832-ci il" tarixini oxuduğunu iddia etmişdir (16, s. 6)

Hazırda Divanxana qapısı üzərindəki həmin kitabə eroziyaya uğrayaraq yararsız hala düşmüşdür. 3330 nömrəli neqativdə qapı üzərində bu kitabənin olduğu aydın görünür ***(şəkil 8)***. Sadəcə olaraq divarda olan ağımtıl ləkələr səbəbindən yazını neqativdən oxumaq çox çətindir. Güman edirik ki, müasir cihazların köməyi ilə bu

kitabə oxunarsa o zaman abidənin tarixi üçün dəyərli məlumatlar əldə etmiş olarıq.

Neqativ materiallarında həmçinin Şirvanşahlar ərazisində aparılmış arxeoloji qazıntıların gedişatı, aşkar edilmiş quyular, təndirlər, dəyirman daşı və çini qab hissələri, eləcə də onların üzərindəki təsvirlərdən fraqmentlər əks olunub. 5990 saylı neqativdə saxsı qab üzərindəki üzüm tənəyinin təsviri diqqəti cəlb edir (SMF-5990) (***şəkil 9***).

MATM-ın "Təsviri incəsənət" fondunda mühafizə olunan sənət əsərləri də Şirvanşahlar sarayı tarixinin araşdırılması üçün xüsusi dəyər kəsb edir. Fondda 1930-40-cı illərdə görkəmli rəssam-memarlarımızın Şirvanşahlar sarayına aid müxtəlif mövzularda çəkdikləri əsərləri də mühafizə olunur. Fondda mühafizə olunan dəyərli sənət nümunələrindən biri də İ.P.Şeblıkinin 37x51,5 sm ölçülü kağız üzərində boya ilə çəkilmiş Şirvanşahlar Sarayının şimal fasadının bərpa layihəsidir (İF 218) ***(şəkil 10)***.

İF 458 inventar nömrəli material rəssam-memar Qəzənfər Əlizadənin kağız üzərində boya ilə çəkilmiş "Şirvanşahlar Sarayında türbə» adlı əsəridir. Əsərdə mazğallı divarla əhatələnmiş saray türbəsinin gümbəzi, hamamın hündür dəlikli qübbəsinin, saray ətrafındakı həyət, su ovdanı və pilləli səkilərin təsvirləri incə zövqlə işlənmişdir. Əsərdə diqqəti cəlb edən məqamlardan biri isə hasar üzərində oturmuş, motal papaq və kürk geymiş Bakı kəndlisinin təsviridir. Şəkildə həmçinin saray kompleksindən kənarda qala divarı və yarımbürclərdən şimalda isə böyük əkin sahələrinin təsviri görünür.

İF 462 inventar nömrəli material isə Q.Əlizadənin karton üzərində sulu boya ilə çəkdiyi "Şirvanşahlar Sarayında Divanxana» adlı əsəridir. Burada da yüksək peşəkarlıqla kompleksə daxil olan abidələrin təsvirləri verilmişdir. Daha dəqiq desək, əsərdə Divanxananın saray tərəfdən hasarı, həyətdən daxil olmaq üçün kiçik qapı yeri, qərb fasadındakı iri portal, divanxana gümbəzi, novça və pəncərələrin təsviri çəkilmişdir. Əsərdə Divanxananın gümbəzi yanında daha bir portalı xatırladan çıxıntının əksi də görünür.

Şirvanşahlar sarayına həsr olunmuş İF 466 inventar nömrəli digər əsər də kağız üzərində sulu boya ilə işlənmiş təsvirdən ibarətdir ***(şəkil 11)***. Burada ön planda dar mazğallı hasarla əhatə olunmuş Murad darvazasının təsviri verilib. Darvazanın arxa tərəfində gümbəzli tikililər, sol tərəfində isə yaşayış evlərinin təsviri diqqəti cəlb edir. Murad darvazasında olan arabeskalar müasir dövrdə olduğu kimidir. Yalnız darvaza qarşısında oturmuş kəndlilərin təsviri maraq doğurur. Bu insanların geyimlərindən onların sosial vəziyyətlərini təyin etmək mümkündür. Əsərdə zillə, motal və əmmamə papaq, çuxa, arxalıq, kürk və qurşaq geymiş kəndli kişilər və dindar şəxsin təsviri həkk olunub. Divarda iri ölçülü çatlar da diqqəti cəlb edir. Rəsmin altında «Бакy 1947 г. Газанфар» sözləri yazılıb.

Təsviri incəsənət fonduna aid növbəti əsər İF 478 inventar nömrəsi ilə qorunur.

Əsər O.Sadıqzadənin kağız üzərində sulu boya ilə çəkdiyi "Şirvanşah Axsitan Bakı limanında" adlı illüstrativ təsvirdən ibarətdir. Əsərdə Şirvanşah Axsitanın Bakı limanında əyanları ilə birlikdə gəzintisinin təsviri verilib.

Beləliklə, MATM-da toplanmış və çox ciddi səylə qorunan bu dəyərli materiallar Şirvanşahlar sarayının tarixinin, xüsusilə də dövrünün bəzi məsələlərinin öyrənilməsində bir mənbə kimi istifadə etmək olar. Bu materiallardan mədəni irsimizin təbliğində də bir vasitə kimi istifadə etmək mümkündür.

İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:

1.Aşurbəyli S. Bakı şəhərinin tarixi. Bakı, 2006.

2.Azərbaycan arxeologiyası. 6 cilddə, VI cild, Bakı, 2008.

3.Azərbaycan tarixi / Z.Bünyadov və Y.Yusifovun redaktəsi ilə. I cild, Bakı, 1994.

4.Azərbaycan tarixi abidələri /M.Ə.Qazıyevin redaktəsi ilə. Bakı, 1958.

5.Ələsğərzadə Ə. Şirvanşah İbrahim Dərbəndi dövrünə aid iki kitabə / A.Bakıxanov adına Tarix institutunun əsərləri. I cild, Bakı, 1947.

6.Hüseynov Ə.H. Bakı şəhərinin tarixinə dair qiymətli sənəd / Azərbaycan Tarixinə dair materiallar. V cild, Bakı, 1962.

7. Xəlilli F. Milli Azərbaycan Tarixi muzeyində mühafizə edilən Bakı arxeoloji materialları / Bakı islam mədəniyyətinin paytaxtıdır 2009. Beynəlxalq konfransın tezisləri, Bakı, 2009.

8. Rüstəmbəyova A., Mehdiyeva A. Azərbaycanın ənənəvi işıqlandırma vasitələri tarixindən / Azərbaycan Tarixi Muzeyi-2005, Bakı, 2005.

9.Vəlixanlı N.Azərbaycan Tarixi Muzeyi-80 / Azərbaycan Tarixi Muzeyi-80, Bakı, 2001.

10. Vəlixanlı N. Ümummilli lider Heydər Əliyevin həyat salnaməsinin naməlum səhifəsi / Azərbaycan Tarixi Muzeyi-2011, Bakı, 2011.

11.Ашурбейли С.Б. Очерк истории средневекового (VIII-начало XIX вв.). Баку, 1964.

12. Бахшиева А. Из истории музейного дела в Азербайджане (на основе материалах Музея Истории Азербайджана). Баку, 2005

13.Е.А.Пахомов. Маштагинский клад который найденно 1952 г. / Доклады Академия Наук Азербайджана ССР, IX том, № 1, 1953

14.Минкевич-Мустафаева Н.В. Гробницы в усыпальнице Ширваншахов / Доклады Академии Наук Азерб. СССР, том XIII, №1, 1947.

15.Нейматова М. Корпус эпиграфических памятников Азербайджана. Т. I: Арабо-персо-тюркоязычные надписи Баку и Апшерона XI-начала XX века. Баку, 1991.

16.Сысоев В.М. Краткий путеводитель по древностям гор. Баку и его районов. Баку, 1925.



şəkil 1



şəkil 2



şəkil 3



şəkil 4



şəkil 5




şəkil 6




şəkil 7



şəkil 8



şəkil 9



şəkil 10



şəkil 11

Айгюн Гулиева
О некоторых материалах Комплекса Дворца Ширваншахов
(на основе материаловНМИА)

Резюме

Ключевые слова: *Дворец Ширваншахов, музей, материал, археологический раскопки, материальная культура.*

В статье даются сведения о жемчужине средневекового зодчества Азербайджана — Комплексе Дворца Ширваишахов, повествуется о роли Национального Музея Истории Азербайджана НАНА в первых исследованиях дворца и проводившихся там археологических раскопках. Были рассмотрены обнаруженные при первых археологических раскопках находки в целом принадлежащие Комплексу Дворца Ширваншахов и включенные в музейную коллекцию. Период, относящийся ко времени до начала исследований, представлен в материалах Фонда Негативов Музея. Статья написана на материалах экспозиции и фондов Национального Музея Истории Азербайджана НАНА.

Aygun Quliyeva

Towards some materials related to history of Shirvanshahs palace complex (based on materials of National Azerbaijan History Museum)

Summary

Keywords: *Shirvanshahs palace, museum, material, archeological excavations, material of culture*

The article deals with the complex of the Shirvanshahs palace which is an exquisite piece of the architecture unique of the Middle Ages. The reviewed article examines and describes the role of National Azerbaijan History Museum of ANAS in studying of the palace including archeological explorations conducted at the site of palace. However, it describes uncovered various remains related to the complex of the Shirvanshahs palace found during the first archeological excavations and afterwards, which were included in museum collection. Upon investigation of the palace are used materials stored at Negative fund of the museum. The paper is based both on materials from the exposition and museum fund.

Güntəkin Nəcəfli

Çar Rusiyasının Şimali Azərbaycanda erməni dövləti yaratmaq siyasətinin mənbələrinə dair

Açar sözlər*: Şimali Azərbaycan, Rusiya, Türkiyə, çap olunmamış mənbələr*

UOT 94 (479.24)

Vətən tarixinin az öyrənilmiş, qaranlıq qalmış səhifələrinin araşdırılması tarixçi tədqiqatçıların qarşısında duran mühüm vəzifələrdəndir. Bu baxımdan zəngin və çoxəsrlik tarixi olan Azərbaycanın XVIII-XIX əsrlər tarixinin, o cümlədən də çar Rusiyasının Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq üçün əsrlər boyu düşünülmüş və planlı şəkildə həyata keçirdiyi məkrli siyasətinin tədqiqi xüsusi əhəmiyyət kəsb edir.

Cənubi Qafqazın böyük bir hissəsini əhatə edən tarixi Azərbaycan torpaqlarında Rusiya imperiyasının erməni dövləti yaratmaq məqsədilə həyata keçirdiyi məkrli siyasəti: *I Pyotr zamanında ermənilərin Azərbaycan torpaqlarına yerləşdirilməsi; Rusiya imperiyası və ermənilər tərəfindən Azərbaycan torpaqlarında "erməni dövləti" yaratmaq məqsədilə tərtib olunan layihələr; II Yekaterinanın Azərbaycan torpaqlarında "erməni dövləti" yaratmaq siyasəti, I Pyotrun, II Yekaterinanın Şərq siyasətinin həyata keçirilməsi və Şimali Azərbaycan xanlıqlarının Rusiya imperiyası tərəfindən işğalında ermənilərin vasitəçiliyi; işğal olunmuş Azərbaycan torpaqlarına ermənilərin məqsədyönlü və kütləvi şəkildə köçürülməsi; işğal olunmuş Azərbaycan torpaqlarında qondarma" erməni vilayəti"nin yaradılması* və s. bu kimi məsələlər ciddi təhriflərə məruz qalmışdır.

Təqdim olunan məqalədə XVIII əsrdə və XIX əsrin I qərinəsində çar Rusiyasının Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq üçün əsrlər boyu düşünülmüş və planlı şəkildə həyata keçirdiyi məkrli siyasətini özündə əks etdirən müxtəlif dillərdə olan zəngin mənbələri qruplaşdıraraq təqdim etməyə çalışmışıq.

Çap olunmamış qaynaqlar:

a) Azərbaycan Respublikasında

AMEA A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində (AMEA TİEA) qorunub saxlanılan Azərbaycanın XVIII-XIX əsrlər tarixinə dair vaxtilə

Rusiyanın müxtəlif arxivlərindən əldə edilmiş sənədlərin surətləri [1] tədqiq etdiyimiz mövzunun mühüm mənbələrindəndir. Bu sənədlərdə Rusiya imperiyası məmurlarının Qarabağ və İrəvan xanlıqları ərazisində yaşayan azsaylı ermənilərlə gizli əlaqələri və s. məsələləri izləmək mümkündür.

b) Türkiyə Cumhuriyyətində

Çar Rusiyasının Şimali Azərbaycanda erməni dövləti yaratmaq siyasətinin müəyyən tərəflərini işıqlandırmaq üçün Türkiyə Cumhuriyyəti Baş Bakanlıq Osmanlı Arxivinin (BOA) müxtəlif fondlarının materialları [14] o cümlədən, ermənilərin Osmanlı imperiyasından Şimali Azərbaycan torpaqlarına köçürülməsi ilə bağlı BOA-nın Hatt-i Hümayun fondunda qorunub saxlanılan çoxsaylı qaynaqlarda mühüm mənbə hesab olunmalıdır. Əsasən 1829-1830-cu illər tarixində tərtib edilmiş bu qaynaqlarda Ədirnə müqaviləsinin şərtlərinə görə Rusiya tərəfindən boşaldılmalı olan Ərzurum, Qars, Bayəzid və Ələşgird kimi işğal olunmuş yerlərdə yaşayan reayanı* rusların yoldan çıxararaq köçürməsi, Osmanlı dövlətinin isə bu prosesin qarşısını almağa çalışması və s. məsələlərlə bağlı müxtəlif yerlərdən ərizə və məktubların alınması haqqında məlumatlar əks olunmuşdur [15;16;17;18;19].

Baş Bakanlıq Osmanlı Arxivindən (BOA) əldə etdiyimiz sənədlər ermənilərin Cənubi Qafqaza, o cümlədən Azərbaycan torpaqlarına gəlmə olduğunu bütün aydınlığı ilə sübut edir:

c) Rusiya Federasiyasında

Tədqiq etdiyimiz mövzu ilə bağlı Rusiya Federasiyasının müxtəlif arxivlərində dövriyyəyə daxil edilməmiş bir sıra zəngin və qiymətli sənədlər qorunub saxlanır. XVIII əsrə aid olan sənədlərin əksəriyyətinin əski slavyan yazısı ilə yazılması və əlyazma şəklində olması sənədlərlə işləyərkən bir sıra çətinliklər törətsə də xeyli sayda qiymətli sənədlər əldə edilərək tədqiqata cəlb olunmuşdur. Hazırda Rusiya Federasiyasının Moskva şəhərində yerləşən ***Rusiya İmperiyasının Xarici Siyasət Arxivində (RİXSA)*** [25] qorunub saxlanılan ilkin qaynaqlara birbaşa müraciət etməyimiz qarşıya qoyulan məsələnin obyektiv araşdırılmasına imkan yaradır. Çünki həmin mənbələrdən götürülmüş faktlar adətən bizə erməni müəlliflərinin əsərlərində verilirdi və bu zaman çoxlu təhriflərə məruz qalırdı. RİXSA-nın *"Xarici İşlər Kollegiyasının məxfi məlumatı"* adlı 5 saylı, [26] *"Rusiyanın İranla əlaqələri"* adlı 77 saylı, [27] *"Rusiyanın Türkiyə ilə əlaqələri"* adlı 89 saylı, [28] *"Rusiyanın Ermənistanla əlaqələri"* adlı 100 saylı, [29] *"Rusiyanın Gürcüstanla əlaqələri"* adlı 110 saylı, [30] *"Erməni məsələləri"* adlı 343 saylı fondlarda [31] saxlanılan sənədlərdən tədqiq etdiyimiz mövzu ilə bağlı qiymətli məlumatlar əldə edilərək tədqiqata cəlb edilmişdir. Bu materiallar içərisində açıq-aydın çar Rusiyasının ermənipərəst siyasəti, ermənilərin Azərbaycan xanlarına əsasən də Qarabağ və İrəvan xanlarına xəyanəti, həmin xanlıqların ərazisində xristian dövləti yaratmaq üçün tərtib olunan planlar əks olunmuşdur. Məsələn: 1783-cü il martın 28-də Peterburqda

Xarici İşlər kollegiyasının növbəti iclasının protokolunda Rusiyanın Cənubi Qafqaz siyasətinin məqsədi ***"Xəzər dənizinə yiyələnməli"*** və ***"gürcü və ermənilərlə ittifaq yaratmalı"*** şəklində ifadə olunurdu. Bu münasibətlə kollegiyanın məxfi sənədləri içərisində saxlanılan Q.A.Potyomkinin Bezborodkoya yazdığı məktubda Cənubi Qafqazda siyasi dəyişikliklərin həyata keçirilməsi haqqında məlumat verilirdi. Qeyd olunurdu ki, II Yekaterinaya təqdim olunan xəritədə Türkiyə əraziləri deyil, İran tərəfin sərhədləri cızılmışdır. Buna görə də *biz yalnız Bakıya qədər əraziləri tutacağıq. Qarabağ və Qaradağdan ibarət olan ərazi isə İraklinin çarlığı ilə birgə Türkiyə Ermənistanı ilə birləşəcəkdir.* Göründüyü kimi, Rusiya dövləti Türkiyə və İran arasında bufer xristian dövləti yaratmağı planlaşdırırdı [26, д.№ 580, л.117].

Tədqiq etdiyimiz mövzu ilə bağlı Moskva şəhərində yerləşən digər bir arxivin – ***Rusiya Dövlət Hərbi Tarix Arxivinin (RDHTA)*** [43] sənədlərindən istifadə olunmuşdur. Həmin arxivin *"Hərbi Elmi Arxiv",* [44] 20 saylı, [45] 41 saylı, [46] 47 saylı, [47] *"Potyomkin fondu"* adlı 52 saylı, [48] 482 saylı [49] və 846 saylı [50] fondlarında saxlanılan sənədlərdəki zəngin materiallar tədqiq etdiyimiz mövzu ilə bağlı tədqiqata cəlb olunmuşdur.

XVIII əsrin II yarısı Rusiya hakim dairələri bütün vasitələrdən istifadə edərək Azərbaycan torpaqlarında oyuncaq erməni dövləti yaratmağa çalışırdı. Bu baxımdan knyaz Potyomkinin II Yekaterinaya göndərdiyi 19 may 1783-cü il tarixli məxfi məlumatı çarizmin Azərbaycanın Qarabağ xanlığı ilə bağlı yeritdiyi iyrənc siyasətin iç üzünü göstərir. Məxfi məlumatda yazılır: "*Əlverişli şərait yetişən kimi İbrahim xanı hakimiyyətdən devrirərək onun vilayətini milli hakimiyyətə* (xristian məlikləri nəzərdə tutulur- G.N.) *vermək lazımdır. Bununla da Asiyada sizin vədinizə uyğun olaraq və mənim vasitəmlə ermənilərə çatdırılacaq xristian dövləti yaranacaqdır"* [48, оп.2, док.32, лл.1-1об].

Qeyd olunan sənədlərdə Azərbaycanın şimal xanlıqlarının işğalını başa çatdırmaq üçün Rusiya hakim dairələrinin xüsusi erməni hərbi birləşmələri yaradaraq onlardan faydalanmasını da izləmək mümkündür. 1827-ci ilin may ayında knyaz Paskeviçin Tiflis hərbi qubernatoru general Sipyaginə erməni batalyonu yaratmaq üçün 12 bənddən ibarət təklif vermiş [51] və bu təklifə uyğun olaraq mayın 15-də 117 nəfərlik 1-ci erməni dəstəsi [52], iyunun 17-də 100 nəfərdən ibarət 2-ci erməni dəstəsi [53], avqustun 21-də isə 67 nəfərdən ibarət 3-cü erməni dəstəsi [54] Tiflisdə formalaşdırılaraq Üçkilsəyə doğru yürüşə çıxan Rusiya qoşun hissələrinə birləşdirilmişdir.

Çap olunmuş qaynaqlar:

d) Sənəd toplusu:

Son dövrlərdə AMEA A.Bakıxanov adına Tarix İnstitutu tərəfindən Azərbaycan respublikasının [2], Türkiyə Cumhuriyyətinin [3]və Rusiya Federasiyasının [4] müxtəlif arxivlərindən əldə olunmuş sənədlərdən ibarət toplular və dövlətlərarası

müqavilələr, xarici siyasət aktları [5]da təqdim etdiyimiz mövzu ilə bağlı mühüm mənbələrdən hesab olunur. Bu materiallar içərisində çar Rusiyasının ermənipərəst siyasəti, ermənilərin Azərbaycan xanlarına xəyanəti, ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi və s. məsələləri əks etdirən sənədlərin əhəmiyyəti misilsizdir.

e) Azərbaycan türkcəsində:

Mövzumuzla bağlı müxtəlif dillərdə olan qaynaqların Azərbaycan türkcəsində nəşr olunması xüsusi əhəmiyyət kəsb edir. Bunlar arasında XVIII əsrin I yarısının mühüm qaynağı hesab olunan, 1727-1728-ci illərdə Osmanlı idarəçiliyi dövründə tərtib olunmuş "İcmal dəftərləri"nin [7;9;12] rolu əvəzsizdir. Dəftərlərin verdiyi məlumatlarda Qarabağ, İrəvan və Naxçıvan bölgələrinin tarixi Azərbaycanın tərkib hissəsi olması, bu bölgələrdə yaşayan əhalinin əksəriyyətinin Azərbaycan türkləri olması, Osmanlı-Səfəvi müharibələri zamanı əhalinin məcburən doğma torpaqlarını tərk eyməsi və s. məsələləri izləmək mümkündür.

Bununla yanaşı Azərbaycan türkcəsində nəşr olunmuş digər mühüm qaynaqları [6;10;11;13] da qeyd etmək yerinə düşər. Bu qaynaqlarda erməni avantüristi İsrail Orinin gerçək siması, İrəvan şəhərində təmizqanlı qızılbaşların yaşaması, İrəvan bölgəsinin Azərbaycan türklərinə mənsub olması, həmin bölgədəki toponimlərin məhz Azərbaycan türklərinə məxsus olması və s. məsələləri izləmək mümkündür.

Bu qaynaqlar içərisində Rauf Şeyxzamanlı tərəfindən tərtib olunmuş İbrahim Rəhimizadənin əsəri [8] xüsusilə fərqlənir. Əsərdə Osmanlı ordusunun Azərbaycana yürüşləri zamanı Gəncə-Qarabağ bəylərbəyiliyində yerli müsəlman əhalisinin torpaqlarını qoyub getməsi, əhalinin demoqrafik tərkibində baş vermiş dəyişiklikləri izləmək mümkündür [8,196,199].Çünki, qeyd olunan müharibələr zamanı yerli müsəlman əhalisi – Azərbaycan türkləri ya qırılıb tələf olur, ya da şiə məzhəbindən olduqlarına görə Osmanlı ordusunun hücumları zamanı doğma torpaqlarını tərk etməyə məcbur olurdular. Bu müharibələrdə yaranmış vəziyyətin hər bir məqamdan məharətlə istifadə edən ermənilər yeni-yeni Azərbaycan torpaqlarını osmanlılardan satın alırdılar.

f) Türkiyə türkcəsində:

Çar Rusiyasının Şimali Azərbaycanda erməni dövləti yaratmaq siyasətinin müəyyən tərəflərini işıqlandırmaq üçün Türkiyə Cumhuriyyətində çap olunmuş arxiv sənədlərindən [20;21] və digər qaynaqlardan [23] istifadə olunmuşdur. Bu qaynaqlar içərisində 1724-cü ildə Osmanlı ordusunun İrəvan bölgəsini işğalı zamanı bu əməliyyatların iştirakçısı olan Kəmani Mustafa Ağanın "*Rəvan fəthnaməsi*" [22] xüsusilə əhəmiyyətlidir. Mənbədə Üçkilsə katalikosunun Osmanlı paşasına Səfəvi şahı Təhmasib haqqında qeyri-dəqiq məlumatlar çatdırmasını, İrəvan qalasının müdafiəçilərini təslim olmağa çağırmasını, İrəvandan əsir götürülərək aparılan Azərbaycan türklərinin sayı və s. kimi zəngin məlumatları izləmək mümkündür .

g) Rus dilində:

Tədqiq etdiyimiz problemlə bağlı, əsasən XIX əsrin I qərinəsində baş verən hadisələri işıqlandırmaq üçün mühüm mənbə kimi A.P.Berje tərəfindən hazırlanmış Qafqaz Arxeoqrafiya Komissiyasının Aktlarını (QAKA) [32] göstərmək olar. Bu aktlardan Qafqazdakı rus orduları baş komandanlarının, hərbi hissə komandirlərinin müxtəlif xarakterli raportlarından, müxtəlif illərə dair hesabat və məruzələrində Azərbaycan xanlıqlarının işğalı gedişində ermənilərdən istifadə edilməsi, ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsi və işğal olunmuş Azərbaycan torpaqlarında süni "erməni vilayətinin" yaradılması ilə bağlı zəngin faktiki material əldə edilərək tədqiqata cəlb olunmuşdur.

Tədqiqat zamanı istinad etdiyimiz mənbələrdən biri də Rusiya imperiyası qanunlarının tam külliyyatıdır [38]. Bu külliyyatın III cildində Türkmənçay müqaviləsinin təsdiq edilməsinin (20 mart 1828) ertəsi günü, I Nikolayın işğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" yaradılması ilə bağlı verdiyi fərmanı öz əksini tapmışdır [38,272-273].

Ermənilərin kütləvi şəkildə Qacarlar İranından Rusiya imperiyası tərəfindən işğal olunmuş ərazilərə – yəni Şimali Azərbaycan torpaqlarına köçürülməsinin təsviri, köçürmə prosesində yaxından iştirak edən polkovnik Qazaros Lazaryanın erməni dilində olan müraciəti və s. məsələlər S.Qlinkanın 1831-ci ildə Lazarev İnstitutu tərəfindən çap olunmuş əsərində [35] öz əksini tapmışdır.

XVIII əsrin sonu XIX əsrin əvvəllərində İrəvan xanlığında əhalinin sayını və etnik mənsubiyyətini müəyyən etmək üçün başlıca mənbə Rusiya hökumətinin göstərişi ilə İ.Şopen tərəfindən 1829-1832-ci illərdə tərtib olunan Kameral Siyahıyaalmadır [56]. Uzun müddət Qafqazda hərbi xidmətdə olmuş İ.Şopen Qafqazın hərbi hakimi İ.F.Paskeviçin tapşırığı ilə bölgənin siyahıyaalmasını tərtib etmiş və həmin əsərini 1852-ci ildə çap etdirmişdi. Həmin əsər Rusiya işğalı ərəfəsində və işğaldan sonra İrəvan xanlığında demoqrafik vəziyyətin və etnik tərkibin öyrənilməsində əvəzolunmaz mənbədir. Bu qiymətli əsərdə təqdim olunan cədvəllərdə ermənilərin İrandan və osmanlı imperiyasından işğal olunmuş İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının ərazisinə və Gürcüstanın məhz azərbaycanlılar yaşayan bölgələrinə köçürülməsini izləmək mümkündür.

XIX əsrin birinci qərinəsində Naxçıvan və İrəvan xanlıqlarının Rusiya imperiyası tərəfindən işğalı və çarizmin ermənilər üçün "Erməni vilayəti"ni təsis etməsindən sonra ermənilər rus-erməni əlaqələrinin qədim ənənələrə malik olduğunu sübuta yetirmək, ermənilərin Cənubi Qafqazın gəlmə deyil, yerli əhalisi olması haqda uydurma, saxta məlumatları ictimaiyyətin beyninə yeritmək üçün Peterburqda iri həcmli kitabların nəşrinə başladılar. XVIII əsrdə Azərbaycan ərazisində ermənilərin dövlət yaratmaq ideyaları, uydurulmuş "milli azadlıq hərəkatı", Azərbaycan torpaqlarına olan iddialarını əks etdirən materiallar onlar tərəfindən toplanaraq çap

olunmuş iki cildlik sənədlər toplusunda [55]öz əksini tapmışdır.

Rusiya imperiyasının birbaşa dəstəyi ilə xalqımıza qarşı həyata keçirilən məqsədyönlü fəaliyyəti əks etdirən sənədlər sovet dönəmində də ermənilər tərəfindən toplanaraq erməni xislətinə məxsus şərhlərlə 4 cilddən ibarət sənədlər toplusu [33] şəklində çap olunmuşdur. Bundan əlavə, Naxçıvan və İrəvan xanlıqlarının Rusiya imperiyası tərəfindən işğalından sonra Cənubi Qafqazda cərəyan edən hadisələr "Şərqi Ermənistanın Rusiyaya birləşdirilməsi və onun əhəmiyyəti", "Şərqi Ermənistanın Rusiyaya birləşdirilməsindən sonrakı inkişafı" və s. uydurma adlar altında erməni müəllifləri tərəfindən müxtəlif arxivlərdən toplanaraq nəşr olunmuş sənəd toplularında [41;42] da öz əksini tapmışdır.

Erməni müəllifi Q.A.Ezovun "Böyük Pyotrun erməni xalqı ilə əlaqələri" [57] adlanan əsəri əsərində əsasən Moskva, Sank-Peterburq, Avstriya və Bavariya krallığının saray və dövlət arxivlərindən toplanmış 305 sənəd daxil edilmişdi. Həmin sənədlərdə XVIII əsrin I yarısında ermənilərin müxtəlif yollar və vasitələrlə, xarici qüvvələrin, əsasən də Rusiyanın köməyi ilə xalqımıza qarşı həyata keçirdikləri məqsədyönlü fəaliyyətini, məkrli siyasətini, Rusiya imperiyasının Azərbaycan torpaqlarında tam anlamda ayrıca şəkildə "erməni dövləti" deyil, Rusiya imperiyasından asılı, bufer xristian zolağını yaratmaq niyyətində olduğunu izləmək mümkündür. Əsərin "Giriş" hissəsində "Rusiya hökumətinin erməni xalqı ilə əlaqələri" adlı 145 səhifəlik tarixi icmal yazan müəllifin Azərbaycan xalqına, Azərbaycanın tarixi ərazilərinə, ümumiyyətlə türk-müsəlman dünyasına qarşı qərəzli münasibəti aydın görünür. Qeyd etmək lazımdır ki, Q.A.Ezovun tərtib etdiyi bu sənədlər toplusu özündən sonra gələn xələflərinin əksəriyyəti üçün "əvəzolunmaz mənbə" rolunu oynamışdır.

Üçkilsə katolikosları daima İrəvan bölgəsində ermənilərin sayını artırmaq üçün əllərinə düşən hər bir imkandan yararlanmağa çalışmışlar. Bu prosesi Abraham Kretasinin [24] əsərində də izləmək mümkündür. Məsələn, Nadir şah Muğanda tacqoyma mərasimindən sonra Azərbaycan xanlarının hamısına erməni əsirləri payladı. Bu zaman şahın qılığına girmiş katolikos Abraham Kretasi xristian məliklərinin köməyi ilə Azərbaycan torpaqlarında ermənilərin sayını artırmaq üçün Xorasandan və müxtəlif yerlərdən alınmış erməni əsirlərin bir qismini də İrəvana bölgəsinə göndərdi [24,252-255].

Erməni müəllifi A.D.Papazyan tərəfindən Matenadaranda saxlanılan fars və erməni dilli sənədlər əsasında tərtib etdiyi çox cildli sənədlər toplusuna [39;40] daxil edilmiş sənədlərdə Qara Yusifin (1410-1420) ölümündən sonra Azərbaycan Qaraqoyunlu dövlətində yaranmış mürəkkəb vəziyyətdən yararlanan erməni kilsəsi Azərbaycanın Çuxursəd, Naxçıvan və Qarabağ bölgəsinə məxsus kəndləri müxtəlif yollarla erməni kilsəsi tərəfindən ələ keçirilməsi prosesini izləmək mümkündür. A.D.Papazyanın təqdim etdiyi sənədlərin erməni dilində olan variantlarında

dəfələrlə Çuxursəd, Naxçıvan və Qarabağ vilayətlərinin "Azərbaycan ölkəsi"nə ("Ազէրբայջանիերկրի") məxsus olduğu qeyd olunmasına baxmayaraq sənədləri rus dilində şərh edən erməni müəllifi "Azərbaycan ölkəsi" kəliməsini "Ararat ölkəsi" kimi təqdim etməkdən çəkinməmişdir [40, 55,60,203 və s.].

1702-1728-ci illərdə alban katalikosu olmuş Yesayi Həsən Cəlalyanın albanların tarixinə həsr etdiyi əsərini [36] də qeyd etmək yerinə düşərdi. Əsərdə Albaniyanın keçmişi ilə bərabər müəllifin katalikos olduğu dövrdə Rusiyanın "xristianları müsəlmanların zülmündən azad etmək uğrunda mübarizə kompaniyası" yetərincə təsvir olunmuşdu.

"Erməni anonim xronikası"nda [34]Üçkilsə və onun ətrafında məskunlaşan azsaylı ermənilərin öz vətənləri olmadığı üçün bu torpaqlarda möhkəmlənmək üçün ölkəyə hücum edən hər hansı xarici qüvvə ilə sövdələşməyə hazır olduğunu izləmək mümkündür. İrəvan qalası 1724-cü ildə Osmanlı ordusu tərəfindən mühasirədə saxlanıldığı zaman ermənilər Osmanlı hərbi hissələri ilə əlaqə yaratdılar və səbrsizliklə Azərbaycana müdaxilə edən Osmanlı qoşunlarının qələbəsini, İrəvan qalasının təslim olmasını gözlədilər. Heç şübhəsiz ki, məhz bu **«xidmət»** müqabilində ermənilər Sultan III Əhməd tərəfindən onlar barədə **xüsusi fərmanının** verilməsinə nail oldular. İrəvan qalasının mühasirəsindən bir həftə sonra, Sultan III Əhmədin Arif Əhməd paşaya göndərdiyi fərmanda ermənilərin dini mərkəzi olan **"Üçkilsəyə hücum etmək qadağan olunur, onun dağıntıya və sakinlərinin qarətə məruz qalmasına yol verilməməsi"** tələb edilirdi. Hətta, Arif Əhməd paşa Sultanın fərmanına uyğun olaraq Üçkilsənin qorunması üçün xüsusi bir alay da ayırdı [34,11].

h) Alman dilində:

Alman dilində olan qaynaqların əksəriyyətinin əski alman yazısı – "Qotik əlifba" ilə yazılması bu əsərlərin oxunması zamanı bir sıra çətinliklər törətsə də qeyd etdiyimiz mövzunun işıqlandırılması üçün onlardan qiymətli məlumatlar əldə olunmuşdur. XVII əsrin sonu XVIII əsrin əvvəllərində xristian missioner təşkilatının üzvü olmuş, alman səyyahı Barböri Frans Kaspar Şillingerin *"İrana və Ost-Hind kompaniyası ölkələrinə səyahət"* [59] əsəri xüsusilə qiymətlidir. 408 səhifəlik əsərin müxtəlif bölmələrində Azərbaycan torpaqlarının əsasən də, İrəvan bölgəsinin geniş təsviri və burada yaşayan əhali haqqında məlumatlar verilmişdir. İrəvan şəhərinin əhalisindən bəhs edən səyyah burada persiyalıların (Azərbaycan türkləri – G.N) ermənilərdən sayca böyük üstünlüyə malik olduğunu qeyd edir [59,118].

Bundan əlavə, alman dilli mənbələr içərisində Fredrix Noymanın 1834-cü ildə Lepsiqdə nəşr etdirdiyi *"1828-ci ildə İran əyaləti Azərbaycandan miqrasiya olunmuş qırx min ermənin Rusiyaya köçürülməsi tarixi"*[58] əsərini də qeyd etmək yerinə düşər. Əsərdə ermənilərin kütləvi şəkildə Qacarlar İranından Rusiya imperiyası tərəfindən işğal olunmuş Şimali Azərbaycan torpaqlarına köçürülməsi

və məskunlaşdırılmasının təsviri, köçürmə ilə bağlı verilmiş təlimatlar, göstərişlər, onların sayı və s. məsələlər öz əksini tapmışdır. Əsərinin giriş hissəsini çıxmaq şərtilə, digər fəsillərdəki təsvirlər bir növ S.Qlinkanın yuxarıda qeyd etdiyimiz əsəri ilə oxşarlıq təşkil etsə də fərqli tərəflər də vardır.

a) Erməni dilində:

Çar Rusiyasının Şimali Azərbaycanda erməni dövləti yaratmaq siyasətinin müəyyən tərəflərini işıqlandırmaq üçün erməni dilli mənbələrin rolu əvəzsizdir. Bu mənbələrin əksəriyyətinin rus dilinə tərcüməsi olmasına baxmayaraq biz erməni dilində olan variantlarına müraciət etdik. Lakin qeyd edək ki, bu variantlar da ilkin variant deyil qədim erməni əlifbasından (qrabar) müasir erməni əlifbasına (aşxarabar) çevrilmişdir. Erməni dilində olan variantlardan istifadə etməmizin əsas səbəbi rus dilinə tərcümə olunan variantlarda ciddi təhriflərə yol verilməsidir. Məsələn, F.Buzand, [60] M.Xorenli, [62] və K.Gəncəli [61] hər üçü öz əsərini *"Հայոց պատմութիւն"*(Hayos patmutyon) "Eməni tarixi" adlandırdığı halda bu əsərlərin adları erməni müəllifləri tərəfindən rusdilli oxuculara *"История Армении"* Ermənistan tarixi" kimi təqdim olunmuşdur.

Erməni tarixşünaslığında və ermənipərəst tarixçilərin əsərlərində guya tarixdə nə vaxtsa "Böyük Ermənistan" adlı dövlətin mövcud olması iddia edilir və bu uydurma "dövlətin" ərazisi Azərbaycan, Türkiyə və Gürcüstan torpaqları hesabına kağız üzərində şişirdilərək fantastik həddə çatdırılır. Bu iddianı erkən orta əsrlər "Ermənistan"ına da şamil edən "erməni tarixçiləri" F.Buzandın əsərində dəfələrlə qeyd olunan "erməni ölkəsi"nin [60,7, 90,103,106,122 və s.] heç bir dövlət qurumu olmadığını, yalnız ermənilərin yaşadığı müxtəlif torpaqlar olduğunu bilməmiş deyillər. Məhz buna görədir ki, ermənilər digər xalqlarla müqayisə edən Musa Xorenli yazır: "baxmayaraq ki, biz kiçik, olduqca azsaylı, zəif və ***çox zaman özgələrin hakimiyyəti altında yaşayan xalqıq,*** amma ölkəmiz üçün çoxlu qəhrəmanlıqlar etmişik" [62,6]. Göründüyü kimi, mənbənin özü ermənilərin müstəqil dövlətinin olmadığını çox zaman özgələrin hakimiyyəti altında yaşayan xalq olduğunu etiraf edir.

XVIII əsr erməni qaynağı hesab olunan "Cambr"ın erməni dilində [63] olan variantında təqdim olunan şəxs, yer adları və digər bəzi məsələlər rus dilinə tərcümə olunmuş variantından [25] xeyli fərqləndiyi üçün erməni dilində olan variantdan istifadə olunmuşdur. Əsərdə təsvir olunmuş hadisələrin və verilmiş məlumatların sonrakı dövrlərdə erməni və ermənipərəst rus müəllifləri tərəfindən Qarabağ, İrəvan və Naxçıvan bölgəsində ermənilərin qədimdən məskunlaşması, ermənilərin sayının şişirdilməsi və s. kimi saxta faktların ifşa edilməsində əhəmiyyəti misilsizdir. "Cambr"da Azərbaycan torpaqlarının erməni kilsəsi tərəfindən zaman-zaman, hansı yollar və hansı vasitələrlə ələ keçirilməsini sübut edən çoxsaylı sənədlər mövcuddur. Belə ki, mənbədə erməni katalikosluğunun 1441-ci ildə Azərbaycan Qaraqoyunlu

dövlətinin ərazisinə – Üçkilsəyə köçürülməsindən sonra ələ keçirdiyi Azərbaycan türklərinə məxsus 20-dən çox kəndin adı və hansı yollarla ələ keçirilməsini izləmək mümkündür [25, 225-231].

İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:

a) Azərbaycan dilində

1. AMEA TİEA, 1795/1; 1795/3; 1795/4; 1795/5 və s.
2. Azərbaycan tarixi arxiv sənədlərində (XIX-XX əsrlər). Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. (Azərbaycan Dövlət Tarix Arxivinin sənədləri)" (Tərtib edən K.Şükürov). Bakı, 2013.
3. Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). I cild. (Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri). (Tərtib edən G.Nəcəfli). Bakı, 2010; Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). II cild. (Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivinin sənədləri). (Tərtib edən G.Nəcəfli). Bakı, 2012.
4. Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). I cild. (Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri). (Tərtib edən G.Nəcəfli). Bakı, 2010; Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsrin əvvəlləri). II cild. (Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri). (Tərtib edən G.Nəcəfli). Bakı, 2012.
5. Azərbaycan beynəlxalq münasibətlər və diplomatiya tarixi 1639-1828. I cild. (Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akd.müx. üzvü Y.Mahmudov, t.e.d.K. Şükürov). Bakı, 2009.
6. Çələbi E. Səyahətnamə (türk dilindən işləyəni və şəhrlərin müəllifi t.e.d., professor Seyidağa Onullahi). Bakı, 1997.
7. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. // Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). // Bakı, 2000.
8. İbrahim Rəhimizadə Hərəmi. "Kitabi-Gəncineyi-fəthi-Gəncə" // Osmanlı ordusunun Azərbaycana yürüşləri (XVI əsrin sonu). (Nəşrə hazırlayan, ön sözün və şərhlərin müəllifi: Rauf Şeyxzamanlı). Bakı, 2007.
9. İrəvan əyalətinin icmal dəftəri. // Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri akd. Z.Bünyadov, t.e.n. H.Məmmədov. // Bakı, 1996.
10. Kurşinski Y.T. Xristian səyyahın tarixi (farscadan tərcümə edəni və çapa hazırlayanı Şahin Fazil), Bakı, 1993.
11. Mahmud Kaşğari. Divanü lüğat-it-türk (Tərcümə edən və nəşrə hazırlayan R.Əskər), c. IV. Bakı, 2006.
12. Naxçıvan sancağının müfəssəl dəftəri. // Giriş və tərcümənin müəllifləri, akd.Z.Bünyadov, t.e.n.H.Məmmədov. // Bakı, 1997.
13. Şarden İ. Səyahətnamə (fransız dilindən tərcümə edən V.Aslanov). Bakı, 1994.

14. b) Türk dilində

15. Başbakanlık Osmanlı Arşivi (BOA), Hatt-i Hümayun, Cevdet Paşa, HR. SYS və s.
16. BOA HH, 777/36432.
17. BOA HH, 1033/42894K.
18. BOA HH, 1047/43212.
19. BOA HH, N.1025/42741.
20. BOA HH, 794/36432.
21. Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasıbetlere Dair Arşiv Belgelerı, c. I. Ankara, 1992; Osmanlı Devleti ile Azerbaycan Türk Hanlıkları Arasındakı Münasıbetlere Dair Arşiv Belgelerı, c. II. Ankara, 1993.
22. Osmanlı Devleti ile Kafkasya, Türküstan ve Kırım Hanlıkları Arasındakı Münasibetlere Dair Arşiv Belgeleri. Ankara, 1992.
23. Silahsör Kemani Mustafa Ağa. Revan Fethnamesi. // M.Münir Aktepe. 1720-1724 Osmanlı-İran münasebetleri. İstanbul, 1970.
24. Yudasz Tadeusz Kurşinskinin İran Seyahatnamesi (çeviren Nahide Şimşir). İstanbul, 2013.

c) Rus dilində

25. Абраам Кретаци. Повествование. (Критический текст, пер. на русский язык и ком.Н.К.Корганяна). Ереван, 1973.
26. АВПРИ (Архив Внешней Политики Российской Империи).
27. АВПРИ, ф.5 (Секретные мнения коллегии иностранных дел).
28. АВПРИ, ф.77 (Сношения России с Персией).
29. АВПРИ,ф.89 (Сношения России с Турцией).
30. АВПРИ,ф.100 (Сношения России с Арменией).
31. АВПРИ,ф.110 (Сношения России с Грузией).
32. АВПРИ,ф. 343 (Армянские дела).
33. Акты, собранные Кавказской Археографической Комиссией (АКАК), т. I-VIII.Тифлис, 1866-1881.
34. Армяно-русские отношения в первой трети XVIII века. т.II, ч.I, Ереван, 1964; Армяно-русские отношения в первой трети XVIII века., т.II, ч.II, Ереван, 1967; Армяно-русские отношения во втором тридцатилетии XVIII века., т.III, Ереван, 1976; Армяно-русские отношения XVIII веке. 1760-1800 гг. т.IV, ч.II, Ереван, 1990.
35. Армянская анонимная хроника. 1722-1736.(пер. с турецкого и примечания акад. З.М.Буниятова). Баку, 1988.
36. Глинка С. Описание переселения армян адербиджанских в переделы России. Москва, 1831.
37. Есаи Хасан Джалалян. Краткая история страны албанской 1702-1722. Баку, 1989.

38. Ереванци С. Джамбр. Памятная книга, зерцало и сборник всех обстоятельств святого престола Эчмиадзина и окрестных монастырей. Пер. С.Малхасянца. под.ред. П.Т.Арутюняна. Москва, 1958.
39. ПСЗРИ, Собр. второе, т.III. 1828, СПб., 1830, с.272-273.
40. Персидские документы Матенадарана, I. Указы. Выпуск первый, (XV-XVI вв.), Сост. А.Д.Папазян. Ереван. 1956; Персидские документы Матенадарана, I. Указы. Выпуск второй, (1601-1650 гг.), Сост. А.Д.Папазян. Ереван. 1959.
41. Персидские документы Матенадарана, II. Купчие. Выпуск первый, (XIV-XVI вв.), Сост. А.Д.Папазян. Ереван. 1968.
42. Присоединение Восточной Армении к России. т.I. (1801-1813). (сб.док. под ред. Ц.П.Агаян). Ереван, 1972.
43. Развитие Еревана после присоединения Восточной Армении к России. (Сб. док.) Ереван, 1978.
44. РГВИА (Российский Государственный Военно-Исторический Архив).
45. РГВИА, ф. ВУА (Военно-Ученый Архив).
46. РГВИА, ф. 20.
47. РГВИА, ф.41.
48. РГВИА, ф. 47.
49. РГВИА, ф. 52(ф. Потемкина)
50. РГВИА, ф. 482.
51. РГВИА, ф. 846.
52. РГВИА, ф.846. оп.16, док. 4336, лл.1-5.
53. РГВИА,ф.846. оп.16, док. 4336, л.6.
54. РГВИА, ф.846. оп.16, док. 4336, лл.9-10.
55. РГВИА, ф.846. оп.16, док. 4336, л.14.
56. Собрание актов, относящихся к обозрению истории Армянского народа, ч.I, М.,1833; Собрание актов, относящихся к обозрению истории Армянского народа, ч.II, М. 1838.
57. Шопен И.И. Исторический памятник состояния армянской области в эпоху её соединения к Российской империи. СПб., 1852.
58. Эзов Г.А. Сношения Петра Великого с армянским народам, СПб, 1898.

d) Alman dilində

59. Neumann F. Geschichte der Übersiedlung von vierzigtausend Armeniern, welche im Jahre 1828 aus den persischen Provinz Adarbaidschan nach Russland auswanderten. Leipzig, 1834.
60. Schillinger B.F.C. Persianische und Ost-indianische kompani Reise. Nürünberg,1716.

e) Erməni dilində

61. Փավստոս Բուզանդ: Հայոց պատմութուն: «Հայդետհրատ», Երեվան,1947,

[Favsdos Buzand. Erməni tarixi. "Erm.dövlət nəşriyyatı", İrəvan, 1947].
62. Կիրակոս Գանցակեչի: Հայոց պատմութուն: «Սովէտական գրող», Երեվան,1982, [Gəncəli Kirakos. Erməni tarixi. "Sovet yazıçısı", İrəvan, 1982].
63. Մովսէս Խորէնացի: Հայոց պատմութուն: «Հայդետհրատ», Երեվան,1940, [Musa Xorenli. Erməni tarixi. "Erm.dövlət nəşriyyatı", İrəvan, 1940].
64. Սիմէօնէ Երեիանցիոյ: Ջամբռ: Գիրք, որ կոչի յիշակարան արձանացուցիչ, հայելի եւ պարռնակող բնավից որպիսութեանց Սրբոյ Աթոռոյս, եւ իւրոյ շրջակայից վանօրէիցն: Վաղարշապատ: ՌՀԻԳ: [Simeon İrəvanlı. Cambr. Müqəddəs Üçmüədzin kilsəsinin və ətraf monastırların toplusunun müffəssəl aynası və xatirə kitabı. Vaqarşapad, 1873].

Sources on the tsarist Russia's policy for creation an Armenian state in Northern Azerbaijan

Summary

Key words: *Northern Azerbaijan, Russian Federation, Republic of Turkey, the unpublished sources*

The article deals with the primary sources which are in different languages reflecting the insidious policy of tsarist Russia planned for centuries and implemented deliberately in the XVIII and the first half of the XIXcenturies to create an Armenian state in the territory of Azerbaijan. In order to facilitate the use of the reader these sources were presented in two important sections.

Documents obtained from different archives of Azerbaijan, Republic of Turkey and the Russian Federation were presented under the title "The unpublished sources".

And the section "The published sources" deals with the collection of documents obtained from various archives of Azerbaijan, Republic of Turkey and the Russian Federation. Moreover, they have been translated into Azerbaijani Turkish, published in Ottoman and Turkey's Turkish, and are presented published sources in Russian, German and Armenian languages as well.

Источники о политике царской России по созданию армянского государства на землях Северного Азербайджана

Резюме

Ключевое слово: *Северного Азербайджан, Россия, Турция, неопубликованные источники.*

В статье рассматриваются разноязычные источники, в которых нашли отражение продуманная и планомерная политика царской России по созданию

армянского государства на землях Северного Азербайджана в конце XVIII – в первой трети XIX веков. Для облегчения восприятия источников читателями они даются в двух разделах.

Документы, выявленные в различных архивах Азербайджана, России и Турции представлены под названием «Неопубликованные источники».

В разделе «Опубликованные источники» представлены источники из сборников документов, выявленных в различных архивах Азербайджана, России и Турции. Кроме этого, представлены также источники, изданные на азербайджанском языке, на тюркском языке Турции и Османского государства, русском, армянском и немецком языках.

Zülfiyyə Cəlilova

Çarizmin milli-müstəmləkəçilik və ermənilərin antitürk siyasətinin nəticələri

Açar sözlər*: azərbaycanlılara qarşı soyqırım, İrəvan qəzası, çar Rusiyası*

UOT 94 (479.24)

XX əsrin əvvəllərində ermənilər öz havadarlarının dəstəyi ilə uydurma "Böyük Ermənistan" yaratmaq ideyası ilə türklərə qarşı kütləvi soyqırıma başladılar. Ermənilərin "Türksüz Ermənistan" planının reallaşdırılması istiqamətində azərbaycanlıların öz dədə baba torpaqlarından zor gücünə qovulması prosesi başlandı. Bu dövrdə ermənilər tərəfindən edilən cinayətlər Azərbaycan xalqının yaddaşında silinməz iz qoyub. Təkcə milli mənsubiyyətinə görə minlərlə dinc azərbaycanlı məhv edilir. Ermənilər evləri yandıraraq, insanları diri-diri oda atırdılar. Bununla yanaşı, milli memarlıq abidələrimiz, məscidlər və digər tarixi tikililəri amansız vəhşiliklə dağıtmışlar. Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan, Zəngəzur, Naxçıvan ərazilərində soyqırım daha kütləvi hal almışdı. Bu torpaqlarda kütləvi şəkildə dinc əhali qırılmış, kəndlər yandırılmış, milli mədəniyyət abidələri məhv edilmişdi.

Birinci dünya müharibəsinin gedişində, Rusiya ordusunun qarşısında tab gətirməyən Almaniya qərb cəbhəsindən rus qoşunlarının bir hissəsini geri çəkmək məcburiyyətində qoymaq üçün Türkiyəni təşviq edirdi ki, Qafqaz cəbhəsindən hücuma keçsin. Lakin Türkiyə isə hərbə hazır deyildi. Səfərbərlik yenicə elan edilmişdi. Almaniyadan gözlənilən sursat gəlib çıxmamışdı [6, s. 376]. Bununla belə, Türkiyənin hərbi naziri Ənvər Paşanın əmri ilə 1914-cü il oktyabrın 29-da türk gəmiləri Rusiyanın Qara dəniz limanlarını bombalanması nəticəsində Türkiyə-Rusiya müharibəsi başlanır. Rəsmi olaraq Qafqaz cəbhəsində isə Rusiya Türkiyəyə qarşı müharibəni noyabrın 1-də elan edir.

Bu zaman Rus-türk müharibəsindən faydalanan ermənilər Türkiyənin 6 vilayətində "Qərbi Ermənistan dövləti" yaratmaq istəyini reallaşdırmağa başladılar. Müharibə başlanan kimi bütün ermənilərin katolikosu Qafqaz canişini Vorontsov-Daşkova məktubla müraciət edərək "erməni məsələsini" həll etməyin vaxtı

olduğunu xatırlatmışdı. Canişin də onu əmin etmişdi ki, şərait yaranan kimi bu məsələ həll ediləcək. Bu məqsədlə onun çarla 15 dəqiqə görüşü olmuş və imperator ona bildirmişdir ki, "Zati müqəddəsləri, Sizi əmin edirəm ki, Siz nə arzu edirsinizsə, yerinə yetiriləcək, ancaq müharibədən sonra. Mən ermənilərin sədaqətinə tamamilə inanıram, erməni xalqını yaxşı gələcək gözləyir. Siz hansı ərazilərdə yeni idarəetmə (yəni erməni üsul-idarəsi) tətbiq edilməsini istərdiniz?

Katolikos: 6 vilayətdə (sadalayır) və Kilikiyada, Aleksandriyə qədər dəmir yolunu Qarsdan davam etdirmək, Aralıq dənizinə qədər çatdırmaq olar. İmperator: Həmin rayonlarda nə qədər erməni var? Onlar çoxdurlarmı? Katolikos: Yeni sərhədlərdə erməni əhalisi kifayət qədər olacaq, lakin Allahın və əlahəzrətin mərhəməti ilə yeni azad üsul-idarə ki olacaq, onda Əbdülhəmidin rejimi və qırğınlar zamanı vətənini tərk edən ermənilər Amerikadan, Misirdən və digər yerlərdən öz vətənlərinə qayıdacaqlar. İmperator: İnanıram, inanıram - demişdi. Bundan sonra Katolikos Qafqazın canişini vasitəsilə bu məsələ ilə bağlı ona yazılı müraciət etdiyini bildirir [5, s. 89].

Göründüyü kimi, ermənilər "Böyük Ermənistan" dövləti yaratmaq üçün hər cür zəmin hazırlamışdılar və qarşıda isə həmin ərazilərdə yaşayan türkləri bütün vasitələrlə sıxışdırıb çıxarmaq, onların yerinə ermənilər məskunlaşdırmaq vəzifəsini qarşılarına məqsəd kimi qoymuşlar.

Ancaq sonralar ermənilərin gözlədiklərinin əksinə olaraq, 1916-cı il iyunun 8-də imperator II Nikolay Türkiyənin işğal edilməsi haqqında əsasnamə imzaladıqdan sonra "Həmin ərazilərdə yaradılmış 29 dairənin hərbi rəislərindən yalnız birini erməni təyin etmişdi" [5, s. 91].

Göründüyü kimi, Rusiya həmin dövrdə öz geosiyasi mənafeyini təmin etmək üçün ermənilərdən alət kimi istifadə edirmiş və Türkiyəyə xəyanət edən ermənilərdən çox da sədaqət gözləmirdi.

Bu məsələ ilə bağlı "Daşnaksütyun" liderlərindən Kaçaznuni yazmışdır: "..ruslar bizi aldatdılar və satdılar. Ruslar Ermənistanı boşaltmaq və sonralar oraya kazakları yerləşdirmək xəttini tutdular. Knyaz Lobanov-Rostovskinin məşhur "Türksüz Ermənistan" layihəsi həyata keçirildi." [13, s.14].

Buna baxmayaraq Rusiya imperiyası müharibə başlamazdan əvvəl özünün Yaxın Şərq siyasətində azsaylı xalqlar faktorundan məharətlə istifadə etmişdi. Türkiyədə yaşayan ermənilər, aysorlar, yunanlar Rusiyanın simasında Osmanlı imperiyasını diz çökdürəcək bir qüvvə kimi görürdü. Bu məqsədlə Rusiya onları hər vasitə ilə silahlandırmağa başladı. 1914-cü il avqustun 10-da Qafqaz canişini Qafqaz cəbhəsinin baş komandanı Vorontsov-Daşkov hərbi nazir Suxomlinova müraciət edərək, Qafqaz dairəsinə 5000 tüfəng və 50 milyon güllə göndərməsini bildirmişdir. Bununla da Cənubi Qafqazın yerli könüllülərini silahlandırmaq istəyi reallaşmışdı [5, s. 78]. Beləliklə, Qafqazda yaşayan ermənilərdən ibarət könüllü

silahlı dəstələr təşkili prosesinə başlayan Rusiya imperiyası Türk qoşunlarına arxadan zərbə vurmaq niyyətində idi [5, s. 69-70].

Rusiyanın rəsmi dairələrinin köməyi ilə erməni milli dəstələri indiki Ermənistan ərazisinə yerləşdirildi. Qafqaz cəbhəsində hərbi əməliyyatların iştirakçısı general-mayor Q. Korqanyan bu faktı təsdiq edərək bildirir ki, ilk vaxtlar erməni könüllüləri sırasında 2500 nəfər olmuş, sonralar 6000-ə çatmışdır. Bəzi müəlliflər isə bu rəqəmin 9000 olduğunu göstərirlər [5, s. 71].

Bu zaman, könüllülərin təchizatı üçün hər yerdə vəsait toplanırdı. Təkcə 1915-ci ildə 144 min rubl toplanmışdı [5, s. 84-85]. 1914-cü ilin sonunda artıq dörd könüllü drujina yaradılmışdı və onlar aşağıdakı istiqamətdə hücuma keçməli idilər. I drujina Andranik Ozanyanın komandanlığı ilə - İran-Başqala-Van istiqamətində, II drujina general Nikolayevin komandanlığı ilə İqdır-Bayazid-Berkri-Van istiqamətində, general Prçevalskinin tabeliyində olan III drujina - Kağızman-Əlaşkert-Manazkert-Bidlis istiqamətində, polkovnik Kulebyakinin tabeliyində birləşən IV drujina - Sarıqamış-Qaracaörən-Körpüköy-Ərzurum istiqamətində Osmanlı dövlətinə qarşı hücuma başladılar.

1915-ci il aprelin 16-da Vorontsov-Daşkov erməni drujinalarının ştat cədvəlini təsdiq edərək, hər bir drujinanı dörd rotaya bölməklə, hər rotada 234 nəfər toplamışdır. Əlavə ştatlarla birlikdə hər drujinada 985 nəfər nəzərdə tutulurdu. 1915-ci ilin yanvarında isə Kənəkerdə quldurbaşı Vardanın rəhbərliyi ilə drujina formalaşdırılmışdı. 2-ci, 3-cü, 4-cü drujinalar onun tabeleyinə verilmişdi və "Araratyan zoraxumb" adlanırdı. Andranikin başçılığı ilə 1-ci drujina İranda-Cənubi Azərbaycanda qırğınlar törədirdi. Aprelin 15-də İrəvanda drujinalara baxış keçirilərək, Eçmiədzində onlar üçün təntənəli şənlik olmuşdur. Tədbirdə katolikos V. Georqun xeyir-duası ilə "qədim erməni torpaqlarını yadelli əsarətdən qurtarmaq üçün" İqdır istiqamətində yola düşməsi haqqında göstəriş vermişlər [5, s. 87].

Rusiya imperiyası erməni könüllü dəstələrinin təşkili ilə yanaşı onların maliyələşdirilməsini öz üzərinə götürmüşdü. İmperiya tərəfindən təşkil edilmiş erməni quldur dəstələri İrəvan quberniyasının və Qars vilayətinin ərazisində istədikləri türk kəndlərinə hücum edir, əhalini qaçqın düşməyə məcbur edirdilər. Bu zaman boşalmış türk evlərində isə Türkiyənin içərilərindən gələn ermənilər yerləşdirməyə başlanmış.

İmperiya tərəfindən təşkil edilən erməni milli dəstələrinin əli ilə 1918-ci ilin mart-aprel aylarında Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində 92 kənd yerlə yeksan olunub, əhali üzərində yaşa və cinsə məhəl qoymadan qətliam həyata keçirilibdir. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərinin birində göstərilirdi ki, azərbaycanlıların bu tarixi şəhərində və onun ətrafında qısa zaman ərzində 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 131 min 970 nəfər isə öldürülmüşdür.

1918-ci ildə Eçmiədzin rayonunda azərbaycanlılar sayca üstünlük təşkil etsələr də, bu rayonun əksər kəndi ermənilərin vəhşiliyinə, işgəncələrinə məruz qalmışdır. Rayonun Ayarlı kəndi 1918-ci ildə bütünlüklə soyqırıma məruz qalmışdır. Bu kənddə həmin vaxt 700-dən çox azərbaycanlı yaşayırdı. Onların əksəriyyəti işgəncə ilə öldürülmüş, salamat qalanlar didərgin düşmüş, dağlarda-daşlarda tələf olmuşdular. İri azərbaycanlı kəndi olan Qarğabazarın 800 nəfərdən çox əhalisi erməni quldur dəstələri tərəfindən işgəncə ilə qətlə yetirilmişdir. Kənd bütövlükdə talan edilmiş, dağıdılmış, evləri yandırılmışdır. Qəmərli kəndinin də başına eyni müsibətlər gətirilmişdir. Bu kənddə yaşayan 500 nəfərə yaxın azərbaycanlı əhali erməni silahlı dəstələri tərəfindən məhv edilmiş, bir qismi isə doğma yurd-yuvasını tərk etməyə məcbur olmuşdur.

1918-ci ilin martında İrəvan qəzasının 199 azərbaycanlı kəndi, 1919-cu ilin sentyabr ayına qədər isə Eçmiədzin qəzasına məxsus 62 azərbaycanlı kəndi bütünlüklə yerlə yeksan edilmişdir. 1919-cu ilin axırında Zəngibasarın bir neçə kəndi istisna olmaqla, İrəvan qəzasının, o cümlədən Vedibasarın bütün kəndləri məhv edilmiş, əhalisi vəhşicəsinə öldürülmüş, sağ qalanlar canlarını xilas etmək üçün başqa yerlərə qaçmışlar. Əhali İran, Osmanlı və Azərbaycanın digər ərazilərinə pənah gətirmişdir.

1918-ci ildə İrəvan quberniyasında 211, Qars vilayətində 92 azərbaycanlı kəndi dağıdılmış, yandırılmış və talan edilmişdi. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki, qısa müddət ərzində bu tarixi Azərbaycan şəhərində (İrəvan) və onun ərazisində 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 132 min azərbaycanlı məhv edilmişdi. Erməni cəza dəstələrinin törətdikləri vəhşiliklər, daşnak hakimiyyəti dövründə yürüdülən «türksüz Ermənistan» siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə enmişdir. Andranikin quldur qoşununun və daşnakların 1918-1920-ci illərdə azərbaycanlılara qarşı apardıqları soyqırımı nəticəsində indiki Ermənistan ərazisində, yəni Qərbi Azərbaycan torpaqlarında yaşayan əhalinin çox böyük hissəsi, təxminən 565 min nəfəri vəhşicəsinə qırılmış, yaxud öz dədə-baba torpaqlarından qovulmuş, didərgin salınmışdır.

Bu barədə 1920-ci ilin aprelində «Azərbaycan» qəzeti yazırdı: «Artıq Göyçə mahalında müsəlman qalmayıb. Hazırda Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi dağıdılmışdır, onlardan 22 kənd apreldə dağıdılmışdır. Otuz kəndin 15 mindən artıq evi olan əhalisi bütün malı, dövləti başlı-başına buraxıb qaçmışdır. Bütün bu var-dövlət hazırda ermənilərə qalıb, qarət edilmiş əmlak bir neçə milyon və hətta milyardlar qədərdir» (2).

Yerli ziyalıların İrəvan ətrafında müsəlmanları erməni quldur dəstələrinin basqınından xilas etmək üçün Bakı (İslam) Xeyriyyə Cəmiyyətinin 36-cı Qafqaz diviziyası komandanlığına etdiyi müraciətdə deyilirdi: "İrəvan quberniyası

ərazisindəki müsəlmanları qırıb, yox edilməkdə olduqları otuzdan çox müsəlman kəndini yandırıb, əhalisini qırmışlar. İrəvandan qaçaraq gələn yaralı və xəstə köçkünlərin sayı gündən-günə çoxalmaqdadır. Əhali yoxsulluq və pərişanlıq içindədir. Sizdən onlara sığınacaq və daldalanacaq yerinin göstərilməsini rica edirik (1, s. 46).

Cənubi Qafqaz Seyminin müsəlman fraksiyası Qars vilayətində və İrəvan quberniyasında törədilən qırğınlar haqqında iki dəfə müzakirə etmiş və Seym qarşısında məsələ qaldırmışdı:

a) daxili işlər nazirinə tapşırılsın ki, müsəlmanlara kömək etmək üçün xüsusi komissiya göndərilsin,

b) bütün müsəlman qaçqınları öz yerlərinə qaytarılsın,

v) ərazi nazirliyinə tapşırılsın ki, təcili yardım göstərsin,

q) azğınlıq edən erməni hərbi hissəsi buraxılsın,

d) müsəlman qaçqınlarının sayı və vəziyyəti öyrənilsin, onlara əlavə yardım göstərilsin.

Müsəlman fraksiyasının gərgin səyi nəticəsində Cənubi Qafqaz hökuməti bu məsələni öyrənmək üçün komissiya yaratmış və qaçqınların ən zəruri ehtiyaclarını ödəmək üçün bir milyon manat vəsait ayırmışdı (4, s. 6-14).

Ermənistanda daşnakların hakimiyyəti dövründə türklərə qarşı soyqırım daha geniş vüsət almış, onların yaşadıqları ərazilər demək olar ki, bütünlüklə xarabazarlığa çevrilmişdi.

1918-ilin mayında Cənubi Qafqazda üç müstəqil, Gürcüstan, Azərbaycan və Ermənistan dövlətləri yaransa da onların arasında sərhədlər dəqiq müəyyən edilməmişdi. Çar Rusiyası dövründə Qafqaz canişinliyinə tabe olan quberniyalarda azərbaycanlıların, gürcülərin və ermənilərin qarışıq şəkildə məskunlaşması bu sərhədləri müəyyən etməkdə çətinlik yaradırdı.

1918-ci ilin mayında əzəli Azərbaycan torpaqları olan İrəvan quberniyası ərazisində Ermənistan dövləti yaradılan zaman onun paytaxtının hansı şəhər olacağı müəyyən edilməmişdi. Azərbaycan hökuməti milli münaqişələrə son qoyulması məqsədilə mayın 29-da İrəvan şəhərinin paytaxt elan edilməsi üçün ermənilərə güzəştə getdiyini bəyan etmişdir. İrəvan Müsəlman Milli Şurası bu güzəştə dərhal öz etirazını bildirmişdi.

1918-ci il iyunun 4-də imzalanan Batumi müqaviləsinə əsasən Ermənistan Respublikasının ərazisi təqribən 9 min km^2-ə çatırdı və Ermənistan hökuməti Azərbaycana qarşı ərazi iddiası olmadığını bildirmişdi. Lakin Şərqi Anadoluda qırğınlar törətdikdən sonra türk qoşunlarının önündən qaçan erməni silahlı qüvvələri general Andranikin komandanlığı altında Gümrüdən Qarakilsəyə, oradan Dilican dərəsinə və Göyçəyə sonra Naxçıvana, oradan da Zəngəzura adlayaraq, həmin ərazilərdəki müsəlman kəndlərini viran qoymuşdu. Erməni silahlı qüvvələrinin

Zəngəzurdan Qarabağı təhdid etməsi Azərbaycan hökumətini ciddi narahat edirdi. Qarabağın dağlıq hissəsində yaşayan ermənilər silahlanaraq Andranikin qüvvələri ilə qovuşmaq, Qarabağla Ermənistan arasındakı müsəlman kəndlərinin əhalisinin silah gücünə qovaraq Dağlıq Qarabağı Ermənistana birləşdirmək istəyirdilər.

Lakin Ermənistan hökuməti hiylə işlədib Andranikin silahlı qüvvələrinin Ermənistan hökumətinə tabe olmadığını bəhanə edərək, avqustun 1-də bildirmişdi ki, general Andranik və onun dəstəsi bütünlüklə Ermənistan ordusunun tərkibindən silinmişdir. Buna səbəb isə Andranik və onun dəstəsinin Ermənistan daşnak hökumətini tanımadıqlarını bəyan etmələri olmuşdu. Elə buna görə də Ermənistan hökuməti Andranikin və onun dəstəsinin əməllərinə cavabdeh olmadığını bildirmişdi.

AXC-nin süqutu ərəfəsində, ermənilərin kütləvi soyqırımı nəticəsində 1920-ci ilədək indiki İrəvan quberniyasında yaşamış 575 min nəfər müsəlman əhalidən cəmisi 10 min nəfərdən bir qədər artıq türk (azərbaycanlı – Z.C.) əhali qalmışdı [6, s. 33]. Deməli, 1918-1920-ci illərdə İrəvan quberniyasında ermənilərin soyqırıma məruz qalmış yarım milyondan artıq azərbaycanlı əhalidən öz canlarını xilas edərək əsas hissəsi qaçqın kimi Azərbaycanda sığınacaq tapmışdı. Lakin qaçqınların öz əzəli torpaqlarına qayıtması problemi AXC hökumətindən Sovet Azərbaycanı hökumətinə miras qalmışdı. Təəssüf ki, bu problem Azərbaycanda Sovet hakimiyyəti dövründə də ədalətlə həll edilməmişdi. 1922-ci ilədək indiki Ermənistana - öz tarixi etnik torpaqlarına cəmisi 100 min azərbaycanlı qayıda bilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra gördüyü tədbirləri başa çatdırmağa imkan vermədi, 1920-ci il aprelin 27-də rus ordusu tərəfindən Azərbaycanın işğal edilməsi ilə Zəngəzur qəzası sovet Ermənistanına bağışlandı. Beləliklə, 1918-1920-ci illərdə türk-müsəlman əhalisinə qarşı həyata keçirilən qətllər və kütləvi insan qırğını təsadüfi hadisə deyil, «Daşnaksütyun» partiyasının «böyük Ermənistan» yaratmaq planını reallaşdırmaq yolunda atılan addım və soyqırım siyasəti olmuşdur.

İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:

1. Arzumanli V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: "Qartal", 1998, 280 s.
2. "Azərbaycan" qəzeti, 1920-ci il 10 aprel.
3. Kırzıoqlu F. Kars ili çərçivəsində erməni mezalimi (1918-1920). Ankara, 1999, 136 s.
4. Həsənov H.N. Türkmənçay: ədalətsiz müharibəyə aparan yollar, onun məğzi və faciəli nəticələri. Bakı: 2008, s. 6-14.
5. Qəhrəmanov N. Birinci dünya müharibəsində erməni amili. Bakı, "E.L." Nəşriyyat

və Poliqrafiya Şirkəti MMC, 2008, 296 s.
6. Məmmədov İ, Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. (Qısa tarixi ocerk). Bakı: Azərbaycan nəşriyyatı, 1992, 72 s.
7. Süleyman Kosabas, Tarihte Turk-Rus Mucadilesi. İstanbul, 1989, səh.376.
8. Tahir Sünbül. Azerbaycan dosyası I. Ankara, 1990, 128 s.
9. "Армянский геноцид" Миф и реальность. Справочник фактов и документов, Баку, 1992.
10. Готлиб В.В. Тайная дипломатия во время первой мировой войны. Москва, 1960.
11. Жорж-де Малевил. Армянская трагедия 1915 года. Баку, Элм, 1990, 124 с.
12. История Азербайджана по документам и публикациям. Баку, 1990.
13. Качазнуни Ов. Дашнакцутюн больше нечего делать! Тбилиси, 1927; Баку, Элм, 1990, 92 с.
14. Наджафов Б.И. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX века – начале XX века. ч.I I. Баку, Шярг-гярб, 1994, 336 с.
15. Шахдин И., Дашнакцутюн на службе русской белогвардейщины и английского командования на Кавказе, Баку, 1931.

Зульфия Джалилова
Результаты национально-колонизационной политики царизма и анти-турецкой политики армян

Ключевые слова: *геноцид против азербайджанцев, Иреванская губерния, царская Россия*

В статье говорится, что Армения, при помощи царской России начала политику геноцида против азербайджанцев.

В начале XIX века с завоеванием Северного Азербайджана начался процесс массового переселения и размещения армян на территории Иреванской губернии.

Российская империя создавала армянские добровольные группировки и оказывала им финансовую поддержку.

Zulfiya Djalilova
The results of the Tsarist national colonization policy, and anti Turkish policy of Armenians

Key words: *Genocide against Azerbaijanis, Erevan province, tsarist Russia*

The article says that Armenia with the help of tsarist Russia began to pursue a policy of genocide against Azerbaijanis.

At the beginning of the 19th century was begun to occupying Azerbaijan lands and replacing Armenian people in the territory of Erevan province.

Russian empire created the Armenian voluntary groups and provide them with financial support.

Rəşad Qasımov

Azərbaycanda milli ordu quruculuğu prosesində Osmanlı dövlətinin roluna dair (Osmanlı arxiv sənədləri əsasında)

***Açar sözlər**: Osmanlı arxiv materialları, hərbi əməkdaşlıq, Osmanlı dövləti*

UOT 94 (479.24)

Çarizmin devrilməsi nəticəsində Cənubi Qafqazda yaranmış siyasi vəziyyət milli özünümüdafiə qüvvələrinin yaradılması məsələsinin bütün kəskinliyi ilə üzə çıxmasına səbəb oldu. Ordu yaradılmasının zəruriliyini anlayan Azərbaycan milli azadlıq hərəkatı nümayəndələri bu problemin həll edilməsi istiqamətində hələ inqilabdan sonrakı ilk günlərdə fəaliyyətə başlamışdılar. Bunu 1917-ci il Fevral inqilabından az sonra, aprel ayında toplanan Qafqaz müsəlmanların Bakı qurultayında Qafqazda müsəlman xalqlarının hərbi potensialını müəyyən etmək məqsədilə burada əhalinin ümumi siyahıyaalmasını keçirmək və müsəlman alayları yaratmaq üçün xüsusi büronun təşkili haqqında qərar qəbul etməsi də sübut edir. Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının milli-azadlıq mübarizəsinin önündə gedən Müsavat partiyasının 1917-ci ilin oktyabrında keçirilmiş birinci qurultayının qətnamələrindən biri də məhz milli ordu yaratmaq zərurətinə həsr edilmişdi[31,55]. Lakin davam etməkdə olan dünya müharibəsi və Rusiyada baş verən inqilabdan sonra ölkədə hökm sürən anarxiya şəraitində ordu yaradılması işində ciddi bir iş görmək mümkün olmadı.

Azərbaycanlıların milli ordu quruculuğu sahəsində üzləşdiyi problemin əsas səbəbi uzun illər ərzində Azərbaycanın müstəmləkə şəraitində yaşaması və rus hakim dairələrinin müsəlmanlara etibar etməyərək onları hərbi xidmətə cəlb etməməsi səbəbindən xalqın hərbi sərişтəsinin zaman-zaman itirilməsi idi. Görkəmli tədqiqatçı A.İsgəndərovun təbirincə desək, "Çar Rusiyasından Azərbaycana qalan miras hərbi xidmətdən və silah daşımaqdan məhrum edilən əhalidən və primitiv qaydada mövcud olan təsərrüfatdan ibarət idi" [30,151]. Buna görə də 1917-ci ilin dekabrında Ərzincan barışığının imzalanmasından sonra, Cənubi Qafqaz Komissarlığının Qafqaz cəbhəsində dağılmış rus ordusunun yerinə milli korpusların yaradılması haqqında qəbul etdiyi qərardan sonra tez bir zamanda

rus ordusunda xidmət edən erməni və gürcülərin potensialı hesabına erməni və gürcü milli korpusları yaradılsa da, Azərbaycan milli korpusunun yaradılması işi ciddi çətinliklərlə üzləşmişdi. Azərbaycanın türk-müsəlman əhalisinin erməni-bolşevik təcavüzünə məruz qaldığı mürəkkəb və məsuliyyətli bu dövrdə isə milli ordunun yaradılması qaçılmaz bir zərurətə çevrilmişdi. Cənubi Qafqazda mövcud olan anarxiya şəraitində Azərbaycan xalqının gələcək fiziki mövcudluğu milli Azərbaycan ordusunun yaradılmasından çox asılı idi.

1917-ci ilin sonu – 1918-ci ilin əvvəllərində Bakıda cəmləşmiş bütün antiazərbaycan meylli siyasi təşkilatların fikir birliyi, erməni-bolşevik qüvvələrinin isə fəal hərəkətləri ilə 1918-ci ilin martında türk-müsəlman əhalisinə qarşı amansız qırğın törədildi. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təşkil etdiyi Fövqəladə İstintaq Komissiyası tərəfindən aparılmış təhqiqat nəticəsində 1918-ci ilin martında, yalnız Bakıda daşnaklar bolşeviklər, menşeviklər və başqa partiyalar tərəfindən həyata keçirilmiş cinayətlər nəticəsində15 mindən çox günahsız müsəlmanın qətlə yetirilməsi məlumdur[38,34-35]. Azərbaycanlılara qarşı törədilən qırğın Bakı ilə məhdudlaşmadı, amansız soyqırım aktları Quba, Şamaxı, Salyan, Kürdəmir, Göyçay və digər bölgələrdə də davam etdirildi.

1917-1918-ci illər dövrünü Azərbaycan tarixində ən qanlı dövr kimi səciyyələndirmək olar. Ordusu və dövlət təşkilatı olmayan xalq müasir silahlarla silahlanmış, hərbi təlim keçmiş erməni-bolşevik qüvvələri ilə üzbəüz qalmışdı. Qırğınlara qarşı diyarda mövcud hakimiyyət orqanlarının demək olar ki, tədbir görməməsi sonda bütöv bir xalqın genefondunun məhv edilməsi ilə nəticələnə bilərdi. Belə bir şəraitdə Azərbaycan milli-azadlıq hərəkatının liderləri, Azərbaycan xalqının qabaqcıl ziyalıları yaranmış vəziyyəti təhlil edərək xalqımızın yeganə xilas yolunun Osmanlı dövlətində olması qənaətinə gəldilər. Bununla bağlı M.Ə. Rəsulzadə sonralar yazırdı ki, həmin dövrdə yaranmış şəraitdə təkcə Türkiyəyə ümid qalırdı və bu qardaş millət Azərbaycanı düşmənlərin əlindən qoparmaq üçün dəvət edildi[32,37-38]. Bu istiqamətdə gərgin iş aparan N.Şeyxzamanlının rəhbərliyi ilə İstanbula göndərilən nümayəndə heyəti Osmanlı siyasi dairələrində Azərbaycana hərbi yardımın göndərilməsi istiqamətində əminlik yaratmağa və İstanbul hökumətinin Azərbaycana ordu göndərmək haqqında qərar qəbul etməsinə nail oldu. Osmanlı sədrəzəmi Tələt paşa və hərbi nazir Ənvər paşa ilə görüşən N.Şeyxzamanlı öz xatirələrində bu barədə yazır: "... Paşa sonra mənə qərar qəbul etdiyini, Qafqaz İslam Ordusunun yaradılmasına başlanmasını və bir əlavə rütbə ilə zabit qeyd ediləcəyi üçün komissiya təşkil olunduğunu anlatdı" [34,70-71]. Göründüyü kimi, Azərbaycan milli azadlıq hərəkatının liderləri hələ cümhuriyyətin yaranmasından xeyli əvvəl obyektiv gerçəkliyi düzgün qiymətləndirərək ölkəyə Osmanlı hərbi yardımının təmin edilməsi istiqamətində əməli işlər görmüş və nəticədə Osmanlı hökuməti tərəfindən türk ordusunun Azərbaycana göndərilməsi

və Qafqaz İslam Ordusunun yaradılması haqqında qərar qəbul olunmuşdu.

Arxiv materiallarının araşdırılması göstərir ki, Azərbaycandan Türkiyəyə gedən rəsmi nümayəndə heyəti ilə yanaşı, müxtəlif bölgələrin əhalisi də yeganə xilas yolunu Osmanlı dövlətində görərək, ayrı-ayrılıqda və müxtəlif dövrlərdə yardım üçün Osmanlı dövlətinə müraciətlər etmişlər.

Türkiyənin Başbakanlıq Osmanlı Arxivindən saxlanılan 1918-ci il 9 may tarixli, 73 №-li arxiv sənədində Zaqatala Dairə İcraiyyə Komitəsi tərəfindən Osmanlı dövlətinə göndərilmək üçün tərkibinə Molla Əbdüləziz Bayramoğlunun, Hacı İsa Damislinin ve İbrahim Hacı Rövşənzadənin daxil olduğu nümayəndə heyətinin seçilməsi haqqında məlumat saxlanmışdır[15]. Zaqatalanın 100 minlik müsəlman əhalisi tərəfindən tapşırılmışdı ki, Osmanlı dövlətindən "bizləri bu hal-ı esefteki ve bozgunluktan qurtarmalarını taraf-ı acizanemizden ilhah ve rica etsinler. Və böyle özbaşımıza qalsaq az vaxtda məhv və mütearrız olub gedəcəyimizi onlara eynilə söyləsinlər[15].

Digər arxiv sənədindən isə tərkibinə Zaqafqaziya Şeyxülislamı Axund Məhəmməd Pişnamazzadənin, Hacı Seyyid Əhməd Hacı Səbrioğlunun, Məhəmməd Əli İsmayılovun və Hacı Bəhlul İbrahimovun daxil olduğu nümayəndə heyətinin "bolşevik işgəncələrinin şiddətləndiyini" əsas gətirərək Osmanlı dövlətindən yardım istəməsi məlum olur[16].

Arxiv materiallarının araşdırılması belə qənaətə gəlməyə əsas verir ki, 1918-ci ilin əvvəllərində təklənmiş və məhv olmaq təhlükəsi ilə üzbəüz qalmış Azərbaycan əhalisi öz varlığını qorumaq üçün yalnız Osmanlı dövlətinin ediləcəyi hərbi yardıma ümid bağlayırdı.

Yarandığı ilk günlərdən ciddi çətinliklərlə qarşılaşmış Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz qüvvələri hesabına ölkədə asayişi və hüquq qaydalarını bərpa edə bilməyəcəyini dərindən dərk edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin öz torpaqlarını qoruya biləcək ordusu yox idi[30,151]. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti elan olunan dövrdə hökumətin sərəncamında olan yeganə hərbi qüvvə Tatar Süvari Alayının təqribən 600 nəfərlik hissəsi idi ki, bu məhdud kontingent ölkənin pozulmuş ərazi bütövlüyünü və suverenliyini qorunmağa qadir deyildi. Digər tərəfdən, türk-müsəlman əhalisinə qarşı bolşevik və daşnak qüvvələri tərəfindən həyata keçirilən soyqırımlar müsəlman əhalisinin təhlükəsizliyini təmin etmək üçün təxirəsalınmaz tədbirlərin görülməsini zərurətə çevirmişdi. Bütün bu problemlərin həll edilməsinin yeganə vasitəsi olan ordunun yaradılması isə mövcud anarxiya şəraitində praktiki cəhətdən sadəcə olaraq qeyri-mümkün idi. Yaranmış vəziyyəti nəzərə alan AXC hökuməti Osmanlı dövlətindən hərbi yardımın istənilməsini yeganə çıxış yolu kimi qəbul edərək, Batumda danışıqlar aparan nümayəndələri M.H.Hacınski və M.Ə.Rəsulzadə vasitəsilə yardım xahişi ilə Osmanlı dövlətinə müraciət etdi. Müraciətə cavab olaraq, Batum konfransında

Osmanlı nümayəndə heyətinə rəhbərlik edən Xəlil bəy tezliklə Azərbaycana lazımi hərbi qüvvənin göndəriləcəyini bildirdi[22;23].

Osmanlı dövləti tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinə hərbi yardım göstərilməsi tərəflər arasında 1918-ci il iyunun 4-də bağlanmış Batum müqaviləsinin 4-cü maddəsi ilə hüquqi cəhətdən təsbit edildi[21]. Müqavilənin Azərbaycan üçün mühüm əhəmiyyət daşıyan bu maddəsində göstərilirdi ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən tələb edildiyi təqdirdə Osmanlı hökuməti ölkədə qayda-qanunu və daxili asayişi təmin etmək və möhkəmləndirmək üçün Azərbaycana zəruri hərbi yardım göstərməyi öz öhdəsinə götürür.

Azərbaycan tərəfinin hərbi yardım xahişinin Osmanlı hakim dairələri tərəfindən müsbət cavablandırılması Azərbaycan – Osmanlı hərbi əməkdaşlığının əsasının qoyulması, həmçinin türk ordusunun köməyi ilə ölkənin suveren hüquqlarının bərpa edilməsi uğrunda hərəkatın başlanması demək idi. Osmanlı və Azərbaycan hərbi birlikləri hesabına yaradılan Qafqaz İslam Ordusunun fəaliyyəti həm də AXC və Osmanlı dövlətləri arasında hərbi əməkdaşlığın bariz nümunəsi hesab edilə bilər. Azərbaycan və türk tarixşünaslığında bu ordunun Azərbaycan və Dağıstan hərəkatının kifayət qədər və detallı şəkildə araşdırıldığını nəzərə alaraq[29;27;33;35], biz əsasən Azərbaycan ordusunun yaradılması istiqamətində Osmanlı dövlətinin həyata keçirdiyi fəaliyyətə diqqət yetirməyi və bu problemin türk mənbələri əsasında təhlil olunmasını məqsədəuyğun hesab edirik.

Qeyd etmək lazımdır ki, aparılmış tədqiqatlar Azərbaycan hökumətinin Osmanlı dövlətindən hərbi yardım istəməklə bərabər, milli ordu quruculuğu işinə də böyük əhəmiyyət verməsini göstərir. Buna görə də birinci hökumət kabinetində ordu quruculuğuna rəhbərlik üçün Hərbi Nazirlik də nəzərdə tutulmuş və Xosrov Paşa bəy Sultanov nazir təsdiq edilmişdi[26,6].

1918-ci il iyunun 26-da hökumətin qərarı ilə Müsəlman korpusu Əlahiddə Azərbaycan korpusu adlandırıldı və onun ştat cədvəlində qismən dəyişiklik edildi. General-leytenant Əlağa Şıxlinski korpusun komandiri kimi vəzifəsini yenə də davam etdirdi. Ordu quruculuğu sahəsində irəliləyişə nail olmaq üçün Hökumət bir sıra tədbirlər həyata keçirdi. İyun ayının əvvəllərindən Gəncə Hərbi Məktəbi fəaliyyətə başladı. Hökumətin qərarı ilə çağırışçılar üçün yaş senzi 19 yaşa endirildi. Sonra 1894-1895 illərdə doğulmuş və islam dininə mənsub gənclərin xidmətə çağırılması barədə qərar qəbul edildi. Çağırış - səfərbərlik işinin təşkili, bu sahədə mövcud olan əyintilərin qarşısının alınması üçün Daxili İşlər Nazirliyinin sərəncamına 5 min rubl vəsait ayrıldı. Hökumətin qərarı ilə Yelizavetpol əxzi-əsgər (əsgərliyə çağırış və ya hərbi çağırış) idarəsi Azərbaycan əxzi-əsgər idarəsi adlandırıldı və bütün ölkə üzrə çağırış işinin təşkili bu idarədə cəmləşdirildi[26,189-190].

Osmanlı-Azərbaycan hərbi əməkdaşlığı və Azərbaycanda ordu quruculuğu ilə bağlı istər Başbakanlıq Osmanlı Arxivində, istərsə də Genelkurmay Askeri Tarix və

Strateji Etüd Başkanlığı Arxivində mühafizə edilən sənədlərin əksəriyyəti əsasən Qafqaz İslam Ordusunun Azərbaycan və Dağıstan əməliyyatını özündə ehtiva edən materiallardır. Bu sənədlər içərisində ordunun təşkilindən tutmuş, əməliyyat planları, təchizat işləri və İslam Ordusu komandanlığının Şərq Cəbhəsi komandanlığına və Hərbiyyə Nəzarətinə göndərdiyi raportlar üstünlük təşkil edir. Qeyd etmək lazımdır ki, göstərilən sənədlərin müəyyən bir qismi Azərbaycan tarixşünaslında ilk dəfə hərb tariximizin görkəmli tədqiqatçısı M. Süleymanov tərəfindən elmi dövriyyəyə gətirilmişdir[33].

Arxiv materialları içərisində Osmanlı dövlətinin nümayəndələrinin Azərbaycan ordusunun qurulması istiqamətində atdıqları əməli addımları əks etdirən sənədlər xüsusilə diqqəti cəlb edir. Osmanlı arxiv sənədləri türk komandanlığının Azərbaycan ordusunun yaradılması işinə əhəmiyyət verməsini sübut etsə də, mənbələrin təhlili Osmanlı hakim dairələrinin Azərbaycan ordusunun yaradılması işinə birmənalı münasibət bəsləmədiyini göstərir.

Genelkurmay Askeri Tarix və Strateji Etüd Başkanlığı Arxivində mühafizə edilən sənədlərin təhlili onu deməyə əsas verir ki, Osmanlı hakim dairələri Azərbaycan ordu hissələrinin yaradılmasında maraqlı olsalar da, bu hissələrin Türkiyənin nəzarəti altında olmasına xüsusi diqqət yetirmişlər. Bu mülahizəni Qafqaz islam Ordusunun komandanı Nuru paşa tərəfindən imzalanmış 2 avqust 1918-ci il tarixli sənəd də təsdiq edir. Həmin sənədin birinci qismində deyilir:" Azərbaycan daxilində indi hərbi təşkilati işlər ordu (Qafqaz İslam Ordusu nəzərdə tutulur – R.Q.) tərəfindən həyata keçiriləcəkdir" [6]. Həmin sənədin ikinci hissəsində isə iki diviziyadan ibarət ordu korpusunun təşkil olunacağından[6] bəhs edilirdi.

Nuru paşanın 13 avqust 1918-ci il tarixli Azərbaycan korpusunun ləğv olunması və onun yenidən qurulması barədə verdiyi əmr Osmanlı hakim dairələrinin Azərbaycan ordusunu hansı şəkildə görmək istədiklərinin açıq şəkildə göstərir. "Azərbaycan Xalq Cümhuriyyətində ordu təşkil etmə işlərinin Qafqaz İslam Ordusu tərəfindən tənzim və idarə olunacağının" vurğulandığı əmrdə açıq şəkildə qeyd olunurdu ki, "təşkil edilməkdə olan kiçik birliklər korpus və diviziya qərargahının təşkilinə qədər birbaşa Qafqaz İslam Ordusuna bağlı olacaqdır"[4]. Göründüyü kimi, yaradılacaq yeni Azərbaycan korpusu Azərbaycan hökumətinə deyil, tamamilə Osmanlı komandanlığına tabe olan hərbi hissə kimi nəzərdə tutulurdu.

Göstərilən əmrdə diqqəti çəkən məqamlardan biri də Azərbaycan korpusunun zabit heyətinin milli tərkibi, o cümlədən dili ilə bağlı idi. Bu məsələlərlə bağlı qeyd olunurdu ki, "korpusun zabitlərinin hamısı müsəlman olacaqdır. Bütün zabit və əsgərlər Osmanlı hərbi forması geyəcəklər... Yeni təşkil olunacaq birliklərdə danışıq və yazışma türkcə olacaqdır"[4].

Sənədin məzmunun təhlili belə bir nəticə çıxarmağa əsas verir ki, Nuru paşa tərəfindən Azərbaycan korpusunun ləğv edilməsi onun Qafqaz İslam Ordusu

içərisində əridilərək[28,241] Azərbaycanda hərbi işin tamamilə Osmanlı dövlətinin nəzarətinə verilməsi, o cümlədən qeyri-müsəlman zabit heyətinin ordudan uzaqlaşdırılması niyyətlərindən irəli gəlirdi. Bu qərar, göründüyü kimi, Bakının azad edilməsi ərəfəsində verilmişdi və bu dövrdə hələ tam mənada Azərbaycan ordusunun formalaşdırılması haqqında söhbət gedə bilməzdi.

Osmanlı arxiv sənədlərinin araşdırılması göstərir ki, Bakının azad edilməsindən sonra, sentyabr ayının ikinci yarısı – oktyabr ayı ərzində Osmanlı hərbi komandanlığı Azərbaycan ordusunun qurulması istiqamətində əməli addımlar atmağa başlamışdır. Qafqaz İslam Ordusunun komandanı Nuru paşa Azərbaycan ordusunun təşkili işinin sürətləndirilməsini Fələstindən Azərbaycana gətirilmiş qüvvələrin geriyə çağırılması ilə əlaqələndirərək, milli ordu quruculuğu prosesinin ləng aparılmasının səbəblərini belə izah edir: "Əsasən Azərbaycana daxil olduğumuz gündən etibarən yerlilərdən nizami qüvvələrin təşkil edilməsinə daima əhəmiyyət verilsə də, şəxsi heyətinin təxliyə edilməsi və zabitlərin mövcud olmaması (çatışmaması – R.Q.) səbəbindən Bakının zəbt edilməsinə və hissələrimizin qismən sərbəst qalmasına qədər buna imkan olmamışdı" [8].

Digər mənbələrin və Birinci Dünya müharibəsinin son mərhələsində yaranmış beynəlxalq vəziyyətin təhlili göstərir ki, artıq Dördlər İttifaqının məğlubiyyətinin labüd olmasını hiss edən Osmanlı hakim dairələri, Qafqazdan türk qoşunlarının geri çağırılacağı təqdirdə, Azərbaycanın özünümüdafiə qüvvələrinə malik olmasının zəruriliyini anlamışdılar. Bununla bağlı Ənvər paşa 5 oktyabr 1918-ci il tarixli teleqramında Nuru paşaya yazırdı: "Bəlkə zahirən Azərbaycandan və Şimali Qafqazdan geri çəkiləcəyik. Qüvvələrimizi geri çəkmiş kimi görünməyə məcbur olacağıq. Belə bir halda Azərbaycanın və Şimali Qafqazın öz qüvvələrinə istinad etmələri lazım gələcəkdir" [9]. Göstərilən teleqramda Ənvər paşa Qafqazda qalacaq türk hərbi hissələrinin yerli birləşmələr kimi qələmə verilməsinin, onların genişləndirilməsinin və buradakı türk zabitlərin Azərbaycan təbəəsi kimi fəaliyyət göstərmələrinin, Azərbaycana mümkün olduğu qədər çox silah və cəbbəxana göndərilməsinin vacibliyini də vurğulamışdır[9]. Türk zabitlərinin Azərbaycanda qalaraq Azərbaycan ordusunda xidmət etmələri, ümumilikdə isə regionda həmin türk hərbçilərinin timsalında Osmanlı dövlətinin iştirakının təmin edilməsi ilə bağlı Osmanlı hakim dairələrinin niyyətləri digər sənədlərlə də təsdiq olunur.

Bu baxımdan Qafqaz İslam Ordusunda xidmət edən türk zabitlərinin ailələrinin onların xidmət etdikləri ərazilərə getməsinə icazə verilməsi ilə bağlı sənədlər də xüsusi əhəmiyyət kəsb edir və göstərilən sənədlərin araşdırılması bir çox əlavə mətləblərə aydınlıq gətirir. Osmanlı arxiv sənədlərindən anlaşılır ki, zabit ailələrinin xidmət yerinə köçürülməsi məsələsi Bakının azad edilməsindən sonra meydana çıxmış və təşəbbüs Qafqaz İslam Ordusu komandanlığından gəlmişdir[12]. Osmanlı xüsusi xidmət orqanları arasında gedən yazışmalarda Qafqaz İslam Ordusunda

xidmət edən türk zabitlərinin ailə üzvlərinin onların xidmət etdikləri ərazilərə getməsi məsələsində heç bir problemin olmadığı vurğulanır və bununla bağlı İslam Ordusunun komandanlığına da məlumat verildiyi bildirilir[12]. Qeyd edək ki, bu yazışmalar 1918-ci il sentyabrın sonları – oktyabrın əvvəllərində aparılmışdır. Bu fakt Osmanlı hökumətinin bəhs edilən dövrdə Azərbaycanda Qafqaz İslam Ordusunun missiyasının hələ davam etdirilməsində qərarlı olması haqqında mülahizəmizi bir daha təsdiq edir.

Qafqaz İslam Ordusunun fəaliyyətini əks etdirən sənədlər artıq 1918-ci ilin sentyabr ayının ikinci yarısından etibarən Azərbaycan korpusunun yaradılması ilə bağlı işlər sürətləndiyini göstərir. Nuru paşanın verdiyi əmrə əsasən sentyabrın 23-də 1-ci, 2-ci və 3-cü piyada alayları 1-ci Azərbaycan diviziyasında birləşdirilmiş və Cəmil Cahid bəy diviziya komandiri təyin edilmişdi. Sentyabrın 25-də Nuru paşanın 2-ci Azərbaycan diviziyasının təşkili edilməsi barədə verdiyi əmrə əsasən Nazim bəy bu diviziyaya komandir təyin edilmişdi[3].

Osmanlı arxiv sənədləri Osmanlı komandanlığının ordunun azərbaycanlı kadrlarla təmin edilməsi istiqamətində də mühüm tədbirlər həyata keçirdiyini sübut edir. Azərbaycanın milli hərbi kadrlarının azlığı və əhalinin hərbi sərişтəsinin olmadığı bir zamanda bu tədbirlərin həyata keçirilməsi təbii ki, Azərbaycanda milli ordu quruculuğu prosesinə verilmiş ən mühüm töhfələrdən biri hesab edilə bilər.

Yuxarıda qeyd etdiyimiz kimi, hələ iyun ayının əvvəllərindən Azərbaycan hökumətinin qərarı ilə Gəncə Hərbi Məktəbi yaradılsa da, məktəbin praktiki olaraq fəaliyyətə başlamasının türk zabitlərinin əməyi nəticəsində mümkün olmasını Osmanlı arxiv sənədləri sübut etməkdədir. Sənədlər göstərir ki, Nuru paşanın əmri ilə bu məktəbə ən təcrübəli türk zabitlərindən biri olan polkovnik Atif bəy rəhbər təyin edilmişdi[8]. Hərbi məktəbin qarşısında kursantların taqım komandiri kimi yetişdirilməsi, onların bölüyün idarə edilməsinə qadir olması, hissələrdəki şəxsi heyətin təlim və tərbiyəsinə rəhbərlik edə bilmə bacarıqlarının aşılanması kimi vəzifələr qoyulmuşdu. 1918-ci ilin oktyabrına təsadüf edən Hərbi məktəbin ilk buraxılışında, türk zabitlərinin Azərbaycan xalqı və dövləti qarşısında gördüyü xidmətlər Azərbaycan hərbçiləri və hökumət üzvləri tərəfindən minnətdarlıqla vurğulanmışdı. Həqiqətən də, Azərbaycanda hərbi təhsilin əsasının qoyulması və inkişaf etdirilməsi sahəsində türk zabitlərinin fəaliyyətinin misilsiz əhəmiyyətə malik olması Mudros müqaviləsinə əsasən türk ordusunun Qafqazı tərk etməsindən sonra daha da açıq şəkildə hiss olunmuşdu. Qeyd etmək lazımdır ki, Azərbaycan ordusunun milli kadr özəyinin mühüm bir hissəsini məhz bu məktəbin məzunları təşkil etmişdilər.

Osmanlı arxiv sənədləri Qafqaz İslam Ordusu komandanlığının kiçik komandir hazırlayan və "Ehtiyat zabit namizədləri təlimgahı" adlanan daha bir hərbi məktəb açması barədə məlumatlar saxlamışdır[8]. Bu təhsil ocağının açmaqda əsas məqsəd

çoxlu sayda çavuşlar yetişdirərək, piyada qoşunlarında kiçik komandir heyətinə olan ehtiyacı aradan qaldırmaqdan ibarət idi.

Osmanlı arxiv sənədləri içərisində azərbaycanlı tələbələrin Osmanlı dövlətinin müxtəlif ali hərbi məktəblərinə qəbul edilməsi ilə bağlı sənəd və materiallara da rast gəlmək mümkündür. Məsələn, Bakı Hərbi Məktəbinin tələbəsi Zeynalabdin Hüseynzadənin İstanbul Qülləli Məktəbinə qəbul olunması ilə bağlı yazışmalardan aydın olur ki, məktəb rəhbərliyinə təqdimat Ənvər paşa tərəfindən yazılmışdır[25]. Ənvər paşa, Zeynalabdin Hüseynzadənin İstanbul Qülləli Məktəbinə qəbul olunması ilə bağlı may ayının 25-də təqdimat yazmış və ertəsi gün bu təqdimat öz müsbət həllini tapmışdır. 26 may tarixli qəbul sənədinin üzərində hərbi nazir Ənvər paşanın, sədrəzəm Tələt paşanın və Osmanlı sultanı Mehmed Rəşadın imzaları vardır[10,24]. Maraqlıdır ki, bu zaman Azərbaycan hələ müstəqil deyildi və Cənubi Qafqaz Respublikasının tərkibində idi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonrakı dövrlərdə də azərbaycanlı tələbələrin Osmanlı hərbi və mülki məktəblərinə qəbul edilməsi prosesi davam etmişdir. Məsələn, Osmanlı arxiv sənədləri içərisində Daxili İşlər Nazirliyinin fondunda 1920-ci ilin fevralında Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən göndərilən Məhəmməd Zəkinin Osmanlı Mülkiyyə Məktəbinə qəbul olunması haqqında yazışmalar vardır. Bu yazışmalardan aydınlaşır ki, Zaqatala qəsəbəsindən olan və Azərbaycan hökuməti tərəfindən rəsmi olaraq Osmanlı Mülkiyyə Məktəbinə göndərilən Məhəmməd Zəkinin bütün təhsil xərclərini ödəməyi Azərbaycan Maarif Nazirliyi öz üzərinə götürmüşdür[13]. Məhəmməd Zəkinin adı çəkilən məktəbə qəbulu ilə bağlı Osmanlı siyasiləri ilə məktəb rəhbərliyi arasında gedən yazışmalarda bildirilir ki, tədris ilinin sonuna az qaldığından Mülkiyyə Məktəbinə tələbə qəbulu imkansızdır, lakin tələbə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən göndərilmiş olduğundan bu tələbəni geri qaytarmaq məqbul sayılmır, Məhəmməd Zəki adı çəkilən məktəbə dinləyici kimi qəbul olunur. Yeni dərs ilinin başlanğıcında isə Məhəmməd Zəkinin verəcəyi imtahan nəticələrinə uyğun olaraq onun məktəbin birinci sinfinə qəbul olunacağı qərarlaşdırılır[14].

Tarixşünaslıq və mənbəşünaslıq baxımından mübahisəyə səbəb olmuş məsələlərdən biri də türk ordusunun Azərbaycanda olduğu müddətdə Azərbaycan ali hərbi orqanlarına Osmanlı dövlətinin münasibəti, daha dəqiq Hərbi Nazirliyin mövcudluğu problemidir. Fikrimizcə, Osmanlı mənbələrinin elmi dövriyyəyə gətirilməsi problemin daha obyektiv şəkildə araşdırılması istiqamətində mühüm rol oynayacaqdır.

1918-ci ilin "İyun böhranı"ndan sonra yaradılan AXC-nin ikinci hökumət kabinetində hərbi nazir vəzifəsinin yoxa çıxması[1]onu deməyə əsas verir ki, bu yalnız Nuru paşanın özünü Azərbaycanda yeganə ali hərbi vəzifəli şəxs kimi görmək istəyi ilə məhdudlaşmırdı. Hökumət kabinetində hərbi nazir vəzifəsinin

yoxa çıxması fikrimizcə, həm də Osmanlı dövlətinin AXC-nin hərbi strukturlarını nəzarət altında saxlamaq niyyətlərindən qaynaqlanırdı.

Qeyd etmək lazımdır ki, Azərbaycan tarixşünaslığına aid olan bəzi əsərlərdə Azərbaycan Xalq Cümhuriyyətinin nəşr etdirdiyi 1920-ci il "Adres-kalendar" sorğu kitabına əsaslanaraq, Hərbi Nazirliyin sentyabr ayının 1-də yaradılması, Fətəli xan Xoyski hərbi nazir, Səməd ağa Mehmandarovun isə nazir müavini təyin olunması iddia edilir[36,34]. Qeyd edək ki, bu fakt Osmanlı mənbələrində öz təsdiqini tapmır. 1918-ci ilin iyun oktyabr aylarında faktiki olaraq Azərbaycanın bütün hərbi strukturuna rəhbərlik etmiş Nuru paşa göstərilən məsələ ilə bağlı yazırdı: "Azərbaycan hökumətində bütün nazirliklər mövcud idi. Yalnız Hərbiyyə Nəzarəti (Hərbi Nazirlik- R.Q.) və təşkilatı mövcud olmadığı kimi dini işlərə aid nəzarəti də mövcud deyildi.... Azərbaycanın Hərbiyyə Nəzarəti təşkilatını İstanbul ordu dairəsi rəis müavini polkovnik Behic bəy həyata keçiridi. Buna aid bir ştat yaradılmış və bu ştatda bəzi vəzifələr Osmanlı ordusu mənsublarına ayrılmışdı... Azərbaycan hökuməti Hərbiyyə Nəzarəti əslində Qafqaz İslam Ordusu komandanı tərəfindən idarə olunurdu" [7].

Sənəddən göründüyü kimi, türk ordusunun Azərbaycanda olduğu bütün dövr ərzində əslində Azərbaycan hökuməti hərbi işlərə müdaxilə edə bilməmiş və Osmanlı komandanlığı bu sahədə şəriksiz hakimiyyətə malik olmuşdur.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, ikinci hökumət kabinetində Hərbi Nazirliyin olmamasına baxmayaraq, hökumətlə Qafqaz İslam Ordusu arasında münasibətləri tənzimləyən bir qurum mövcud idi. Osmanlı arxiv sənədlərindən aydın olur ki, türklər tərəfindən bu münasibətləri tənzimləyən qurum Qafqaz İslam Ordusunun "Siyasi İşlər Şöbəsi" olmuşdur[7]. AXC-nin ikinci hökumət kabinetinin tərkibində hərbi işlər üzrə Baş müvəkkil vəzifəsinin təsis edilməsini[2] nəzərə alsaq, Azərbaycan tərəfindən Qafqaz İslam Ordusu komandanlığı ilə hərbi işlərin məhz bu vəzifəli şəxs tərəfindən əlaqələndirilməsini güman etmək olar. 1918-ci il oktyabrın 6-da Nazirlər kabinetinin tərkibinə edilən dəyişiklikdən sonra Hərbi işlər üzrə müvəkkil vəzifəsinə İ. Ziyadxanov təsdiq olunmuşdu[31,87; 37,131].

Genelkurmay Askeri Tarix və Strateji Etüd Başkanlığı Arxivində mühafizə edilən 1918-ci il sentyabr ayının 3-də istifadə edilmiş blankdan ibarət olan bir sənəd yuxarıda göstərilən problem baxımından maraq doğurur. Həmin sənədin üzərində Azərbaycan və rus dillərində "Azərbaycan Cümhuriyyətinin Hərbi Nazirliyi" ünvanı qeyd olunmuşdur[22;23]. Bu sənəd ilk baxışdan, Azərbaycan Xalq Cümhuriyyətinin sorğu kitabında Hərbi nazirliyin yaradılması ilə bağlı məlumatı təsdiq etsə də, yuxarıda gətirilən faktlar bunu təkzib edir. Fikrimizcə, göstərilən blankın üzərində qeyd olunmuş məlumat anaxronizmdən başqa bir şey deyildir. Bu sənədin türk arxivinə düşməsi isə yalnız birinci hökumət kabineti dövründən qalmış və Hərbi Nazirliyə aid olan blankın istifadəsi ilə bağlı ola bilərdi.

AXC-Osmanlı hərbi əməkdaşlığını əks etdirən arxiv materialları içərisində "Osmanlı-Azərbaycan hərbi ittifaq müqaviləsi" layihələri[17;19;20] xüsusilə diqqəti cəlb edir. Bu müqavilə layihələri Osmanlı dövlətinin Azərbaycan silahlı qüvvələrinə münasibətinə dair yuxarıda irəli sürdüyümüz mülahizəni təsdiq etməklə yanaşı, AXC-Osmanlı hərbi əməkdaşlığının xarakterinə də aydınlıq gətirir.

Göstərilən sənədlərin saxlandığı qovluğun üzərindəki tarixlərdən 1918-ci il iyul ayının əvvəllərində Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında hərbi ittifaq müqaviləsi layihəsinin hazırlanması məlum olur. Aparılan araşdırma zamanı iki variantda hazırlanan müqavilə layihələrindən birinin 14 maddədən ibarət olmaqla 90 il üçün nəzərdə tutulması müəyyən edilmişdir[17]. Bu müqavilə layihəsinə görə, Osmanlı hökuməti Azərbaycan ordusunun təşkilini öz üzərinə götürür və bu ordu istər Azərbaycanın daxilində, istərsə də xaricində Osmanlı Baş komandanlığının hərbi vəziyyətə görə verəcəyi qərarlara uyğun olaraq hərəkət etməli, Azərbaycan ordusunun uniforma, təşkilat, təchizat, rütbə, təltif, əmr və komandası və s. məsələləri Osmanlı ordusu ilə eyni olmalı idi. Osmanlı Baş komandanlığı lüzum görərdisə, Azərbaycan ordusu Osmanlı tərəfindən və ya Osmanlı ordusu Azərbaycan tərəfindən hərbi əməliyyatla cəlb edilməli və Osmanlı Baş komandanlığının sərəncamı altında olmalı idi[18].

Digər bir müqavilə layihəsi də eyni mahiyyətdə olmaqla 8 maddədən ibarət olub, 20 il üçün nəzərdə tutulmuşdu[19].

Başbakanlıq Osmanlı Arxivinin Xariciyyə Nəzarəti fondunda saxlanılan bu müqavilə layihələri ilə eyni qovluqda saxlanılan daha bir sənəd Osmanlı-AXC hərbi əməkdaşlığının detallarının araşdırılması baxımından xüsusi əhəmiyyətə malikdir. Həmin sənəddə Osmanlı hüquqşünasları tərəfindən müqavilə layihələrinə edilmiş redaktə xarakterli düzəliş qeydləri və bir neçə əlavə düzəliş təklifi əksini tapmışdır[20]. Düzəliş və əlavələrin qeyd olunduğu sənədin məzmunu onu göstərir ki, Osmanlı hökuməti Azərbaycan ordusunun təşkili işini öz üzərinə götürsə də və lazımi anda Azərbaycan ordusunu öz sərəncamına almaq hüququ alsa da, Osmanlı tərəfi Azərbaycana yardım edib-etməməkdə sərbəst qalmış və hər hansı bir təəhhüd altına girməməkdən imtina etmişdir[20]. Bütün bunlar isə göstərilən sənədin hərbi ittifaq müqaviləsi olması baxımından qeyri-təbii görünür.

Müqavilə layihəsindən də göründüyü kimi, Osmanlı hökuməti Azərbaycan ordusunun təşkili və təchizatı məsələlərində yaxından iştirak və yardım etməyi öz üzərinə götürməklə bərabər, Azərbaycan ordusuna ali nəzarəti və lazımi anda Osmanlı ordusunun Azərbaycana yeridilməsi hüququnu təmin etmiş olurdu. Ümumiyyətlə, müqavilə layihələrində ancaq Osmanlı dövlətinin maraqları ifadə olunduğundan, onu bərabərhüquqlu sənəd adlandırmaq çətindir.

Qeyd etmək lazımdır ki, göstərilən müqavilə layihələri imzalanmamış və sadəcə layihə olaraq qalmışdır. Müqavilə layihələrinin üzərində onların hazırlandığı tarix

qeyd edilməsə də, sənədin mühafizə edildiyi qovluğun üzərində qeyd olunmuş 11 iyul 1918-ci il tarixinə əsasən layihələrin hər ikisinin təxminən eyni tarixdə hazırlandığını təxmin etmək olar.

Osmanlı arxiv sənədləri içərisində Azərbaycanda ordu quruculuğu və polis orqanlarının yaradılması işləri ilə əlaqədar diqqəti cəlb edən sənədlərdən biri də Azərbaycan hökuməti üçün polis və jandarma nizamnamələri göndərilməsi ilə bağlı Osmanlı hərbi və daxili işlər nazirlikləri arasında gedən yazışmalardır[11]. Başbakanlıq Osmanlı Arxivinin "Daxiliyyə Nəzarəti Əmniyyət-i Umumiyyə Müdiriyyəti Ləvazim Qələmi (DH.EUM.LVZ)" fondunda saxlanılan və 25 avqust – 14 sentyabr 1918-ci il tarixləri arasında aparılan bu yazışmalardan aydın olur ki, Osmanlı dövlətinin Hərbi Nazirliyindən Azərbaycan hökuməti üçün polis və jandarma nizamnamələri göndərilməsi üçün Daxili İşlər Nazirliyinə müraciət edilmiş və bu müraciət müsbət həll edilərək adı çəkilən nizamnamə və təlimatnamələr Bakıya göndərilməsi üçün Hərbi Nazirliyə təqdim edilmişdir[11].

Osmanlı dövlətinin Birinci Dünya müharibəsində məğlub olmasını təsdiq edən Mudros müqaviləsinin bağlanmasından sonrakı dövrdə ölkədə yaradılmış işğal rejimi Türkiyəyə 1918-ci ilin sonlarından etibarən Azərbaycanda gedən hərbi quruculuq işlərlə maraqlanmaq imkanı vermədi.

Türk arxivlərində mühafizə edilən və Mudros müqaviləsindən sonrakı dövrü əks etdirən materiallar içərisində Osmanlı ordularının Cənubi Qafqazdan və Cənubi Azərbaycandan təxliyə olunması prosesini əks etdirən sənədlər üstünlük təşkil edir. Təxliyə prosesi başa çatdıqdan sonra artıq dövrün Osmanlı arxiv fondlarında Azərbaycanla bağlı sənəd və materiallar seyrəlməyə başlayır və 1919-cu ilin əvvəllərindən etibarən isə demək olar ki, AXC və Osmanlı dövlətləri arasında hərbi quruculuq işləri ilə bağlı hər hansı bir sənədə rast gəlinmir. Bu dövrdən etibarən Cənubi Qafqazdan gələn ümumi vəziyyəti əks etdirən məlumatlar və ya böyük rezonansa səbəb olan, məsələn 1919-cu il 14 iyun tarixli Azərbaycan-Gürcüstan hərbi paktı kimi hadisələrlə bağlı məlumatlara təsadüf edilir.

Osmanlı arxiv sənədlərinin araşdırılması Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı dövrdə ölkədə mövcud olan ağır hərbi-siyasi vəziyyət şəraitində türk ordusunun Azərbaycana gəlişinin Azərbaycan xalqı və dövlətçiliyi üçün həyati əhəmiyyət daşıdığını, ölkənin düşmən qüvvələrdən təmizlənməsinin yalnız bu ordunun sayəsində mümkün olduğunu bir daha təsdiq edir.

Türk arxivlərində mühafizə edilən sənədlər birmənalı şəkildə Azərbaycanda ordu quruculuğunun bütün sahələrində Osmanlı hərbçilərinin mühüm rol oynadıqlarını göstərir.

AXC və Osmanlı dövləti arasında hərbi əməkdaşlıq məsələlərini öyrənmək üçün qiymətli məxəz olan Osmanlı arxiv sənədləri, eyni zamanda bu münasibətlərin xarakterində olan qeyri-müəyyənliyi də tədqiq etmək baxımından mühüm

əhəmiyyətə malikdir.

Osmanlı arxiv sənədlərinin elmi dövriyyəyə daxil edilməsi Osmanlı dövləti və Azərbaycan Xalq Cümhuriyyəti arasında mövcud olan müttəfiqlik münasibətlərində bir sıra problemlərin mövcudluğunu da sübut edir. Sənədlərin mənbəşünaslıq baxımından təhlili onu deməyə əsas verir ki, Osmanlı dövləti Azərbaycanda hərbi quruculuq proseslərinə əhəmiyyət versə də, Azərbaycan Xalq Cümhuriyyətini özünün bərabərhüquqlu müttəfiqi hesab etməmiş, ona Qafqazda hərbi mövcudluğunu qoruyub saxlamaq üçün vasitə kimi baxmışdır. Bu mülahizə yuxarıda təhlil etdiyimiz Osmanlı – AXC ittifaq müqaviləsi layihələri ilə də təsdiq olunmaqdadır.

İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:

1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 970, siy. 1, iş 3, v. 12
2. ARDA, f. 2898, siy. 2, iş 11, v. 174.
3. Türkiye Cumhuriyeti Genelkurmay Başkanlığı Askeri Tarih ve Stratejik Etüd Arşivi (ATASE), Klasör (K.) 3821, Dosya (D.) 14, Fihrist (F.) 9
4. ATASE, K. 3821, D. 15, F. 4
5. ATASE, K. 3821, D. 15, F. 70
6. ATASE, K. 3821, D. 16, F. 1-9
7. ATASE, K. 3823, D. 22, F. 6-17
8. ATASE. K. 3823, D. 22, F. 7-10
9. ATASE, K. 3823, D. 25, F. 5
10. Türkiye Cumhuriyeti Başbakanlık Osmanlı Arşivi (BOA), Bâb-ı Âlî Evrâk Odası (BEO), Dosya (D.) 4517, Gömlek (G.) 338752
11. BOA, Dâhiliye Nezâreti Emniyet-i Umûmiye Müdîriyeti Levâzım Kalemi (DH. EUM.LVZ), D. 44, G.2, v. 1-2.
12. BOA, Dâhiliye Nezâreti Emniyet-i Umûmiye Müdîriyeti Seyr ü Sefer Müdîriyeti (DH.EUM.SSM), D. 32, G.47, v. 1-2.
13. BOA, Dâhiliye Nezâreti İdâre-i Umûmiye Müdîriyeti (DH.İ.UM), D. 5-2, G.1-18, v. 1
14. BOA, DH.İ.UM, D. 5-2, G.1-18, v. 1-6
15. BOA, Hâriciye Nezâreti Mütenevvia Kısmı (HR.SYS), D. 2373, G.1, v.55
16. BOA, HR.SYS, D. 2373, G.1, v.67
17. BOA, HR.SYS, D. 2373, G.2, v. 135
18. BOA, HR.SYS, D. 2373, G.2, v. 135, s. 1-3
19. BOA, HR.SYS, D. 2373, G.2, v. 138
20. BOA, HR.SYS, D. 2373, G.2, v. 139-140
21. BOA, HR. SYS, D. 2373, G.4, v. 3

22. BOA, HR.SYS, D. 2398, G.7, v. 64
23. BOA, HR.SYS, D. 2398, G.7, v. 65
24. BOA, İrâde Dosya Usûlü (İ.DUİT), D. 163, G.12, v. 1-2
25. BOA, İ.DUİT, D. 163, G.12, v. 2
26. Azərbaycan Cümhuriyyəti Hökümətinin qanun və binagüzarlıq məcmuəsi. 1919, № 1
27. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz islam ordusu. Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2008, 696 s.
28. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992. 276 s.
29. Görüryılmaz M. Türk Qafqaz İslam Ordusu və ermənilər (1918) Qismət, Bakı, 2009, 408 s.
30. İsgəndərov A. Azərbaycan həqiqətləri. 1917-1920. Bakı: Elm və təhsil, 2012, 228 s.
31. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı: Elm, 1990, 94 s.
32. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.
33. Süleymanov M. Qafqaz İslam Ordusu və Azərbaycan. Bakı: Hərbi Nəşriyyat, 1999, 440 s.
34. Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı: Azərbaycan, 1997, 160 s.
35. Yüceer N. Birinci Dünya Savaşında Osmanlı Ordusunun Azerbaycan ve Dağıstan Harekatı. Ankara: Genelkurmay Askeri Tarih ve Stratejik Etüd Başkanlığı Yayınları, 1996, 223 s.
36. Балаев А. Азербайджанское национальное демократическое движение. 1917-1920. Баку: Элм,1990, 96 с.
37. Дарабади П.Г. Военные проблемы политической истории Азербайджана начала XX века. Баку:Элм,1991, 203 с.
38. Садыгов М. Ответ тебе даст история. Геноцид азербайджанцев в цифрах, фактах, документах - XX век. Баку: Мутарджим, 1995, 382 с.

Рашад Гасымов
О роли Османской империи в процессе строительства национальной армии Азербайджана (по османским архивным источникам)

Резюме

Ключевые слова: *Османские архивные материалы, военное сотрудничество, Османская империя*

В статье рассматривается на основе османских архивных материалов вопросы братской помощи оказанной азербайджанскому народу со стороны Османского государства в 1918 году, неоценимый вклад турецких военных по

созданию национальной армии Азербайджана. А также было исследовано военное сотрудничество между Азербайджанской Демократической Республикой и Османской империей, и внесена ясность проблеме отношений Османских правящих кругов к статусу азербайджанских военных структур.

Rashad Gasimov

About the role of the Ottoman Empire in the process of building a National Army of Azerbaijan (based on ottoman archival sources)

Summary

Key words: *Ottoman archival materials, military cooperation, the Ottoman Empire*

The article describes the brotherly help of the Ottoman State to the people of Azerbaijan in 1918, the invaluable contribution of the Turkish military's to the creation of the Azerbaijan National Army on the basis of Ottoman archival materials. On the basis of archival materials the nature of the military cooperation between Azerbaijan Democratic Republic and the Ottoman Empire was investigated, and the attitude problem of the Ottoman authorities on the status of the Azerbaijan military structures was clarified.

Emin Dadaşov

Fotomateriallar Bakıda törədilmiş 1918-ci il mart soyqırımının öyrənilməsində mənbə kimi (MATM-nin materialları əsasında)

***Açar sözlər**: mart soyqırımı, Fövqəladə Təhqiqat Komissiyası, N.Litvintsev, L.Daşkeviç, fotoşəkillər, poçt açıqcası*

UOT 94 (479.24)

Azərbaycan Respublikasının arxivlərində 1918-ci il mart hadisələri ilə bağlı toplanmış sənədlər toplusu ilə yanaşı, bu vəhşilikləri əks etdirən fotomateriallara istinad olunan tədqiqat işləri müasir dövrdə daha aktualdır. Belə ki, sonuncular istər elmi, istərsə də elmi-publisist ədəbiyyatda köməkçi materiallar kimi işıqlandırılmışdı. Lakin bu və ya digər mövzuya aid fotomaterialların ayrılıqda elmi təhlilinə ehtiyac duyulur. Məqalənin məqsədi də bu fotomaterialları ayrıca tədqiqat obyekti kimi elmi dövriyyəyə daxil etməkdir.

Mart qırğınlarının tarixşünaslığına həsr olunmuş ilk qiymətli əsərlərdən biri t.e.d., professor *A.İsgəndərovun* 1997-ci ildə işıq üzü görmüş "1918-ci il Mart qırğınının tarixşünaslığı" kitabıdır. Müəllif mart soyqırımı tarixşünaslığının geniş təhlilini vermişdir. Müasir dövrdə vətən tarixşünaslığında mövzu ilə bağlı *C.Həsənli, V.Abışov, V. Arzumanlı, V.Həbiboğlu, K.Muxtarov* və b. müəlliflərin əsərləri də diqqətə layiqdir.

Yalnız XX əsrin 80-ci illərinin sonlarından AXC-nin tarixinə dair sənədlər, o cümlədən FTK-nın materialları mütəxəssislər və alimlərin ixtiyarına verildi.

Qeyd etdiyimiz kimi komissiyanın təhqiqatları zamanı çəkilmiş fotoşəkillər xüsusi diqqətə layiqdir. Belə ki, komissiya üzvləri daşnak silahlı dəstələri tərəfindən Bakıda və regionlarda dağıdılmış tikililərə baxışlar keçirən zaman onların müvafiq sənədlərinin tərtibilə yanaşı, fotoçəklişlər də etmiş və onları protokollaşdırmışdılar. Tarix elmləri doktoru, professor S.Rüstəmova-Tohidi FTK üzvlərinin topladığı materialları bölgələrə - Bakı, Şamaxı (2 hissədə) və Qubada görə üç dildə (Azərbaycan, ru, ingilis) kitab halında nəşr etdirmişdi.

1919-cu ildə FTK tərəfindən Paris Sülh konfransında iştirak edən Azərbaycan nümayəndə heyyətinə əlavə olaraq *95 fotoşəkil və 80 diapozitiv* göndərilmişdi.

Lakin onların respublika ərazisində uzun illər axtarışları heç bir nəticə verməmişdir. AMEA akademik Z. Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru, professor *Solmaz Rüstəmova-Tohidi* 2007-2011-ci illər ərzində bu fotomaterialların axtarışı ilə məşğul olmuşdur. Fotomateriallar ABŞ-da tarixi şəkillər və sənədlər toplayan şəxsin kolleksiyasında saxlanılırmış. Bu qiymətli və təkzib olunmaz fotodəlillərin surətləri Amsterdam şəhərində yerləşən çoxmilyonlu arxiv fondlarına malik Beynəlxalq Sosial Tarix İnstitutunun fondlarında da qorunmaqdadır. Professorun 2013-cü ildə işıq üzü görmüş kitab-albomunda FTK-nın ekspert fotoqrafları tərəfindən çəkilmiş fotoşəkilləri öz əksini tapmışdır.

Məqaləyə cəlb olunan fotomateriallar isə AMEA Milli Azərbaycan Tarixi Muzeyinin (MATM) zəngin fondlarından olan Sənədli Mənbələr fondunda (SMF) mühafizə olunur.

Tarixi arayış

Petroqradda 1917-ci il oktyabr çevrilişi nəticəsində bolşeviklərin hakimiyyətə gəlməsi Bakıda da ictimai-siyasi qüvvələr arasında gedən mübarizəni daha da kəskinləşdirdi. Əgər eser, menşevik və daşnaklar Cənubi Qafqazın müxtəlif şəhərlərində olduğu kimi İctimai Təhlükəsizlik Komitəsi yaratmaq istəyirdilərsə, bolşeviklər öz növbəsində hakimiyyətin Bakı Sovetinə verilməsi tələbi ilə çıxış edirdilər. 2 noyabr 1917-ci il tarixində Bakı Sovetinin keçirdiyi iclasda yeni seçilən İcraiyyə Komitəsi Bakıda ali hakimiyyət orqanı elan edildi (5, s. 304). Sovetin rəhbər orqanlarına və mühüm vəzifələrinə erməni və rus millətindən olan bolşeviklər təyin olundular. S. Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti tərəfindən hakimiyyətin tamamilə ələ alınmasını qeyri-qanuni sayan eser-menşeviklərin etirazı da heç bir nəticə vermədi.

Bu dövrdə geniş kütlələr, xüsusən də kəndlilər arasında böyük nüfuzu olan "Müsavat" partiyası Oktyabr inqilabına müsbət yanaşaraq, bu hadisənin azərbaycanlıların öz müqəddəratını təyinetmə hüququnun reallaşacağına və Azərbaycanın muxtariyyətinə nail olması ilə nəticələnəcəyinə ümid bəsləyirdi. Sovet hökumətinin elan etdiyi ilk dekretlərdən ("Rusiya xalqlarının hüquq bəyannaməsi", "Rusiya və Şərqin müsəlman zəhmətkeşlərinə müraciət") sonra bu ümidlər daha da möhkəmləndi (12, s. 15). Lakin muxtariyyət məsələsi bolşeviklərin əməlləri ilə təsdiqini tapmadı.

Belə bir mürəkkəb şəraitdə 15 noyabr 1917-ci il tarixində Tiflisdə Cənubi Qafqazda hərc-mərcliyə son qoymaq və bolşevik Rusiyasına qarşı mübarizə aparmaq məqsədi ilə Cənubi Qafqaz komissarlığı yaradıldı. Onun tərkibinə azərbaycanlılardan *X. Xasməmmədov, F. X. Xoyski, M. Y. Cəfərov, X. Məlikaslanov* daxil oldular. Bakı şəhəri və onun ətraf kəndlərinin Bakı Sovetinin hakimiyyəti altında olması, Azərbaycanın qalan hissəsinin isə Cənubi Qafqaz komissarlığına tabeçiliyi ikihakimiyyətlilik yaratdı.

S. Şaumyan da öz mövqelərini möhkəmlətməkdə davam edirdi. Belə ki, o, 16 dekabr 1917-ci il tarixində keçirilən Xalq Komisarları Sovetinin iclasında *İ. Stalinin* təklifi ilə Qafqazın Fövqəladə komissarı təyin olundu. Öz növbəsində "Müsavat" partiyasının başçılığı altında çətinliklə də olsa məqsədyönlü şəkildə milli hərbi hissələrin formalaşmasının inkişafı prosesi, bunun nəticəsində meydana gələn hərbi qüvvə və müsavatçıların siyasi gücü bu partiyanı məğlubedilməz edə bilərdi (9, s. 31). Siyasi mübarizə arenasına çevrilən Bakı yalnız Azərbaycan milli hərəkatının yarandığı yer deyil həmçinin, bütün Cənubi Qafqazda bolşevizmin özəyi hesab edilirdi.

1918-ci ilin əvvəllərində Bakı və onun ətrafında əhalinin sayına görə ermənilər azərbaycanlı və ruslardan sonra üçüncü yeri tuturdu. Onların maraqları Erməni Milli Şurası tərəfindən təmsil olunurdu. Bundan başqa şəhərdə ermənilərin yerli siyasi partiya və təşkilatları, o cümlədən "Daşnaksütun" partiyası da fəaliyyət göstərirdi. Bolşevik təşkilatlarında da çox sayda təmsil olunan ermənilər, *S. Şaumyanın* başçılıq etdiyi Bakı Sovetində də özlərinə yer eləmişdilər.

Azərbaycanlıların milli muxtariyyət tələbi Bakı Soveti ilə "Daşnaksütun" partiyasını "Müsavata" qarşı birləşməsinə səbəb oldu. Müsavatçıların bu tələbi daşnak liderlərinin "dənizdən dənizə Böyük Ermənistan"ın ərazisinə Cənubi Qafqazdakı əzəl Azərbaycan əraziləri həmçinin, Bakı və Yelizavetpol (Gəncə) quberniyası daxil edilməsi planını pozurdu. Qafqaz bolşeviklərinin erməni əsilli başçısı *S. Şaumyan* isə öz növbəsində milli muxtariyyət tələbini sinfi mübarizə ideyalarının əksinə olaraq millətçiliyin təzahürü kimi təqdim edirdi.

Azərbaycanın milli qüvvələrini məhv etmək niyyətində olan bolşeviklərin kifayət qədər hərbi qüvvəsi yox idi. Bu istiqamətdə dəstək artıq kütləvi qırğınlar (Qars, İrəvan quberniyası, Göyçə, Zəngəzur və s.) törətmək təcrübəsinə malik daşnakların hərbi cəza dəstələri (3-4 min nəfər silahlı) tərəfindən gəldi. Belə ki, artıq 15 yanvar 1918-ci il dekretinə əsasən Bakı Soveti silahlı qüvvələrini yaratmağa başladı. Bunun nəticəsində mart faciəsi ərəfəsində Bakıda Sovetlərin sayı altı min nəfərə çatan hərbi qüvvəsi vardı (13, s. 17). Qırmızı Qvardiya dəstələrinin say tərkibi cəbhədən qayıdan erməni hərbçilərinin hesabına artırdı. Onların Bakıda toplanma səbəblərindən biri də bu şəhərlə Tiflis arasındakı dəmir yolunun bağlı olması idi. Qərb cəbhəsindən evə qayıdan və ya Qafqaz cəbhəsinə yollanan erməni silahlı əsgər və zabit heyətini Bakı Soveti müxtəlif bəhanələrlə şəhərdə saxlayırdı. Bu hərbi dəstələrə başçılıq etmək üçün isə "Daşnaksütun" partiyasının üzvləri olan zabitlər təyin edilirdi. Bolşeviklər Xəzər Dəniz donanmasını da öz tərəflərinə çəkərək bütün istiqamətlərdə hərbi cəhətdən tam hazırlıq görürdülər.

"Daşnaksütun" partiyası başda olmaqla silahlı dəstələr 1918-ci il hadisələrinə özünəməxsus şəkildə hazırlaşırdılar. Bakıdakı erməni əhalisi həm odlu, həm də soyuq silah tədarükü görür, imkanlı azərbaycanlıların evlərinin, idarələrinin, sənaye

və ticarət obyektlərinin dəqiq ünvanları olan siyahılar tərtib edirdilər. Bakıda mövcud olan istər milli qüvvələrin, istərsə də onun sosial bazası olan müsəlman əhalinin məhvi üçün yeni hərbi-siyasi ittifaq – bolşevik-daşnak birləşmələri tam hazır idi.

Kütləvi qırğınların başlanması üçün qığılcım – bəhanə lazım idi. 1918-ci il martın 29-da Bakı Soveti İcraiyyə Komitəsinin sərəncamı ilə "Evelina" gəmisində Lənkərana üzməyə hazırlaşan müsəlman diviziyasının bir neçə yüz nəfərlik zabit və əsgəri tərksilah edildi. Bu dövrdə Bakıda bir neçə silahlı dəstə - bolşeviklərin təşkil etdiyi "Qızıl qvardiya", "Daşnaksütun" partiyasının hərbi təlim keçmiş piyada və atlıları, eser və menşevikləri dəstəkləyən hərbi donanmanın bir hissəsi vardı (11, s. 179). Bu silahlı dəstələrin sərbəst şəkildə şəhərdə mövcudluğuna göz yuman Sovetlərin azərbaycanlılardan ibarət süvari polkunu tərkisilah etməsi əhali tərəfindən etirazlarla qarşılandı. Onu da qeyd etmək lazımdır ki, azərbaycanlı hərbçilər şəhəri tərk etmək niyyətində idi. Bolşevik-daşnak hərbi birləşmələri silahların müsadirəsini baş verə biləcək qanlı toqquşmaların qarşısını almaq məqsədilə edildiyini göstərərək bu hərəkətlərinə "məsumiyyət" donu geyindirirdilər. Əslinə qalanda isə azərbaycanlılardan ibarət hərbiçilər Bakı Sovetinin və daşnakların silahlı dəstələrindən say etibarilə azlıq təşkil edirdi.

30 mart 1918-ci il tarixində bu hadisə ilə əlaqədar məscidlərdə, ictimai binalarda azərbaycanlıların yığıncaqları keçirildi. Onların tələbi müsadirə olunmuş silahların qaytarılması və ya eynilə erməni silahlı dəstələrinin də tərkisilah olunması idi. İstər milli elitanın, istərsə də siyasi qüvvələrin etiraza qalxan kütləni şakitləşdirməsi heç bir nəticə vermədi. Həmin günün axşam saatlarında açılan bir güllə ilə Bakı şəhəri Qızıl Ordunun süvari hissələri ilə dolmağa başlamışdı. Bu ana qədər özünün bitərəfliyini elan etmiş Erməni Milli Şurası və "Daşnaksütun" partiyası da bolşeviklərə qoşularaq hərbi əməliyyatlarda fəal iştirak edirdilər (2, s. 18).

Şəhərin cənub hissəsində ermənilər tərəfindən səngərlər qazılır, torpaq və daşlarla möhkəmləndirilmiş sədlər çəkilirdi. Bakının azərbaycanlılar yaşayan məhəllələrində, ictimai binaların qarşısında da müqavimət göstərmək üçün səngərlər qurulurdu (8, s. 211). Lakin bu istehkamlar hərbi təlim görmüş bolşevik-daşnak silahlı dəstələrinin çox dəqiqliklə planlaşdırılmış yürüşlərinin qarşısında gücsüz idi. Bu dəstələrin ilk hücumu əhalisi yalnız müsəlmanlardan ibarət olan "Kərpicxana", "Məmmədli" və "Zibilli dərə" adlanan məhəllələrinə oldu (1, s. 97). Bakı Soveti qoşunlarının sərəncamında olan topların lülələri şəhərin müsəlman məhəllələrinə tərəf tuşlandı, hərbi gəmilərin topları isə şəhərin yuxarı məhəllələrini atəşə tutmağa başladılar. Hücum ərəfəsində bu məhəllələrdə yaşayan erməni əhalisi buranı tərk edərək şəhərin ermənilər yaşayan hissəsinə köçmüşdülər. Bu da bolşevik-daşnak silahlı birləşmələrinin Bakıda rahat irəliləməsinə, qırğın və qarətlər törətməsinə şərait yaradırdı.

Həm soyuq – xəncər, süngü, həm də odlu – tüfəng, tapança və pulemyotla silahlanmış daşnaklar sürətlə irəliləyir, azərbaycanlılar yaşayan evlərə soxulur, sakinləri qətlə yetirir, evləri qarət etdikdən sonra yandırırdılar. Üç gün (30 mart-1 aprel) davam edən qırğın və qarətlər nəticəsində Bakıda "əksinqilabçı" adı ilə 12 min nəfər dinc azərbaycanlı qətlə yetirildi. Şəhərdə müsəlmanların kütləvi ibadət yerlərindən olan "Təzəpir" məscidi top mərmilərindən ciddi ziyan görmüş, Müsəlman Xeyriyyə cəmiyyətinin binası olan "İsmailiyyə", "Açıq söz" qəzetinin redaksiyası və "Kaspi" mətbəəsi isə yandırılaraq məhv edilmişdi.

Bolşevik-daşnak hərbi birləşmələri Bakıdan sonra Şamaxı, Quba, Qarabağ, Naxçıvan, Zəngəzur bölgələrində azərbaycanlılara qarşı kütləvi qırğınlar və talanlar həyata keçirdilər (4, s. 176).

Fövqəladə Təhqiqat Komissiyası

Erməni daşnakların azərbaycanlıların həyatına və onların əmlaklarına qarşı cinayətlərini təhqiq etmək üçün Azərbaycan Xalq Cümhuriyyəti (AXC) Hökuməti 15 iyul 1918-ci il tarixində əvvəlcə xarici işlər nazirliyi yanında, daha sonra ədliyyə nazirliyinə tabe edilmiş Fövqəladə Təhqiqat Komissiyası yaradılması haqqında qərar qəbul etdi. Komissiyanın qarşısında: - 1) bütün zorakılıq hadisələrinin dəqiq qeydiyyatını aparılması; - 2) bu zorakılıqların həyata keçirildiyi şəraitin müəyyənləşdirilməsi; - 3) cinayətkarların aşkar edilərək, onların vurduqları zərərin həcminin müəyyənləşdirilməsi kimi tələblər qoyulmuşdu. Təhqiqatların nəticələri əsas Avropa - rus, fransız, alman və türk dillərinə tərcümə edilməli idi. AXC Hökumətinin sədri, ədliyyə naziri *Fətəli xan Xoyskinin* Gəncədə imzaladığı 31 avqust 1918-ci il qərarına əsasən sədr andlı iclasçı *Ələkbər bəy Xasməmmədov* daxil olmaqla 7 nəfər üzvdən - dairə məhkəməsinin müavinləri *İsmayıl bəy Şahmalıyev, Andrey Fomiç Novatski,* dairə məhkəməsi prokurorunun müavini *Nəsrəddin bəy Səfikürdski,* Gəncə köçürmə idarəsindən *Nikolay Mixayloviç Mixaylov,* həqiqi mülki müşavir *V. V. Qubvillo* və müəllim *Mirzə Cavad Axundzadədən* ibarət Fövqəladə Təhqiqat Komissiyası yaradıldı (3, s. 379). Komissiyanın təhqiqatlarına Bakı və Gəncə şəhərlərinin istintaq-prokurorluq və məhkəmə orqanlarının digər nümayəndələri cəlb də olunurdu. FTK-nın tərkibi çox millətli olması ilə yanaşı peşəkar hüquqşünaslardan ibarət idi.

1918-ci ilin avqust ayından 1919-cu ilin noyabr ayına qədər komissiyanın böyük həcmdə topladığı kompleks materiallarda erməni millətçiləri tərəfindən müsəlman əhalisinin kütləvi surətdə məhv edilməsi və ona külli miqdarda maddi ziyan vurulması öz əksini tapmışdı. Bu istintaq materialları *36 cild və 3500 vərəqdən* ibarət olmaqla Azərbaycanın şəhər və qəzalarında törədilmiş cinayətləri sübut edirdi. Paris Sülh konfransına yollanan Azərbaycan nümayəndə heyəti tərəfindən Bakı şəhəri, Şamaxı, Göyçay və Cavad qəzalarında müsəlman əhaliyə qarşı törədilmiş zorakılıqların əks olunduğu *6 cild və 95 fotoşəkildən* ibarət materiallar

dövlət başçılarına və beynəlxalq təşkilatlara təqdim olunmuşdu (10, s. 13).

Lakin, 28 aprel 1920-ci il çevrilişindən sonra FTK-nın fəaliyyəti dayandırıldı və 1918-ci il mart-iyul hadisələri müsavat və daşnak qüvvələrinin təhriki ilə baş vermiş vətəndaş müharibəsi kimi təqdim olunmağa başladı.

FTK-nın tərkibində iki espert-fotoqraf *N. Litvintsev* və *L. Daşkeviç* fəaliyyət göstərirdi. *N. Litvintsevin* adı çəkilən fondda saxlanılan digər fotoşəkillərinə (MATM SMF 271/37) istinad edərək onun "Bakı şəhəri, Olqinskaya küçəsi, Qarabəyovun evi" ünvanında foto-atelyesi olduğunu qeyd etmək olar. Fotoqrafın xarici ölkələrdə müxtəlif mövzularda keçirilən fotosərgilərdə qazandığı nişanlar da onun öz sahəsinin mütəxəssisi olduğunu sübut edir.

Digər Belorus əsilli fotoqraf, tədqiqatçı və fransız dili müəllimi *L. U. Daşkeviç* 1918-1920-ci illərdə Gəncədə yaşamışdır. AXC hökumətinin rəsmi fotoqrafı kimi L. Daşkeviç 1918-ci il mart qırğınlarının nəticələrini fotoaparatının yaddaşına köçürmüşdür. Sovetlərin hakimiyyəti zamanı vətəninə qayıdan fotoqraf "Qafqazdakı əksinqilabi fəaliyyət"inə görə həbs edilmiş və işgəncələrə məruz qalmışdır (14).

Mart faciələrinin nəticələri adı çəkilən fotoqraflardan başqa dövrün fotoavadanlığa malik digər şəxslər tərəfindən də fotoşəkillər çəkilirdi. Onlardan biri "Nikolay Bünyatov" adlı paroxodun komandir köməkçisi *K. Axundovun* təklifi ilə *V. Sokolov* adlı texnik 3 müxtəlif evdə törədilmiş vəhşiliklərin fotoşəklini çəkmişdir. Lakin, dördüncü evdə gördüyü ağlasığmaz səhnədən sonra çəkilişlərə davam edə bilməmişdir (15, s. 82). Kütləvi qırğınlar zamanı eybəcər hala salınmış insanların, talan edilmiş və yandırılmış evlərin fotoşəkilləri Bakıda olan iranlılar, polyaklar, gürcülər və türklər tərəfindən də çəkilmişdir.

Bakı sakini *A. Səfərəliyevin* FTK-ya verdiyi ifadədə şəhər boyu səpələnmiş cəsədlərin fotoşəklinin onun qonşusu mühəndis *Keyl* tərəfindən də çəkildiyini təsdiq etmişdir (15, s. 98). Əfsuslar olsun ki, bu fotomaterialların sonrakı taleyi naməlumdur. Daşnak hərbi dəstələri arasında da fotoqraflar vardı. Belə ki, bu dəstələr törətdikləri insanlığa sığmayan hərəkətlərini çəkir, onlara yanlış məlumatlar əlavə edərək Avropaya göndərirdilər. Bu da öz növbəsində Avropa ölkələrinin ictimai fikrini əks istiqamətdə - azərbaycanlılara qarşı yönəldirdi.

Sözügedən fotomateriallarda 1918-ci il mart günlərinin çox faciəli mənzərələri öz əksini tapmışdır. FTK-nın üzvü *A. Aleksandroviç* çəkilmiş fotoşəkilləri şərti olaraq dörd hissəyə - "*Erməni vəhşilikləri*", "*Bakı*", "*Şamaxı*" və "*Kürdəmir*" bölmüşdür.

Bakıdakı 1918-ci il mart hadisələrinin təsvir olunduğu fotomaterialları iki qrupa: - bolşevik-daşnak hərbi dəstələri tərəfindən qətlə yetirilmiş insanlar; - dağıntılara məruz qalmış ictimai binaların təsviri olan fotoşəkillərə, - ayırmaq olar.

A. Aleksandroviçin "Erməni vəhşilikləri" qrupuna aid etdiyi fotoşəkillərdə bolşevik-daşnak birləşmələri tərəfindən Bakıda törədilmiş qırğınların nəticələri

əks olunmuşdur. Aprelin 2-nə qədər davam edən qırğınlardan sonra Bakı küçələrə səpələnmiş cəsədlərlə dolu idi. Bunun təsdiqini adı çəkilən fotomateriallar qrupuna daxil olan fotoşəkillərdə görmək mümkündür. Belə ki, MATM-ın SMF-da qorunan fotoşəkildə (MATM SMF 3071/15) küçənin ortasında üç kişi cəsədi təsvir olunmuşdur. Onlardan ikisi bir-birinə yaxın məsafədədir, digər cəsəd isə bir qədər aralıdır. Cəsədlərdən birinin üst geyiminin olmaması – yarıçılpaq olması, onun daşnaklar tərəfindən qarətə məruz qalmasını deməyə əsas verir. Belə ki, evlərindən zorla küçəyə çıxarılan müsəlman sakinlər daşnak silahlı dəstələri tərəfindən güllələnirdilər (15, s. 100). Günlərlə, bəzən həftələrlə küçələrdə qalan belə cəsədlərdən ətrafa dəhşətli üfunət yayılırdı.

Küçədə cəsədlərlə yanaşı müxtəlif ev əşyaları – çarpayının müxtəlif hissələrini, masaları, stulları, içi dolu zənbilləri, kisələri və digər məişət mebellərinin hissələrini də görmək mümkündür. Bu əşyaların qarət olunmuş evlərdən istifadəyə yararlı olması səbəbindən çıxarılmasını ehtimal etmək olar. Qırğınlar zamanı dinc sakinləri qətlə yetirməklə yanaşı *S. Lalayevin* başçılığı ilə daşnak hərbi birləşmələri dükanların və evlərin qarət və talanları ilə də məşğul olurdu (6, s. 25). Daşınması mümkün olan ev əşyaları aparılır, yerdə qalanlar isə yararsız hala salınırdı. Erməni hərbçiləri hətta kibrit çöplərini belə sındırırdılar (15, s. 88).

SMF-da saxlanılan növbəti iki fotoşəkil eyni məkanda müxtəlif istiqamətlərdən çəkilmişdir. Fotoşəkillərin birincisinin (MATM SMF 3071/19) ön planında həyətdə uzadılmış 15 cəsəd təsvir olunub. Cəsədlər müxtəlif yaş qruplarına aiddirlər. Cəsədlərlə yanaşı həyətdə 60 nəfər müxtəlif ictimai statuslu - hərbçi, molla, avropasayağı və milli geyimdə olan insanlar var. Onların bir hissəsi pilləkanın üzərində, digər, hissəsi isə üç sıra olmaqla həyətdə dayanıblar. Həyətdə toplaşmış insanların bir neçəsinin ağızlarını əlləri ilə örtməsi ətrafa yayılmış cəsədlərin dözülməz qoxusundan irəli gəlir. Bu da həmin cəsədlərin müxtəlif vaxtlarda qətlə yetirilmiş olduğunun göstəricisidir.

Müsəlman evlərinə zorla daxil olan ermənilər aman vermədən hər kəsi – hətta körpə uşaqları da qətlə yetirirdilər (14, s. 94). Bunun sübutu kimi fotoşəkildəki taxta lövhə üzərində uzadılmış 2-3 yaşlı oğlan uşağını göstərmək olar. Həyətdəki cəsədlər arasında yaşca ən kiçiyi olan bu körpənin sağ tərəfindən deşici-kəsici xəsarət aldığını və daxili orqanlarının həmin yaradan çıxdığı aydın nəzərə çarpır.

Həyətin mərkəzində qoyulmuş yanmış dörd cəsəddən üçünün yuxarı və aşağı ətrafları kəsilmiş, birinin isə kəsici-deşici alət vasitəsilə qarın nahiyyəsi yırtılmış və daxili orqanları həmin hissədən çölə çıxmışdı. Şahid ifadələrinə görə, ermənilərdən ibarət silahlı dəstələr müsəlmanları ya diri-diri, ya da qətlə yetirdikdən sonra cəsədlərini yanan binaların içərisinə atırdılar (14, s. 138). Bu da mart hadisələri zamanı qurbanların sayının dəqiqləşdirilməsini çətinləşdirirdi.

Ermənilərin bu vəhşiliyinin təsdiqi FTK-nın ekspert fotoqrafı *N. Litvintsev*

tərəfindən çəkilmiş başqa bir fotomaterialda da öz əksini tapır. Belə ki, bu fotoda (MATM SMF 3071/21) evin bir küncündə yanıb kül olmuş insan cəsədləri təsvir olunmuşdur. Fotoya diqqət yetirdikdə bu cəsədlərin evin daxilinə atılmış olduğunu, hətta aydın şəkildə ətdən ayrılmış sümükləri görmək mümkündür.

Həyətin digər hissəsindən çəkilmiş növbəti fotoşəkildə (MATM SMF 3071/20) də mart qırğını qurbanları təsvir olunmuşdur. Bundan əvvəlki fotoda olan qurbanlarla birlikdə həyətin bu hissəsində 18 insan cəsədi var. Onların bir hissəsi taxta lövhə, nərdivan, masa, həsir, parçalar və palazlar üzərinə uzadılmışlar. Daşınma zamanı cəsədlərin zədə görməməsi üçün onlar qalın kəndir vasitəsilə "xərəklərə" bərkidilmişlər. Cəsədlərin əksəriyyətinin ya alt geyimdə, ya da yarıçılpaq olması yuxarıda da qeyd olunduğu kimi onların qarətə məruz qaldığının göstəricisidir. Fotoşəkildəki insanların qıc olmuş əzaları onlara vəhşicəsinə əzab verildiyini, işgəncə və təhqirlərə məruz qalaraq qətlə yetirildiyini bir daha sübut edir (14, s. 90).

Növbəti fotoşəklin (MATM SMF 3071/16) ön planında nərdivanın üzərinə uzadılmış kişi cəsədi təsvir olunmuşdur. Əvvəlki fotoşəklin təsvirində də qeyd edildiyi kimi cəsədləri nərdivan və bir-birinə bərkidilmiş taxta lövhələr vasitəsilə daşındığını, onların xərək əvəzi istifadə olunduğunu burada da müşahidə edirik. Cəsədin avropasayağı geyimi onun ziyalı təbəqədən olduğunu göstərir. Onun ölüm səbəbi böyük ehtimalla başından aldığı zərbə və bunun nəticəsi olaraq böyük həcmdə qan itirməsi olmuşdur. Belə ki, yaradan axan qan başın sağ hissəsinə yayılaraq qurumuşdur. Daşnak hərbi dəstələri qətlə yetirdiklərinin nə cinsinə, nə yaşına, nə də sosial statusuna məhəl qoymurdular. Erməni dəstəsi tərəfindən evindən zorla çıxarılan doqquz azərbaycanlı ziyalısı kilsə meydanında güllələnmiş, onlardan ikisini yanan "Dağıstan" mehmanxanasının içərisinə atmışdılar (8, s. 213).

Bundan savayı fotoşəkildə həyətin müxtəlif yerlərində qoyulmuş cəsədlərin sayı dörddür. Arxa planda iki yerdə meyitlərin dəfnindən öncə yuyulması prossesini də görmək mümkündür. Bu prosesdə iştirak edən şəxslərin milli baş və üst geyimləri onların azərbaycanlılar olduğunu sübut edir.

Həyətin ayrı-ayrı hissələrində ümumi sayı beş ədəd olan böyük daş plitələr vardır. Onların bəziləri kiçik kərpiclərin üzərinə qoyulmuşdur. Bu daş plitələri birləşdirən cəhətlərdən biri də onların üzərində mövcud olan memari ornamentlərdir. Mart qırğınları zamanı ictimai və yaşayış binaları ciddi ziyan görmüşdür. Onlar top atəşi vasitəsilə dağıdılır və hərbi birləşmələr tərəfindən yandırılırdı. Plitələrin həyətin müxtəlif hissələrində nizamsız halda olması onların da top atəşi nəticəsində dağıdılmış olmasını ehtimal etməyə imkan verir. Həm meyitlərin dəfndən öncəki mərasimlərin keçirildiyi həyətə, həm də divarlardan qopmuş daş plitələrə əsaslanaraq fotoşəklin məscid ərazisində çəkildiyini qeyd etmək olar.

Qətlə yetirilmiş müsəlmanların cəsədləri arabalar, yük avtomobilləri, vaqonlar və barjalar vasitəsilə məscid, gömrük və "Vulkan" zavodunun həyətinə,

qəbirstanlıqlara daşınırdılar (14, s. 134). *"Bakıda erməni vəhşilikləri" qrupuna* daxil olan növbəti iki fotonun (MATM SMF 3071/17, 3071/18) da burada çəkildiyini ehtimal etmək olar. Bu fotoşəkillərin birincisində divarın yanında qalaq-qalaq toplanmış müxtəlif yaş quplarından olan kişi cinsinə aid 20 cəsəd və öz doğmalarını axtarmağa gələn insanlar təsvir olunmuşdur. Mart qırğınları zamanı əzizlərini itirmiş insanlar, onların cəsədlərini axtarıb tapmaq ümidi ilə məscidlərə, qəbirstanlıqlara və digər qətliam qurbanlarının yığılmış olduğu ərazilərə gəlirdilər. Bu fotoşəkildə də kənardan tamaşa edən şəxslər ağız və burunlarını cib dəsmalları ilə örtmüşlər. Bu da cəsədlərin çürüdüyünün göstəricisidir.

Buraya gətirilmiş cəsədlərə diqqət yetirdikdə yuxarıda təsvirini verdiyimiz mənzərə təkrarlanır. Belə ki, burada eybəcər hala salınmış yeniyetmə (10-15 yaşlı) oğlan uşaqlarının, başları, əlləri, ayaqları və başqa əzaları kəsilmiş kişi meyitlərini görə bilərik. Bu şəxslər ya işgəncələrlə qətlə yetirilmiş, ya da öldürüldükdən sonra işgəncələrə məruz qalmışdılar. Bunu cəsədin qıc olmuş əl, ayağ və sifət mimikaları sübut edir. Mart hadisələri zamanı daşnak birləşmələri dinc sakinləri öldürməklə kifayətlənmir, onların bədənlərini qılınclar vasitəsilə doğrayır, süngülərlə deşir, bir sözlə özlərinə xas vəhşiliklər törədirdilər.

Fotoşəklin birində (MATM SMF 3071/17) cəsədlərin yanında toplanmış insanlar arasında Bakı yahudilərindən olan kişi və qadın da var. Bunu kişinin əynindəki iudaizm dini ayinlərini yerinə yetirən zaman geyinilən tallit adlı geyim növünə əsasən qeyd etmək olar (17). Ümumiyyətlə, 1918-ci il mart qırğınları zamanı qeyri-müsəlman əhalinin nümayəndələrindən olan rus, yahudi və b. azərbaycanlıları ya evlərində gizlədir, ya da onların qətlə yetirilməsinə etiraz edərək ölümün caynağından xilas edirdilər (7, s. 21).

"Bakıda erməni vəhşilikləri" qrupuna daxil olan sonuncu fotoşəkildə (MATM SMF 3071/22) ümumi sayı 20 olan müxtəlif yaş, cinsi qruplara aid cəsədləri görə bilərik. Onların hamısını bir istiqamətdə uzadıblar. Mart qırğını qurbanlarından biri taxta lövhənin, digəri isə nərdivanın üzərinə qoyulub. Soyqırım günlərindən sonra küçələri cəsədlərdən təmizləyən əhali bu "xərəklər" vasitəsilə onları qəbirstanlığa aparırdılar.

Cəsədlərin yaxınlığında bir sıra olmaqla 20 nəfər mülki vətəndaş dayanmışdır. Onların beşinin əlində bel, birinin əlində isə külüng var. Bu da cəsədlərin dəfn üçün buraya gətirildiyini qeyd etməyə əsas verir. Şəhərin "Məmmədli" və "Zibilli dərə" adlanan məhəllələrindən toplanılmış müsəlman cəsədləri dəfn üçün qəbirstanlığa daşınırdı (15, s. 692).

SMF-da qorunan FTK-nın fotomaterialları arasında poçt açıqcası (MATM SMF 3071/23) xüsusi diqqət çəkir. Bu növ açıqcalar 1874-cü ildə əsası qoyulmuş Ümumdünya Poçt İttifaqı (ÜPİ) (frans. Union Postale Universelle) tərəfindən buraxılırdı. Adı çəkilən dövlətlərarası təşkilatın məqsədi yaradılan poçt rabitəsinin

təkmilləşdirilməsini təmin etmək idi (18). 1877-ci ildə Persiya (İran) da bu ittifaqa qoşulmuşdu. Açıqcaların ölçüsü 1878-ci ildə Parisdə, Ümumdünya Poçt Konqresində qəbul olunmuş beynəlxalq standarta uyğun olaraq 90x140 mm-dir. Açıqcaların üz tərəfində tamformatlı şəkil, həmin şəkil haqqında fars və fransız dillərində yazılar var. Arxa tərəfdə mətn və ünvan yazmaq üçün yer buraxılmışdır. Həmçinin burada fransız dilində - Carte Postale, Carte Postale de Perse, Union Postale Universelle sözləri qeyd olunmuşdur. Açıqcalarda yazıların fransız dilində verilməsi ÜPİ-nin rəsmi dilinin fransız dili olması ilə bağlıdır.

Belə ki, bu poçt-kartın üzərində 1918-ci il qırğınlarından sonra İranın Bakıdakı konsulu Məhəmməd Marağeyi və konsulluğun katibi cəsədlərin yanında təsvir olunublar. Açıqcanın üzərində fars və fransız dillərində "*Bakıda müsəlman əhalisinin məhv edilməsi və onların cəsədləri yanında dayanan İran konsulu*" yazıları qeyd olunub. Mart qırğınları zamanı qətlə yetirilənlər arasında çoxlu sayda İran təbəələri də var idi. Xüsusi daşnak silahlı dəstələri farslar və Cənubi Azərbaycandan olan azərbaycanlılar yaşayan evlərə, otel otaqlarına soxulur, onların bəzilərini yerindəcə, digərlərini isə qrup halında küçələrə çıxararaq güllələyirdilər. Hətta İran konsulunun öz təbəələrinin müdafiəsi üçün aktiv fəaliyyəti belə onları erməni silahlılarından xilas edə bilməmişdi (14, s. 63).

Məqalədə istifadə olunan fotomateriallar əsasında, 1918-ci il mart-aprel aylarında Bakıda daşnak-bolşevik silahlı dəstələri tərəfindən törədilmiş qətliam, talan və dağıntıların miqyasını, qətlə yetirilmiş şəxslərin yaş həddini, cinsi, sosial, dini və milli mənsubiyyətini, həmçinin dinc əhaliyə qarşı istifadə olunmuş silah növlərini araşdırmaq mümkün oldu. İstər Azərbaycan, istərsə də dünya ictimaiyyətinin diqqətinə ermənilərin azərbaycanlılara qarşı tarixboyu törətdikləri insanlığa sığmayan vəhşiliklərin çatdırılmasında bu fotomaterialların aktuallığını nəzərə alaraq onların əsas sübut kimi tədqiq olunması vacibdir.

İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:

1. Abışov V. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı: Nurlan, 2005.
2. Arzumanlı V., Həbiboğlu V., Muxtarov K. 1918-ci il qırğınları. Bakı: Öyrətmən, 1995.
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. I c., Bakı: Lider, 2005.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə. II c., Bakı: Lider, 2005.
5. Azərbaycan tarixi. 7 cilddə. V c., (1900-1920-ci illər). Bakı: Elm, 2001.
6. Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada (hadisə və faktların xronikası) / D.Vəliyevin redaktəsi ilə. Bakı: Elm, 1994.
7. Muradzadə M. Mart hadiseyi-əliməsi. Bakı: Azərnəşr, 1996.
8. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı: Azərbaycan, 2001.

9. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990.
10. Rüstəmova-Tohidi S. 1918. Azərbaycan qırğınları şəkil və sənədlərdə. Bakı, 2013.
11. Süleymanov M.F. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı: Azərbaycan, 1996.
12. Балаев А. Азербайджанское национально-демократическое движение 1917-1920 гг. Баку: Элм, 1990.
13. Балаев А. Февральская революция и национальные окраины мартовские события 1918 года в Азербайджане. Москва: Флинта, 2008.
14. Корбут В. Возвращение домой. https://clck.ru/9awHE
15. Рустамова-Тогиди С. Март 1918 г. Баку. Азербайджанские погромы в документах. Баку, 2009.
16. Рустамова-Тогиди С.А. 1918. Азербайджанские погромы в фотографиях и документах. Баку, 2012.
17. Электронная еврейская энциклопедия (ЭЕЭ)–Таллит. https://clck.ru/9awHL
18. The UPU–About history. https://clck.ru/9awHN

Emin Dadashov

Photographs as source in studying of March slaughter in 1918 in the Baku (based on materials of National Azerbaijan History Museum)

Summary

Key words: *March slaughter, Extraordinary Investigation Committee, N.Litvintsev, L.Dashkevitch, photographs, postcard*

The Fund of documentary sources of National Azerbaijan History Museum contains photographic materials reflecting March events of 1918 in the Baku. The total number of these photographic materials exceeded 104 items. Until now, these photographs as a separate source was not considered.

Photographs taken by professional photographer of Extraordinary Investigation Committee N.Litvintsev was a clear testimony to brutality which had been committed by bolshevik-dashnak armed forces against muslim population in Baku. Eight of them show the victims of this tragedy.

Along with photographic materials have been investigated the postcard of the reviewed period. This postcard illustrates the consul of Iran, who was standing near the victims of the tragedy that took place in March 1918. Analysis of photographs and postcards allows you to visualize the extent and form of genocide committed by Armenian nationalists. The photos have signatures of members of the EIC, the seal of the commission, which confirms their validity.

According to the author, these photographs should be investigated as one of the

main sources for the events of 1918 and should also be included in the scientific revolution.

Эмин Дадашов
Фотоматериалы как источник в изучении мартовских погромов 1918 года в Баку
(по материалам Национального музея истории Азербайджана)

Резюме

Ключевые слова: *мартовские погромы, Чрезвычайной Следственной Комиссия, Н.Литвинцев, Л.Дашкевич, фотоматериалы, почтовая открытка*

В Фонде документальных источников Национального Музея Истории Азербайджана хранятся фотоматериалы, отражающие события марта 1918 года в городе Баку. Общее число этих фотоматериалов составляет 104 единицы. До настоящего времени эти фотоматериалы в качестве отдельного источника не рассматривались.

Фотографии, сделанные эксперт – фотографом Чрезвычайной Следственной Комиссии Н. Литвинцевым, свидетельствуют об учиненном зверстве большевистско-дашнакских вооруженных отрядов против мусульманского населения города Баку. На восьми из них запечатлены жертвы этой трагедии.

Наряду с фотоматериалами объектом исследования является почтовая открытка того периода. На этой открытке запечатлен Иранский консул, стоящий рядом с жертвами трагедии, произошедшей в марте 1918 года. Анализ фотографий и почтовой открытки позволяет наглядно представить масштабы и формы геноцида, учиненного армянскими националистами. Фотографии имеют подписи членов ЧСК, печать этой комиссии, что подтверждает их достоверность.

По мнению автора, эти фотоматериалы должны быть исследованы в качестве одного из основных источников по событиям 1918 года и также должны быть включены в научный оборот.

İlahə Xantəmirova

Mirzə Bala Məhəmmədzadənin bir məqaləsinin izi ilə

Açar sözlər: *M.B. Məhəmmədzadə, mühacirət, əlifba islahatı, Azərbaycan, Türkiyə, məqalə*

UOT 94 (479.24)

Azərbaycan tarixində baş vermiş müxtəlif hadisələrin obyektiv dəyərləndirilməsi baxımından Azərbaycan mühacirət mətbuatı mühüm əhəmiyyət kəsb edir. Mühacirət mətbuatı, mühacirət nümayəndələrinin müxtəlif hadisələrlə bağlı araşdırmalarını tədqiq etmək, tarixi hadisələri onların mövqeyindən qiymətləndirmək aktual məsələlərdəndir.

Azərbaycan istiqlal hərəkatının və mühacirət dövrünün fəal nümayəndələrindən olan Mirzə Bala Məhəmmədzadənin irsinin araşdırılması tarixşünaslıqda mühüm problemlərdən biri olaraq qalır. Hələ gənc yaşlarından siyasi fəaliyyətə başlamış, müstəqilliyə qədər (1917-1918) və müstəqillik dövründə (1918-1920) Azərbaycan və Gürcüstanda, mühacirət dövründə isə (1923-1959) İran, Türkiyə, Almaniya kimi ölkələrdə siyasi mübarizəsini davam etdirən Mirzə Bala Məhəmmədzadə müxtəlif mətbuat orqanları vasitəsi ilə müxtəlif hadisələrə münasibətini ifadə etmişdir. O, "Açıq söz", "Bəsirət", "İstiqlal", "Bildiriş", "Azəri Türk", "Odlu Yurt", "Dərgi" kimi qəzet və məcmuələrlə əməkdaşlıq etmişdir. Bu mətbuat orqanlarında onun müxtəlif dövrlərə və tarixi hadisələrə aid araşdırmaları yer almışdır. Ümumiyyətlə, onun əsərlərinə diqqət yetirdikdə mövzuların müxtəlifliyi diqqəti cəlb edir.

Mirzə Bala Məhəmmədzadənin toxunduğu mövzular içərisində XX əsrin 20-ci illərində Azərbaycan və Türkiyədə həyata keçirilmiş əlifba islahatı haqqında olan fikirləri də maraq doğurur. O, bu mövzuda "Odlu Yurt" məcmuəsində "Yeni türk alfabesi ve bolşevik matbuatı" adlı məqalə ilə çıxış etmişdir. "Odlu Yurt" məcmuəsi 1929-1931-ci illərdə mühacirlər tərəfindən Türkiyədə nəşr olunmuşdur. Baş redaktorunun M.Ə.Rəsulzadə olduğu "Odlu Yurt" məcmuəsinin bəzi nömrələrində M.B.Məhəmmədzadənin adı "ümumi nəşriyyat və yazı işləri müdiri" kimi qeyd olunur. Məcmuənin nəşri Türkiyədə yeni əlifbaya keçid dövrünə təsadüf etdiyindən jurnalın birinci nömrəsindən başlayaraq, sentyabr 1930-cu il tarixli 20-

ci nömrəsinədək hər nömrənin üz qabığının içəri səhifəsində "Yeni türkcə əlifbanı öyrənin!" adı ilə "ərəbcə", "sovetcə" qarşılığı olan yeni türk əlifbası verilmişdir(3, 61).

Yeni əlifbaya keçid Azərbaycan və Türkiyə tarixçiləri tərəfindən tədqiq olunsa da, bu məsələnin sırf Mirzə Bala Məhəmmədzadənin əsərləri baxımından araşdırılması mövzunun elmi yeniliyi hesab olunur. Mirzə Bala hadisənin baş verdiyi dövrdə yaşamış və bu məsələyə onun öz yanaşması olmuşdur. İlk öncə islahatın əleyhinə çıxış edən müəllifin sonradan bu məsələyə münasibəti dəyişmiş və bunun səbəblərini mətbuatda əsaslandırmağa çalışmışdır. Qeyd etmək lazımdır ki, bu yalnız Mirzə Balanın deyil, həm də Məhəmməd Əmin Rəsulzadə başda olmaqla "Müsavat" partiyası üzvlərinin fikri idi. Onlar ərəb əlifbasının dəyişilməsini məqbul hesab etməyib bunun Azərbaycan xalqı üçün böyük itki olacağını, onun tarixinin, ədəbiyyatının, irsinin unudulmaq təhlükəsi qarşısında qalacağını düşünürdülər.

Mirzə Bala Məhəmmədzadə bu fikrini haqqında bəhs edilən məqaləsində belə əsaslandırırdı: "Azərbaycan-Sovet şəraiti içərisində latın əlifbası yeni, kosmopolit, kommunist və bolşevik hars [*bir xalqın, millətin müəyyən tarixi dövr ərzində meydana gətirdiyi mənəvi və maddi dəyər, mədəniyyət-İ.X*] və mədəniyyətinin yaradıcısı olduğu halda ərəb əlifbası milli hars və xüsusiyyəti ortadan qaldıran latına qarşı Azəri türkünün milli ədəbiyyatını, milli tarix və ənənələrini mühafizə və inkişaf etdirirdi" (6, 8).

Lakin məlumdur ki, bu narazılığa və mübahisələrə baxmayaraq, Azərbaycan Cümhuriyyəti dövründə əlifba islahatının həyata keçirilməsi üçün müəyyən addımlar atılmışdır. 1919-cu il mart ayının 21-də Cümhuriyyət hökumətinin qərarı ilə Xudadat bəy Məlikaslanovun sədrliyi ilə Xalq Maarif Nazirliyi yanında ərəb əlifbasının islahatı üzrə xüsusi komissiya yaradılmışdı. Təqdim olunan layihələr arasından müəllim Abdulla bəy Əfəndizadənin hazırladığı əlifba bəyənilmiş və əsas əlifba üçün namizəd kimi qəbul olunmuşdur. Əfəndizadə 1919-cu ildə Bakıda "Son türk əlifbası" adlı dərslik də nəşr etdirmiş, dərslikdə ilk dəfə olaraq ərəb və latın əlifbalarını müqayisəli şəkildə vermiş, birincinin ana dilimizə uyğunsuzluğunu, ikincinin isə daha münasib olduğunu zəngin dil faktları ilə əsaslandırmışdır(1, 340).

Ümumiyyətlə, bu məsələ uzun zaman müzakirə mövzusu oaraq qalmışdır. Bir qrup Mirzə Balanın qeyd etdiyi kimi, latın əlifbasına keçidin Azərbaycanda milli hars, milli həyat və milli türk mövcudiyyətini təhlükə altına salacağını zənn edir, digər qrup ərəb dilini islam dili kimi qəbul edərək əlifba dəyişilməsini qəbuledilməz, hətta günah hesab edirdi. Və bu fikir dini rəhbərlər və bəzi insanlar tərəfindən dəstəklənirdi. Bir qrup isə əlifbanın dəyişilməsini zəruri hesab edirdi.

Bütün bu narazılıqlara baxmayaraq, əlifba islahatını həyata keçirmək mümkün oldu. Beləliklə, Türkiyədə 3 noyabr 1928-ci il, Azərbaycan da isə 1 yanvar 1929-cu ildən rəsmən ərəb əlifbası latın əlifbası ilə əvəz olundu. Azərbaycanda

bu proses təxminən 10 il davam etmişdir. Azərbaycanın dövlət müstəqilliyinə son qoyulmasından sonra yarımçıq qalan əlifba layihəsi Sovet dövründə yenidən gündəmə gətirildi. 1922-ci ildə əlifba sahəsində islahat üçün Səmədağa Ağamalıoğlunun rəhbərliyi altında xüsusi komissiya yaradılaraq ərəb əlifbasının latın əlifbası ilə əvəz olunması üçün hazırlıq işləri başlanıldı. Komissiya köhnə ərəb əlifbasının çatışmazlıqlarını, yeni əlifbanın dəyişilməsinin səbəblərini, bu sahədə həyata keçiriləcək işləri hazırlamalı idi. Odur ki, Azərbaycanda bu proses fasilələrlə, ayrı-ayrı sahələr üzrə həyata keçirildi. Türkiyədə isə bu proses cəmi 3 aya tamamlandı. Əslində Türkiyə Cümhuriyyəti hökumətinə həm örnək, həm də cəsarət verən Sovet hökumətinin türk dilli ölkələr üçün ərəb hərfləri yerinə latın əlifbasını qəbul etməyə qərar verməsi idi(5, 276). Atatürk 9 avqust 1928-ci il Sarayburnu Parkında Yeni əlifbanın təqdimatı mərasimindəki nitqində əlifba islahatının əhəmiyyətinə belə açıqlama gətirirdi: "Yüzillərdən bəri başımızı dəmir çərçivə içərisinə salan, anlaşılmayan və anlaya bilmədiyimiz işarələrdən özümüzü xilas etmək məcburiyyətindəyik. Dilimizi mütləq anlamaq istəyirik. Bu yeni hərflərlə çox tez bir zamanda mükəmməl surətdə anlayacağıq. Mən buna əminəm; siz də əmin olun.

Vətəndaşlar türk hərflərini tez öyrənməlidirlər. Hər vətəndaşa, qadına, kişiyə, hambala, çəkməçiyə öyrədin. Bunu vətənsevərlik, milliyyətsevərlik vəzifəsi bilin. Bu vəzifəni həyata keçirərkən düşünün ki, bir xalqın, bir toplumun yüzdə onu, iyirmisi oxuma yazma bilir, yüzdə səksəni, doxsanı bilməzsə bu ayıbdır. Bundan insan olanların utanması lazımdır. Bu millət utanmaq üçün yaradılmış millət deyildir. Öyünmək üçün yaradılmış və tarixi fəxrlə dolu bir millətdir" (4, 164).

Qeyd edildiyi kimi, ərəb əlifbasının latın əlifbası ilə əvəz olunması ilk günlərdən Azərbaycan cəmiyyətinin bəzi üzvləri arasında narazılıq yaradırdı. Bu Cümhuriyyət və Sovet dövründə də davam edirdi. Əvvəldən ərəb əlifbasının saxlanılması tərəfdarı olan Məhəmməd Əmin Rəsulzadə və onun rəhbərlik etdiyi "Müsavat" partiyasının üzvləri bunun Sovetlərin bir ruslarşdırma siyasəti, xalqı kökündən ayırma prosesi olduğunu hesab edirdilər. M.Ə.Rəsulzadə öz fikrini "Çağdaş Azərbaycan tarixi" əsərində belə ifadə edirdi: "Mədəniyyətin ruslaşdırılması – bu, Azərbaycanın həqiqi bir faciəsidir. Sovetləşdirmənin ilk dövrlərində bu siyasət mədəniyyətin "formaca milli, məzmunca kommunist" olmasından bəhs edən bolşevik formulu ilə maskalanırdı. Sovet hökuməti əvvəlcə ərəb hərfləri ilə yazmağa icazə verirdi. Lakin sonra Sovet mədəniyyət xadimləri Azərbaycan ədəbiyyatını dayandığı öz mədəni və tarixi köklərindən qoparıb, onu və onunla bərabər xalqın mədəniyyətinin bütün sistemini yeni sovet yoluna salmaq istədilər. Başqa sözlə, onu öz zəminindən götürüb rus zəminə görürdülər"(2, 98). Eləcə də milli istiqlal hərəkatının görkəmli nümayəndəsi Mirzə Bala Məhəmmədzadə də özünün qeyd etdiyi kimi, ilk əvvəllər əlifba dəyişikliyinin qəti əleyhinə olsa da, Türkiyə Cümhuriyyətinin yeni

əlifbaya keçməsindən sonra - bizcə, Azərbaycanın tək başına ərəb əlifbasından latın sisteminə keçməsi və bütün Türk dünyası ilə tərki-əlaqə etməsi Azəri türklərinin milli varlığına böyük bir zərbə olacaqdır – deyə, fikirini əsaslandırırdı(6, 8).

Sovet hökuməti ilə eyni vaxtda Türkiyə Cümhuriyyətinin də ərəb əlifbasından imtina edərək latın əlifbasına keçməsi vəziyyəti dəyişmişdi. Belə ki, hər iki Türk dövləti artıq eyni əlifba ilə yazıb-oxuyacaq, bir-birlərini anlaya biləcək, eyni zamanda yeni əlifba azərbaycanlı əhalinin tam kommunistləşməsinin, bolşevikləşməsinin qarşısını alacaqdı. Əlifba islahatı yalnız M.B.Məhəmmədzadə tərəfindən deyil, "Müsavat" rəhbərliyi tərəfindən də müsbət qarşılandı. Belə ki, "Müsavat" Xalq firqəsinin Mərkəzi heyəti tərəfindən yerlərdə olan bütün müsavatçlara latın əlifbasının öyrənilməsi əmri verilmişdi(6, 10). Bu da onların hər iki türk dövlətinin eyni əlifba istifadə etməsinə necə önəm verdiyini sübut edirdi.

Türkiyənin də Azərbaycanla eyni vaxtda latın əlifbasını qəbul etməsi Sovet dövlətində normal qarşılanmadı. Onlar hər cür vasitə ilə Türkiyənin bu qərarını gözdən salmağa çalışaraq öz mətbuat orqanlarında bu prosesi istehzalı şəkildə təsvir edirdilər. Mirzə Bala Məhəmmədzadə məqaləsində bolşevik mətbuatının bu məsələyə münasibətinə də toxunmuşdur. Mirzə Balanın "Odlu Yurt" məcmuəsində nəşr olunan "Yeni türk alfabesi və bolşevik matbuatı" adlı məqaləsi türk dilindən tərcümədə təqdim edilir.

Yeni türk əlifbası və bolşevik mətbuatı

6 il bundan əvvəl Azərbaycanda latın əlifbasının qəbulu məsələsi müzakirə edilərkən Azəri millətçilərinin nə üçün müxalifətə keçdiklərini vaxtilə "Azəri türk" məcmuəsinin 18-ci sayında yazmışdıq.

Bizcə Azərbaycanın tək başına ərəb əlifbasından latın əlifbasına keçməsi və bütün türk dünyası ilə əlaqəni kəsməsi Azəri türklərinin milli varlığına böyük bir zərbə olacaqdı.

Türkiyənin ərəb əlifbasında qalması və Azərbaycanda yeni əlifbanı tətbiq edənlərin milli hars və milli mədəniyyət düşməni bolşeviklərdən ibarət olması Azərbaycanda bütün türkçü və millətpərvər ünsürləri latın əlifbasının əleyhdarı etmişdi.

Azərbaycan-Sovet şəraiti içərisində latın əlifbası yeni, kosmopolit, kommunist və bolşevik hars və mədəniyyətinin yaradıcısı olduğu halda ərəb əlifbası milli hars və xüsusiyyəti ortadan qaldıran latına qarşı Azəri türkünün milli ədəbiyyatını, milli tarix və ənənələrini mühafizə və inkişaf etdirirdi. Xüsusilə, Moskvadan ruh və ilham alan Bakı bolşeviklərinin milli Azəri-türk hars və ədəbiyyatı yerinə yeni nəsilə təqdim etməyə başladıqları "qızıl proletar hars və ədəbiyyatı" latın əlifbası ilə ikən, millətpərvər Türkiyədən ilham alan azəri millətpərvərləri Türkiyənin hələ ərəb əlifbasında davam etdiyini görürdülər.

Türkiyənin ərəb əlifbasından imtina edərək latın əsasından yeni bir əlifba qəbul etməsi məsələnin şəklini büsbütün dəyişdi. Və bu tarixi hadisə hər kəsdən çox azəriləri sevindirmiş oldu. Çünki bolşeviklər daha 1928-ci ilin iyul ayında ərəb hərflərini tamamilə ləğv etməyi qərara almış, məktəblərdə, mətbuatda, dövlət müəssisələrində latın əlifbasına keçməyi qərara almışdılar. Belə bir vəziyyətdə Azərbaycanda milli hars, milli həyat və milli türk mövcudiyyəti böyük bir təhlükəyə düşəcəkdi; çünki ərəb hərflərini artıq bilməyən yeni nəsil sırf kommunizm, bolşevizm və marksizmdən bəhs edən bir nəşriyyat ilə böyüdüləcəkdi. İndi isə vəziyyət tamamilə başqa oldu. Türkiyədə latın əsasından alınmış yeni türk əlifbası ilə yeni bir türk harsı, milli türk ədəbiyyat və mədəniyyəti canlanmaqdadır. Yeni azəri əlifbasını bilən gənclərin çox asanlıqla oxuya biləcəkləri bu yeni türk əlifbası Azərbaycanda öldürülmək istənilən milli türk varlığını, türk hars və ədəbiyyatını davam etdirəcək, milli türk ruh və duyğularının Azərbaycanda ölməməsinə, əksinə qüvvətlənməsinə, bununla da ənənəvi azəri istiqlal mücadiləsinin nəsildən nəsilə keçməsinə vasitə olacaqdır.

Azəri millətçiləri Azərbaycan əlifbası ilə də milli nəşriyyata malik ola bilər və bu vasitə ilə məmləkət daxilində "qızıl proletar harsına" qarşı milli bir hars və ədəbiyyatı eyni çap üsulu ilə davam etdirə bilərdilər. Lakin bu hərəkət türk harsı vəhdətini məqsəd edən bizə görə hars sahəsində seperatizmi dəstəkləmək olardı.

Türkiyədə tətbiq olunan yeni əlifba müştərək və yeganə türk yazısıdır. Bunu hər bir azəri çətinlik çəkmədən oxuya biləcəkdir. Eyni zamanda bu yazı cümhuriyyət və inqilab Türkiyəsindən Azərbaycana, kommunizmə, sovetizmə, istila və istibdada qarşı qoymaq üçün - türkçülük, millətçilik, hürriyyət, istiqlal və demokratiya fikirlərini götürəcəkdir.

Bunu nəzərə alaraq, biz bolşeviklərin Türkiyədəki inqilabdan məmnun olmayacaqlarını təxmin etmişdik. Poçt vasitəsi ilə aldığımız son bolşevik qəzetləri təxminimizdə nə qədər haqlı olduğumuzu göstərməkdədir.

Azərbaycan kommunist firqəsi orqanı olan rusca "Bakinski raboçi" qəzetinin 1 yanvar 1929-cu il tarixli nüsxəsi bu mövzuda yazılmış yazılarla doludur. "Bakinski raboçi" deyir ki:

"Dekabrın 1-dən etibarən Türkiyədə latın əlifbasına keçilmişdir. Bunu zabitə üsulu ilə tətbiq etmişlər. Avqustda müzakirə etdilər, sentyabrda qərar verdilər, dekabrdan da bütün qəzetlər yeni əlifba ilə çıxmağa başladı."

Qəzet türk xalqının bu inqilaba qətiyyən hazır olmadığını, Türkiyədə xalqın əcnəbilərin yardımına müraciət edərək küçələrin ünvanlarını oxuduqlarını, poçt məntəqələrində əcnəblərə məktub ünvanı yazdıranların sayının gündən günə artmaqda olduğunu istehza ilə qeyd etdikdən sonra əlavə edir ki:

"Təşəbbüskarlardan ötəri bunun heç əhəmiyyəti yoxdur. Yalnız Türkiyənin bu məsələdə yeganə və birinci olduğunu nümayiş etdirmək və təcili olaraq

"mədəniyyətə" qovuşmaq lazımdır."

Türkiyənin "birinci və yeganə olmadığını" sübut etməyə çalışdıqdan sonra qəzet mədəniyyətin Türkiyədə necə anlaşıldığını da özünəməxsus şəkildə göstərmək üçün "Cümhuriyyət" qəzetini, gözəllik müsabiqəsi haqqındakı yazı və fotolarını istehzalı yazılarla bərabər dərc etmişdir.

"İstanbul təranələri" adlı bir məqalədə isə düşmənçilik və həyasızlığın hüdudu tamamilə aşılmaqdadır. Burada Z.Ş. Zakirov adlı birisi türklərin barbar və vəhşi ordu halında şərqdən gələrək qərbə viranedici bir axın şəklində "necə gəldikləri", "bu ordunun ayaqları altında insanların, sarayların, məbəd və şəhərlərin, zavallı kəndlilərin necə məhv olduqları" təsvir edilməkdədir. Zakirov rusca olaraq ruslar üçün yazmış olduğu bu yazısında Türkiyə sultanlarının bu "barbarca keçmişi" necə idealizə edərək, bir türk romantizmi yaratdıqları və "bütün cahan türklərini necə birləşdirmək istədiklərini"qeyd etdikdən sonra deyir ki:

"Proletar Bakıda meydana gələn böyük mədəni inqilabı hərəkat Rusiyada yaşayan bütün türk-tatar xalqlarını hərəkətə gətirdi. Bu hərəkat yalnız islamiyyətin çürük təməlini deyil, romantik sultan nəğmələrini də qorxutmağa başladı.

Bundan çox narahat olan Ankaralı general təcili olaraq türk yazısını latıncaya çevirməyə başladı. Kamalçıların pantürkist nəğmələri bundan sonra latın hərfləri ilə yazılacaqdır. Lakin bu nəğmələr proletar sinfinə xoş görünməyəcəkdir. Çünki onda sultan əllərinin qanlı nişanəsi vardır...." (Bak.rab. 1yanvar. 1929)

Bu sözlər üzərinə heç bir şey əlavə etməyəcəyik. Kommunist firqəsinin rəsmi naşirinin düşüncəsi ilə çap olunan bir qəzetdə müxalif imzalarla yazılmış olan bu əsəbi məqalələr bolşeviklərin Türkiyədə qəbul olunan əlifbanı necə qarşıladıqlarını açıqcasına göstərən canlı dəlillərdir.

Bu eyni zamanda ta ibtidadan bəri Azərbaycan millətçilərinin mövqelərindəki cəhətləri də izah edir. Azərbaycan istiqlalının əlamdarı "Müsavat"firqəsinin bütün üzvlərinə Türkiyədə qəbul olunan əlifbanı müştərək türk əlifbası kimi öyrənməyə məcbur olduqlarını əmr edən qərarından sonra Azərbaycan bolşeviklərinin keçirəcəkləri əsəbiyyət təsəvvür olunsun.

Mirzə Bala

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. 2 cilddə, I cild. Bakı, 2005.
2. Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan tarixi. Bakı, 1991.
3. Tahirli A. Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991). Bakı, 2005.
4. Atatürk –hayatı və devrimləri / Nurettin Can Gülekli. İstanbul, 1985.
5. Lewis B. Modern Türkiyenin doğuşu. Ankara, 1991.

6. Mirza Bala. Yeni türk alfabesi ve bolşevik matbuatı / Odlu Yurt, Yıl 1, sayı 1, İstanbul, 1929.
7. Türk dilinin tarihi akışı içinde Atatürk ve dil devrimi. Ankara, 1963.
8. С.Агамали-оглу. Неотложные культурные нужды тюрко-татарских народов. Бакуб издание Комитета Нового Тюрского Алфавита, 1925. 88 стр.

Ilaha Khantamirova
In the track of an article of Mirza Bala Mahammadzada

Summary

Key words: *M.B.Mahammadzada, emigration, alphabet reform, Azerbaijan, Turkey, article*

The article was dedicated to Mirza Bala Mahammadzada, representative of Azerbaijan emigration press. M.B.Mahammadzada continued his political activity in emigration and his articles were published in different foreign press. His article named "New turkish alphabet and bolshevik press" published in "Odlu Yurt" magazine in 1929 has beed translated and attached to the article. The replace process of arabic alphabet in latin, the attitude of members "Musavat" party, especially M.A.Rasulzada to the reform, and describtion this topic in bolshevik press in 1920s has been researched here.

Илаха Хантамирова
По следу одной из статьи Мирзы Балы Мамедзаде

Резюме

Ключевые слова: М.Б. Мамедзаде, эмиграция, реформа алфавита, Азербайджан, Турция, статья

Статья посвящена представителю азербайджанской эмигрантской печати Мирзе Бала Мамедзаде. После потери Азербайджаном своей независимости, Мамедзаде продолжил политическую деятельность, выступая со статьями на страницах различных зарубежных изданий. Его статья «Большевистская печать и новый тюркский алфавит» вошла в сборник «Одлу Юрт», изданный в Турции в 1929 году. В статье исследуется переход от арабского алфавита на латинский в Азербайджне и Турции в 20-х гг XX века, отражение данного процесса в большевистской печати, реакция на это возглавляемой МЭ Расулзаде партии Мусават

Санубар Касимова

Гербы трех Азербайджанских республик

Ключевые слова: *герб, пролетарий, государство, Азербайджанская республика, серп и молот, дубовая ветвь, звезда*

UOT 926.6

Герб – один из важнейших элементов атрибутики. Дефиниция герба сводится к основному его признаку – эмблематики изображений, утверждаемых государственной властью в соответствии с правилами геральдики. Слово «герб» происходит от немецкого слова «эрбе», что значит наследство. Наука геральдика основывается на общей системе соответствий законам, которая веками формировалась у народов мира, а также на своеобразных национально-исторических традициях. Это значит, что символы, отображенные на любом гербе, имеют определенное общее соответствие законам, прочную внутреннюю систему и в то же время эти символы тем или иным образом отражают исторические, политические, идеологические, национально-нравственные, религиозные и мистические взгляды народа, нации, государства, которые они символизируют. (6, с. 292)

Государственный герб утверждается конституцией или специальным законом, часто является составной частью государственного флага, а также изображается на денежных знаках, печатях, официальных документах.

5. Градосельский В.В. Национальные воинские формирования в Великой Отечественной войне // www.voina.com.ru/index.php
6. Мадатов Г.А. Азербайджан в Великой Отечественной войне. Баку, 1975.

Məhfuzə Zeynalova
II Dünya müharibəsində Azərbaycan diviziyaları

Xülasə

Açar sözlər: milli diviziyalar, Böyük Vətən Müharibəsi, Azərbaycan milli diviziyaları

Məqalədə Böyük Vətən Müharibəsi illərində fəaliyyət göstərmiş Azərbaycan milli diviziyaları haqqında mənbələr əsasında qısa məlumat verilir. Burada Qızıl orduda müharibənin əvvəlində olan vəziyyət, Azərbaycan diviziyalarının yaranması, onların döyüş və qəhrəmanlıq yolu barədə bəhs olunur.

Makhfuza Zeynalova
Azerbaijan national regiments in the Second World War

Summary

Key words: *Second World War, Azerbaijan national regiments, heroism*

The article is based on historical material and narrates about national divisions of Azerbaijan in Red Army, their participation in the Second World War, valor and heroism and a contribution to a victory over fascism.

Bəhman Kərimov

İkinci Dünya Müharibəsi dövründə azərbaycanlıların İtaliya və Yuqoslaviya partizan hərəkatında iştirakı tarixindən

Açar sözlər: *Azərbaycan, İkinci Dünya müharibəsi, partizan hərəkatı*

UOT 94 (479.24)

Milli vətənpərvərlik tərbiyəsində milli kökə dayanaraq, milli ruhdan ilham almaq ümumibəşəri bir qanunauyğunluqdur. Vətənpərvərlik Vətənin varlığı və gələcəyi qayğısı ilə bilavasitə bağlı olan düşüncə tərzidir. Vətənini sevən hər bir vətəndaş ömrü boyu bu düşüncə ilə yaşayır və yaradır. Bu baxımdan tarixi qəhrəmanlıq səhifələrini təbliğ edən Milli Azərbaycan Tarixi Muzeyi onları böyüməkdə olan gənc nəslə çatdırır. Tariximizin bu qəhrəmanlıq səhifələrini muzeyin sərgi və ekspozisiyasında əks etdirmək və gələcək nəsillərə çatdırmaq məqsədilə muzey fondlarında mühafizə edərək tədqiq və təbliğ edilib. Muzeydə mühafizə olunan bu materiallar tarixi yaddaşımızın güzgüsüdür. Biz bu tarixi səhifələri vərəqləməklə, Vətən qarşısında öz şərəfli borcunu yerinə yetirən babalarımızın qəhrəmanlıq salnaməsini öyrənir və tarixi yaddaşımızı möhkəmləndiririk.

Ümummilli Lider Heydər Əliyev deyirdi: "Bizim gənclərimiz XX əsrin müharibələrində qəhrəmanlıq nümunələri göstəriblər. Biz Azərbaycanın qəhrəman oğulları ilə həmişə fəxr etmişik və onların xatirəsi daimi qəlbimizdə yaşayacaqdır".

Zəngin təbii sərvətlərə və əlverişli coğrafi mövqeyə malik olan Azərbaycan İkinci Dünya müharibəsi illərində də iri dövlətlərin strateji planlarında mühüm yer tuturdu. Bu dövlətlər Azərbaycana böyük maraq göstərirdilər. Onların arasında Almaniya Bakı neftini ələ keçirməklə Şərqə-İran körfəzinə və Hind okeanına hərəkət etmək niyyətində idi. Hitlerin tapşırığı əsasında hətta Bakının sənaye və hərbi əhəmiyyətli obyektlərinin dəqiq xəritəsi hazırlanmışdı. Nasist rəhbərlərdən biri olan Rozenberqin hazırladığı "Qafqazın idarə olunması planı"na əsasən Azərbaycanda Qafqaz Reyx Komissarlığına tabe olan xüsusi komissarlıq idarə üsulu yaradılmalı idi.

Bu zaman, Azərbaycanın qəhrəman oğulları, düşmənlə üz-üzə döyüşməklə yanaşı, ağır şəraitdə əsir düşməsinə baxmayaraq ona qarşı mübarizə aparmışlar. Hitler Almaniyasının SSRİ-yə qarşı "İldırım sürətli müharibə" yə başlayanda

Almaniyada hərbi əsirlər üçün 28 düşərgə var idisə, 1944-cü ildə onların sayı 85-ə çatdırılmışdı (3).

Məğlubiyyətin acısını dadmış sovet əsgəri, SSRİ-nin tərkibində yaşayan millətlərin nümayəndələrindən hərbi birləşmələr təşkil edib, öz dövlətinə qarşı döyüşməyi nəzərdə tutan Almaniyanın hərbi siyasi rəhbərliyinin planlarının həyata keçirilməsinə olduqca münasib şərait yaranmışdır.

Beləliklə, artıq 1941-ci ilin oktyabr-noyabr aylarında Alman ordu kəşfiyyatı Abver tətəfindən sovet hərbi əsirlərindən alman qoşunlarının Qafqaz və Orta Asiyaya yeridilməsinə yardımçı olacağını nəzərə alaraq, xüsusi təyinatlı hissələrin yaradılmasına başlandı. Partizanlara qarşı mübarizə və kəşfiyyat-təxribat əməliyyatları kimi məxsusi tapşırıqlar yerinə yetirməklə yanaşı, onlar Orta Asiya və Qafqaz xalqlarının təmsilçilərini almanlar tərəfinə keçməyə sövq etmək üçün təbliğat işi aparmalı, milli respublikalar ərazisində antisovet üsyanlar qaldırmalı idi (5, s. 218).



Faşist Almaniyasının Polşadakı "Daxay" əsir düşərgəsi (MATM SMF)

Fotoşəkildən göründüyü kimi, əsir düşmüş sovet əsgəri amansız işgəncələrdən, aclıqdan qurtulmaq üçün almanların həyata keçirdiyi planların icrası üçün onlara qoşulmaq məcburiyyətində idi. Bu onların ilkin çıxış yolu idi. O, ya bu cür ölməli, ya da düşmən tərəfinə keçib gizli mübarizə aparmalı idi. Düşmən tərəfinə keçməsinə baxmayaraq, onların ürəkləri daima doğma vətən sevgisi ilə döyünmüşdür. Onlar inanırdılar ki, nə vaxtsa doğma vətənlərinə dönəcəklər. Bu faktlar hadisələrin sonrakı gedişində də özünü göstərdi.

Əsir düşmələrinə baxmayaraq, Azərbaycanın qəhrəman oğulları faşistlərin Buhenvald, Mauthauzen, Daxau, Zaksenhauzen, Ravensburg və b. ölüm düşərgələrində Avropa ölkələrinin antifaşistləri ilə birlikdə hitlerçilərə qarşı mübarizə aparmış və azərbaycanlı adına layiq fəaliyyət göstərmişdilər.

Bu zaman faşist Almaniyası, 1941-1945-ci illər ərzində ölkənin müxtəlif hərbi strukturunda SSRİ-nin müsəlman və digər xalqlarının nümayəndələrindən könüllü dəstələr yaratmağa başlamışdır. Lakin bu siyasəti uğurla həyata keçirə bilməyən Alman hökuməti, 1944-cü ilin yanvarında Şərq legionları Qərbə köçürməyə qəti qərar verdi. Bu baxımdan, SSRİ ərazisində olan Azərbaycan legionları Fransanın Normandiya və Bretan bölgələrinə göndərildi. Bu, azərbaycanlıların kəskin narazılığına səbəb olur, hətta açıq aşkar itaətsizlik aksiyalarına gətirib çıxartdı. Belə bir şəraitdə, onların bir qismi, meşələrə qaçaraq Ukrayna millətçilərinə qoşuldu. Digər bir qismi isə partizanlara qoşulub işğalçılara qarşı mübarizəyə başladılar.

Alman hökuməti əsirlər və legionçular arasında itaətsizliyi nəzərə alaraq 1943-cü ilin axırlarında sovet hərbi əsirlərinin böyük bir dəstəsini Şimali İtaliyaya göndərdilər. Hitlerçilər həbs düşərgələrindən topladıqları bu məhbuslara "azadlıq" və "xoş güzəran" vəd vermişdirlər. Lakin, əslində İtaliya və Yuqoslaviya partizanlarına qarşı həmin hərbi əsirlərdən cəza dəstələri düzəltmək fikrində idilər.

Belə bir şəraitdə, sovet sərhəddindən uzaqlaşan azərbaycanlı hərbi əsirlər gizli antifaşist təşkilatı yaratmağa başladılar. Bu işdə azərbaycanlı hərbi əsirlərdən həkim Rza Ağazadə, Cavad Həkimli, Mehdi Hüseynzadə, Mikayıl Qulubəyov və b. daha fəal şəkildə mübarizəyə qoşulmuşdur. Bu təşkilat sonralar vətəndən uzaqlarda minlərlə sovet hərbi əsirinin birləşməsində, işğal olunan ərazilərdə faşistlərə qarşı mübarizədə böyük rol oynadı.

İtaliya ərazisində yerləşdirilən, Triyest ətrafında müqavimət hərəkatında iştirak edən Yuqoslaviya və İtaliya partizanları ilə əlaqəyə girmək hələ bir müddət legionçulara nəsib olmamışdı. Bunun əsas səbəbi, faşistlərin yerli əhali arasında yaydığı şayiə idi. Guya sovet hərbi əsirləri partizanlara qarşı cəza tədbirlərinin həyata keçirilməsində iştirak etmək arzusunda olması idi. Lakin, düşmənin bu hiyləsi baş tutmadı.

Bu zaman Stranse əsir düşərgəsindən İtaliyaya, Triyestə və Yuqoslaviyaya köçürdüyü sovet hərbi əsirləri içərisində çoxlu sayda azərbaycanlı toplanmışdılar. Onlar İtalyan-yuqoslav partizan diviziyasının tərkibində əlahiddə rota təşkil etmiş, alman faşizminə qarşı mübarizədə yaxından iştirak etmiş, onlara sarsıdıcı zərbələr endirmişlər. Bununla yanaşı, alman ordusunun tərkibində döyüşən "Türküstan diviziyası"nda olan azərbaycanlılar da 1944-cü ildə İsrafil bəy İsrafilbəyovun komandanlığı altında Şimali İtaliyaya yollananda, artıq başa düşürdülər ki, müharibə uduzulub... Ona görə də, yenidən almanlara qarşı mübarizə aparmağa başladılar" (9).

Burada döyüşən əfsanəvi partizan Mehdi Hənifə oğlu Hüseynzadə (1918-1944) vətəndən uzaqlarda – Adriatik dənizi sahillərində, İtaliya və Yuqoslaviya partizanları ilə birlikdə faşizmə qarşı mübarizədə öz xalqının adını bütün dünyada ucaltmışdı.

Mehdi digər əsirlərlə - Cavad Həkimli, Qasım Əmrahov, Sadıq Nadirli, Cabbar

Quliyev, Mikayıl Qulubəyov, Əsəd Qurbanov, Cəmil İsmayılov və b. ilə birlikdə partizanlara qoşularaq sovet əsirlərindən ibarət gizli təşkilat – rus rotası yaradırlar.

Çox keçmədən, Yuqoslaviya – İtaliya korpusunun Dutovle kəndində dağlarda yerləşən İvan Qradnik adına 3-cü zərbə briqadasının komandiri Martin Qreyfin əmrilə əsirlərdən ibarət "Ruska çeta" adı altında yeni rota yaradılır. Cavad Həkimli komandir, Mehdi isə onun müavini təyin edilir (8, s. 176-179).

Mehdi Hüseynzadənin partizan yoldaşı Rza Orucovun Muzeyə təqdim etdiyi İtalyada nəşr edilmiş "İvan Qradnikin briqadası" kitabının 224-cü səhifəsində "Təxribatçı Mixaylo" sərlöhvəli hekayə dərc edilmişdi. Burada Mehdi Hüseynzadənin qəhrəmanlıq salnamsi və onun mübariz silahdaşlarının adları və fotoşəkilləri də öz əksini tapmışdı.



"Ruska çeta" adlı partizan dəstəsi. "İvan Qradnikin briqadası" kitabından, Milli Azərbaycan Tarixi Muzeyi SMF



Soldan: Cavad Həkimli, Mehdi Hüseynzadə 1943-cü il, İtaliya. "İvan Qradnikin briqadası" kitabından, MATM, SMF

Mehdi Hüseynzadənin silahdaşı olan Mikayıl Qulubəyov 1915-ci ildə Yelizavetpol qəzasının Mollavələdli kəndində anadan olmuşdur. İbtidai təhsilini atasından almışdır. Quba Kənd Təsərrüfatı Texnikumunu (1933), Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Kimya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir (1939). Sonralar S. Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun üzvi kimya kafedrasında assistent işləmiş (1940-1942), 1942-ci ilin mart ayında ordu sıralarına çağırılmış, hərbi məktəbi vaxtından əvvəl bitirmişdir. Stalinqrad uğrunda vuruşlarda iştirak etmişdir (1942-ci ilin sonunda). Döyüşlərin birində yaralı halda əsir düşmüş, Almaniyaya, oradan İtaliyaya, daha sonra Yuqoslaviyaya sürgün olunmuşdur.

Mikayıl Qulubəyov sağaldıqdan sonra əsirlikdən qaçıb (1943-cü ilin əvvəlində) azadlıq hərəkatına qoşularaq Mehdi Hüseynzadə yaxından kömək göstərir və onunla çiyin-çiyinə partizanlıq etmişdir. O "Doktor Mişa" ləqəbi ilə böyük qəhrəmanlıqlar göstərmişdir. Onun bu yüksək xidməti Yuqoslaviya hökuməti tərəfindən qiymətləndirilmiş, üç dəfə «Qəhrəmanlıq ordeni» ilə təltif edilmişdir.



İtaliya partizanları soldan birinci Ənvər Məmmədov (Zərdab rayonu), Kəbir Məcidov, dördüncü Qədir Rüstəmov (Göyçaylı), beşinci Sloveniyalı İvo Boqacar (C. Həkimlinin tərcüməçisi), altıncı qərargah rəisi Cavad Həkimli və başqaları. 20 avqust 1944-cü il, Yuqoslaviya. Mehdi Hüseynzadənin partizan yoldaşı Rza Orucovun Muzeyə təqdim etdiyi İtalyada nəşr edilmiş "İvan Qradnikin briqadası" kitabından

Bu partizanlar içərisində, İtaliyada və Yuqoslaviyada olmuş insanlar partizan batalyonu qərargahının qoçaq rəisi Cavad Həkimli də xüsusi qəhrəmanlıqlar göstərmişdir. Rza Orucovun Muzeyə təqdim etdiyi İtalyada nəşr edilmiş "İvan Qradnikin briqadası" kitabından Cavad Həkimlinin qəhramanlığı haqında məlumat verilməklə yanaşı fotoşəkilləri nəşr olunmuşdur.

Göründüyü kimi, II Dünya müharibəsinin başlandığı ilk günündən etibarən böyük vətənin müdafiəsinə qalxmış Azərbaycanın qəhrəman oğulları ön cəbhələrdə qəhrəmanlıq göstərməklə yanaşı, Avropada antifaşist müqavimət hərəkatında böyük qəhrəmanlıqlar göstərmişlər.

Şimali İtaliyanın partizan dəstələrinin tərkibində döyüşən 300 nəfərdən çox azərbaycanlı partizan-əsirlər dəstəsinə rəhbərlik edən Həmzə Əsgərov 1944-cü ilin payızında Betola qəsəbəsi yaxınlığındakı döyüşdə qəhrəmancasına həlak olmuşdur. Onun qəbirüstü daşında "Azərbaycanlı Həmzə Betola uğrunda döyüşlərdə misilsiz döyüş qabiliyyəti və hünər göstərmişdir" sözləri yazılmışdır.

Avropa müqavimət hərəkatının tədqiqatçısı Ruqiyyə Əliyeva yazır: "1945-ci ilin 13 aprel tarixində İtaliyanın Berqamo şəhərindən 20 km aralıda yerləşən Monte di Neze kəndində 120 nəfər azərbaycanlı legionun döyüşçüləri nasistlər tərəfindən kütləvi şəkildə qətlə yetirilmişdir". Bunlar əsasən müharibənin sonuna yaxın üçüncü Reyxin legionları tərkibində döyüşən azərbaycanlıların böyük bir qrupu legiondan uzaqlaşdırıb, İtaliya və İsveçrə ərazilərinə sürgündən sonra baş vermişdir. Bu ərazilərdə yerləşdirilən legionçuların bir istəyi var idi, vətənə dönmək üçün, antifaşist hərəkatına qoşulmaq və əsas da İtaliyada ad qazanmış Haribaldi partizan dəstəsinə qatılmaqdan ibarət idi. O, öz tədqiqatında yazır: "Bu zaman İtaliyaya gələn azərbaycanlılar Berqamo şəhərindən 20 km aralıda yerləşən Monte di Neze kəndinə yerləşirlər. Kənd camaatı



Arxa cərgədə soldan 3-cü: Qriqori Jilyayev, Cavad Həkimli, Məmməd Novruzov "Qarabala", Lyublyana şəhəri, 1945-ci il, may

gələnlərin kim olduğunu bilmir və buna görə də qorxuya düşür. Daha sonra isə onların yorğun, aç olduqlarını və partizan olduqlarını biləndən sonra bizimkilərə öz evlərində yer verirlər və onları gizlədirlər. Azərbaycanlılar bu kənddən sadəcə bir keçid məntəqəsi kimi istifadə etmək istəyirdilər, yəni niyyət qətiyyən burada qalmaq deyildi. Aprelin 13-ü səhər tezdən yerli kənd kilsəsinin zəngi çalınır. İbadətə tələsən yerli camaat atəş səslərinə ayılır. Kəndə ümumi sayı 2500-dən çox olan respublikaçı faşist, habelə SS-çilər daxil olur. Onlara təslim olmaq çağırışı edilir, ancaq bizimkilərdən rədd cavabı gəlir.



Ruski çeta dəstəsinin komandiri Cavad Həkilmi

Beləliklə, Azərbaycandan kilomertlərcə uzaqda 120 azərbaycanlı ilə 2.500 nasist əsgəri arasında qanlı döyüş başlayır. 6 saata yaxın davam edən döyüşdə azərbaycanlıların çoxu döyüş zamanı, bir neçə nəfəri isə döyüşdən sonra qətlə yetirilir.

Ümumiyyətlə, Berqamo ətrafına gəlib çıxmış azərbaycanlıların sayı 900 nəfərə yaxın idi. Onlardan 120 nəfəri Monte di Nezedə öldürüldü. Başqa bir dəstədə olan 300 nəfəri isə əsir alınmışdı. Onların taleyindən heç bir xəbər yoxdur. Yerdə qalanları isə partizanlara qoşulmağa imkan tapmışdı. Bu gün belə İtaliyanın bu kiçik kəndində azərbaycanlıları böyük hörmət və ehtiramla yad edirlər. Hadisələrin bir neçə canlı şahidi bu gün də həmin kəndə yaşamaqdadır" (1, s. 41-42).

Tədqiqatçı daha sonra qeyd edir ki, "Həmin hadisələri araşdırmış Mixail Talalay özünün "Qafqazlardan Appeninədək" kitabında yazır: "Döyüşdən sonra faşistlərdən biri sevincək bağırırdı: "Hə, cənablar, yaxşı ov etdik". Onlar əsir aldıqları əsgərlərin şinelini, pul qabını, şəxsi əşyalarını talayırdılar. Bu vaxt əsirlərə "ayaqqabılarınızı çıxarın" deyə əmr verdilər. Hamını dəhşət bürümüşdü. Doğrudanmı əsirləri güllələyəcəklər?". Elə də olur. Talalayın yazdığına görə, əsir alınmış azərbaycanlıları bir yerə yığırlar. Faşist leytenantın əmriylə pulemyotdan atəş açılır. Faşistlər hətta yaralılara belə aman vermirlər. Sonradan partizan dəstələrinin birinin komandiri olmuş Motsala öz xatirələrində yazır: "Ümumiyyətlə, Berqamo ətrafına gəlib çıxmış azərbaycanlıların sayı 900 nəfərə yaxın idi. Onlardan 120 nəfəri Monte di Nezedə öldürüldü. Başqa bir dəstədə olan 300 nəfəri isə əsir alınmışdı. Onların taleyindən heç bir xəbər yoxdu. Yerdə qalanları isə partizanlara qoşulmağa imkan tapmışdı". Elə Motsalanın öz dəstəsinə leytenant Musa Məmmədovun rəhbərliyi altında 250 partizan qoşulmuş və faşizmə qarşı vuruşmuşdu (1).

Tədqiqatçı daha sonra yazır: "Zaman, 2014-cü ilin fevralı: İtaliyanın "Corriere della Sera" qəzetində maraqlı bir məqalə dərc olunur. Məqalə Monte di Neze faciəsinə və orada qətlə yetirilən azərbaycanlılara həsr edilmişdi. Yazıda göstərilir

ki, hələ bu faciəyəyədək azərbaycanlılar italiyalı partizanlarla kontakt qurmaq istəyirdilər. Onlar yerli partizan dəstəsinin iki əsas adamı Morandi və Epifanio Miçeletti ilə demək olar ki, razılığa gəlmişdilər. Azərbaycanlılardan Ağamoğlan Ağayev bu məsələdə əsas vasitəçi idi. Məhz onun cəhdlərindən sonra ilkin olaraq 250 azərbaycanlı partizanlara qoşulmağa imkan tapa bildi. Bir qrup isə Monte di Nezeyə gəlib çıxmışdı. Çox təəssüf ki, faşistlər onların izinə düşə bilmişdi. Məhz bu dəstə partizanlara qoşulmağa imkan tapmır. Bu məqalənin müəllifləri də faşistlərlə azərbaycanlılar arasında bir neçə saat döyüş getdiyini yazırlar. Və onu da qeyd edirlər ki, bu əslində döyüş yox, insan ovu idi (1, s. 67).





1945-ci ili aprelin 13-də İtaliyanın Berqamo şəhərindən 20 km aralıda yerləşən Monte di Neze kəndinə faşistlər tərəfindən qətlə yetirilmiş 120 azərbaycanlının dəfn olunmuş ərazidə ucaldılmış abidə

Muzeydə mühafizdə edilən Avropa müqavimət hərəkatının qəhrəmanı Məmməd Səməd oğlu Bağırovun materiallarını vərəqləyərəkən keçdiyi döyüş yolu bir anlıq "gözümüzün önündə canlanır". İtaliyada müqavimət hərəkatı iştirakçılardan biri olan Məmməd Səməd oğlu Bağırov 20 mart 1922-ci ildə Azərbaycanın dilbər guşəsi olan İsmayıllı rayonunun Basqal qəsəbəsində sənətkar ailəsində anadan olmuşdur. Oxumağa Basqal məktəbində yeddinci sinfə qədər davam etmiş, orta təhsilini 1941-ci ildə Bakıda bitirmişdir. O dövrdə beynəlxalq vəziyyət gərgin idi. SSRİ Almaniya ilə müharibə şəraitində olduğundan hərbi müdafiə işlərinə ciddi diqqət yetirilirdi. O cümlədən hərbi məktəblərə gənclərin axını da genişlənirdi.

Məmməd Bağırov orta təhsilini başa vurduqdan sonra Gürcüstanın Telavi şəhərindəki artilleriya məktəbinə daxil olmuşdur. 1942-ci ildə buranı topçu ixtisası və leytenant hərbi rütbəsi almaqla bitirmiş, mart ayında isə cəbhəyə yola düşmüşdür. Onun döyüş yolu cənub-qərb cəbhəsindən - Xarkov şəhərindən başlamışdı. Burada 317-ci diviziyanın 773-cü artilleriya alayı tərkibində döyüşmüşdü.

Bu zaman almanlar qələbədən ruhlanaraq çoxsaylı qüvvə ilə Sovet İttifaqının içərilərinə doğru hücumlarını davam etdirdilər. Onlar ikinci dəfə Lozevoy, Barvenko və başqa yaşayış məntəqələrini alanda Məmməd Bağırovun bölüyü düşmən mühasirəsinə düşür. Ciddi müqavimətə baxmayaraq əsir düşür. Çox keçmədən o əsirlikdən qaçaraq Pistoya şəhərinin Montano dağındakı kiçik partizan qrupuna

qoşulur.

Məmməd Bağırov 1944-cü ilin sentyabrında İtaliyada Umberto Fantaççi adına beynəlmiləl partizan dəstəsi tərkibində faşizmə qarşı mübarizə aparmışdır. İtaliya müqavimət hərəkatı sıralarında şöhrətli partizan həyatı belə başlandı. İtaliya partizanları Məmməd Bağırovun başına gəlmiş müsibəti diqqətlə dinlədilər, onu öz sıralarına qəbul etdilər. Həmin dəstədə 20 millətin nümayəndəsi mübarizə aparırdı və onlar İtaliyanın Piston şəhərini faşistlərdən azad etmişdi. Bu zaman kiçik partizan qrupları Harribaldi adına briqadada birləşdirildi. Məmməd İtaliyanın cənubunda daha qızğın döyüşlər gedən yerlərə yollanaraq, əvvəlcə Boloniyaya Matteotti dəstəsinə, sonra isə Montano dağında məskən salmış Ubaldo Fantaççi partizan qrupuna qoşulmuşdur. Məmməd Bağırovun rəssamlıq bacarığı sayəsində paraşütdən sökülmüş sap ilə bayrağın yanını haşiyələdi və üzərinə dəstənin adını tikdi. Məmməd Bağırov Ubaldo Fantaççi adına antifaşist partizan dəstəsinin şərəfini ucaltmaqdan ötrü özünü oda, alova atırdı. Pistoya şəhəri faşistlərdən azad edildikdən sonra M. Bağırov neçə-neçə qələbənin şahidinə çevrilmişdi. Həmin bayrağı M. Bağırov Moskvadakı Sovet Ordusu muzeyinə təhvil vermişdir.

Məmməd Bağırov italyan antifaşist sıralarında Florensiya, Montekatini, Pistoya, Prato şəhərlərinin azad edilməsində yaxından iştirak etdi. Ubaldo Fantaççi partizan dəstəsinin keçirdiyi əksər əməliyyatlarda M. Bağırov şücaət və igidlik nümunələri göstərdi.

1944-cü ilin sentyabr ayında alman faşistlərinin məğlubiyyətinin yaxınlaşdığı bir vaxtda Məmməd Bağırov digər sovet antifaşistləri ilə birlikdə Cənubi İtaliya, Şimali Afrika, Misir, İraq və İrandan keçməklə SSRİ-yə göndərilmişdir. Bakıya çatdıqdan dərhal sonra Moskva vilayətinin Podolsk şəhərinə aparılmış və burada əks-kəşfiyyat xidməti tərəfindən ciddi yoxlamadan keçmişdir. Yalnız bundan sonra Bakıya bir aylıq məzuniyyətə buraxılmışdır.

Müharibə qurtaranadək o, baş leytenant rütbəsində Moskva hərbi dairəsində qulluq etmişdir. Müharibə bitdikdən sonra isə bir müddət Bakı hava hücumundan müdafiə mərkəzində xidmətini davam etdirmiş, 1946-cı ildə ordudan tərxis olunmuşdur.

1976-cı ildə Pistoya şəhərində Florensiya universitetinin professoru Renato Rizalitinin "Pistoyada antifaşist müqaviməti" adlı kitabında, antifaşist hərəkatında iştirak etmiş şəxslərin siyahısı da qeyd edilmişdi. Kitabda Məmməd Səməd oğlu Bağırov haqqında demək olar ki, başqa antifaşistlərdən daha çox məlumat verilmişdi. Kitab dərc ediləndən sonra M. Bağırovun döyüş yoldaşları onu axtararaq, nəhayət, Sovet Veteranları Komitəsi vasitəsilə tapır və İtaliyaya dəvət edirlər. 1978-ci ildə Məmməd Bağırov İtaliyaya səfər edir. Səfər çərçivəsində o, döyüş yolu keçdiyi yerlərə baş çəkir. Hər yerdə təntənə ilə, hörmətlə, səmimiyyətlə qarşılanır. Həmin səfər zamanı İtaliyanın prezidenti, müqavimət hərəkatının fəallarından





6 / LA NAZIONE

CRONACA

Partigiano dell'Unione Sovietica alla cerimonia della Liberazione

Stamani in piazza della Resistenza - Saranno presenti anche operai di Krusevac - Discorso rievocativo dell'avv. Bechi

Oggi sarà ricordato il 34.o anniversario ore 10 in piazza della Resistenza, l'avv. Franco Bechi, capo gruppo del PSI in consiglio comunale, terrà un discorso rievocativo; successivamente saranno deposte corone sui monumenti ai caduti.

Il comitato unitario per la difesa delle istituzioni repubblicane, che ha indetto la manifestazione, invita tutti i cittadini a prendervi parte. Non solo un dovere civico rendere omaggio a quanti contribuirono, fino al prezzo della vita, alla dura lotta antifascista e antinazista, ma è anche un'occasione per rafforzare i legami ideali con le nostre istituzioni, per riconfermare quei valori di libertà, di democrazia, di giustizia sociale che ispirarono la lotta di liberazione e la nostra Costituzione.

Alle associazioni combattentistiche e partigiane, ai partiti politici, alle organizzazioni sindacali e sociali prenderanno parte alla manifestazione il sindaco e le autorità cittadine e degli ospiti di

L'anniversario della liberazione ricordato ad Agliana. Con il sindaco c'è il partigiano sovietico Baghiroff

(Foto Jelyl)

Məmməd Bağırov İtaliyada 1978-ci il. MATM SMF

biri olmuş Aleksandro Pertini tərəfindən qəbul edilmişdir. O, igid qəhrəmana "İtaliyanın partizanı" fəxri diplomunu təqdim etmişdir.

1978-ci ildə həmçinin Məmməd Bağırovun İtaliyanın ən yüksək hərbi mükafatı "Qızıl Ulduz" ("Harribaldi Ulduzu") ilə təltif olunması haqqında qərar qəbul olunmuşdur. 1980-ci ildə həmyerlimizə İtaliya hökuməti tərəfindən fərdi pensiya təyin olunur. Bundan başqa,1984-cü ildə igid eloğlum İtaliyanın "Şöhrət" ordeninə layiq görülür. Məmməd Bağırov İtaliya şəhərlərinin azad olunmasına həsr edilmiş 14 yubiley medalı, 2 fəxri diplom, II dərəcəli Vətən müharibəsi ordeni (SSRİ) ilə təltif edilmişdir. Qəhrəman partizan Sovet dövründə bir neçə dəfə İtaliyada səfərdə olmuşdur. Həmçinin o, Leninqrada İtaliyadan dəvət olunmuş partizan yoldaşları ilə Bakıda görüşmüşdür. Muzeydə onun İtaliyada olduğu zaman ölkə qəzetlərində dərç olunmuş məqalələr mühafizə edilir. Burada onun qəhhrəmanlığından geniş bəhs olunmuşdur.



Məmməd Bağırov 1997-ci ilin sentyabr ayının sonlarında Azərbaycan Respublikasının prezidenti, ümummilli liderimiz Heydər Əliyevin İtaliyaya rəsmi səfəri zamanı nümayəndə heyətinin tərkibində İtaliya torpağına son dəfə ayaq basdı. Səfərin gedişində M.Bağırov prezident Heydər Əliyevlə birlikdə rəsmi görüşlərdə İtaliyanın baş naziri Romano Prodi, ölkə Senatının başçısı Nikolo Mançino, Deputatlar Palatasının başçısı Luçiano Violente, Roma papası İohan Pavel, Roma şəhərinin meri Bassoliniyə təqdim olundu.

İtaliyanın baş naziri Romano Prodi ölkəsinin rəhbərliyi adından Məmməd Bağırova ikinci dünya müharibəsi zamanı İtaliya müqavimət hərəkatındakı mübariz fəaliyyətini yüksək qiymətləndirdi, ona dərin hörmət və ehtiramını ifadə etdi.

Məmməd Bağırov İtaliyanın Milli Qəhrəmanı, Qızıl Harribaldi Ulduzunun kavaleri qızıl medalla təltif edilmişdir, İtaliya partizanları Assosiasiyasının fəxri üzvüdür, İtaliya hökumətinin bir neçə yüksək mükafatlarına layiq görülmüşdür.

1943-cü ildə faşistlərin Almaniyanın Stranse əsir düşərgəsindən İtaliyanın, Triyestə, və Yuqoslaviyaya köçürdüyü sovet hərbi əsirləri içərisində Mirdaməd Seyidovun da adı yüksəklərdə çəkilir. Hələ əsirlikdə olarkən Mirdaməd Seyidov və Mehdi Hüseynzadə burada gizli antifaşist təşkilatı yaratmışdılar.


INCONTRO INTERNAZIONALE A BASOVIZZA

Pure il leggendario Ivan al raduno dei partigiani

Nel '44 compì sul Carso spericolati atti di sabotaggio

GLI ARRESTI PER TORTURE AI BR

Festa amara per la polizia

La commissione di maturità al Fermi


CARTA D'IDENTITÀ

COMUNE DI MONRUPINO

Onlar 1944-cü ilin fevralında əsirlikdən qaçaraq partizanlara qoşulmuş, İ. Qradnik adına İtalyan-yuqoslav partizan diviziyası tərkibində əlahiddə rota təşkil etmişdilər. Mirdaməd Seyidov Yuqoslaviya Xalq Azadlıq Ordusunun 11-ci korpusu qərargahı yanında Haribaldi adına xüsusi kəşfiyyat - təxribat qrupunda fəaliyyət göstərmişdir.

O, bu yüksək xidmətlərinə görə Yuqoslaviyanın "İgidliyə görə" və "Xalq qarşısında xidmətlərinə görə" ordenləri ilə təltif olunmuşdur. M. Seyidovun partizan həyatını əks etdirən bu və digər sənədlər də Milli Azərbaycanın Tarix Muzeydə mühafizə edilir.

İtaliya partizan hərəkatının qəhrəmanı eloğlumuz Tahir İsayev Qazax rayonunda Şıxlı kəndində 1922-ci ildə dünyaya göz açmışdır. Müharibə cəbhəsində




DIPLOMA
DI
MEDAGLIA GARIBALDINA

Məmməd Bağırov İtaliyada 1978-ci il. MATM SMF

Mazdokun altındakı ağır döyüşlərdə yaralanaraq əsir düşmüş və Avstriyadakı əsir düşərgəsindən böyük əziyyətlərlə İtaliyaya keçərək Berqamo şəhəri yaxınlığında partizan dəstəsinə qoşulmuşdur.

Həmyerlimiz leytenant Serafimo adı altında partizanlıq etmiş və 1945-ci ilin 25 aprelində Milan şəhərinin faşistlərdən təmizlənməsi üsyanında qəhrəmanlıq göstərmişdir. "Serafino", yəni Tahir İsayev İtaliyada 20-dən çox orden-medala layiq görülüb. Bunların arasında "Qaribaldi ulduzu", "Antonio Qramşi", "Banderi Kalori" və s. ordenləri var.



Tahir İsayev

Döyüş yoldaşları "Serafino" adını ona atası İsrafilin adına uyğun olaraq veriblər. O, "Fiamma Verdi" beynəlmiləl briqadasında italyanlar, fransızlar, ingilislər və ruslarla çiyin-çiyinə vuruşub. Həmyerlimiz leytenant Serafino Mehdi Hüseynzadə, Mirdaməd Seyidov kimi Adriatik dənizi sahillərində qəhrəmanlıq, yenilməz şücaət nümayiş etdirib.

Onun döşünü İtaliyanın ən yüksək qəhrəmanlıq rəmzləri olan "Qaribaldi ulduzu", "Antonio Qramşi", "Banderi Kalori" ordenləri, ümumən 36 orden və medal, o cümlədən İtaliyanın 12 dövlət mükafatını almışdı. 1945-ci ildən Milan şəhərinin fəxri vətəndaşı elan olunmuşdu.


Muzeydə digər partizanlarla yanaşı Yuqoslaviya partizan hərəkatının iştirakçısı Rza Orucova aid zəngin materiallar mühafizə edilir. Sənədlərdən aydın olur ki, o 1944-cü il fevral ayının əvvəllərində əsirlikdən qaçaraq, İtaliyanın şimal-şərqində olan Triyest şəhərinin ətrafında İtaliya-Yuqoslaviya partizan-kəşfiyyatçı dəstəsinə qoşulmuşdur. Rza Orucov öz xatirəsində yazır. "Burada mənə məlum oldu ki, IX İtaliya-Yuqoslaviya partizan korpusunun 31-ci diviziyasındakı İvan Qradinko adına briqadanın tərkibində Sovet vətəndaşlarından ibarət bir bölük var. Odur ki, komandanlıqdan oraya göndərilməmi xahiş etdim. Tez bir zamanda xahişim yerinə yetirildi və mən istədiyim hissəyə getdim.

Bu rus, azərbaycanlı, orta asiyalı və sloveniyalılardan ibarət bir bölük idi. Bölük isə Angel dağlarının zirvəsində yerləşən Olitsa kəndində idi. Bölüyün yerləşən Olitsa kəndinin 12-15 kilometrliyindəki Qodoviç kəndində çoxdan bəri alman faşistləri yerləşmişdi. Faşistlərin burada olması partizanlar üçün təhlükə törədirdi. Odur ki, həmin kəndin düşmənlərdən azad edilməsi bizim bölüyə həvalə olunmuşdu.

1944-cü il fevralın 18-də biz axşam həmin kəndi mühasirəyə aldıq. Buraya özümüzlə toplar da aparmışdıq. Bu isə partizan döyüşlərində nadir bir şey idi. Düşmən fəal müqavimət göstərirdi. Lakin dəstəmiz qəti hücuma keçərək düşməni

həmin kənddən çıxarmağa müvəffəq oldu" (7, s. 134).

Rza Orucova aid Muzeydə mühafizə olunan materiallarda onun və partizan yoldaşlarının qəhrəmanlıq salnaməsi haqqında dəyərli məlumatlar əldə etmək mümkündür. Ona təqdim edilmiş sənədlər arasında Yuqoslaviya Sosialist Federativ Respublikasının sədri İosip Broz Titonun imzaladığı Fərman daha çox dəyərlidir. Bu ölkənin hökumət və müharibə iştirakçıları faşizm üzərində qələbənin 20 illiyini qeyd etməyə hazırlaşarkən Yuqoslaviya xalqlarının azadlıq mübarizəsinə qoşulan xarici ölkə vətəndaşları, o cümlədən R. Orucovu tapa bilmişlər. Ona təqdim olunan fərmanda "döyüş dostumuz Rza Xalıq oğlu Orucovu təltif edirik" sözləri yazılmışdı. Bu qiymətli sənədi təhvil verərkən yaşlı partizan 26 may 1945-ci il tarixli günü yadına saldı. Yağışlı havada, təzəcə azad olunmuş Sloveniyanın paytaxtı Lubliyananın şadyanalıq edən sakinlərinə universitet eyvanından xitabən "Biz zəfər çaldıq!" deyən Broz Tito əlini yuxarıya elə qaldırdı ki, hətta çiyin örtüyü də yerə düşdü. Meydanı başdan başa tutan izdiham gurultu ilə "qələbə çaldıq!" – deyə cavab verdi (2, s. 140-141).






Muzeydə mühafizə edilən Rza Orucovun Yuqoslaviyaya 1975-ci il səfəri zamanı ona hədiyyə edilmiş Stanko Petlinin "İvan Qradnikin briqadası" kitabının ilk səhifəsində köhnə partizan yoldaşı Martin Qref-Rudinin "Briqadanı xatırlayarkən və birdə mübarizəmizdə əməllərini dəyərləndirərkən" sözləri yazılmışdı (6).

Zəngin illüstrativ materialları olan kitabın 201-ci səhifəsindəki fotoşəkil xüsusilə diqqəti çəkir. Angel dağında 1944-cü ilin martında çəkilmiş və artıq rəngi solmuş bu şəkildə İvan Qradnik adına briqadanın tərkibində olan "rus dəstəsi"nin döyüşçüləri əks edilmişdi. Altmış nəfərdən ibarət dəstədə əsasən əsirlikdən qaçan sovet əsgərləri döyüşsə də, yerli və İtaliyan partizanları da onlara qoşulmuşlar. Birinci sırada oturan doqquz azərbaycanlı arasında dördüncü R. Orucovdur. Yanında Heydər Məmmədov, Əli Əliyev, gürcüstanlı Şamil və digər həmyerliləri əyləşmişlər. Partizan dəstəyə qəhrəmanlıqla komandanlıq edən Sevastopol müdafiəçilərindən peşəkar hərbiçi Cavad Həkimlinin adı iftixarla çəkilir.

R. Orucovun muzeyə təqdim etdiyi əşyalar arasında onun Yuqoslaviyada həlak olmuş sanılan Əyyub Ələkbərovla qəfil görüşünü əks etdirən fotoşəkil də maraqlıdır. Arıq, ucaboylu Əyyub döyüşdə dəliqanlı, cəld və hünərli idi. Müxtəlif dillərdə danışan partizanlar tez-tez onun "Mən azərbaycanlı balasıyam. Koroğlu nəslindənəm" sözləri eşidilirdi.



Yuqoslaviya partizanları Rza Orucov Əyyub Ələkbərovla (MATM SMF)

İtaliya partizan hərəkatının fəal iştirakçılarından biri Cəlil Rəfiyevdir. Cəmil Rəcəbəli oğlu Rəfiyevin muzeydə mühafizə olunan kolleksiyasında 10-dən çox fotoşəkil və sənəd var. O, Matteotti adına briqadada xidmət etmişdi. Onun Muzeydə mühafizə olunan sənədləri içərisində "İtaliya Komminist Partiyası Mərkəzi komitəsinin baş katibi Polmiro Tolyatti" sözləri yazılmış sənəddə deyilir: "Partizan müharibəsi – işğalçılar qarşısında diz çökməyən bütün xalqın müharibəsidir.

Vətəni müdafiə etmək lazım gəldikdə hər bir vətəndaş qəhrəman olur. O, bilir: əgər tutulsa, onu ölüm gözləyir. Bilir ki, partizan hərəkatının yaratdığı daimi qorxulardan yaxa qurtarmaq üçün düşmən hər bir şeyə əl atır. Lakin partizanlar mübarizəni dayandırmırlar. Vətən təhlükədə olduqda, hər bir vətəndaşın həyatı vətənin ixtiyarındadır... Bu mübarizəni təşkil edə bilən və öz müstəqilliyini qoruyan xalq qələbəyə əmin olmalıdır" (6).



Cəmil Rəfiyevə verilmiş vəsiqə (MATM SMF)



Cəlil Rəfiyevin partizan hərəkatında iştirakına dair sənəd. MATM SMF

Cəmil Rəfiyevə verilmiş sənədlərin birində yazılır: "Yuxarıda göstərilən məsul şöbə bildirir ki, aşağıda qeyd edilmiş feldşer Rəfili Cəmil mərhum Rəcəbəli oğlu 10.09.1920-ci ildə Azərbaycan SSR Ordubad şəhərində anadan olmuş və 10.05.1945-ci ildə bizim partiyaya üzv yazılmışdı. Qabaqcadan cəsur Rovetta partizan təşkilatının üzvü olmaqla partiyanın tapşırığı ilə təbliğatçı vəzifəsini yerinə yetirmiş və millətçi faşistlərə qarşı bir ildən artıq vuruşmuşdur. Berqam-22.06.1945" (6).

Göründüyü kimi, Azərbaycan xalqının öz vətəninin bütövlüyü və dövlət müstəqilliyi uğrunda çoxəsrlik mübarizəsi qəhrəmanlıq nümunələri ilə doludur. Müvafiq tarixi dövrlərdə bu mübarizədə xalqımız içərisində Cavanşir, Babək, Koroğlu kimi cəngavər sərkərdələr və generallar yetişmişdir.

Azərbaycanımızın öz dövlət müstəqilliyini bərpa etməsindən (1991-ci il) sonra milli və hərbi vətənpərvərlik tərbiyəsi dövlət siyasəti səviyyəsində xüsusi əhəmiyyət kəsb edir. Gənclərimizin hərbi vətənpərvərlik hissi ruhunda tərbiyə edilməsinin mühüm istiqamətlərindən bir, də qəhrəman babalarımızın döyüş yolunu öyrətməkdən ibarətdir. Bu böyük missiyanı həyata keçirən Milli Azərbaycan Tarixi Muzeyi geniş həcmi işlər həyata keçirir. Xalqımızın qəhrəmanlıq tarixini qoruyub saxlamaqla yanaşı onu tədqiq və təbliğ edir.

İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:

1. Алиева Ругия. Азербайджанцы в Европейском движении сопротивления. Баку, Ветен, 2005.
2. Bağırov F. Azərbaycan igidləri Avropa müqavimət hərəkatında (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında). // Biz birlikdə qalib gəldik. Faşizim üzərində qələbənin 65 illiyinə həsr olunmuş məqalələr toplusu. Bakı, 2010, s. 139-148.
3. "Бакинский рабочий" qəzeti, 22 iyun 1957.
4. İsmayılov İ.Z. Azərbaycanlıların II dünya müharibəsində iştirakı. Bakı, 2000.
5. Kərimov B., Bağırov F. Azərbaycan legionu: əsirlik faciəsi, yaxud şüurlu seçim?. Azərbaycan Tarixi Muzeyi 2007. Bakı, Elm, 2007, s.218-228.
6. Milli Azərbaycan Tarixi Muzeyi Sənədli mənbələr fondu.
7. Nəzirli Ş. Ə. Əfsanəvi Mixaylo. Bakı, 2013.
8. Səfərova Rəna. Onunla fəxr edirik. // Biz birlikdə qalib gəldik. Faşizim üzərində qələbənin 65 illiyinə həsr olunmuş məqalələr toplusu. Bakı, 2010, s. 175-180.
9. http://www.azadliq.org/content/article/1196577.html

Бахман Керимов

Об участии азербайджанцев в партизанском движении Италии и Югославии в период Второй Мировой Войны

Ключевые слова: *Азербайджан, Вторая Мировая Война, партизанское движение*

Любящий свою родину каждый гражданин живет и творит этим сознанием. С этой точки зрения Национальный Музей Истории Азербайджана пропагандирующий героическую историю доводит это до растущего молодого поколения. В отечественной историографии были написаны ценные произведения об участии Азербайджанского народа как во фронте и в тылу, так и участие против фашистского движения. Чтобы выставлять эти героические подвиги в экспозиции и выставках работники музея попытались собрать, со-

хранить в музейных фондах и пропагандировать разные ценные документы и вещественные материалы.

В статье на основе музейных материалах периода Второй Мировой Войны исследуются героические подвиги Мехти Гусейнзаде, Рза Агазаде, Микаила Гулубекова, Мирдамеда Сеидова, Джавада Хекимли, Анвера Мамедова, Мамеда Багирова, Тахира Исаева, Рза Оруджева, Эйюба Алекберова, Джалила Рафиева и др. которые участвовали в партизанском движении Италии и Югославии.

Bahman Kerimov
On the participation of Azerbaijanis in the partisan movement in Italy and Yugoslavia during the Second World War

Keywords: *Azerbaijan, World War II, the guerrilla movement*

He who loves his homeland every citizen lives and creates this consciousness. From this perspective, the National Museum of History of Azerbaijan promotes heroic story brings it up to the growing younger generation. In Soviet historiography were written valuable works on the participation of the Azerbaijani people both in front and in the rear, and the participation against the fascist movement. To put these heroic feats in the exposition and exhibitions museum staff tried to collect, preserve in museum collections and to promote various valuable documents and physical materials.

On the basis of museum material during World War II explores the heroic exploits of Mehdi Huseynzade, Reza Aghazadeh, Mikail Gulubekova, Mirdameda Seidov, Javad Hekimli, Anver Mammadov Mammad Bagirov, Tahir Isayev, Reza Orujov Eyyuba Alakbarov, Jalil Rafieva et al. Who participated in the partisan movement in Italy and Yugoslavia.

Инна Костина

Врачи-азербайджанцы на фронте и в тылу

Ключевые слова: *Вторая мировая война, врачи, госпиталя, партизаны, ученые*

UOT 94 (479.24)

Вторая мировая война, начавшаяся в 1939 году и длившаяся 6 лет, стала оной из наиболее разрушительных и кровопролитных из всех битв в истории человечества. В этой войне приняло участие 61 государство мира. В армии воюющих стран было призвано 110 миллионов человек.

Летом 1941 года фашистская Германия напала на Советский Союз. В войне с фашизмом решалась судьба и нашей Республики, так как в планах Германии особое место занимал Азербайджан – нефтяной Баку, имеющий важное стратегическое, военное и геополитическое значение. Сыны и дочери Азербайджана наравне с представителями народов Советского Союза героически сражались на полях этой великой войны. Об этом свидетельствует славный боевой путь 416-ой, 223-й и других национальных дивизий, подвиги азербайджанцев, воевавших в других воинских подразделениях и партизанских отрядах. Из более 700 тысяч человек, отправившихся на фронт из нашей Республики, более 350 тысяч не вернулись домой.

Немало славных женщин и девушек Азербайджана служили во всех родах войск. Среди них были разведчицы и переводчицы, связистки и десантники, лётчицы, врачи и медсёстры. Азербайджанские девушки прошли трудный путь, закалялись в боях за освобождение Северного Кавказа, Украины, под Москвой и Смоленском, освобождали Таганрог и ряд стран Европы, где приобретали большой опыт и боевые навыки.

Лейтенант медицинской службы из 416-й стрелковой дивизии Пакиза Ягуб кызы Манафова прошла по дорогам войны трудный путь со своими боевыми товарищами. Ей приходилось под градом пуль и снарядов на своих плечах перетаскивать раненых, оказывая им необходимую помощь. Во время налёта вражеской авиации в районе города Азов Пакиза погибла, когда добровольно

помогала в обеспечении хлебом действующей части.

В Национальном Музее Истории Азербайджана хранятся вещи фронтовички 416-ой Таганрогской стрелковой дивизии, младшего лейтенанта медицинской службы Джанет Кязимовой, которая прошла нелёгкий боевой путь от Кавказа до Берлина вместе со своими однополчанами в борьбе с фашистскими захватчиками. Вещи, сданные в Музей Джанет Кязимовой, являются наглядными свидетельствами военных будней солдат и медперсонала Советской Армии.

Эти предметы – фотография Д.Кязимовой в военной форме 1943 года., эвакуационный лист, военная брезентовая плащ-палатка – находятся в фонде подарков и памятных вещей (10).

Ветераны-фронтовики – врач Сакина Алиева и полковник Р.Алиев бок о бок прошли по дорогам войны и встретили Победу в поверженном Берлине.

Этот факт зафиксирован на фотографиях, хранящихся в ФППВ.

Одна из них – день Победы 1945 года, где изображены счастливые молодые люди, которые в этом городе соединили свои судьбы. На другой фотографии запечатлены супруги Алиевы, снятые 30 лет спустя, вернувшиеся в те места, где они встретили Победу. Среди материалов хранятся – стерилизатор и карманный нож (медицинский) тех времён (11).

Речь пойдёт о юной девятнадцатилетней студентке Ленинградского медицинского института Шурии Али-заде, которую война застала в Ялте, где проходили спортивные состязания юношеской сборной Ленинграда и Шурия заняла в плавании второе место, а по стрельбе – третье.

Начало войны, 22 июня, на рассвете, первые бомбы фашистов упали на Севастополь, затем стали бомбить всё Черноморское побережье. Шурия, как и все девушки по соревнованию, направилась в Ялтинский военкомат, где после короткого инструктажа её, как «медичку» направили на госпитальное судно «Молдавия». Рейс за рейсом это судно вывозило раненых из осаждённой Одессы на «большую землю». В октябре 1941 года шли ожесточённые бои за этот город. Под прицельным огнём противника прямо с поля боя вывозили раненых. На судне были опознавательные знаки – красные кресты, которые являлись для фашистов яркой мишенью. Через некоторое время каюты судна были изрешечены вражескими снарядами и пулями. Некоторых раненых располагали прямо на палубе, где при налёте фашистов расстреливали раненых в упор. Красные кресты были замазаны, по бортам судна установили зенитки, и все кто умел держать в руках оружие – медики, раненые солдаты – отстреливались от врагов.

7 октября 1941 года группа вражеских бомбардировщиков атаковала судно «Молдавия». Одна из бомб попала в машинное отделение. Корабль дал течь

и стал тонуть. Легкораненые прыгали в воду и плыли к военным катерам. Тяжелораненых привязывали к носилкам и опускали в воду и держались они на плаву в ожидании помощи. После того, когда не осталось ни одного раненого, Шурия готовилась спуститься в шлюпку, но взрывной волной её выбросило за борт. Смерть миновало Шурию. Её спас старшина первой статьи с корабля «Безупречный» Геннадий Веселов. На этом корабле нашли приют большинство раненых с судна «Молдавия».

Военврач Шурия Али-заде после лечения в госпитале Севастополя, была направлена в 9-ю бригаду морской пехоты, где вместе со своими однополчанами участвовала в боях за Керчь, Севастополь, Новороссийск, Туапсе.

На Керченском полуострове в Аджимушкайских каменоломнях, в условиях подземной темноты и сырости, отсутствия воды и медикаментов, Шурия вместе со своими братьями по оружию сопротивлялась врагу, проявляла удивительную стойкость и отвагу.

Под новый 1942 год десантники и партизаны освободили оставшихся в живых. Оттуда Шурия вышла поседевшей, а её мать в это время получила «похоронку».

Жестокие бои были под Джанкоем, где Шурия сражалась в Отдельном 4-ом батальоне морской пехоты. Только из одного боя Шурия вынесла около двадцати раненых. Последний был особенно тяжёлым и чтобы убедиться в том, жив ли солдат, Шурия расстегнула китель послушать сердце и увидела медальон, где выбито на немецком языке: «Адольф Гитлер». Немец застонал, он еще живой и она с трудом дотащила раненного до траншеи… Рядом заметила медицинскую сумку и убитую медсестру. Когда она перекладывала из сумки медикаменты, сзади послышался топот и автоматная очередь, оглянувшись, она увидела белобрысого немца, который в упор добивал раненых. Вскрикнув, фашист обернулся, он не успел в неё выстрелить. Встретившись с ним взглядом, Шурия плеснула ему в глаза йодом. Немец схватился за лицо, каска упала, и она изо всех сил била каской по лицу, по голове, плакала, выкрикивая страшные проклятия. Подоспевшие матросы буквально вырвали немца из цепких рук девушки.

Так всю войну, не щадя своей жизни, прошла военврач флота Шурия Алиевна Али-заде. За мужество и самоотверженность в борьбе с немецкими захватчиками она была награждена двумя орденами Отечественной войны первой степени, орденом Красной Звезды, медалью «За боевые заслуги» и др. (1).

Дочь Азербайджана из города Шеки Дюрра Аббас кызы Мамедова в 1940 году окончила Бакинский фармацевтический техникум и была направлена в родной город на должность заведующей местной аптеки. Она считала

профессию важной и благородной, получать исцеляющие недуги лекарства, для жителей окрестных сёл.

Но страшная весть о нападении гитлеровской Германии всё изменило. Дюрра решила обратиться в военкомат, откуда её добровольцем направили в Новороссийский военно-морской госпиталь и там она приняла боевое крещение.

Дюрре часто приходилось смотреть в угасающие глаза раненых. Каждая смерть в её сердце отзывалась острой болью. Она никак не могла примириться с тем, каких молодых замечательных людей уносит война. Когда Дюрра оставалась наедине с собой, она не могла сдерживать слёз, только бы их не видели раненые. Дюрру любили за её большое сердце, ведь она всегда понимала, что именно сейчас, тот или иной раненый нуждается в её помощи. Одного перевязать, другому дать глоток воды, третьего где-то подбодрить ласковым словом, а кому-то помочь написать весточку домой. Она никогда не сможет забыть молоденького солдата с вытянутыми перед собой руками, будто пытается что-то отыскать: «Сестрица, я ничего не вижу» – шептал он. Дюрра знала, что он потерял зрение навсегда, но её долг успокоить его. «Потерпи, братишка». Солдат кивает головой и затихает…

Когда Дюрру перевели в санитарный склад Новороссийской военно-морской базы, ей пришлось только поспевать доставлять медикаменты, перевязочные материалы, медицинское имущество на корабли, подводные лодки, авиаторам, в подразделения, оборонявшие город. В любое время могла оборваться ниточка, связывающая её с жизнью, под бомбежками и артобстрелами, где Дюрра не раз мысленно прощалась со своим родным Шеки. Но в этом она никогда не признавалась.

В письмах, приходивших домой, она писала: «Во имя разгрома фашистов я хочу быть там, где труднее».

Дюрра любила жизнь и страстно верила в грядущую победу, вселяла эту веру и в других. И куда не заносила её фронтовая судьба, она была бессменным вожаком молодёжи.

Все эти годы Дюрра прошла нелёгкую фронтовую службу в госпитале и медицинских подразделениях Черноморского флота и только на исходе войны перевели её в части береговой обороны, где она и встретила День Победы.

Фронтовой путь Дюрры отмечен орденами Отечественной войны, Красной Звезды, многими медалями, двумя Почётными грамотами Верховного Совета Азербайджана, значком «Отличник здравоохранения» и почётным знаком Комитета ветеранов войны (2).

Дюрре Аббас кызы Мамедовой также присвоено звание «Заслуженный работник здравоохранения Азербайджанской Республики».

Военврач, хирург Джаваир Рзаева, ушла добровольцем на фронт из родного Шеки. Она боролась за жизнь раненых, как свидетельствуют её боевые награды, на германском и японском фронтах (3).

Невозможно не упомянуть ещё об одной отважной дочери Азербайджана – Салиме Ализаде, которая отправив брата, а затем и мужа на фронт, вскоре подала заявление в военкомат и добровольцем вместе со своей шестидесятилетней матерью ушла на фронт, где обе участвовали в сражении за Керчь. Затем они вернулись в Баку, работая в военном госпитале. Но её не удовлетворяла эта работа. Она рвалась на фронт и уже через некоторое время Салима с матерью сражались в 335-ой стрелковой дивизии под Сталинградом.

В 1943 году за боевые заслуги она была награждена орденом Красной Звезды. А в 1944 году уже в звании капитана вместе со своей частью Салима Ализаде дошла до Польши, помогала излечивать случайно оставшихся в живых людей в фашистском концлагере Майданек. День Победы она встретила вместе с матерью в Берлине.

Немало подвигов совершили медсестры, которые, не успев закончить учёбу, уже сражались с фашизмом.

Одной из славных участниц обороны Севастополя, в составе 7-ой бригады морской пехоты была Асмер Гасанова, пришедшая сюда прямо из Бакинского медицинского техникума. За свой труд она была награждена значком «Отличник Военно-Морского Флота», боевыми медалями.

Бессмертным стал подвиг отважной медсестры Лейлы Сафаровой. С огненной линии она спасла 13 красноармейцев, погибла, прикрыв последнего из них от вражеских пуль своим телом.

Стоит отметить храбрость двух подруг – медсестер-добровольцев – Фируш Мамедалиеву и Софию Султанову, которые сражались под Сталинградом, Харьковом, Полтавой, Киевом, Саратовом и в других местах, спасли сотни солдатских жизней. Спасая жизнь солдата Фируш получила ранение в ногу и контузию, однако она находила в себе силы и продолжала исполнять свой долг. За проявленную доблесть Фируш Мамедалиева получила ряд наград и благодарностей от командования (7).

Хочется сказать о судьбе ещё одной отважной дочери Азербайджана, враче-партизанки Алии Рустамбековой.

Родилась Алия в Шуше, среднюю школу окончила в Баку, медицинский институт – в Ленинграде. Вначале работала врачом в Узбекистане, на Чирчикстрое, затем в Москве, у профессора М.С.Вовси, где война ворвалась в её жизнь – и Алия ушла на фронт.

Начались фронтовые дороги: финский – 1939 год, можайский – лето 1941 год, подмосковный – зима 1941 года. Там, в бою с врагом Алия попала в плен,

но вскоре ей удалось бежать оттуда, в труднопроходимые смоленские леса. В 1942 году азербайджанская патриотка – врач Алия Рустамбекова находилась в рядах смоленских партизан, оказывая медицинскую помощь раненым и которая не раз с оружием в руках участвовала в боевых операциях. Партизанский отряд «Дедушка», которым командовал Силантьев, перекочевывал в лесных гущах под Смоленском, уничтожая на своем пути врага.

Дальнейшую судьбу Алии Рустамбековой нам расскажут материалы, хранящиеся в Фонде документальных источников Национального Музея Истории Азербайджана. Это пожелтевшие, исписанные выцветшими от времени чернилами листки писем дяди А.Рустамбековой – действительного члена Академии медицинских наук СССР, крупнейшего специалиста по инфекционным болезням Михаила Дмитриевича Тушинского к своей сестре, профессору Махбубе ханум Махмудбековой урожденной Мехмандаровой.

Эти весточки шли в Баку из блокированного Ленинграда, где в это тяжёлое военное время М.Тушинский был главным терапевтом осаждённого города.

Почти в каждом письме, в каждой карточке вопрос: «Где-то Алия? Что с нею? …А Алия? Что-то с Алией?...Как там Алия?...Об Алиеи нет ничего…»

М. Тушинский наводит справки, ищет врача Рустамбекову, свою любимую племянницу, осведомляясь у знакомых врачей и профессоров, ужасаясь навязчивой мысли о её гибели, тщетно пытаясь найти спустя три года после исчезновения, в конце войны, даже в 50-е годы надеясь ещё на обнадёживающее известие.

27 сентября 1942 года «…Об Але нет ничего…Нет писем, нет её имени в списке награждённых партизан…С ужасом прочел в одном сообщении Информационного бюро, что немцы уничтожили в каком-то районе Смоленской области несколько селений…» (16).

Maddi mədəniyyət nümunələrinin qəbulunun həyata keçirilməsində digər məqsəd isə muzeydən kənarda qalaraq tamamilə məhvolma təhlükəsi ilə üzləşən əşyaları fondlarda mühafizə etməkdir (4, s. 145). Çünki bəzən muzeydən, eləcə də maddi mədəni irsin qorunması üzrə ixtisaslaşmış digər qurumlardan kənarda qalan maddi mədəniyyət nümunələri həm təbii, həm də antropogen təsirlərdən ya tamamilə, ya da qismən məhv olmaq təhlükəsi ilə üz-üzə qalırlar. Ən təhlükəlisi isə odur ki, Azərbaycanın qədim və zəngin mədəniyyətini təmsil edən bu və ya digər nümunə qeyri-qanuni yollarla ölkə hüdudlarından kənara çıxarılaraq şəxsi kolleksiyalara və muzeylərə satılması, sonra da erməni və ya qeyri-Azərbaycan maddi mədəniyyət nümunəsi kimi təqdim olunmasıdır. Bu acı təcrübə hazırda da mövcuddur. Ona görə

də maddi mədəni irsimizin qorunması baxımından Muzey tarixi və elmi əhəmiyyət kəsb edən hər bir maddi mədəniyyət nümunəsinə, o cümlədən arxeoloji və təsadüfi tapıntıya böyük önəm verir, onların qəbuluna həssaslıqla yanaşır. Sevindirici məqamlardan biri də Muzeyin Bərpa laboratoriyasına malik olmasıdır. Məhz bu laboratoriyada ixtisaslı və təcrübəli bərpaçı-rəssamlar tərəfindən məhv olmaq təhlükəsi ilə üz-üzə qalmış yüzlərlə maddi mədəniyyət nümunəsinə ikinci həyat bəxş edilir.

İstisna deyil ki, qəbul edilmiş maddi mədəniyyət nümunələrinin bir qismi həm də əşyavi mənbə qismində mədəni-tarixi irsimizin öyrənilməsi üçün elmi tədqiqatlara cəlb oluna bilər. Bu baxımdan Azərbaycanın qabaqcıl elmi-mədəni müəssisələrindən olan Milli Azərbaycan Tarixi Muzeyi tərəfindən yeni materialların cəlb olunması təsadüfi sayılmamalıdır. 2014-cü il tapıntıları arasında da tarixi-arxeoloji araşdırmalar üçün əşyavi mənbə rolunu oynaya biləcək nümunələr var. Məhz bu baxımdan həmin nümunələrin ilkin araşdırılmasını və elmi dövriyyəyə gətirilməsini əsas məqsəd kimi qarşımıza qoymuşuq. Mövzunun aktuallığını isə 2014-cü ildə qəbul olunmuş maddi mədəniyyət nümunələrinin elmi ictimaiyyətimizə naməlum olması şərtləndirir. Tədqiqatın xronoloji çərçivəsi isə qəbul edilmiş tapıntıların dövrünə uyğun olaraq e.ə. VI-I minillikləri əhatə edir.

Beləliklə, 2014-cü ildə Milli Azərbaycan Tarixi Muzeyinə daxil olan maddi mədəniyyət nümunələrinin bir qrupunu arxeoloji tapıntılar təşkil edir. Həmin tapıntıların bir qismi "Qarabağ neolit-eneolit arxeoloji ekspedisiyası" tərəfindən 2012-2014-cü illərdə aparılmış arxeoloji qazıntılar və kəşfiyyat səfərləri zamanı əldə edilmiş maddi mədəniyyət nümunələridir. Muzeyin Tarixi Əşyaların Fond-Satınalma komissiyası (bundan sonra - Muzey komissiyası) "Qarabağ neolit-eneolit arxeoloji ekspedisiyası"ndan hədiyyə olaraq qəbul etdiyi həmin materialların 2013-cü il tapıntılarını təşkil edən nümunələrini 13 may 2014-cü il tarixli, 71 №-li aktla Arxeologiya fonduna (bundan sonra - AF) təhvil verilməsini məqsədəyğun hesab etmişdir. Ümumi sayı 2 ədəd olan həmin Qarabağ tapıntıları Muzeyin Daxilolma kitabına DK № 12291 qeydiyyat nömrəsi ilə daxil edilmişlər. AF-ə daxil olduqdan sonra onlara müvafiq inventar nömrələri verilmiş, elektron pasportları tərtib edilmiş və qablaşdırılaraq ekspozisiyaya təhvil verilmişlər. AF-ə daimi mühafizə üçün daxil olmuş 2013-cü il Qarabağ tapıntıları aşağıdakılardan ibarətdir:

1.Gil küp (AF 23940) (şəkil 1). Gilinə saman əlavə olunub, açıq narıncı rəngdədir. Yaxşı bişirilməmişdir. Xarici və daxili səthi gili rəngdə olub, qismən şüyrələnmişdir. Oturacağında novalçanı xatırladan lüləyi var. Küp Muzeyə təhvil verilərkən tamamilə fraqmentlərdən ibarət olsa da, lakin sonradan qısa müddət ərzində Muzeyin Bərpa laboratoriyasında bərpa edilərək bütöv hala salınmışdır. Küpün hündürlüyü 42, ağzının diametri 44, gövdəsinin diametri 53, oturacağının diametri isə 34 sm-dir. Qabın formasına əsasən güman olunur ki, ondan saxlanc

kimi və ya maye tərkibli qidaların süzülməsində, eləcə də süd məhsullarının hazırlanmasında, meyvə şirələrinin çıxarılmasında istifadə olunmuşdur. Oxşar nümunələrə həmin abidənin 2012-ci il qazıntıları zamanı da təsadüf olunmuşdur. Onlardan biri haqqında aşağıda geniş məlumat verilib. Bu tapıntı e.ə. VI minilliyə aid olub, İsmayılbəytəpə abidəsində aparılan arxeoloji qazıntılar zamanı aşkar olunmuşdu. Bu yayayış yeri Ağdam rayonu Xındırıstan kəndinin şimal-şərqində, Quzanlı-Xındırıstan şosse yolundan 250 m qərbdə yerləşir (Şm 400 08I 09.2II; Şq 0470 07I 48.8II; h-119 m). Diametri 100, hündürlüyü isə 4 m olan bu təpə formalı yaşayış yerinin şərq, cənub və qərb hissələrini su arxları kəsir. 2010-cu ildə İsmayılbəytəpə yaşayış yeri elektron şəkildə qeydiyyata alınaraq xəritələşdirilmişdir. 2012-ci ildə yaşayış yerində topoqrafik ölçü işləri aparılaraq, onun topoplanı tərtib edilmiş və şərq yamacında 200 kv m ərazini əhatə edan 2 kvadratdan ibarət arxeoloji qazıntı sahəsi qoyulmuşdu (1, s. 75, 78). Haqqında bəhs olunan küp İsmayılbəytəpə yaşayış yerindəki qazıntı sahəsinin 2A və 2B kvadratlarının hüdudlarında, 9 nömrəli tikili qalığından, 1,87 m dərinlikdən aşkar olunub.

2.Saxsı badya (AF 23939) (şəkil 2). Badyanın gilinə saman əlavə edilib. Bozumtul narıncı rəngdədir. Hər iki səthi narıncı rəngdə olub, hamardır. Düz oturacaqlıdır. Daxili və xarici səthində paralel üfüqi xətlər var. Formasına görə ehtimal etmək olar ki, qab əldə hazırlanmış, fırlanan alətdə hamarlanmışdı. Qabın hündürlüyü 14, ağzının diametri 17, gövdəsinin diametri 17, oturacağının diametri isə 8,5 sm-dir. Bu tapıntı 2013-cü ildə Ağdam rayonunun Ayaq Qərvənd kəndi yaxınlığındakı Fərmantəpə abidəsində aparılan kəşfiyyat qazıntısı zamanı 0,55-0,60 m dərinlikdən aşkar olunmuşdu.

Məlumat üçün bildirək ki, genetik baxımdan Leylatəpə mədəniyyətinə aid olan Fərmantəpə yaşayış yeri qədim çay yatağının sahilində yerləşir (şm 400 11I 09.7II; şq 0470 06I 41.3II; h-113 m). Onun cənub hissəsi Sultanbud meşəsilə sərhədlənir. Yayayış yerinin yerləşdiyi təpənin hündürlüyü 5 m, sahəsi 2,5 ha-dan çoxdur. Təpənin səthindən toplanılmış saxsı nümunələrinin tərkibinə bitki qatışığı və qeyri-üzvi əlavələr qatılmış gildən hazırlanmış, əsasən əldə, qismən isə dulus çarxında formalaşdırılmış və yüksək temperaturda bişirilmişdir. Saxsı qabların dulus çarxında formalaşdırılmasını 2013-cü ildə abidədə başlanılmış qazıntılar zamanı daş çarx fraqmentlərinin tapılması da deməyə əsas verir (2, s. 24; 3, s. 47). Bu baxımdan təqdim olunan bu saxsı qab da tərkibinə və hazırlanma texnikasına görə istisna təşkil etmir. Həm bu, həm də tapılmış digər maddi mədəniyyət nümunələrinin müqayisəli təhlili əsasında Fərmantəpə yaşayış yeri e.ə. IV minilliyin ikincin yarısına aid edilmişdi (1, s. 81).

Muzey komissiyasının yuxarıda adı çəkilən ekspedisiyadan hədiyyə olaraq qəbul etdiyi materialların qalan hissəsini 26 dekabr 2014-cü il tarixli, 108 №-li aktla AF-ə təhvil verilməsini məqsədəyğun hesab etmişdir. Ümumi sayı 71 ədəd olan həmin

Qarabağ tapıntıları Muzeyin Daxilolma kitabına DK № 12327 qeydiyyat nömrəsi ilə daxil edilmişlər. AF-ə daimi mühafizə üçün daxil olmuş arxeoloji materialların bir ədədi 2012, 70 ədədi isə 2014-cü il tapıntılarından ibarətdir:

1.Gil küp (AF 23936) (şəkil 3). Küpün gilinə saman əlavə olunub, açıq narıncı rəngdədir. Yaxşı bişirilməmişdir. Xarici və daxili səthi gili rəngdə olub, qismən şüyrələnmişdir. Qabın ağzı enli olub, oturacağa doğru daralır. Oturacağında novalçanı xatırladan lüləyi var. Küpün hündürlüyü 40, ağzının diametri 44,5, oturacağının diametri isə 22 sm-dir. E.ə. VI minilliyin əvvəllərinə aid olunan bu material 2012-ci ildə İsmayılbəytəpə abidəsindən tapılıb. Qab elə həmin ildə qazıntısına başlanılmış 1A kvadratındakı 1 saylı dairəvi planlı tikili qalığının daxili hissəsi təmizlənərkən şimal tərəfində, 132 sm dərinlikdə aşkarlanmışdır (1, s. 75).

2.Təsərrüfat küpü (AF 23937) (şəkil 4). Küpün gilinə saman əlavə olunub, açıq narıncı rəngdədir. Yaxşı bişirilməmişdir. Xarici və daxili səthi gili rəngdə olub, qismən şüyrələnmişdir. Divarları qalındır. Gövdədən yuxarı mövcud deyil. Oturacağa doğru daralır. Hər iki səthi sayadır. Tapıntının ağzının diametri 52, gövdəsinin diametri 70, oturacağının diametri isə 25 sm-dir. Hündürlüyü 77 sm olsa da, lakin natamamdır. Qab qazıntı sahəsinin 2B kvadratındakı 15 nömrəli tikili qalığından, 3,25 m dərinlikdən tapılıb. Qab Muzeyə təhvil verilərkən fraqmentlərdən ibarət idi. Lakin Muzeyin Bərpa laboratoriyasında təcrübəli bərpaçı-rəssamlar tərəfindən tamamilə fraqmentlərdən ibarət həmin qab bir neçə aya bərpa edilmişdir.

3.Gil sapand daşları (AF 23938) (şəkil 5). Ümumi sayları 66 ədəd olan bu daşların gilləri boz rəngdədir. Bəzilərinin gili təmiz, digərlərinin isə samanlıdır. Ölçüləri müxtəlif olub, formalarına görə əksər hissəsi kürə, az bir qismi isə bikonuk şəkillidir. Əldə hazırlanmışlar. Diametrləri 9-3, uzunluqları (yalnız bikoniklərin) isə 9,5-4,5 sm arasında dəyişir. Gil daşlar qazıntı sahəsinin bütün 1A, 2A və 2B kvadratlarının 2,99-5,02 m dərinliklərindən tapılıb. Tapıntılar ölçülərinə və quruluşlarına görə 3 qrupa bölünmüşdür. Birinci qrupu təşkil edan sapand daşları öz ölçüləri və çəkisinə görə indiyə kimi bütün həmdövr abidələrdən aşkar edilmiş nümunələrdən fərqlənir. Kürə şəklində olan bu sapand daşları samansız palçıqdan hazırlanmış, diametrləri 8-13 sm, çəkiləri isə 150-400 qr arasında dəyisir. İkinci qrup sapand daşları isə öz formalarına görə bikonik olub, limonu xatırladırlar. Onların uzunluqları 7-9, diametrləri isə 4-5 sm-dir. Çəkiləri 150-240 qr-dır. Üçüncü qrup sapand daşları da bikonik olub, lakin kiçikliyinə görə qozu xatırladırlar. Onların uzunluqları 2-3, diametrləri isə 1,2-1,7 sm arasında dəyişir. Çəkiləri 40-75 q arasında dəyişən bu qrup sapand daşları Muğan, Mil-Qarabağın həmdövr abidələrindən məlumdur. Birinci və ikinci qrup sapand daşlarına həmdövr abidələr içərisində ancaq İsmayılbəytəpə yaşayış yerinin qazıntılarında təsadüf edildiyl üçün onlar "İsmayılbəytəpə tipli sapand daşları" adlandırılmışdır (2, s. 23). Onlardan 51 ədədi Muzeyin Bərpa laboratoriyasında konservasiya olunmuşlar.

4.Çiy kərpic (AF 23935) (şəkil 6). Gili boz rəngdədir. Ovalvari dördkünc formadadır. Əl ilə hazırlanmışdır. Səthi sayadır. Kərpicin hündürlüyü 14, uzunluğu 37, eni isə 19 sm-dir.

5.Çiy kərpic hissələri (2 ədəd) (AF 23935). Tapıntıların gili boz, yarıbişmiş kərpicin gili isə qırmızımtıl rəngdədir. Ovalvari dördkünc formadadırlar. Əl ilə hazırlanmışlar. Səthləri sayadır. Hündürlükləri 13-11, uzunluqları 29-20,5, enləri isə 20-17 sm arasında dəyişir. Bütün kərpiclər 2B kvadratındakı 15 nömrəli tikili qalığından, 2,30 m dərinlikdən götürülüb.

2014-cü ildə AF-ə qəbul edilmiş biri bütöv, ikisi isə natamam olmaqla bu üç ədəd kərpic nümunəsi neolit-eneolit dövrlərinin tikinti texnikasını əks etdirmək baxımından xüsusi əhəmiyyət kəsb edirlər. İndiyə kimi onlarla neolit-eneolit dövrü abidəsində arxeoloji tədqiqatlar aparılmasına baxmayaraq Muzey fondu bu qəbildən olan tapıntıya malik deyildi. Sevindirici haldır ki, bu boşluq məhz İsmayılbəytəpə tapıntıları hesabına doldurulmuşdur. Çünki, bu abidədə müşahidə olunan memarlıq və inşaat texnikası özünəməxsus xüsusiyyətlərinə və möhtəşəmliyinə görə digər həmdövr abidələrindən əsaslı şəkildə fərqlənir. 2012-2014-cü illərin qazıntı mövsümlərində 8 tikinti qalığı aşkar edilmişdir. Bunlar dairəvi və düzbucaqlı planlı çiy kərpicdən inşa edilmiş tikililərdir. Tikinti üçün istifadə edilmiş kərpiclər standart ölçü və quruluşa malik olmasalar da o zamankı bənnalar bağlama, arakəsmə kimi çətin memarlıq texnikasını evlərin tikintisində tətbiq etmişdilər. Tikinti zamanı təbii amillər nəzərə alınaraq evlərin girişləri şərq istiqamətində qoyulmus, divarların qərb və şimal hissələri nəzərəçarpacaq ölçüdə qalın inşa edilmişdir (1, s. 77). Evlərin divarlarının eni 0,5-1,4 m arasında dəyişir. Aşkar edilmiş tikili qalıqlarından birinin hündürlüyü 1,9 m-dir (2, s. 22-23).

Sonuncu 71 ədəd material isə "Qarabağ neolit-eneolit arxeoloji ekspedisiyası"nın yenə də Ağdam rayonunun Xındırıstan kəndi yaxınlığındakı İsmayılbəytəpə abidəsində 2014-cü ildə apardığı arxeoloji qazıntılar zamanı aşkar olunub. Bütün materiallar e.ə. VI minilliyin birinci yarısına aiddir.

Qarabağın arxeoloji irsinin təbliği məqsədilə yuxarıda göstərilən 2014-cü ildə fonda daxil olmuş Qarabağ tapıntılarından 18 ədəd nümunə müvəqqəti nümayiş üçün ekspozisiyaya təhvil verilmişlər. Ekspozisiyanın 7-ci vitrininə qoyulmuş həmin nümunələr təsərrüfat küpündən, badyadan, 14 ədəd gil sapand daşından və 2 ədəd çiy kərpicdən ibarətdir. Həmin eksponatlar Muzey tamaşaçılarında Qarabağın neolit-eneolit dövrü əhalisinin təsərrüfatı, məişəti, memarlığı və mədəni əlaqələri haqda müəyyən təsəvvürlər formalaşdırır.

2014-cü ildə AF-ə daxil olmuş materialların digər qrupunu təsadüfi tapıntılar təşkil edir. Təsadüfi tapıntıların bir hissəsi Kəlbəcər rayonu Keştək kənd sakini Əmiraslanov Ələmdar Nəriman oğlu tərəfindən təqdim edilmişdir. Onun Muzey komissiyasına təqdim etdiyi tapıntılar 5 ədəd müxtəlif təyinatlı qədim əşyadan

ibarətdir. Daşkəsən rayonunun Zəylik kəndində təsərrüfat işləri zamanı daş qutu qəbirdən aşkar olunmuş həmin əşyalar Muzeyin Daxilolma kitabına DK № 12323 qeydiyyat nömrəsi ilə daxil edilmiş və sonra 15.12.2014-cü il tarixli 104 №-li aktla daimi mühafizə üçün AF-ə təhvil verilmişdir. Həmin tapıntılar aşağıdakılardan ibarətdir:

1.Saxsı küp (AF 23978) (şəkil 7). Küpün gili yaxşı bişirilmiş və qəhvəyi rəng almışdı. Gövdəsinin aşağı hissələri isə qara rəngdədir. Gövdəsi konusvaridir. Boğazı bir qədər hündür və dardır. Ağzının kənarları xaricə doğru qatlanmış, dodaqlıdır. Gövdənin çiyin hissəsi ilə boğazı birləşdirən dörd qulpu olmuş, lakin onlardan üçü sınmışdı. Salamat qalmış qulp qalın lentşəkillidir. Çiyin hissədə qulplar arasında dairəvi xətboyu yapma nöqtələr verilmişdi. Gövdənin ortasında isə onu əhatə edən üfüqi vəziyyətdə cızma xətt salınıb. Oturacağı çox kiçik və düzdür. Qabın hündürlüyü 31, ağzının diametri 12, gövdəsinin diametri 28,5, oturacağının diametri isə 9 sm-dir. Saxlanma vəziyyətinə görə sınıq olub, natamamdır.

2.Tunc bilərzik (AF 23979). Bilərzik tökmə üsulu ilə hazırlanıb, en kəsiyi oval üçbucaq şəkillidir. Halqa formasında olsa da, sonluqları aralıdır. Səthi sayadır. Bəzi yerləri yaşıl oksidlə örtülüb. Bilərziyin diametri 7,5, qalınlığı isə 0,5 sm-dir. Saxlanma vəziyyətinə görə tam və yaxşıdır.

3.Tunc biz (AF 23980). Bizin en kəsiyi kvadrat şəkillidir. Ucu şişdir. Dəstəyə keçirilən tərəfi döyülərək zolaq şəklinə salınıb. Səthi sayadır. Bəzi yerləri yaşıl oksidlə örtülüb. Bizin uzunluğu 6; eni isə 0,5 sm-dir. Saxlanma vəziyyətinə görə natamamdır.

4.Tunc xəncər başı (AF 23981). Xəncər başı konusvari formada olub, uc hissəsi kürəşəkillidir. İki boşdur. Gövdəsi növbəli şəkildə kəsmə dairə və şaquli zolaqlarla bəzədilib. Oturacaq hissəsində xəncərin dəstəyinə keçirmək üçün dairəvidəlik açılıb. Səthi sayadır. Bəzi yerləri yaşıl oksidlə örtülüb. Tapıntının hündürlüyü 3, diametri isə 3,5 sm-dir. Saxlanma vəziyyətinə görə tamdır.

5.Dəvəgözü ox ucu (AF 23982) (şəkil 8). Ox ucu dişəklənərək hazırlanıb. Uzunsov üçbucaq formasındadır. Enli hissəsi, sonluğu iki çıxıntılıdır. Ucluğun uzunluğu 4, eni isə 1 sm-dir. Saxlanma vəziyyətinə görə tam və yaxşıdır.

Yalnız küp istisna olmaqla qalan Zəylik tapıntılarının oxşar nümunələri Arxeologiya fondunda qorunur. Həmin nümunələr Şuşadan (8), Xaçbulaqdan (9), Mingəçevirdən (10), Çovdardan (11) və digər həmdövr abidələrdən tapılıb və Xocalı-Gədəbəy mədəniyyətini təmsil edirlər. Bəzi oxşar nümunələr isə ekspozisiyada nümayiş olunur. Zəylik tapıntılarını da tapılma şəraitlərini və Xocalı-Gədəbəy mədəniyyətini təmsil edən nümunələrlə oxşarlıq təşkil etdiklərini nəzərə alaraq, onların e.ə. II minilliyin sonu-I minilliyin əvvəllərinə aid olduğunu ehtimal etmək olar.

Tədqiqat dövründə AF-ə daxil olmuş təsadüfi tapıntılar arasında Muzeyin

Arxeologiya elmi fond şöbəsinin kiçik elmi işçisi Laçın Mustafayev tərəfindən təqdim olunmuş nümunələr də var. Muzey komissiyası hədiyyə olaraq qəbul etdiyi 5 ədəd təsadüfi tapıntını Muzeyin Daxilolma kitabına DK № 12326 qeydiyyat nömrəsi ilə daxil etmiş və sonra 24.12.2014-cü il tarixli 107 №-li aktla daimi mühafizə üçün AF-ə təhvil vermişdir. Bu aktla təhvil verilmiş nümunələr aşağıdakılardan ibarətdir:

1.Dəmir nizə ucluğu (AF 23973). Nizə ucluğu kiçik ölçülüdür. Ucluğu rombşəkillidir. Sulğuncu isə uzunsov konusvaridir. İçi boşdur. Sulğuncun bir tərəfi qırıqdır. Səthi saya və paslıdır. Onun uzunluğu 14,2, eni 2,4, sulğunc hissəsinin diametri 2,2, kəsici hissəsinin qalınlığı isə 0,5 sm-dir. Saxlanma vəziyyətinə görə tam deyil, bir hissəsi sınıb.

2.Tunc sancaq (AF 23974) (şəkil 9). Sancağın sonluğu-baş hissəsi enli olub kvadrat şəkillidir. Baş hissənin milə birləşən hissəsi yastı və ortası deşikdir. Mil hissəsi uzun olub, en kəsiyi dairəvidir. Səthi sayadır. Ucu şiş və əyridir. Sancağın uzunluğu 9,2, diametri 0,3, yastı hissəsinin eni 0,5, kvadrat hissəsinin eni 0,4, qalınlığı isə 0,3 sm-dir. Saxlanma vəziyyətinə görə tamdır.

3.Tunc bəzək (AF 23975). Bəzək en kəsiyi dairəvi olan halqadan və ona keçirilmiş zəncirdən ibarətdir. Halqanın sonluqları döyülərək yastılanmışdır. Bir sonluqda dəlik açılmış, digərində isə dəliyə keçirilmək üçün üçün mıxça qoyulmuşdur. Zəncir isə əsasən bir-birinə keçirilmiş cüt və tək halqalardan ibarətdir. Yalnız halqalardan biri qatlanmış enli zolaqdan ibarətdir. Bəzəyin səthi sayadır. İri halqanın diametri 3,4, bəzəyin uzunluğu isə 6 sm-dir. Saxlanma vəziyyətinə görə tam deyıl, bir hissəsi qopub düşüb.

4.Saxsı dolça (AF 23976) (şəkil 10). Dolça qırmızımtıl rəngdə olub, əl ilə formalaşdırılıb. Tək qulpludur. Qabın qulpu ağzının kənarı ilə gövdənin çiyin hissəsini birləşdirir. Gövdəsi bir qədər yastı olub şar formalıdır. Ağzı və boğazının bir hissəsi sınıqdır. Ağzının kənarı bir qədər xaricə meyillidir. Oturacağı düzdür. Səthi sayadır. Dolçanın hündürlüyü 17, gövdənin diametri 15,7, boğazın diametri 6,7, oturacağın diametri isə 10 sm-dir. Saxlanma vəziyyətinə görə tam deyil, bir hissəsi sınıb.

5.Dən daşı (AF 23977). Dən daşı qayıqvari formada olub, üst səthi düz, oturacağı isə ovaldır. Daşın səthi məsaməlidir. Bir ucu sınıqdır. Salamat qalmış ucu bir qədər yuxarıya meyllidir. Rəngi bozumtul ağdır. Onun uzunluğu 28, eni 13, qalınlığı isə 5 sm-dir. Saxlanma vəziyyətinə görə tam deyil, bir hissəsi sınıb.

Yuxarıda göstərilən materiallar 01.04.2014-cü il tarixdə Quba rayonu, II Nügədi kəndi, Quba-Qonaqkənd şosse yolunun üzərindəki torpaq karxanasından təsadüf nəticəsində tapılıb. Həmin tapıntılar Quba rayon Püstəqasım kənd orta məktəbinin şagirdi İlyas Sənan oğlu İlyasov tərəfindən MATM əməkdaşı Laçın Mustafayevə təqdim edilmişdir. Təqdim edilmiş bu tapıntılar tədqiqat çərçivəsində AF-də mühafizə olunan digər tapıntılarla müqayisəli təhlili aparılmış, bu və ya digər

xüsusiyyətləri nəzərə alınmaqla onların ilkin olaraq e.ə. I minilliyə aid olduğunu ehtimal etmişik. Əlbəttə ki, bu tapıntıların daha dəqiq zaman çərçivəsini sonrakı kompleks tədqiqatlar nəticəsində təyin etmək mümkündür.

Yuxarıda qeyd etdiklərimizi yekunlaşdıraraq deyə bilərik ki, 2014-cü ildə Muzey komissiyası tərəfindən daimi mühafizə üçün AF-ə 73-ü arxeoloji və 10-u təsadüfi tapıntı olmaqla ümumilikdə 83 ədəd yeni material təhvil verilmişdir. Təhvil verilmiş bu materiallardan ekspozisiyanın zənginləşdirilməsi ilə yanaşı, elmi tədqiqatlarda mənbə kimi də istifadə etmək olar. Xüsusilə, bu materiallar təmsil etdikləri bölgənin maddi mədəniyyət tarixinin öyrənilməsində, burada yaşamış əhalinin məşğuliyyəti, həyat tərzi və mədəni əlaqələri ilə bağlı məsələlərin araşdırılmasında dəyərli əşyavi mənbədirlər.

Məqalənin əməli əhəmiyyəti ondan ibarətdir ki, 2014-cü ildə Muzeyin AF-inə təqdim olunmuş tapıntılar haqqındakı zəruri məlumatlar Azərbaycanın qədim sakinlərinin məşğuliyyətinin, təsərrüfatının və maddi mədəniyyətinin öyrənilməsində, eləcə də arxeoloji və etnoqrafik əsərlərin yazılmasında mənbə rolunu oynaya bilər. Həmçinin tələbələr, magistrlər, doktorantlar, elmi işçilər, müəllimlər və digər sənət sahibləri də məqalədən maddi mədəniyyət mövzusunun öyrənilməsi zamanı bəhrələnə bilərlər.

İstifadə olunmuş mənbə və ədəbiyyat siyahısı:

1. Alməmmədov X.İ., Quluzadə N.V. Qarabağ neolit-eneolit ekspedisiyasının apardığı arxeoloji tədqiqatların qısa hesabatı // Azərbaycanda arxeoloji tədqiqatlar-2012, Bakı, 2013.
2. Alməmmədov X.İ., Quluzadə N.V. "Qarabağ neolit-eneolit ekspedisiyası"nın 2013-cü ildə apardığı arxeoloji tədqiqat işlərinin qısa hesabatı / Azərbaycanda 2013-cü ildə aparılmış arxeoloji və etnoqrafik çöl-tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiyanın materialları. Bakı, 2014.
3. Alməmmədov X.İ., Quluzadə N.V. Qarabağın erkən əkinçi-maldar tayfalarına aid yaşayış məskənlərində aparılmış arxeoloji tədqiqatlar / İnstitutun yaradılmasının 20 illiyinə həsr olunmuş "Azərbaycan arxeologiya və etnoqrafiya elmləri müstəqillik illərində" beynəlxalq elmi konfransın materialları, Bakı, 2013.
4. Hüseynov Ə.H. Muzeylərdə eksponatların toplanılması və fond işlərinin təşkili haqqında // Azərbaycan tarixinə dair materiallar, III cild, 1960.
5. Quluzadə N.V. 2011-ci ildə Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fonduna daxil olmuş maddi mədəniyyət nümunələri // Milli Azərbaycan Tarixi Muzeyi-2012, Bakı, 2012.
6. Quluzadə N.V. 2012-ci ildə Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fonduna daxil olmuş təsadüfi tapıntılar // Azərbaycan arxeologiyası, cild 15, № 1, 2012.

7.Quluzadə N.V., Alməmmədov X.İ. 2013-cü ildə Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fonduna daxil olan arxeoloji və təsadüfi tapıntılar // Milli Azərbaycan Tarixi Muzeyi-2014, Bakı, 2014.
8. MATM Arxeologiya fondunun materialı: AF 1057
9. MATM Arxeologiya fondunun materialı: AF 1939, AF 2040, AF 1991
10. MATM Arxeologiya fondunun materialı: AF 1769, AF 1809
11. MATM Arxeologiya fondunun materialı: AF 105, AF 119, AF 495, AF 876

Насир Гулузаде, Хагани Алмамедов
Археологические и случайные находки, поступившие в Фонд археологии Национального музея истории Азербайджана в 2014 году

Резюме

Ключевые слова: *Гарабахское экспедиция, Исмаилбейтепе, ядра для пращи, наконечник стрелы, булавка*

Статья посвящена археологическим и случайным находкам, поступившим в Фонд археологии Национального музея истории Азербайджана в 2014 году. В статье авторы подчеркивают значимость поступления подобных находок в музей. Приводят типологическую классификацию новых археологических и случайных находок. Хронологические рамки этих материалов охватывают VI-I тыс. до н.э. Отмечается, что в 2014 г. в Фонд археологии поступило 83 материалов, являющихся важными источниками для изучения материальной и духовной культуры азербайджанского народа.

Nasir Guluzadeh, Khagani Almammadov
Archaeological and accidental discoveries entered Archeology Fund of National Azerbaijan History Museum in 2014
Summary

Key words: *Garabagh expedition, Ismailbeytepe, sling ball, arrow head, pin*

The article deals with archeological and accidental finds entered the Archeology fund of National Azerbaijan History Museum in 2014. The authors of the reviewed article emphasized the importance of arrival similar finds to museum holdings.

Hereinafter, the article includes typological classification of new archeological and accidental finds. And the chronological framework definition of materials dated back VI-I millennium B.C.

It is noted, that 83 artifacts entered the Archeology Fund in 2014 which can be considered to be exhibits and reliable sources to investigate Azerbaijan people's material and spiritual culture.



Şəkil 1




Şəkil 2



Şəkil 3



Şəkil 4



Şəkil 5



Şəkil 6



Şəkil 7



Şəkil 8



Şəkil 9



Şəkil 10

Həbibə Əliyeva

Milli Azərbaycan Tarixi Muzeyində qorunan təbərzin-baltaların epiqrafik yazı nümunələri haqqında

Açar sözlər: *təbərzin-balta, döyüş silahı, ərəb qarafikalı yazı, hikmətli kəlam, həkkak*

UOT 930.271

Metalların meydana çıxması ilə hələ mezolit dövründə, daha sonralar, orta cağlarda ən geniş yayılmış döyüş silahı olan nizə, yay və ox tuncdan hazırlanmış, nizə və ox ucluqları, daha sonra metallardan hazırlanmış əsləhə (təbərzin-balta, əmud və s.) ilə əvəzləndi.

Azərbaycanda orta əsrlərə aid silahları soyuq və odlu silah kimi iki qrupa ayırmaq olar. Soyuq silahlardan arxeoloji qazıntılardan aşkarlanan və ya dövrümüzə gəlib çatan orta cağ döyüş silahları – nizə, mizraq, ox ucluqları, təbərzin-balta, qılınc, döyüş bıcağı, toppuz, gürz, əmud, şeşpəri göstərmək olar. Azərbaycanda son tunc və ilk dəmir dövrünə aid təbərzin-baltalar orta əsrlər dövrünün təbərzinlərindən həm forma, həm də bədii işləməsinə görə seçilir.

Orta əsrlərdə istehsal olunan silahlar üzərində çeşidli yazıların meydana çıxması onların informasiya tutumunu qat-qat genişləndirir. Silahlar üzərindəki ornamentlərlə yanaşı dekorativ- yazıların öyrənilməsi əsas problemlərindən sayılır. Belə ki, şəkil yazısının yaranması ilə sənət problemləri başlamışdır.

Araşdırmalar zamanı belə nəticəyə gəlmək olur ki, öncə silahlar üzərində xətlərlə işarələr, sonra isə yazılar, nəbati, həndəsi və canlı aləmin təsvirləri verilmişdir.

Müxtəlif silah növləri üzərindəki yazıların araşdırılıb oxunması nəticəsində belə bir qərara gəlmək olar ki, XI əsrdən XIV əsrə qədər "kufi" xətt növü, XIV əsrdən XVI əsrə qədər "süls", "nəsx", sonrakı dövrlərdə "nəstəliq" xətt növündən geniş istifadə olunmuşdur.

Orta əslərdə Azərbaycanda istehsal olunan təbərzin-baltalar üzərindəki kalliqrafik yazıları 3 qrupa bölmək mümkündür. Belə ki, 1-ci qrupa fars dilində mənzum parçalar, 2-ci qrupa Qurani-Kərimdən məşhur ayələr, 3-cü qrupa isə yalnız orta əsrlərdə hakimiyyət başında olan şahların adları həkk olunan yazıları aid etmək olar.

Ərəb qrafikalı ərəb- fars- türkdilli maddi mədəniyyət abidələrimizin üzərindəki xətt növlərinin bir qismi Azərbaycan muzeylərində qorunub saxlanılır və nümayiş etdirillir.

Giriş: Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində son zamanlar aşkar olunan silahlar və onların üzərindəki epiqrafik yazılar az tədqiq olunmuşdur. Silahlar üzərindəki ornamentlərlə yanaşı dekorativ- yazıların öyrənilməsi əsas problemlərdən sayılır.

Orta əsrlərdə metaldan hazırlanmış müxtəlif növ hücum və müdafiə silahları üzərindəki yazıların, ayrı-ayrı bəzək nümunələrinin göstərilən dövrdə yaşamış xalqın mədəniyyət və incəsənətini, iqtisadiyyat və digər təsərrüfat sahələrini, hərbi döyüş texnikası və metalişləmə sənəti sahələrini öyrənmək üşün çox önəmli qaynaq rolunu oynayır (1, s.176).

Məlum olduğu kimi, cəmiyyətin tarixində baş verən dəyişikliklər maddi mədəniyyət abidələrində öz izini buraxmışdır. Bununla bağlı ən çox istifadə olunan döyüş silahı təbərzin- baltalar üzərindəki yazılar xüsusi diqqət çəkir.

"Təbərzin" fars sözü olub, yəhər baltası (təbər - balta, zin – yəhər) deməkdir (2, s. 348). Azərbaycanda son tunc və ilk dəmir dövrünə aid olan təbərzin–baltalara həsr olunmuş tədqiqatçı Q .Q. Aslanovun "Azərbaycanın tunc təbərzin baltaları" adlı əsəri təbərzin baltaların hazırlanması, mənşəyi, dövrü, yayılma ərazisi, tipoloji və texnoloji xüsusiyyətlərindən, qədim tayfaların həyatında onların rolundan, hətta əjdadlarımızın hələ keçmiş zamanlardan təbərzinlərə sitayiş etmələri və qiymətli bir silah kimi onları dəyərləndirməsindən bəhs edir (3).

G.C.Ağayev və B.A. Kvaçidzenin "Bürünc baltaların dəfinəsi" adlı əsərlərində (4), F.Ə.İbrahimov isə "Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti" kitabında (5, s.47) təbərzin-baltaların metalişləmə sənətindəki rolu və bəzi əlamətləri haqqında müəyyən fikirlər söyləmişlər.

Azərbaycanda son tunc və ilk dəmir dövrünə aid təbərzin-baltalar orta əsrlər dövrünün təbərzinlərindən həm forma, həm də bədii işləməsinə görə seçilir. Q. Aslanov son tunc və ilk dəmir dövrünə aid olan müxtəlif həcm və quruluşlu təbərzin baltaları dörd tipə, orta əsrlərə aid təbərzin – baltaları isə iki tipə ayırır (3, s. 25-27).

Milli Azərbaycan Tarixi Muzeyinin Silahlar və Bayraqlar fondundakı müxtəlif həcm və quruluşda hazırlanmış təbərzin-baltaları iki tipə ayırmaq olar: **birağızlı və ikiağızlı təbərzin-baltalar.**

Birinci tip təbərzin baltalar birağızlıdır. Silahlar arasında ən geniş yayılan bu tip təbərzin - baltalar, bəzi tədqiqatçılara görə ayı xatırladır (6, s.42).

Döyüş baltalarının sapı (dəstəyi) taxta və yaxud da metaldan hazırlanaraq, onun orta hissəsində olan xüsusi dəliyə keçirilir. Birağızlı təbərzin-baltaların bəzilərinin arxa tərəfi dördkünc və üçkünc ucu iti formada, yəni pazşəkilli olub, poladdan

hazırlanırdı. Dövrümüzə gəlib çatan təbərzin-baltalar öz döyüş əhəmiyyətini XVII-XVIII əsrə qədər saxlaya bilmişdir (7, s.90-92).

Orta əsrlərdə ərəb əlifbasının müxtəlif xətt nümunələrindən yararlanan sənətkarlar döyüş silahlarını – bir və iki ağızlı təbərzinlər, qılınc, xəncər, yatağan, qəmə, döyüş bıçağı, dəbilqə, qalxan, qolçaqlar, sinəbənd (caharayna), dirsəkliklər, dizliklər və s. silahları kitabələr və nəbati-həndəsi ornamentlər ilə bəzədərək, dövrün sərkərdələrinin istifadəsinə verirdilər. Metal əşyaların üzərindəki epiqrafik yazılar hər bir əşyanın vəzifəsini ifadə edirdi (8, s. 46). Aşağıda bəhs etdiyimiz MATM-nin SBF-da saxlanılan və tədqiqata cəlb olunmuş birağızlı təbərzin-baltaların təsviri, epiqrafik və dekorativ özəllikləri verilir:

SBF 97 saylı qalın polad təbəqədən hazırlanmış birağızlı təbərzin -baltanın (hün.34.8 sm., ağzı. eni 21.8 sm.) arxa tərəfi üçkünc formada hazırlanmışdır. Belə təbərzinlərdən döyüş silahı kimi istifadə olunmuşdur. Təbərzin-baltanın tiyəsi yarımqövs formasında, arxa tərəfi isə pazşəkillidir. Digər birağızlı və ikiağızlı təbərzinlərdən fərqlənən bu təbərzin unversal balta deyil, döyüş xarakteri daşıyır.

Onu da qeyd etmək lazımdır ki, silahlar və digər maddi mədəniyyət abidələri üzərindəki tarix adətən "hicri" təqvimi ilə yazılırdı. "Hicr" ərəb sözü olub, "köçmə", "ayrılma" mənasını verir. Məhəmməd (s.ə.s.) peyğəmbərin Məkkədən Mədinəyə hicrəti hicri tarixinin başlanğıc ili sayılır. Hicrətin həqiqi tarixi haqqında müxtəlif fikirlər söylənilir. Ən çox yayılmış fikrə görə, hicrət Rəbi əl-əvvəl ayının 8-də olub (622-ci il sentyabrın 20-sində). Hicri tarixinin ərəb təqvimi elan edilməsi xəlifə Ömər tərəfindən təsbit edilmişdir. Hicri tarixinin başlanğıcı hicrət ilinin Məhərrəm ayının birinci günü sayılır (9, s. 103-104).

Hələ tunc dövründən bizə məlum olan bu tip təbərzin- baltalar öz döyüş funksiyasını XVII-XVIII əsrlərədək saxlaya bilmişdir (7, s.92). Təbərzin-baltanın bir tərəfi çıxma üsulu ilə nəbati ornamentlərlə naxışlanmlş, digər tərəfində isə nəsx xətlə Qurani-Kərimdən ("əl-Fəth" surəsinin 1-ci ayəsi) ayə - نيبم احتف كل انحتف / ٩٠٦ ربكأ هللأ/انإ / ٩٠٦ قنس – " Allah Böyükdür.]Ya peyğəmbər[, Həqiqətən, Biz sənə açıq-aşkar bir zəfər bəxş etdik! (10, s. 518) ili 906=1500/01-ci il" və hicri təqvimi ilə tarix həkk olunmuşdur. Təbərzin-baltanın digər tərəfində nəbati naxış nəqş olunmuşdur (şəkil 1).

SBF 3149 saylı birağızlı təbərzin-balta poladdan tökmə üsulu ilə hazırlanmışdir (uzun. 75 sm., ağzı 18,5 sm., hün. 15,5 sm.). Təbərzinin ağzı hamar formalı olub, haşiyədə fars dilində döymə üsulu və nəstəliq xətti ilə yazı həkk olunmuşdur. Təbərzinin ağız hissəsinin birinci tərəfində bir beyitlik şerin 1-ci misrası –ربتروه ناي تسا رون هام فكب "Bu balta əldə parlaq ay kimidir", beytin 2-ci misrası - تسارويش نكرزبروضح متسياش "Ölkə böyüklərinin hüzuruna layiqdir" digər tərəfində həkk olunmuşdur. Təbərzinin hər iki tərəfi nəbati naxışlar ilə bəzədilib. Təbərzin yazısına, bədii işləməsinə görə XVI əsrə aid edilir (şəkil 2).

SBF 2751 saylı birağızlı təbərzin - baltanın üzərində ərəb qrafikasi ilə– شاه اسمعيل “Şah İsmayıl”ın ismi və ... جوهربر ايني- “Bu balta əldə.....” nəstəliq xətlə fars dilində mənzum şerlə başlayan kitabə həkk olunmuşdur (11), (şəkil 3).

Digər SBF 1333 sayli təbərzinin (uzun. 67 sm., azğzı.diam. 17 sm, hün. 15 sm.) üzərində SBF 2751 saylı birağızlı təbərzin üzərində kitabə ilə - ... جوهربر ايني- “Bu balta əldə.....” eyni olsa da, lakin bu təbərzində -شاه عباس - “şah Abbas”ın adı yazılmışdır (şəkil 4).

SBF 3151 saylı poladdan hazırlanmış təbərzinin (uzun. 65 sm., ağzı 17 sm., hün.14,5 sm.) bir tərəfində döymə üsulu və nəsx xətti ilə Qurani-Kərimdən “əs-Saff” surəsi, 13-cü məşhur ayənin üzəri qızılı işləmə ilə həkk edilib: نصر من الله و فتح قريب - “Allah dərgahından kömək və qələbə yaxındır” (10, s.571). Digər tərəfində -اي علي / عباس ترضح فقو /۱۳۱۹ – “Həzrət Abbasın vəqfi (فقو- “vəqf” ərəb sözüdür(. Malını, mülkünü Allah yolunda hədiyyə etməkdir) (12, s.1008), Ya, Əli (Əli İbn Əbu Talib (598 ?-661) – Peygəmbərin əmisi oğlu, kürəkəni (qızı Fatimənin həyat yoldaşı), əhli sünnəyə görə dördüncü xəlifədir) / il 1319=1911-ci il” kitabəsi həkk edilmişdir (şəkil 5).

SBF 3152 saylı tökmə üsulu ilə hazırlanan təbərzin- baltanın (ağız hissəsinin eni 13 sm, hün. 16 sm.) ağız hissəsi dalğavari formadadır. Təbərzinin dəstəyinin dəliyi üzəridəki hissədə - السلطان “soltan” sözü, ağız hissəsində isə məlum mənzum parça nəstəliq xətlə həkk olunmuşdur :

ايني جوهربر فلك مام رون هست – “Bu balta əldə parlaq ay kimi işıq saçır”. Təbərzinin digər tərəfində - شاه عباس “Şah Abbas” sözü və şerin davamı- شايسته تسارو شكن الكزربروضح “Ölkə böyüklərinin hüzuruna layiqdir” həkk olunmuşdur. Təbərzinin birinci tərəfindəki “Soltan” sözü Səfəvi şahı şah Abbasa (1587-1629) aiddir. Təbərzinin hər iki tərəfi nəbati naxışla bəzədilib. Təbərzini kitabəsinə və bədii işləməsinə görə onu XVI-XVII əsrlərə aid etmək mümkündür (şəkil 6).

SBF 1751 saylı sarı rəngli metaldan hazırlanmış təbərzinin (ağzı. 10x18 sm., hün. 15 sm.) üzərində sənətkar həndəsi ornamentli dalğavari haşiyədə qarşı-qarşıya və üzləri arxaya doğru iki dövşan təsviri, orta hissəsində ərəb qrafikasi ilə: السلطان عباس شاه - “ Əs-soltan Şah Abbas” ifadəsini həkk etmişdir (13). Digər tərəfində təbərzinin üzərindəki kompozisiya təkrarlanır, lakin yazıda yalnız - عباس شاه “Şah Abbas” sözü həkk olunmuşdur. Təbərzinin dəstək keçən yerinin üzərində heyvan təsvirini usta döymə üsulu ilə işləmişdir (şəkil 7).

Bədii tərtibatı ilə diqqət çəkən SBF 1096 saylı birağızlı təbərzin-baltanın (hün. 13.5 sm., eni 22 sm.) üzərindəki haşiyədə, nəbati naxışların fonunda, nəstəliq xətlə həkk edilmiş kitabə-..... ايني جوهربر فلك مام رون هست – “Bu balta əldə parlaq ay kimi işıq saçır” yuxarıda bəhs etdiyimiz – SBF 3149, 3152 saylı təbərzin-baltaların kitabələri ilə eynidir. Lakin təbərzinin sap keçən hissəsinin hər iki tərəfində kiçik səkkizgüşəli haşiyədə həkkak –اي الله - “Ya, Allah” kəlməsini nəqş etmişdir.

Təbərzinin arxa hissəsi dördkünc şəkilli yastı olub, üzərindəki səkkizgüşəli haşiyədə يا مدد علي - "Ya, mədəd Əli (Ya, Əli kömək et!)" kəlməsi nəstəliq xətlə həkk olunmuşdur. Təbərzini bədii işləməsinə və epiqrafik yazılarınıa görə XVIII əsrə aid etmək olar (şəkil 8). Qeyd edək ki, Türkiyənin Topqapı Sarayı muzeyində qorunan üzəri epiqrafik yazılı bu tipdə birağızlı təbərzin-baltanı XVIII əsrə aid etmişlər (14, s.130)

SBF 1408 saylı diğər sarı rəngli metaldan hazırlanmış bir ağızlı təbərzin-baltanın (ağzı 10 sm., hün. 18 sm.) baş hissəsi quş təsvirlidir. Təbərzinin tiyəsinidəki haşiyədə isə qaçan dövşanların arasında kalliqrafik yazı həkk olunmuşdur: السلطان عباس شاه – "Əs-soltan Şah Abbas". Digər tərəfində isə yazı tamam pozulduğundan oxumaq mümkün olmamışdır. Bu təbərzin SBF-1751 saylı təbərzin-balta həm kompozisiyası və həm də kitabələri ilə eyni olsa da, dəstəyin baş hissəsi formalarına görə seçilir.

Digər təbərzin-balta Lahıc kənd sakini Rüstəm Lahıcın səxsi kolleksiyasına aiddir. Poladdan hazırlanmış bir ağızlı təbərzin-baltanın (hün.10 sm., ağzının eni 14 sm.) birinci tərəfindəki kartuşda ərəb dilində döymə üsulu ilə kitabə - أللهم ، محمد ، فاطمة ، علي ، حسن ، حسين – "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn" həkk edilmişdir. Digər tərəfində vəhşi hevan və quşların təsviri döymə üşulu ilə haşiyədə verilmişdir. Yazı üslubuna və bədii tərtibatına görə, təbərzin-baltanı XVII-XVIII əsrlərə aid etmək olar (şəkil 9).

Yenə onun səxsi kolleksiyasından poladdan hazırlanmış bir ağızlı təbərzin-baltanın (hün. 23 sm., ağzı 15 sm.) birinci tərəfindəki dəstəyin keçən hissəsinin üzərində kiçik həcmli nazik konturlanmış səkkizguşəli həndəsi ornamentdə ustanın adı, aşağıda, yəni tiyənin üzərində isə çox nəfis şəkildə nəbati naxışların fonunda, kənarlarında dörd tərəfdən gül təsvirli haşiyədə və gözəl nəsx xəttilə məşhur ayə بيرق حتف و أللهه نم رصن - "Allah dərgahından kömək və qələbə yaxındır" və ustanın adi – عمل الملك "Məlikin işi" həkk edilmişdir.

Digər tərəfində ustanın haradan olduğu (nisbi) və tarix - ابدربيلي /١٣١١/ "Ərdəbilli /1311=1893/94-cü il" həkk olunmuşdur. Təbərzin- baltanın tiyəsinin digər tərəfində gözəl nəsx xətlə ərəb dilində məşhur bir kəlam həkk olunmuşdur: لا فتى الا علي لا سيف الا ذوالفقار "Əlidən başqa igid yoxdur və zülfüqardan başqa qılınc" Qeyd etmək lazımdır ki, ذوالفقار "zülfüqar" – iki üzlü (tiyəli-uclu), dördüncü xəlifə Əliyə (656-686) məxsus qılıncdır. Rəvayətə görə Ohud savaşında Hz. Əli (ə.s.) qılınci sınandan sonra Hz.Cəbrəyılın göndərişi ilə Hz. Məhəmmədin (s.ə.s) əli ilə Əliyə verilir (15, s. 309).

Bu kitabə MATM-ın Silah və Bayraqlar fondunda saxlanılan birağızlı təbərzin-baltanın (SBF-133-773/94) kitabəsi ilə eyidir (şəkil 10).

İkiağızlı təbərzin-baltalar: İkiağızlı baltaların hər iki ağzı qövs şəklində hazırlanmış və ağız hissəsinin uc tərəfi, sap keçəcəyi hissə, dəstəyə doğru əyilmişdir.

Sap keçirilən boşluq baltanın hər iki ağzının birləşdiyi hissədə yerləşmişdir. Xalqlar arasında dini və hərbi mərasimlər zamanı ikiağızlı təbərzin baltalara Aya və Günəşə sitayiş edir və buna hakimiyyət rəmzi kimi baxırdılar (3, s.50).

SBF 67 saylı ikiağızlı təbərzin-baltanı (ümumi uz. 82.5 sm., sapı 54. 5 sm., ağzı 28x23 sm.) poladdan və dəstəyi metaldan hazırlanmışdır. Təbərzinin hər iki tərəfində SBF 1333, 3149, 3152, 2751 saylı birağızlı təbərzin-baltaların üzərindəki nəstəliq xətlə fars dilində bizə məlum olan mənzum parça - نالكرزبروضح هتسياش تسا رون هام فلكب ربترهوج نيا/ تسااروشك "Bu əldə ay kimi nur saçan parlaq baltadır, Ölkənin böyüklərinin (şahların) hüzuruna layiqdir" həkk olunmuşdur.

Hər iki tərəfindəki haşiyənin kənarlarında sənətkar döymə üsulu ilə nəbati naxışlardan istifadə etmişdir. Təbərzinin metal dəstəyinin uc hissəsində kiçik həcmli, çızma üsulu ilə علي – "Əli" sözü həkk olunmuşdur (şəkil 11).

MATM-ın EF-da qorunan 4308 saylı təbərzin-balta sarı rəngli metaldan tökmə üsulu ilə hazırlanmışdır. Bu təbərzin-balta (hün.17.5 sm., ağzı 09 sm.) məşhur yazıçı-dramaturq, materialist filosof, ictimai xadim, Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Məhəmmədtağı oğlu Axundzadənin (1812-ci ildə Şəkiədə anadan olmuş, 1878-ci ildə Tbilisidə vəfat etmişdir) şəxsi kolleksiyasındandır. Muzeyə 1956-cı ildə təhvil verilmişdir.

Təbərzinin 1-ci tərəfinin 1-ci tiyənin yuxarı hissəsindəki kitabədə nəstəliq xətlə Hafiz Şirazinin qəzəlindən bir misra (16, s. 10) həkk olnumuşdur: رونب يقاس ام ماج زورفارب هداب "Saqi (şərab paylayan), camımızı badənin işığı ilə parlaq elə". Tiyənin aşağı ağız hissəsində, diğər kitabədə isə - و / الا و انكردا يماخ هيا هللأ /هللأ ١٢٠٦ "Allah, biz təcrübəsizləri çatdır (murada) və Allaha and olsun! 1206= 1791/92" sözləri və tarix həkk olunmuşdur. Təbərzinin 1-ci tərəfində, 2-ci tiyənin üzərində bu kitabə SBF-90, 229, 896 saylı bir ağızlı təbərzinlərin tiyələrinin üzərində həkk olunmuş kitabələr ilə eynidir (8, s.84). Təbərzinin 2-ci tərəfinin 1-ci tiyənin üzərində, yarımqövs formada olan haşiyədə iki misra şeir və Allaha aid kəlam həkk olunmuşdur: - ان يف الجننق رهب يم لمن علي و "Həqiqətən, cənnətdə mənim üçün bir rəhm olsa". Tiyənin ağız hissəsində yarımqövs şəkilli haşiyədə isə kitabənin ardı - انشا الشي كم ماك همح هدحوا هللا الا هلا الا ال/ "Bütün camaata şadlıq, arzu azaldılacaq./ Allahdan başqa İlahi yoxdur" davam edir. Təbərzinin 2-ci tərəfinin 2-ci tiyədə kitabə - و تلاذر تق ركا رس ربرون رس شيا دزس/ ١٢٠٦ "Əyər rəzalət (alçaqlıq) və cəza sarayın nurunu alıbsa"/ 1206"= 1791/92-ci il" və istehsal tarixi həkk olunmuşdur. Qeyd etmək lazımdır ki, təbərzin-balta üzərində mətin qarışıq olduğundan tam fikri ifadə etmək çətinləşir (şəkil 12).

Orta əsrlərdə tez-tez baş verən xarici basqınlar və daxili ara müharibələri Azərbaycan şəhər sənətkarlığında silah istehsalının inkişafına təkan verən əsas səbəblər olmuşdur. Silahın hazırlanmasında yerli mahir ustalar cəlb olunur və kütləvi şəkildə müxtəlif növ silahlar istehsal edilirdi. Bu səbəbdən də orta əsr abidələrindən

arxeoloji qazıntılar nəticəsində başqa maddi- mədəniyyət nümunələri ilə birlikdə müxtəlif silah növləri də aşkar edilir (17, s.263-292).

Qeyd etmək lazımdır ki, orta əsr Azərbaycan şəhərləri Qəbələ, Bərdə, Gəncə, Naxçıvan, Şabran, Şamaxı, Bakı və başqa ərazilərində aparılmış arxeoloji qazıntılar zamanı və təsadüf nəticəsində tapılan müxtəlif tipli soyuq və odlu döyüş silahları- ox, təbərzin, qılınc, xəncər, bıcaq, tüfəng, naqan və s. tiyələri və bəzən də sulğuncunun uc tərəfi qırılmış vəziyyətdə tapılır (18;19). Nazik təbəqəli metaldan hazırlanması və uzun müddət torpaqda qaldığı üçün güclü korroziyaya uğrayan silahların forma və ölçüləri haqqında dəqiq bir fikir söyləmək çətindir (AF 1148, 689 saylı təbərzinlər, AF 3085, 23609 saylı qılınclar, AF 23592, 4209 saylı xəncərlər) .

Nəticə: Bəhs etdiyimiz arxeoloji qazıntılar zamanı tapılmış döyüş və müdafiə silahlarına çox az hallarda bədii tərtibatlı və yazılı şəkildə təsadüf olunur. Azərbaycanın orta əsr hərb tarixini araşdıran tədqiqtçılar Azərbaycan ərazisində orta əsrlər dövründə istifadə edilmiş müxtəlif tipli silahlar haqqında geniş şərh vermişlər, bəzi müəlliflər isə orta əsr miniatürləri və yazılı mənbələrdən yararlanaraq, silah nümunələrinin təhlilini vermişlər. Lakin, Azərbaycan ərazisində arxeoloji qazıntılar zamanı tapılan orta əsrlərə aid müxtəlif tipli silah növlərinin yazıları haqqında bilgilərə, demək olar ki, rast gəlinmir.

İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:

1. Бехайм В. Энциклопедия оружие. Санкт-Петербург:Оркестр, 1995, 576 с.
2. Персидско-русскнй сдоваръ. т. I, М.: Изд. «Советская энциклопедия», 1970, 784 с.
3. Aslanov Q.Q. Azərbaycanın tunc təbərzin baltaları. Bakı: Elm, 1982, 65 s.
4. Агаев Г.Д., В.А. Квачидзе. Клад бронзовых топоров.// АО, Баку,1976, с. 9-13
5. İbrahimov F.Ə. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti (XI-XIII əsrlər). Bakı:Elm, 1988, 176 s.
6. Денисова М.М., Портнов М.З., Денисов Е.Н. Русское оружие (IX-XIX вв.). Москва: Госкультпросветлиздат, 1953, 168 с.
7. Əhmədov S.Ə., Cəfərova E.B. Azərbaycanın orta əsr silahları (arxeoloji materiallar əsasında) Bakı: Elm, 2005, 156 s.
8. Nemət M.S. Azərbaycanın epiqrafik abidələri toplusu. Mis qablar, silahlar, bayraqlar üzərindəki ərəb-fars dilində olan kitabələr XVII-XIX əsrlər (VI cild). Bakı:Elm və təhsil, 2011, 144 s.
9. Bünyadov Z.M. Dinlər, təriqətlər, məzhəblər. Bakı: "Şərq-Qərb", 2007, 336 s.
10. Qurani Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov və V.Məmmədəliyev. Ön söz V.M.Məmmədəliyev. Qeyd və şərhlər

Z.M.Bünyadovundur. Bakı: Azərnəşr, 1991, 710 s.
11. Nemət M.S. Silahları üzərindəki kitabələr/ Azərbaycan Tarixi Muzeyi. Bakı: Eım, 2002, s. 293-303
12. Арабско-Русский словар, третье издание, гос-ое издательство Иност-х и нацио-х словарей, Москва, 1962, 1186 с.
13. Bağırova M., Fərzəlibəyli Ş.F. Azərbaycan Tarixi Muzeyində mühafizə olunan iki Səfəvi dövrü təbərzini haqqında // Azərbaycan Tarixi Muzeyi. Bakı: Elm, 2003. s. 222-225
14. Topkapı Sarayı Hazinei Hümayün. İstanbul: İSBN, 2001,183 s.
15. مرکز تحقیقات کامپیوتری علوم اسلامی، ج 3، ص 309. موسسه آل البیت، قم، 1408
16. دیوان حافظ – بر اساس نسخه قدسی – انتشارات راه جوانان – چاپ اول / ۱۳۸۹/ ٤١٢ ص.
17. Мамедов С.Г. История войн и военного искусства Азербайджана (с древнейших времен до XVП века). Баку: Nafta Press, 1997, 385 с.
18. Восточное оружие/ Памятник материальной культуы Азербайджана 1, Изд. выходит под общ. ред. акад.АН Азерб.ССР П.А. Азизбековой, 44 с.
19. Восточное оружие Азербайджана/ Под редакцией АН Азерб.ССР проф. П.А. Азизбековой, Баку: Элм, 1973, 12 с.

Алиева Габиба Мирпаша кызы

Об образцах эпиграфических надписей на секирах «табарзин» из коллекции Национального Музея Истории Азербайджана

Резюме

Ключевые слова: *Ключевые слова: секира «табарзин», боевое оружие, арабская графика, поучительные изречения, гравировщик*

Эпиграфические исследования на различных образцах оружия выявили, что в XI-XIV вв. надписи выполнялись архаическим куфическим письмом, другое направление арабской графики - почерк «сулс», «насх» стал использоваться в XIV –XVI вв., а в последующий период широкое распространение получил почерк «насталиг».

Средневековые секиры «табарзины», изготовленные в Азербайджане, по каллиграфическому письму на них, были сгруппированы на три разновидности. Так, в первую группу входят стихотворные отрывки на персидском языке, ко второй группе - известные аяты из Корана, к третьей – надписи запечатлевшие имена известных правителей средневековья.

Предметы материальной культуры с арабо-персо-тюркоязычными надпи-

сями, исполненными различными почерками арабской графики, хранятся и демонстрируются в Национального Музея Истории Азербайджана.

Aliyeva Habiba Mirpasha
Review of epigraphic inscription types on pole-axes preserved in National Museum of History of Azerbaijan

Summary

Key words: *pole-axe, battle weapons, Arabic script, kalam quotes, calligrapher*

As a result of investigation and studying of various inscriptions on weapons, it can be concluded that from the 11th to 14th centuries "kufi" script style, and between the 14th to 16th centuries "suls", "naskh", and in the subsequent period "nastaliq" script styles were widely used.

Noteworthy, that calligraphic inscriptions on pole-axes produced in Azerbaijan in the Middle Ages were divided into three groups. Therefore, the first group contains persian fragments written in verses, the second group includes famous ayahs from Guran'i-Karim, and the third group contains inscriptions with inscribed shahks' names being the governors only in the Middle Ages.

A large part of arabic, persian, turkic script styles inscribed in unique monuments mainly were written in arabic script are preserved and demonstrated in National Museum of History of Azerbaijan.

Birağızlı təbərzin-baltalar








Şəkil 2. SBF 3149



Şəkil 3. SBF 2751



Şəkil 4. SBF 1333



Şəkil 5. SBF 3151



Şəkil 6. SBF 3152




Şəkil 7.
SBF 1751






Şəkil 8. SBF 1096




Şəkil 9. Səxsi kolleksiya



Şəkil 10. Səxsi kolleksiya

İkiağızlı təbərzin-baltalar



Səkil 11. SBF 67



Şəkil 12.
EF 4308



Nardanə Yusifova

Azərbaycan və Türkiyənin bəzi memarlıq abidələri üzərindəki epiqrafik yazılarda olan analoji dekor detallarının araşdırılmasına dair

Açar sözlər: *dekor detalları, memarlıq,qarşılıqlı analiz,epiqrafik yazılar*

UOT 7

Məqalədə məqsəd memarlıq tikililərinin epiqrafik yazılarının, onların kitabələrinin dekorativ bə həm də konstruktiv xüsusiyyətləri ilə uyğunluqlarını araşdırmağa çalışmaqdır. Bu araşdırmanı Milli Azərbaycan Tarixi Muzeyində qorunub saxlanan bir neçə qəbirüstü yazılarla, Azərbaycanın və Türkiyənin memarlıq tikililəri üzərindəki yazıların oxşar və fərqli cəhətlərini fənlərarası əlaqədə təqiq etməyi nəzərdə tuturuq. Daha dəqiq isə Naxçıvan və Diyarbakr abidələrinin kitabələrindəki tərtibatlarda araşdırma aparılması prinsipinə əməl etməyə çalışacağıq. Eyni zamanda hazırda Milli Azərbaycan Tarixi Muzeyində qorunub saxlanan iki baş daşı üzərində olan epiqrafik yazının da bu əlaqədə rolunundan bəhs etmək niyyətindəyik.

Qeyd edək ki, tək memarlıq tikililərinin yox, hətda məzar daşlarının üzərindəki tərtibat işləri, yəni müxtəlif yazılı səthlər XII- XIII əsrlərdə daha geniş vüsət almağa başladı. Bu məqalədə Azərbaycanda olan belə yazılı memarlıq tikililərindən nümunə kimi Naxçıvan türbələrindən istifadə etməklə, bir neçə məzar daşlarını və Türkyə memarlığı baxımından isə Diyarbakr memarlıq əsərlərinin qarşılıqlı analizini verməyə çalışaq.



Elə ilk əvvəl muzeydə sərgilənən bir neçə məzar daşları haqqında məlumat verək: 1. Qarabağ xanı Pənah xanın məzar daşı.

Qarabağ xanlığının əsasını qoyan Pənah xanın mərmərdən hazırlanmış məzar daşının üzərində nəstəliq xəttilə fars dilində kitabə həkk olunmuşdur: "Pənah-xan Cavanşir, Günəş əzəmətli dağlarda dağ və şüşə içərisində olan (daş qala Şuşa adlanırdı), Dünyanı yaradanın əmri ilə, hökmdarın ölmüş bədəni. Sultana itaət qul üçün qadağan deyil. (Əbədi) leylək kitabında onun tarixi yazılmışdır.



Dost, səmimi dost onun sığınacağı oldu. Hər şey ilə (vasitə) 1172". Hicri təqvimi 1172 = m.1758 / 59.

2.Quba xanı Fətəli xanın məzar daşı Xanlar rayonu Şixov qəsəbəsinin "Bibi Heybət" memarlıq abidələri kompleksi yaxınlığındakı qəbirstanlıqda dəfn olunan Fətəli xanın mərmərdən hazırlanan baş daşı məzarı üstündə yerləşdirilmişdir.

Baş daşının üzərində nəstəliq xətti ilə fars dilində kitabə həkk olunmuşdur: "O [Allah] mərhəmətlidir. Şəhanə əliaçıq Fətəli xan, kimin ki, sarayı hər şeydə alicənablığın qapısı idi. Kim ki, tanrının mərhəmətinə ehtiyac duymaq üçün etdi və kitabları dəstəklədi, onun həyatı sadə və ədalətə sərf edildi. Geniş dünya ona dar oldu, belə ki, şəfaətin qorunması haqqında ümüdlər qoydu. Nəticədə, o səmimi olaraq inam üçün onun həyatını verdi, tərk edilmiş bu təmiz dünya və cənnətin təmiz bağında tapılmış sülh. Mən müdrüklüyün adamından onun ölüm ilini axtarırdım. O dedi: "Əbədiliyin və cənnətin evinə köçürülmüş". h.1203 =m. 1788/ 89

Baş daşının kənarındakı haşiyədə nəstəliq xəttilə ərəb dilində kitabə həkk olunmuşdur: "Tanrı xeyir–dua verir Məhəmmədə və Fatiməyə və əl Həsənə və əl Hüseynə və Məhəmməd və Cəfər Məhəmməd oğluna və Musa Cəfər oğluna və Əli Musa oğluna və Əli Məhəmməd oğluna və əl Həsən Əli öğluna və əl Xocad Həsən oğluna –Tanrı xeyir dua verir və onların hamısını salamlayır. Amin! Hər iki dunyaların tanrısı!"

Bu tipli bir neçə məzar daşları, sənduqələr, sinə daşları Milli Azərbaycan Tarixi Muzeyində qorunub saxlanılır. Bizim məqsədimiz tək bu daşların üzərində araşdırma aparmaq olmadığından, burada ən azı iki məzar daşının üzərindəki yazı nümunəsi ilə memarlıq abidələrinin səthindəki oxşar yazıları araşdırmaqdır. O da məlumdur ki, bütöv bir fikri təsdiq etmək üçün çox yox, bir neçə nümunə də kifayətlənmək mümkündür.Təbii ki, məzar daşlarından fərqli olaraq, daş minarələrdə epiqrafik yazılar eyvanaltı zolaqda düzəldilirdi. Yəni məzar daşlarında iş apararkən ilk əvvəl onlar düz bir sahədə yerləşdirilir və usta asan bir variantda istədiyi, yazını və ya ornamenti onun üzərində işləməyə nail olur. Lakin kərpic minarələrdə epiqrafik yazılar divar səthlərində qurulur. Hətda XII əsrin ortalarında Azərbaycan memarlığında monumental tikililərin dam örtüklərində də firuzəyi fəngli şirli dekor bəzək kimi işlənilirdi. Bu baxımdan Naxçıvan memarlığının şah əsərlərindən olan Möminə xatun türbəsi daha çox maraq doğurur. Elə bu dövrlərdə bədii daş yonma Azərbaycan və eləcə də Türkiyənin bir neçə vilayətlərinin tikintilərində yüksək texniki vasitə dərəcəsinə çatmış və binaların memarlıq tərtibatında istifadə




Şəkil 1.a.Diyarbakr Ulu camisinin epiqrafik yazılı portalından bir fraqment

edilirdi. Dekorativ keramika ilə örtülmüş binaların fasadlarında isə epiqrafik yazılar müxtəlif ölçülərdə həkk olunurdu[1.s 32–56]. Bu zaman təbii ki, yazıların nə dərəcədə əhəmiyyətli olması və əsasən də quruluş metodu nəzərə alınırdı. Məsələn, aşağıdakı şəkildə Diyarbakr Ulu camisinin üst və alt qatında epiqrafik yazılı portalından bir fraqmenti göstərək. Şəkildən görünür ki, abidələrin dekorativ gözəlliyini artırmaq və həm də tikilinin konstruktivliyinə az da olsa köməyi olan kitabələr və bəzəklər öz xarakterləri ilə hər vaxt araşdırılmalı, aktual bir poblem olmuşdur. Başqa ölkələrdə olduğu kimi Türkiyənin Diyarbakr vilayətindəki möhtəşəm memarlıq tikilililəri hər kəsin zövqünü oxşayır və mütəxəssislərdən sanki tədqiqat işi aparmalarını gözləyirlər. Biz də məqalədə qoyulan bu məsələyə öz prinsipimizlə yanaşmağa çalışacağıq.

Azərbaycan və Türkiyə memarlıq tikililərinin iri divar səthlərində stilə olunmuş və bir neçə dəfə təkrar olunan dini kəlamlar hətda uzaq məsafədən belə yaxşı oxuna bilir. Friz üzərində olan bu yazılar çox vaxt ya kiməsə həsr olunur,ya da hökmdarın məramını göstərirdi. Çox vaxt belə yazılar cox incə işlənildiyindən ancaq yaxın məsafədən oxunurdu. Yenə də Türkiyədən Gizrə Uli camisinin epiqrafik yazılı daşlarını misal çəkə bilərik.

Belə binaların tikinti tarixini, ustaların adlarını, ləqəblərini göstərən xırda yazılar əsasən portalların xonçalarında, medalyonlarında və başqa yerlərində də yerləşdirilirdi. Məsələn Möminə xatun türbəsinin xonçalarındakı kimi. Belə yazıların fonunu nəbati ornamentlər təşkil edirdi. Əsasən belə yazılar dekorativ xarater daşıyırdı. Daş binalarda epiqrafik yazılar əksər hallarda xüsusi ayrılmış portal səthlərində yerləşdirilirdi [2.s.34-46]. Dekorativ medalyonlarda isə müxtəlif ornamental kompozisiyalar qısa dini və ya çox vaxt ustaların –inşaatçıların şifrələnmiş adlar göstərirdi. Demək olar ki, o dövrlərdə və elə hər bir vaxtda



ornamental səthlərin belə füsünkar işlənilməsi nəqqaşların yüksək dərəcədə profesional olmalarını göstərirdi. Belə sənətkarlar əsasən öz əsərlərini əvvəlcədən daş üzərində oyurdular və ya karamik minalardan kəsilmiş hissələrdən düzəldirdilər. Divarlar hörüldükcə və binanın üzlənməsi mərmər və ya digər plitələr və ya kaşılarla üzlənirdi. Bununla bərabər binaların planlarını hazırlayarkən tikintinin memarlıq dekorunun detallarının tərtib olunmasına, geniş tətbiq olunacaq modul sisreminin əhəmiyyətinə də fikir verirdilər. Bu hal isə tikinti quruluşlarındakı təhrif olunmanın qarşısını alırdı. Beləliklə, iki proporsionallaçdırma sisteminə əsasən hesablama və binaların ayrı-ayrı hissələri arasındakı dəqiq və qarşılıqlı ölçü müvafiqliyi əldə edilirdi. Hesablama sistemi- kvadratın modul sistemi və həndəsiliyi isə kvadratın tərəfləri və dioqonallari kimi çıxış edir. Bu hal Türkiyə memarlığında da özünü qabarıq şəkildə biruzə verir. Tikililərdəki modul sistemi memarlıq kompozisiyalarının yaradılmasında ən geniş tətbiq olunan sahələrindən biridir. Bu üsul bir növ binanın vahid əsasını təşkil edir. [3.s.55 –73]

Məlumdur ki, modulun böyüklüyü binanın konstruktiv əsası ilə ciddi şəkildə əlaqədə olur və sütumların diametrindən, aşırımın böyüklüyündən, günbəzin və həmçinin tətbiq olunan tikinti materialının özəl xüsusiyyətlərindən asılı olurdu. Azərbaycanda modul XIV əsrdə Naxşıvanın eyni adlı kəndində yerləşən 12 yarımsilindr formalı Qarabağlar türbəsində aşkar edilmişdir. Modul sistemi həmcinin Naxçıvandakı Əcəmi Əbubəkr oğlu məktəbinə məxsus tikililərdən olan Yusif Kuseyr oğlu və Möminə xatun türbələrində də aşkar edilimşir. [4. s. 67-71]. Tədqiq edilimişdir ki, hər üç tikilinin ayrı-ayrı hissələri onların hörgü quruluşu və kompozisiyası vahid modul ölçüsü ilə vəhdət təşkil edir. Bu üsul düz xətli sistem kimi geniş yayılmışdır. Bu təkcə kərpic tikililərdə deyil, daş binalarda da tətbiq edilmişdir.

Belə bir vaxt gəldi ki, sənətkarlar hətda XII-XIII əsrlərdə də hər iki ölkədə memarlıq tikililərinin quruluşlarında standartlaşma elementləri də geniş inkişaf etdirməyə başladılar. Bir tərəfli üzlük blokların yerini ikitərəfli sadə üzlük blokları tutmağa başladı. Sənətkarların bu üsulu tətbiq etməklə tikili komplekslərində abidənin bədii tərtibatını daha gözəl və zövqlü olmasına çalışırdılar. Bu üsulda polixrom mozaika elementlərindən və standart bloklardan geniş istifadə edilirdi. Bundan əlavə bir sıra memarlıq detallarından bəzi elementləri, xüsusuilə memarlıq detallarının stalaktitləri və onların standartlaşdırılmış komponentləri əvvəlcədən hazırlanırdı. Memarlıq tikilisinin yerindən və xüsusiyyətindən asılı olaraq üzlük kərpiclərinin forma və ölçüləri də dəyişilirdi.

Hətda Türk və Azərbaycan kimi iki qardaş ölkənin monumental binalarının üz örtüyü bu ölkələrin müxtəlif şəhərlərində vahid konstruktiv sxemə malikdir olmalarını təsdiqlədiyinin şahidi oluruq. Bəzi binaların şirli kərpiclərlə üzlənməsi əsas hörgü qurtarandan sonra başlayırdı. Əsasən şirli kərpiclər şaquli və üfüqi






Səkil 3. Yusif Kuseyir oğlu türbəsinin naxışlı səthindən fraqment

vəziyyətdə qoyulurdu.Üzlük kərpiclər bir qayda olaraq gəc məhlul ilə bərkidilirdi. Bu məhlulun möhkəmliyini nəzərə alaraq ustalar ondan seysmikliyi yüksək olan yerlərdəki tikililərdə də istifadə edirdilər. Dediklərimizi Gülüstan türbəsində nümunə kimi araşdıraq. Belə ki, türbənin tinləri iki müstəvi ilə kəsildiyi üçün ikinci yarusda oniki tilli olur. Postament isə zəngin tərtib edilmiş karnizlə tamamlanır ki, onun da üzərində günbəz ucaldılır. Ən yuxarı hissəsinin müstəvisi üzərində quruluşca mürəkkəb və eyni zamanda zərif ornamentlər işlənmişdir. Bu hissə təssüf ki, dövrrümüzə qədər gəlib çatmamışdır [5. s.125 –140] . Gülüstan türbəsi qırmızı qumdaşından inşa edilmişdir. Abidənin divarları isə iri çaydaşından hörülmüş və onlara təmiz yonulmuş daşdan, türbənin kürsülük hissəsinə isə səkkiz cərgə bir-birini tamamlayan iri daşlardan üz çəkilmişdir. Bütün cərgələrin arasına əvvəlcə çarpazlaşdırılmış guşə daşları qoyulmuş və sonra onların arası hörülmüşdür.

Dahi memar Əcəminin dəyərli əsərlərindən olan Gülüstan türbəsi səthindəki tərtibatı və kitabələrinin möhtəşəmliyi ilə Anadolu Səlcuq dövrü memarlığına da öz təsirini göstərmişdir. Lakin bu memarlıq incisi öz dövründə həm Azərbaycan və həm də Türkiyə memarlığına gətirdiyi yenilikləri ilə yadda qalan oldu. Eləcə də Qaraxanlılardan qalan Ayşə Bibi türbəsində alt və üst tərtibatının geniş, ortasl dar və bütün gövdəsi bəzəkli olan minarələrdən sonra, Azərbaycan memarlığının özünəməxsus yolu olan yuxarıya döğru daralan sadə, silindrik gövdəli memarlıq quruluşları Səlcuqlu minarələri ilə Anadoluya da gəlib çatmıçdir. Türk memarları,

Şəkil 5. Gülüstan və Yusif Kuseyir oğlu türbəsinin kitabələrindəki epiqrafik yazılar





sənətkarları da bu memarlıq qanunauyğunluqlarında çox dəyərlənərək daha möhtəşəm abidələr yaratmışlar.

İstər Azərbaycan Milli Tarixi Muzeyində, istər başqa uyğun muzeylərdə və eləcə də qəbirsanlıqlarda olan məzar daşlarındakı epiqrafik yazılar və istərsə də başqa sənət növlərinin hər birində, dəqiq desək araşdırma apardığımız memarlıq sahəsində də oxşar cəhətlər çoxdur. Belə ki, elə götürək İstanbul tərzində tikilən Cənabi Əhməd Paşa məscidini, Fərhad Paşa məscidlərinin künbəzlərini, məzar daşlarını, sənduqələri və hətda sinə daşlarındakı ornamental yazıları və ya Azərbaycanda bu tipli yazıları, təbii ki, nəinki onlar arasında oxşarlıqlar vardır. Belə tikililərin tərtibatındakı belə xüsusiyyətlət heş də təsadüfi olmayıb, hətda burada məqsəd və təyinatlar qarşılıqlı əlaqədədir. Onlar sanki fikiraltı ifadələrlə çox bənzər olmaları ilə bərabər, bütün kainatda bir varlığın olmasına və dinindən, dilindən, irqindən asılı olmayaraq hər kəsin gəldiyi yolun bir qayıdacağı sonuçu da var və bu kimi fikirləri insanlara catdırmaq istəyirlər. Təbii ki, bu məzar daşlarının və ya memarlıq tikililərindən özlərinin bəziləri hətda bizə qədər tam olaraq yox, bir neçə dəfə bərpa olunduqdan sonra çatsalar da onlar haqqında tam söz demək mümkün olmur. Bəzən hər hansı bir detalla və ya bənzər abidələrə istinadən fikir yürütmək olur.

Beləliklə, Milli Azərbaytcan tarixi Muzeyində qorunub saxlanan iki məzar daşı və memarlıq tikililərində olan epiqrafik quruluşların, türk abidələri ilə eyni olan dekor detallarının qarşılıqlı əlaqısini verməyə çalışdıq. Belə ki, hər hansı ölkənin memarlığı olursa olsun orada memarlıq detallarının qurulma qaydaları, prinsip və özünəməxsus xüsusiyyətləri vardır. Təbii ki, bir məqalədə bütün bunların hamısını vermək mümkün olmasa belə, onlardan bir qismini verməklə tam bir fikri ifadə etmək istədik və bu araşdırmanı Azərbaycan və Türk abidələrinin qarşılıqlı analizini kitabələr üzərində aparmağa calışdıq. Burada üstünlük Milli Azərbaycan Tarixi Muzeyində sərgilənən iki məzar daşına, Azərbaycan tərəfdən Naxçıvan memarlığına, Türkiyə tərəfdən isə Diyarbakr memarlığına verilmişdir.

İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:

1. Əfəndi R. Daşlar danışır. B.,1980
2. Nemətova M.X. Əsrlərin daş yaddaşı. B, 1987,
3.Oktay Aslanapa. Türk cümhuriyyetleri mimarlıq abideleri. Tərcümə Ankara, 1996
4.Salamzadə Ə.V. K.M.Məmmədzadə. Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. B.,1985
5.Zamanov N. Düşündürən naxışlar. B.1981, 5

Юсифова Нардана

Сопоставление некоторых аналогичных деталей эпиграфических надписей на архитектурных сооружениях Азербайджана и Турции

Ключевые слова: *эпигафика, детали декора, зодчество, встречный анализ*

В этой статье представлены общие детали декора эпиграфических строений национального зодчества с турецкими памятниками. Независимо от строения отдельных стран, каждое из них имеет общие принципы, правила и присущие ему особенности. Конечно, в пределах статьи нет возможности дать все эти детали. Однако, представив некоторые из них, можно создать общее представление о части из них. При сопоставлении данного материала исследование проводилось на основании изучения надгробных эпиграфических памятников Национального Музея Истории Азербайджана и сооружений Нахчывана и Диярбакра.

Nardana Yusifova

Research about the same decor details of epigraphic inscriptions on the surface on the monuments of Azerbaijan and Turkey

Keywords: *decor details, architecture, mutual analysis, epigraphic inscriptions*

There are researched investigation of epigraphic decor details on the surface of national and turkish architectural monuments in article. Despite of reseached of two different states architecture, there are showed creation of common principles, rules and canons of them. Of course it is impossible to give all decor details in the article. However, research carried out on the some monuments, give possibility indicated complete opinion. Investigation carried out according to epigraphic inscriptions on the surface of two gravestones which preserved in National Museum of History of Azerbaijan and inscription of monuments of Diyarbekr in article.

Laçın Mustafayev

Quba rayonunun Püstəqasım kəndindən əldə edilən təsadüfi arxeoloji tapıntılar

Açar sözlər: *Təsadüfi arxeoloji tapıntı, keramika, metal məmulatı, bəzək əşyası, dən daşı*

UOT 902

Azərbaycanın elə bir ərazisi yoxdur ki, maddi mədəniyyət abidələri ilə zəngin olmasın. Maddi mədəniyyət abidələrimizin qorunub və mühafizə olunması hər bir ölkə vətəndaşının borcudur. O cümlədən bu vəzifə və məsuliyyətin böyük bir hissəsi müəllimlərin və məktəblilərin çiyninə düşür. Tariximizi və mədəniyyətimizi böyüməkdə olan gənc nəslə sevdirmək son dərəcə vacib və əhəmiyyətlidir. Bu şərəfli işin öhdəsindən müəllimlər layiqincə gəlirlər. Məktəblilərin mədəniyyətimizə qayğı ilə yanaşması, onların gələcəkdə dövlətə, xalqa, cəmiyyətə layiq şəxsiyyət kimi yetişməsinə nişan verir. Maddi və mənəvi mədəniyyətimizin hər bir sahəsi diqqət və qayğı tələb edir. Bunun üçün məktəblərdə maarifləndirmə və təbliğat işinin aparılması vacibdir. Lakin unutmaq olmaz ki, bu işdə peşəkar olmağın özü də olduqca mühümdür. Xüsusilə arxeoloji abidələrimizin mühafizəsi və təsadüfi tapıntıların toplananaraq aidiyyatı qurumlara (Tarix diyarşünaslıq muzeylərinə, Milli Azərbaycan Tarixi Muzeyi və s.) təhvil verilməsi kimi problemlər öz aktuallığını daim saxlamaqdadır. Bunun üçün görülən tədbirlərin istiqamətləndirilməsi əsaslı şəkildə elmi-nəzəri və praktiki təcrübəyə söykənməlidir. Bu prinsip qarşıya qoyulan planlı işin əsas tərkib hissəsini təşkil edir.

Bildiyimiz kimi torpaq altında olan arxeoloji abidə və artefaktlar elmə məlum olmayan bir çox faktları aydınlaşdıra bilər. Bu şərtlə ki, hər bir tapıntı, yaxud abidə vaxtında mütəxəssis tərəfindən təhlil və ya analiz edilə. Bunun üçün əldə edilən hər hansı bir təsadüfi tapıntı aidiyyatı qurumlara təhvil verilməlidir. Yaxşı olar ki, bu tip materiallar qəbul edilərkən təhvil verən şəxsdən tapıntı haqqında, nə vaxt, haradan, hansı şəkildə, tək yaxud cəm və s. ətraflı məlumat toplansın. Bu gələcəkdə qeyd edilən ərazidə arxeoloji qazıntı, yaxud kəşfiyyat işlərinin aparılmasına istiqamət verir.

Quba rayonunun bir sıra kəndləri müxtəlif dövrlərin maddi mədəniyyət

abidələri ilə təmsil olunur. Rayonunun II Nügədi kəndinin Püstəqasım kəndinə yaxın olan hissəsində, torpaq karxanasından uzun illər torpaq daşınması nəticəsində aşınan torpaq qatının altından xeyli miqdarda arxeoloji materiallar üzə çıxmışdır. Materialların bir çoxu ərazidə ağır texnika işləyərkən, yaxud da sonradan açıqda qaldığından sınmış və yararsız hala düşmüşdür. Eyni zamanda bu dağıntılar sırasında qəbirlərin olması da istisna deyildir.

Ərazi Quba-Qonaqkənd şosse yolunun üzərində yerləşir. Hər iki kəndin heyvan otlaqları bu əraziyə yaxın olduğundan bura tez-tez insan və heyvan tapdağı altında qalır ki, bu da öz növbəsində torpaq aşınmasını sürətləndirir. Belə olan tərzdə üzə çıxan materiallar ya hündürlükdən düşərək məhv olur, ya da bunun mahiyyətini başa düşməyən insanlar tərəfindən kortəbii olaraq sıradan çıxarılır. Qeyd edək ki, təbii hadisələrin də bu tarixi ərazinin məhv olmasında rolu böyükdür. Yağış və qar yağması hündürlükdə yerləşən ərazidə tez-tez torpaq sürüşməsinə səbəb olur. Belə olan təqdirdə qısa zaman ərzində üzə çıxan və ya aşınaraq torpaq qatı altında məhv olan materiallar tamamilə yararsız hala düşürlər. Materialların üzə çıxması 20 ilə yaxındır. Lakin bu məsələ ilə bağlı heç bir qurum maraqlanmamış və demək olar bu sahə ilə əlaqədar heç bir yerə məlumat verilməmişdir. Keçirdiyimiz son iki il ərzində torpaq dağıntısı zamanı üzə çıxan qəbir abidəsindən bütöv şəkildə tapılan materialları Püstəqasım kənd orta məktəbinin şagirdi İlyas Sənan oğlu İlyasov toplayaraq itməsinin qarşısını almışdır. Maddi mədəniyyət tapıntılarına olan maraq və qayğı nəticəsində İlyas topladığı materialları kənd müəllimlərinə göstərmiş, onların məsləhəti ilə o, 2014-cü ilin 1 aprel tarixində AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya elmi fond şöbəsinin kiçik elmi işçisi Laçın Mustafayevlə birgə bu ərazidə olmuş, bəzi keramika və digər yerüstü nümunələr toplamaqla bərabər özündə saxladığı tapıntıları da muzey əməkdaşına təqdim etmişdir. Həmin materiallar Laçın Mustafayaev tərəfindən MATM-nin Arxeologiya fonduna təhvil verilmişdir.

Materialların tapıldığı yer geniş ərazisi olan yamacın ətəyində yerləşir. Kənardan müşahidə edərkən yamacın torpaq aşınan hissəsində, yəni divar kəsiyində mədəni təbəqəni aydın görmək mümkündür. Profildən yanıq yerləri ilə bərabər uçulan qəbirlərin izləri də aydın sezilir. Bu qəbirlərdən aşınan xeyli sayda insan sümüklərinin qalıqları və müxtəlif maddi mədəniyyət artefaktları hündürlükdən düşərək pərakəndə halda ətrafa səpələniblər. Təəssüflər olsun ki, belə vəziyyətdə üzə çıxan və yerə düşən keramika məmulatının əksəriyyəti sınaraq məhv olmaq təhlükəsi ilə üzləşir. Xeyli sayda bu tip keramika fraqmentləri tərəfimizdən toplanmışdır. Bunlar qara və qırmızı gildən, əsasən keyfiyyətli bişirilmiş müxtəlif ölçülü və formalı məişət qabları, küpələr, dolça və bardaqlar, həmçinin iri ölçülü təsərrüfat küplərinin hissələridir. Digər materialları İlyas İlyasov aşınmaqda olan qəbirdən götürdüyündən onlar bütöv və qismən yaxşı vəziyyətdədir. Tapıntıların

dövrü müəyyən olunarkən onların Azərbaycanın digər arxeoloji abidələrindən əldə edilən materialları ilə anoloji müqayisəsi aparılmış və müəyyən edilmişdir ki, hal hazırki tapıntılar e. ə. I minilliyin ortalarına aiddir. Eyni zamanda materialların qəbirdən tapılması onu göstərir ki, bu artefaktlar xristianlığa qədərki dövrə aiddir. Çünki artıq bu dövrdən başlayaraq dəfn zamanı ölü ilə birlikdə qəbrə hər hansı bir əşyanın qoyulması adəti tədricən sıradan çıxır.

Bura yaxşı halda təhvil verilən bir ədəd dəmir nizə ucluğu (İnv. 23973), (Şəkil1), tunc sancaq (İnv. 23974), (Şəkil 2), tunc bəzək (İnv. 23975), (Şəkil 3), saxsı dolça (İnv. 23976), (Şəkil 4), dən daşı (İnv. 23977), (Şəkil 5) daxildir.

Uzunluğu 14,2 eni 2,4 sm olan nizə ucluğu kiçik ölçülüdür. Əsas deşici, kəsici hissəsi rombşəkilli, sulğuncu isə konusvaridir. Sulğuncun içi boşdur. Ölçüsü onun əlverişli istifadə imkanlarına malik olduğunu göstərir. Uzun zaman torpaq altında qalması nəticəsində paslanmış, sulğuncun bir hissəsi sınmışdır. Ümumiyyətlə dəmir məmulatı saxlanma vəziyyəti pis olan şəraitdə tez sıradan çıxır. Bu dövrdə dəmir silahların hazırlanmasına böyük üstünlük verilirdi. Dəmirdən müxtəlif ölçülü qılınc, xəncər, bıçaq, döyüş yabası, nizə və ox ucluqları, döyüş baltası, zireh və s. istehsalı geniş yayılmışdır (1, s. 78-84; 3, s. 55-68; 6, s. 133). Nizələr süvari yaxud piyadanın əsas döyüş silahı olmaqla yanaşı, qala və istehkamlarda, şəhər darvazalarında keşik çəkən əsgərlərin də mühüm döyüş ləvazimatlarından idi. Digər iki ədəd bəzək əşyası qədimdə bu ərazidə yaşayan insanların istfadə etdikləri bəzək-zinət əşyaları haqqında təsəvvür yaratmağa imkan verir. Tunc sancağın uzunluğu 9,2 sm, diametri 0,3 sm, sancağın yastı hissəsinin eni 0,5 sm, kvadrat hissəsinin eni 0,4 sm, qalınlığı 0,3 sm-dir. Sancağın sonluğu-baş hissəsi enli olub kvadrat şəkillidir. Baş hissənin milə birləşən hissəsi yastı və ortası deşikdir. Mil hissəsi uzun, en kəsiyi isə dairəvidir. Ucu şişdir, lakin deformasiyaya uğrayaraq bir qədər əyilmişdir. Ümumi vəziyyəti qənaətbəxşdir. Bu tip bəzək əşyalarına tunc dövründən başlayaraq, sonrakı dövrlərdə də təsadüf edilir. Dəmir, antik və erkən orta əsrlər üçün xarakterikdir (1, s.78-83; 8, s. 131-145; 9, s.139-151) .

Tuncdan ibarət olan növbəti tapıntı asma bəzəkdir. Bəzək en kəsiyi dairəvi olan halqadan və ona keçirilmiş zəncirdən ibarətdir. Zəncirdəki kicik halqaların sayı on ədəddir. Halqanın sonluqları döyülərək yastılanmışdır. Bir sonluqda dəlik açılmış, digərində isə dəliyə keçirilmək üçün üçün mıxça qoyulmuşdur. Zəncir isə əsasən bir-birinə keçirilmiş cüt və tək halqalardan ibarətdir. Yalnız halqalardan biri qatlanmış enli zolaqdan ibarətdir. Bəzəyin səthi sayadır. İri halqanın diametri 3,4 sm, bəzəyin uzunluğu 6 sm-dir. Bu predmetin hansı məqsədlə istifadə edilməsini söyləmək bir az çətindir. Ona görə ki, ərazidə bir neçə qəbir uçduğundan materialların məhz hansı qəbrdən əldə edildiyini müəyyən etmək mümkün deyildir. Eyni zamanda predmet tam şəkildə olmadığından onun təyinatını söyləmək bir qədər mübahisəlidir. Şərh üçün qeyd edə bilərik ki, bu predmet qadın bəzək əşyasına aiddir. Uçulan qəbrin

kişi və ya qadın qəbri olması dəqiq məlum deyildir. Çünki skeletin qalıqları demək olar ki, ətrafa səpələnmiş vəziyyətdə müşahidə edilmişdir. Belə olan tərzdə doğru təyinat üçün mütəxəssis rəyinə ehtiyac duyulur. Lakin yuxarıda qeyd etdiyimiz kimi bu tapıntılarla indiyədək nəin ki antropoloq, heç arxeoloqlar da maraqlanmamışlar. Məktəblinin söylədiyi kimi qəbul etsək, bu tapıntılar bir yerdən əldə edilmişdir.

Qəbirdən bütöv vəziyyətdə əldə edilən keramika nümunəsi tək qulplu saxsı dolçadır. Qabın hazırlanmasında dulus çarxından istifadə olunmamışdır. Dolça qırmızımtıl rəngdə olub, səthi sayadır. Qabın qulpu ağzının kənarı ilə gövdənin çiyin hissəsini birləşdirir. Gövdəsi bir qədər yastı olub şar formalıdır. Ağzı və boğazının bir hissəsi sınıqdır. Ağzının kənarı bir qədər xaricə meyillidir. Oturacağı düzdür. Hündürlüyü 17 sm, gövdənin diametri 15,7 sm, boğazın diametri 6,7 sm, oturacağın diametri 10 sm-dir. Bu tip saxsı qablara Azərbaycanın hər yerində rast gəlmək olar. Oxşar tapıntılar əhatə etdiyi dövrlərə görə bir qədər fərqli quruluşda ola bilərlər. Ümumilikdə götürdükdə səkkiz min ilə yaxın geniş bir zaman ərzində Azərbaycan ərazisində buna bənzər müxtəlif dövrlərin tapıntılarına təsadüf etmək olar. Bu onu göstərir ki, keramika istehsalında olan ənənələr əsrlər boyu davam etmiş və özünün spesifik xüsusiyyətlərini qorumağı bacarmışdır (1, s. 81-83).

Əraziyə baxış keçirilərkən daha bir maraqlı tapıntı-dən daşı aşkar edilmişdir. Dən daşı qayıqvari formada olub, üst səthi düz, oturacağı isə ovaldır. Daşın səthi məsaməlidir. Bir ucu sınıq, salamat qalmış ucu bir qədər yuxarıya meyllidir. Rəngi bozumtul ağdır. Uzunluğu 28 sm, eni 13 sm, qalınlığı 5 sm olan dən daşı orta ölçülüdür. Belə tapıntılara son illərin arxeoloji qazıntılarında, Qəbələ rayonunun Antik şəhər yerinin alt təbəqəsində tez-tez təsadüf edilir. Müqayisə üçün əlavə edək ki, Şəmkir rayonunun Qaracəmirli kəndinin Əhəməni dövrü abidələrindən, həmçinin yerüstü tapıntı kimi daha iri ölçülərə malik dən daşları toplanmışdır. Bu daş predmetdən uzun illər məişət və təsərrüfatda istifadə edilmişdir. Dənin üyüdülməsi zamanı üst daşdan da istifadə edilmişdir. Bu daş predmet alt və üst, iki daşdan ibarət sadə, primitiv qurğuya əsaslanır. Əl dəyirmanı meydana gələnədək insanlar bu sadə quruluşa malik daş qurğudan yararlanmışlar (1, s. 82)

Yuxarıda qeyd etdiyimiz kimi, keramikaya aid bütöv vəziyyətdə yalnız bir saxsı qab tapılmışdır. Lakin ərazidə xeyli sayda saxsı qırıntıları və keramika fraqmentləri vardır. Bunlar müxtəlif ölçüdə və fərqli quruluşda istehsal edilən məişət, o cümlədən təsərrüfat küplərinin hissə və qalıqlarıdır. Sadə quruluşlu və qırmızımtıl-qara rəngli küpə qalıqları (Şəkil 6) diqqət çəkir. Bu tip saxsı məmulatı əhəməni, antik, erkən orta əsrlər dövrü üçün əlamətdardır (1, s. 81-83). Sadə görünüşü onun aşağı təbəqəli insanlar tərəfindən istifadə olunduğunu söyləməyə imkan verir. Bişmə keyfiyyəti o qədər də yüksək olmayan bu qabların hazırlanmasında iri qum qarışıqlı gildən istifadə edilmişdir ki, bu da bişmə keyfiyyəti aşağı olarsa, qabın tez sınmasına gətirib çıxarır. Hətta arxeoloji qazıntılar nəticəsində mədəni təbəqədən əldə edilən

bu tip qabların fraqmentləri yuyularkən suyun təsirindən belə ovulurlar. Bunlar əsasən istehsal keyfiyyəti aşağı olan qara, qırmızımtıl-qara, qara-qəhvəyi rəngə (qismən tünd qonur) çalan qablardır. Lakin bu qabların istifadə arealı və dövrü kifayət qədər genişdir. Azərbaycanın bir çox bölgələrindən eyni cür qablara təsadüf etmək olar (6, s.138; 5, s. 75-88). Açıq qırmızı və qırmızı rəngli gil qab nümunələri də üstünlük təşkil edirlər. Ərazidən iri ölçülü təsərrüfat küpünün oturacaq və gövdəsinin bir hissəsi (Şəkil 7), həmçinin ağız və çiyin hissəsi tapılmışdır (Şəkil 8). Bu qabların istehsal keyfiyyəti olduqca yüksəkdir. Küpün oturacağı düz və daban formalı çıxıntıya malikdir. Belə oturacaq küpün tez aşmasının qarşısını alır. Oturacağa birləşən divarın salamat qalan formasına görə gövdənin xaricə kəskin meyilli olduğunu demək olar. Küpün ağız və çiyin hissəsi də yastı formadadır. Ağız hissəsi adətən enli və xaricə qatlanmış, ya da çıxıntı şəklində olur. Divarının qalınlığı möhkəm və ağır çəkidə olmasını göstərir. İlkin nəticəyə görə belə küplərin hündürlüyü 60 sm - 1 metr arasında dəyişir. Bir küpün ağzının kənarı batıq naxışlarla bəzədilmişdir. Boğaz hissəsi də bir qədər digərindən hündürdü (Şəkil 9). Aşkar edilən digər gövdə parçasının mərkəzi hissəsində kəmər formalı çıxıntı vardır. Çıxıntı mailli formada kəsmə xəttlərlə naxışlanmışdır. Digər maraqlı bir fakt küpün divarında cızma şəkilli şüyrəli naxışların olmasıdı (Şəkil 10). Belə anoloji hallara Şəmkirin əhəməni dövrü abidələrində, eyni zamanda Qəbələnin Antik şəhər yerinin alt təbəqəsində rast gəlinir. Üzəri şüyrələnmiş iri təsərrüfat küpləri sözügedən dövrün arxeoloji abidələri üçün xarakterik tapıntılardandır. Bu məmulatdan ərzaqın (dənli bitkilərin, digər meyvə qurularının və s.), şərabın saxlanılması üçün istifadə edilmişdir.

Maddi mədəniyyət abidələri və tapıntıları ilə zəngin olmasını Püstəqasım kəndinin Dəhnə adlı məhləsinin müxtəlif, lakin bir-birinə yaxın olan ərazilərindən tapılan keramika nümunələri də təsdiq edir. Püstəqasım kənd orta məktəbinin 7-ci sinif şagirdi Hacımuradov İsmayıl Fəxrəddin oğlu, kənd sakinləri tərəfindən ona hədiyyə olunan üç ədəd keramika nümunəsini məktəb müəllimlərinə təqdim etmişdir. Orta məktəbin dil-ədəbiyyat müəlliməsi Zümrüd Mustafayevanın tövsiyyəsi ilə həmin materiallar Hacımuradov İsmayıl tərəfindən 10 dekabr 2014-cü il tarixində MATM-ın əməkdaşı Laçın Mustafayevə təhvil verilmişdir. Eyni adlı materiallar – bir ədəd şirli gil çıraq (Şəkil 11), bir ədəd gildən oyuncaq qab (Şəkil 12), bir ədəd gil bardaq (Şəkil 13) muzey əməkdaşı tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fonduna hədiyyə kimi təhvil verilmişdir.

Qeyd edək ki, yuxarıda göstərilən materiallar ayrı-ayrı vaxtlarda kənd təsərrüfat işləri zamanı tapılmışdır. Məktəblinin maddi mədəniyyət nümunələrinə olan maraq və diqqəti nəticəsində qonşuları bu materialları ona hədiyyə etmiş, o da öz növbəsində bu materialları daimi mühafizə üçün muzey əməkdaşına vermişdir. Muzeyə təqdim olunan materiallar mühafizə edilməklə yanaşı, elmi tədqiqatlara cəlb edilərək, eyni

zamanda ekspozisiyada yerli və xarici qonaqlara nümayiş olunurlar.

Çırağın üzərində ağımtıl anqobdan ləkələr vardır. Gövdəsinin müəyyən hissələri şirlə örtülmüşdür. Qırmızı gildən hazırlanan çırağın şirlə örtülmüş hissələri qəhvəyi və yaşılımtıl rənglərə çalır. Qabın arxa tərəfində gövdə ilə ağzının aşağı hissəsini birləşdirən lentvari qulpu vardır. Qabın ağzının yuxarı hissəsi enli olub fincan şəklindədir. Çiyin hissəsində gövdə boyu iki ədəd paralel çızma çevrələr çəkilmişdir. Oturacağı və burun hissəsi qırılmışdır. Gövdənin diametri 8,7 sm, hündürlüyü 14 sm, uzunluğu 15 sm, qulpun hündürlüyü 7,5 sm, qulpun eni 1,7 sm, ağzının diametri 5,9 sm, boğazının diametri 2,8 sm, oturacağın diametri 6,3 sm-dir. Əlavə edək ki, şirsiz və şirli çıraqlar orta əsrlərdə geniş yayılmışdır. Qəbələ, Şəmkir, Beyləqan, Bakı, Şamaxı, İsmayıllı və s. Azərbaycanın bir sıra orta əsr şəhərlərində çıraq nümunələrinə rast gəlmək olar (2, s. 137). VIII əsrdən gec olmayaraq yaranan şirli keramika qısa zaman ərzində bütün ölkə ərazisinə yayılır. XII-XIII əsrlərədək yüksək inkişaf mərhələsi keçən keramika istehsalı monqol yürüşləri zamanı bir müddət durğunluq yaşamış, XIV-XV əsrlərdən etibarən yenidən dirçəlməyə başlamışdır. Göstərilən nümunə XV-XVI əsrlər, eləcə də daha sonrakı dövrlər üçün xarakterikdir (2, s. 133-142). Daha maraqlı bir tapıntı ağzı gül ləçəyi formasında olan dolçaya bənzər (səhəng-kuzə formalı) kiçik ölçülü gil oyuncaqdır. Qırmızı gildən hazırlanmışdır. Ağzının yuxarı hissəsi sınıq, oturacağı düzdür. Gövdənin diametri 3,5 sm, oturacağının diametri 2,4 sm, hündürlüyü 6,8 sm, boğazının diametri 1,4 sm-dir. Buna bənzər gil oyuncaqlar MATM-ın Arxeologiya fondunda mühafizə olunur (AF 1542, AF 1543, AF 1864, AF 2723, AF 27491, AF 27492, AF 27579, AF 27578, AF 27579, AF 27577, AF 27588, AF 27704, AF 27705, AF 27710). Fondda qorunan gil oyuncaqlar antik və erkən orta əsrlərə aid olub, Şamaxı, Ağsu, Mingəçevir və s. kimi rayonlarda aparılan arxeoloji qazıntılar zamanı tapılmışdır (4, s. 29-30). Heç şübhəsiz elə bu yeni tapıntı da erkən orta əsrlərin yadigarıdır. Tapıntı qədimdə yerli əhalinin zəngin və rəngarəng həyat tərzi sürdüyündən xəbər verir.

Keramika – saxsı məmulatı arxeoloji qazıntılardan toplanan, kəmiyyət və müxtəlifliyinə görə də öndə yer alan artefaktlar sırasına daxildir. Neolit dövründən son orta əsrlərədək Azərbaycanın elə bir abidəsi yoxdur ki, orada keramika istisna olsun. Məhdud ola bilər, lakin yoxluğu mümkün deyildir. Yerüstü tapıntılar arasında da bu məmulatın sayı kifayət qədərdir. Həmçinin kənd təsərrüfatı işləri, tikinti yenidən qurma, yol tikintisi, su çəkilişi zamanı və s. bir sıra arxeoloji materiallar müşahidə edilə bilər ki, burada da keramika nümunələri çoxluq təşkil edirlər. Quba rayonunun Püstəqasım kəndindən muzeyə təhvil verilən sonuncu tapıntı gil bardaqdır. Tək qulpu olan bardaq qırmızı rəngli gildən hazırlanmış, ağzı gül ləçəyi formasındadır. Qabın ağzının kənarı enli olub xaricə qatlanmışdır. Enli qulp qabın çiyni ilə ağzının kənarını birləşdirir. Oturacağı bir qədər dəyirmidir. Gövdənin yuxarı

hissəsi iki paralel cızma xətt ilə əhatələnmişdir. Bu paralel xəttin içərisində üfüqi basma naxışlar vardır. Gövdənin iki yerində kiçik sınıq var. Hündürlüyü 33 sm, ağzının diametri 12,2 sm, qulpun hündürlüyü 12,5 sm, qulpun eni 3 sm, boğazının diametri 10,3 sm, oturacağının diametri 14,5 sm, gövdənin diametri 22,5 sm-dir. Anoloji tapıntılara Qubanın digər abidələri ilə paralel Qəbələ, Şamaxı, Bərdə, Şəki, İsmayıllı və s. rayonların arxeoloji qazıntılarında tez-tez rast gəlinir (4; 7, s. 19-37).

Məqalədə MATM-a cəlb olunan təsadüfi arxeoloji materialların anoloji təhlili aparılmış, dövrünün müəyyən edilməsinə cəhd edilmişdir. Mövzunun dərindən və ətraflı araşdırılması gələcək tədqiqatlar üçün nəzərdə tutulur. Materialların elmi tədqiqat nöqteyi nəzərindən araşdırılması mövzunun aktuallığını şərtləndirir.

İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:

1. Avşarova İ.N., Pirquliyeva Q.Ə. Qafqaz arxeologiyası. Dərslik, Bakı, 2010.
2. Azərbaycan Arxeologiyası. Altı cilddə, VI cild. Bakı, 2008.
3. Göyüşov R. Azərbaycan Arxeologiyası. Bakı, 1986.
4. Orucov A. Ş. İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq. Bakı, 1989.
5. Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti (e.ə. IV – b.e. III əsrləri). Bakı , 1982.
6. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. – III в. н.э. Баку, 1990.
7. Нуриев А.Б. Из истории ремесленного производства Кавказской Албании. Баку, 1986.
8. Рзаев Н.И. Искусство Кавказской Албании, IV в. до н.э. – VII в. н.э., Баку, 1976.
9. Халилов Дж.А. Материальная культура Кавказской Албании (IV в. до н.э. – III в. н.э.). Баку, 1985.

Lachin Mustafayev

Casual archaeological findings from the village Pustaqasim of Guba region

Summary

Key words: *Casual archaeological findings, ceramics, metal wares, adornment thing, seed stone*

Article deals about casual archaeological findings found from quarry soil near the village of Pustaqasim of Guba region and territory of village while doing

farming works. These findings had handed over to staff member of National museum of history of Azerbaijan by secondary school pupils of the same village. As a result of commendable behavior of pupils and their care about our material culture these findings has been involved in scientific research. During research has done comparative analysis of artifacts and determined their period.

Лачын Мустафаев
Случайные археологически находки в селении Пюстагасым Губинского района
Резюме

Ключевые слова: *Случайная археологическая находка, металлические изделия, предмет украшения, зернотерка*

Статья посвящена случайным археологическим находкам, выявленным при добыче земли для строительных дел вблизи селения Пюстагасым и различных хозяйственные работах на территории селения. Эти находки были собраны учениками средней школы селения и переданы научному сотруднику НМИА,что свидетельствует о бережном отношении учеников к древним памятникам материальном культуры их селения. При исследовании проведена сравнительный анализ находок и определены их датировки.





Şəkil 2. Tunc sancaq



Şəkil 3. Tunc bəzək



Şəkil 4. Saxsı dolça



Şəkil 5. Dən daşı



Şəkil 6. Küpə tipli qabın fraqmentləri



Şəkil 7. Təsərrüfat küpünün oturacağı



Şəkil 8. Təsərrüfat küpünün ağız və çiyin hissəsi



Şəkil 9. Ağzı naxışlı təsərrüfat küpü



Şəkil 10. Şüyrəli və kəmər formalı çıxıntısı olan küp və saxsı fraqmentləri



Şəkil 11. Şirli gil çıraq



Şəkil 12. Gildən oyuncaq qab



Şəkil 13. Gil bardaq

Aida İsmayılova

Orta əsr mətbəx keramikasına dair
(Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)

Açar sözlər: *Arxeologiya fondu, orta əsrlər, mətbəx keramikası, qazan, qapaq*

UOT 902

Milli Azərbaycan Tarixi Muzeyində (MATM) orta əsrlər dövrünə aid müxtəlif təyinatlı keramika nümunələri qorunur. Onların içərisində qazan və qapaqlar xüsusi yer tutur.Həmin nümunələr haqqında mütəxəssislər tərəfindən müəyyən məlumatlar verilsə də, xüsusi olaraq tədqiqat obyekti olmamışdır. Orta əsrlərə aid saxsı qazan və qapaqlar haqqında Qara Əhmədov (3, s. 60-65; 4, s. 74; 9, s. 205-210) Əziz Novruzlu (14, s. 38-42), İshaq Cəfərzadə (10, s. 69-70), Vadim Leviatov (13, s. 6-7) müəyyən qədər məlumat vermişlər. Lakin qeyd edək ki, Q. Əhmədov əsasən 1953-1955-ci illərdə aşkar olunmuş qazan və qapaqlardan geniş bəhs etmişdir, Ə.Novruzlu isə demək olar ki, MATM-ın Arxeologiya fondunda qorunan qazan və qapaqlar haqqında məlumat verməyib, belə ki, müəlllifin tədqiqat işi Azərbaycanın IX-XVII əsr keramikasına aid olsa da, orada ancaq Q. Əhmədovun tədqiqatlarına istinad edərək mövzuya səthi şəkildə toxunmuşdur. Müəllif daha çox Naxçıvan materiallarını geniş şərh etmişdir. İ. Cəfərzadə və V. Leviatovun əsərlərində isə qazanlar və qapaqlar haqqında olduqca az məlumata rast gəlinir, onlar haqqında informasiyanı bir cümlə ilə xarakterizə edə bilərik. Əgər Beyləqan şəhər yerindən tapılmış qazan və qapaqlar müəyyən qədər öyrənilmişdirsə, Gəncə şəhər yerindən tapılanlar tədqiq olunmayıb. Eyni fikri Bəndovan şəhər yerindən aşkar olunmuş qazan və qapaqlar haqqında da deyə bilərik. Qeyd olunanları nəzərə alaraq hazırkı məqalədə MATM-ın Arxeologiya fondunda qorunan IX-XIII əsrin əvvəllərinə aid qazan və qapaqları tədqiqata cəlb etməyə cəhd etmişik. Qazan və qapaqların öyrənilməsi ilə o dövrün mətbəx keramikası, şirsiz saxsı məmulatı barədə təsəvvür daha da genişlənəcəkdir. Uzun illərdən bəri Arxeologiya fondunda öz tədqiqini gözləyən şirsiz saxsı məmulatına aid mətbəx keramikasının kompleks tədqiqinə səy göstəilmişdir. Əsas məqsəd mətbəx keramikasına aid edilən qazan və qapaqları sistemləşdirmək, onların səciyyəvi xüsusiyyətlərini qeyd etmək, tipoloji təsnifatını aparmaq, inkişaf mərhələlərinə nəzər salmaqdır.

MATM-da qorunan şirsiz saxsı qazanlar Beyləqan, Gəncə, Bəndovan, Qəbələ, Bərdə şəhər yerlərindən aşkar olunmuşdur. Ümumi götürdükdə isə Beyləqandan tapılan nümunələr çoxluq təşkil edir, lakin onların da böyük əksəriyyəti tam halda deyil.

Saxsı qazan və qapaqların hazırlanması təbii ki, orta əsrlər dövründən başlanmır. Qeyd edək ki, sadə şəkildə olsa da gildən qazanların hazırlanmasına hələ neolit dövründən başlanmışdır (8, s. 69-70). Bu haqda Osman Həbibullayev tədqiqatlarında məlumat vermişdir. O qeyd edir ki, eneolit dövründə qazan formalı qablar hazırlanmışdır. Onların bəziləri formalarına görə bir-birindən müəyyən qədər fərqlənmişdir. Belə ki, onların bəzilərinin geniş və yastı oturacağı, bir az qabarıq, qalın divarları var. Onların gilinin tərkibində saman çoxdur, bu da qazanların divarlarını qalın və möhkəm edir. Bəzi nümunələrin isə divarları nazik olub, səthləri şürələnib, bəzilərinin mərkəzində qulp yerinə iki ədəd yastı və dairəvi çıxntı var. Qazanların üzərində həmçinin his izlərini görmək mümkündür (8, s. 69). Müəllif digər bir tədqiqat əsərində çəlləkşəkilli qablardan bəhs edir. Qabların təsvirindən belə anlamaq olar ki, onlar çox güman ki, qazanların ilk variantı olmuşdur (6, s. 61). Tunc dövründə nisbətən xeyli təkmil olmuş, bəhs etdiyimiz dövrdə isə olduqca nəfis saxsı qazanlar hazırlanmışdır. Hətta az da olsa XII əsr –XIII əsrin əvvəllərində də metaldan zərif işləməli düzəldilmiş qazanlardan istifadə olunmuşdur.

Qazanlar kimi qapaqların hazırlanması neolit dövründən başlanır. O. Həbibullayev yazır ki, Kültəpədən aşkar olunmuş qapaqlar ayrıca tip təşkil etmir. Çox az sayda tapılan qapaqların hansı qablara məxsus olduğunu da demək çətindir. Qapaqların hər iki üzü yastıdır, çox güman ki, qulpları çıxıntılar əvəz etmişdir (8, s. 71) . İlk orta əsrlərdə saxsı qabların hazırlanmasında müəyyən durğunluq yaşansa da,tamamilə tənəzzül etməmişdir. Bu dövrdə də qazan və qapaqlar hazılranmışdır. Abdulla Orucovun öz tədqiqat əsərində qeyd etdiyi qapaq tutacaqlarını IX-XIII əsrin əvvəllərinə aid qapaqlarda da görmək olar (7, s. 31-32).

Qazanları tutumuna görə iki qrupa ayırmaq olar: kiçik və böyük tutumlu. Kiçik tutumlu qazanların həcmi 18-30 sm, böyük olanların isə 30-44 sm arasında dəyişir. Qazanların tutumu onların müxtəlif yeməklərin hazırlanması üçün nəzərdə tutulduğunu deməyə əsas verir. Qazanları həmçinin lüləkli və lüləksiz olaraq iki qrupa ayırmaq olar. Bundan başqa onları formasına, hazırlanmasına görə tiplərə bölmək olar.

I tip qazanlar şarvari gövdəyə malik olub, geniş ağzı vardır. Ağzının qırağı bir az kənara qatlanmışdır. Onların üzərlərində düz və dalğavari xətlər olur. Bu qazanlar əsasən əl ilə hazırlanmışdır, IX-XI əsrlərə aid edilir (3, s. 61), (tablo I, şəkil 1,2). Oxşar nümunələr son dövrlər arxeoloji qazıntılar aparılan Şəmkir şəhər yerindən də tapılmışdır. Maraqlıdır ki, həm Şəmkir şəhər yerində olan fraqmentlərdə, həm də Beyləqan və Gəncədən tapılan nümunələrin üzərində üç-üç qruplaşdırılmış

nöqtələrə rast gəlirik. Bu, təkcə şirsiz qazanlarla məhdudlaşmır, həmin dövrə aid şirli keramika nümunələri üzərində də biz belə nöqtələr qrupunu görürük, xüsəsən də bu quş təsvirli şirli qabların üzərində daha aydın şəkildə müşahidə olunur. Oxşar nümunə Şamaxı şəhər yerindən də məlumdur (11, s. 57).

II tip qazanlar yarımşar formalı gövdəyə malik olub, bir qədər içəri tərəfə doğru olan ağzı vardır. Bu tipə aid olan qazanların qulpları bir qədər ağızdan yuxarıdır və cəftəvari formadadır. Q.Əhmədov yazır ki, qazanların alt tərəfi qəlibdə, boğazı isə dulus çarxında hazırlanmış və sonra bir-birinə birləşdirilmişdir (3, s. 63), (tablo I, şəkil 3). Qazanlar əsasən XI-XII əsrlərə aiddir. Qeyd edək ki, oxşar nümunələr Şəmkir (2, s. 235), Şabran (1, şəkil 53), Xaraba-Gilan (12, s. 148) şəhər yerlərindən də məlumdur.

III tip qazanlar yarımşar formalı gövdəyə malik olub, geniş ağızları vardır. Bu qazanlar daha çox naxışlanması ilə diqqəti cəlb edir. Qazanların gövdələri və çiyin hissələri zəncirvari kəmərlər, yapma qurşaqlar, yana doğru çəpəki çəkilmiş xətlərlə salınmış naxışlarla bəzədilmişdir. Saxsıları qırmızı və çəhrayı rəngə çalır (tablo I, şəkil 4,5).

IV tip qazanlar sferik gövdələri, qapaq qoyulması üçün arxaya doğru yastılaşdırılmış geniş ağızları vardır. Q.Əhmədov XI-XIII əsrə aid bu qazanların daha mükəmməl formaya malik olduğunu və çiyin hissələrinin nisbətən zəngin naxışlandığını qeyd edir. Bu qazanlar cəftəvari dəstəklərə, zəncirvari kəmərlərə, yumru və "itayağı" çıxıqlara malikdilər. (3, s. 64), (nablo I, şəkil 6). Firuzəyi rəngli şirli qab qırıqları ilə inkrustasiya isə qazanların əsas səciyyəvi naxışlarıdır.

V tip qazanların yarımkürəvi gövdələri və arxaya doğru yastılaşdırılmış ağızları var. Bu qazanların lüləyinin olması əsas fərqləndirici əlamətidir. Qazanların lüləyi onların çiyin hissəsinə yapışdırılmış və qabın ağzına doğru qaldırılmışdır. Qabların qulpları və çiyinləri naxışlanmışdır. Lüləkli qazanlar Beyləqan, Gəncə, Bəndovan şəhər yerlərindən məlumdur (tablo I, şəkil 7,8). Q. Əhmədov Beyləqan qazanlarının çiyinlərində olan yumru çıxıqların təkcə dekorativ bəzək funksiyası daşımadığını, həm də ayin xassəsi daşıdığını qeyd edir. Lüləli qazanlar çox güman ki, duru xörəklərin hazırlanmasında istifadə olunub. Oxşar qazan nümunəsinə Şəmkir şəhər yerində də rast gəlinmişdir (2, s. 233-234).

Göründüyü kimi, mətbəx keramikasına daxil olan qazanlar zamanla öz formasına və dekoruna görə xeyli təkmilləşmişdir. Bu qazanların ocaq üzərində yemək bişirmək üçün istifadə olunması şübhəsizdir. Qazanların əksəriyyətinin üzərində his izləri aydın şəkildə görünür. Q. Əhmədovun fikrincə, saxsı qazanların paslanmaması və paxır atmamasının o dövrdə işlənən tunc və mis qazanlara nisbətən onların müəyyən üstünlük qazandırmışdır (3, s. 65).

Yuxarıda qeyd etdiyimiz qazanların demək olar ki, tam oxşar nümunələri Qəbələ şəhər yerindən də tapılmışdır. Rəşid Göyüşov onları üç qrupa bölmüş və

onların səciyyəvi xüsusiyyətlətini qeyd etmişdir. Müəllif məqaləsində Mingəçevir şəhər yerindən də belə gil qazanların tapıldığını qeyd etmişdir. (5, s. 645-649).

Şirsiz saxsı məmulatı içərisində qapaqlar da özünəməxsus yer tutur. MATM-da Beyləqan, Gəncə, Bəndovan şəhər yerlərindən tapılmış saxsı qapaqlar qorunur və onlar əsasən müxtəlif təyinatlı qablara məxsus olmuşdur. Beyləqandan aşkar olunan qapaqların ayrı-ayrı nümunələri haqqında Q. Əhmədov bəhs etmiş, onları istehsal dövrünə görə, IX-X və XI-XIII əsrin əvvəllinə aid etmişdir (3, s. 82). Lakin qapaqları təsnif etməmişdir. Biz ümumi şəkildə MATM-ın fondunda olan nümunələri aşağıdakı şəkildə təsnif edirik:

I qrupa disk formalı, qırmızı rəngli, məsaməli saxsısı olan, üzərində dalğalı,spiralvari xətlər və ya çiçək, qoçbuynuzunu xatırladan təsvirlər, ulduzvari naxışlar olan, əl ilə hazırlanmış böyük qapaqlardır. Qapaqların tutacaq yerləri bəzilərində halqa, bəzilərində yumru formalı olub, ağzınını kənarı yuxarı qalxmışdır (tablo II, şəkil 1); II qrupa yastı formalı, yarımdairəvi qulpu olan, üzəri nöqtələr, sınıq xətlərlə naxışlanmış qapaqlar daxildir. Onlar dulus çarxında hazırlanmışdır (nablo II, şəkil 2); III qrup zəngəbənzər qapaqlarla təmsil olunub. Onların ağzının kənarları yastı olub, üzəri kiçik dairələr, bir-birini kəsən əyri xətlər və lövbərə bənzər fiqurlarla bəzədilmişdir. (tablo II, şəkil 3).

Qeyd edək ki, qapaqlar kiçik, orta və böyük ölçülüdürlər. Kiçik qapaqların həcmi 6-18 sm, orta ölçülü olanlar 20-30 sm, böyüklər isə 32-40 sm arasında dəyişir. Qapaqlar içində tutacaq yeri it fiquru formasında olanı maraqlıdır. Fiqurda itin gözləri aydın seçilir, quyruğu qatlanmış haldadır (Səhra qeydi s/q 115).

Qapaqları üzərlərində olan təsvirlərə əsasən də variatlara ayırmaq olar. 1) Üzəri xətlərlə və cızıqlarla naxışlanmış olanlar; 2) Üzəri gül-çiçək şəkilli təsvirlərlə naxışlanmış olanlar (tablo II, şəkil 4); 3) Üzəri heyvan təsvri ilə naxışlanmış olanlar (tablo II, şəkil 5). Təsvirlər içərisində üzərində altıguşəli – Davud ulduzu olan qapaq fraqmenti maraq doğurur. Belə ki, basma üsulu vurulmuş Davud ulduzunun içərisində çiçəyə bənzər təsvir var. Bu təsvirə az da olsa, şirli qabların üzərində də rast gəlinmişdir (s/q 196/2, tablo II, şəkil 7). Qapaqların demək olar ki, hamısı şirsizdir, yalnız iki ədəd kiçik ölçülü şirli qapağa rast gəlinmişdir.

Qeyd edək ki, Gəncə şəhər yerindən tapılmış qapaqların üzərində basmanaxışlı küplərdə olduğu kimi təsvirlər və quş rəsmi var. Beyləqan qapalarında buna rast gəlmirik. Ümumi götürdükdə isə Gəncə şəhər yerindən tapılmış qapaqlarla Beyləqandan olan nümunələr arasında elə böyük bir fərq yoxdur. Gəncə şəhər yerindən tapılmış bir ədəd kiçik ölçülü qapağın üzəri firuzəyi rəngli şirlə bəzədilmişdir. (İnv. 2749, tablo II, şəkil 8). Gəncədən tapılmış digər bir qapaq fraqmenti maraq doğurur. Belə ki, fraqmentin üzərinə basma üsulu ilə maraqlı təsvir vurulmuşdur. Təsvirdə ortada həyat ağacı və onun ətrafında qarşı-qarşıya durmuş keçilər və tək-tək hərəkət halında olanları görmək olar. Onların da ətrafına

üç-üç qruplaşdırılmış nöqtələr qrupunu görmək mümkündür. Qeyd edim ki, üç-üç qruplaşdırılmış nöqtələr qrupu Səlcuq dövrü keramikası, xüsusən quş təsvirli şirli qablar üçün səciyyəvidir. Haqqında danışdığımız qapaq fraqmentinin üzəri göy rəngli dənəciklə bəzədilmişdir. Maraqlıdır ki, təsvirdə olan keçilər kiçik medalyonu xatırladan göy rəngli daşdan sağ və sol istiqamətində hərəkət edirlər. Çox güman ki, qapaq süfrə qabına məxsusdur və əhalinin daha zəngin təbəqəsinin istifadəsində olmuşdur (tablo II, şəkil 6). Gəncə şəhər yerindən tapılmış digər bir qapaq fraqmentində kənarlarına basma üsulu ilə həndəsi təsvir, romblar, onların içinə və ətrafına isə nöqtələr vurulmuşdur. Fraqmentin mərkəzində qarşı-qarşıya dayanmış quş təsvirlərini görmək olur. Təsvir tam aydın olmasa da orada quşlardan birinin tovuzquşu olduğu seçilir (İnv. 2326). Qapaqlar üzərində basma naxışın vurulması Gəncədən aşkar olunanlar üçün səciyyəvidir. Digər şəhər yerlərindən tapılmış nümunələrdə belə naxışlara rast gəlinməmişdir.

Arxeologiya fondunda qorunan Bəndovan I və II şəhər yerlərindən aşkar olunmuş qapaqların üzərində demək olar ki, nəbati və zoomorf təsvirə rast gəlinməmişdir. Qapaqların üzərində yalnız dalğalı və cızma xətlər var.

Məqalədə tədqiqata az cəlb olunmuş şirsiz saxsı məmulatının bir hissəsini təşkil edən qazan və qapaqlar haqqında ümumiləşdirici, sistemli məlumat verilməyə cəhd olunmuş, Gəncə və Bəndovan şəhər yerlərindən aşkar olunmuş nümunələr ilk dəfə elmi dövriyyəyə daxil edilir.. Bəhs olunan dövrdə saxsı qazan və qapaqlardan çox istifadə olunması metal məmulatına nisbətən saxsı məmulatının daha ucuz başa gəlməsi ola bilərdi. Saxsı qazan və qapaqlar IX-XIII əsrin əvvəllərində əhalinin orta təbəqəsinin məişətində əsas yer tutmuş və geniş istifadə olunmuşdur.

İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:

1. Dostiyev T. Şimal-şərqi Azərbaycan IX-XV əsrlərdə (Quba-Xaçmaz bölgəsinin materialları əsasında taixi-arxeoloji tədqiqat). Bakı, 2001.
2. Dostiyev T., Bəşirov R. Mirzəyev R. Hüseynli N. Orta əsr Şəmkir şəhəri: Arxeoloji qazıntılar və artefaktlar. Bakı, 2013.
3. Əhmədov Q. Azərbaycanın şirsiz saxsı məmulatı. Bakı, 1959.
4. Əhmədov Q. Örənqala (tarixi-arxeoloji oçerk). Bakı, 1962.
5. Göyüşov R. B. Qəbələ şəhəri qazıntılarından tapılmış gil qazanlar haqqında. // Azərbaycan SSR Elmlər Akademiyasının məruzələri. 1961, cild XVII, № 7. s. 645-649.
6. Həbibullayev O. A. Kültəpə arxeoloji qazıntılar. Bakı, 1959.
7. Orucov A. Ş. İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq. Bakı, 1989.
8. Абибуллаув О. А. Энеолит и бронза на территории Нахичеванской АССР . Баку, 1982.

9. Ахмедов. К. Неполивная керамика Оренкала IX-XIII вв. // МИА, 1959. № 67. с. 187-191, с. 205-210.
10. Джафарзаде И. Историко-археологический очерк старой Ганджи. Баку, 1949.
11. Джидди Г. А. Средневековый город Шемаха (IX-XVII века). Баку, 1981.
12. Ибрагимов Б. И. Средневековый город Киран. Баку-Москва. 2000.
13. Левиатов В.Н. Керамика старой Ганджи. Баку, 1940.
14. Новрузлу А. Средневековая керамика Азербайджана (IX-XVII вв.). Баку, 1993.

Aida İsmailova
About medieval kitchen ceramics
(On the basis of materials of National museum of history of Azerbaijan)

Summary

Key words: *Archaeological fund, medieval, kitchen ceramics, pot, lid*

The article deals about kitchen ceramics protected at the Archaeological fund of Natioanl museum of history of Azerbaijan. At the Archaeological fund protected pot and lids found from Beylagan, Ganja and Bandovan. Author had touched main characteristic features of pots and lids, systematized them, also had did typological division of pots. Learning kitchen ceramics belonging IX- beginning XIII centuries show pots and lids had took main place of everyday life of middle class.

Аида Исмаилова
О средневековой кухонной керамике
(на материалах Национального Музея Истории Азербайджана

Резюме

Ключевые слова: *Фонд археологии, средневековье, керамика, казан, крышка*

Статья посвящена кухонной керамике IX–XIII вв., хранящейся в фонде археологии Национального Музея Истории Азербайджана. К ней относятся казаны и крышки, обнаруженные в средневековых Бейлагане, Гяндже и городище Бяндован. Автор описал особенности казанов и крышек, систематизировал и типологически классифицировал их. Изучение казанов и крышек IX–XIII вв. приводит к выводу, что они занимали основное место в быту среднего сословия.

Tablo I. Qazanlar



1



2



3



4



5



6



7



8

Tablo II. Qapaqlar



1



2



3



4



5



6



8



7

Эмин Мамедов

Керамическое производство в древнем Самунисе-Мингечауре (на основе коллекции Национального Музея истории Азербайджана)

Ключевые слова: *Самуниса (Мингечаура), печи и керамика Кавказской Албании, Ялойлутепинская культура*

UOT 902

Гончарное дело, являющееся одним из древнейших видов ремесла, возникло на территории нашей страны еще в период неолита, в связи с переходом от присваивающего хозяйства к производящему (1, с. 7). Керамическое производство относится к числу наиболее древних на земле. Наличие легкодоступного материала – глины обусловило раннее и практически повсеместное развитие керамического производства. Уже в эпоху бронзы быстро совершенствуются технология керамического производства, появляются сосуды сложных форм, с богатой орнаментацией геометрического растительного зооморфного и антропологического типа (4, с. 104). В античный период, когда, в северной части исторического Азербайджана, сложилось государство Кавказская Албания, здесь произошел новый всплеск в развитии керамического производства и появились необычайные по форме сосуды, получившие в науке названия Ялойлутепинских.

В 1926 г. археологическими обследования Нухинского (Шекинского) района в местности Ялойлутепе, впервые были открыты погребения со своеобразной по форме и декорации керамики (11, с. 1-32). Эти раскопки явились началом дальнейшего выявления погребений ялойлутепинского типа в разных районах Азербайджана, а также в восточной Грузии.

В последующие годы исследователи (Г.И.Ионе, Т.И.Голубкина, О.Ш.Исмизаде, Дж.А.Халилов, И.А.Бабаев, А.Бадалов, Г.О.Гошгарлы и др.) на основании анализов и сопоставления керамических артефактов, обнаруженных в результате археологических раскопок в районе Мингечаура, значительно расширили фактологическую базу данных о керамических изделиях этого типа и определить их датировки с IV века до н.э. по III век н.э.

Будучи самым многочисленным материалом, среди выявленных при

раскопках городища Самунис и его погребений античного периода, изделия из керамики. Предоставляют возможность установить размер и характер керамического производства данного города, а также получить сведения о странах, с которыми античный Самунис имел тесные торговые связи. (3, с.23-26, 5, с.33-40)

В этом аспекте анализ керамического материала древнего Самуниса представляет определенный научный интерес. Он показывает, что в период античности местным ремесленникам Самуниса (Мингечаура) были хорошо известны разные сорта глины, а также методы их обжига. Процесс изготовления керамических изделий начинался с тщательного размешивания глины с водой. Для грубых изделий, как например строительных кирпичей, в глину добавляли в качестве отощающего материала разные примеси - солому, стебельки растений, песок, дробленный керамический бой и т.д., иначе, при недостаточном количестве в керамической массе отощающих материалов, изделия растрескиваются при сушке, вследствие большой их усадки. После сушки острые грани кирпича тесали, а затем его обжигали. Качество обжига было высоким, при обжиге кирпич приобретал светлокрасный или желтоватокрасный цвет (2, с. 69)

На рисунке № 1 представлен красноглиняный квадратный обожженный строительный кирпич. Размеры высота: 24 см. и толщина: 5 см.

Анализы самуниских (мингечаурских) строительных кирпичей показали содержания в них подобных отощателей, а также то, что формой для кирпичей являлись деревянные ящички разных размеров: 50х50х13, 45х45х12, 40х40х10 и т.д.

Масса глины для изготовления обычных изделий, в частности, хозяйственной посуды, смешивались с крупным или мелким песком, размельченным керамическим боем. Отощатель применялся при изготовлении больших хозяйственных кувшинов, которые использовали и для погребения усопших. На рисунке № 2 представлен данный крупный сельскохозяйственный кувшин из красной глины сфероконической формы, а также верхняя часть горловины с гребенчатым орнаментом. Общий вес: 30-40 кг, общая высота - 85 см, внешний диаметр горловины - 28 см, ширина канта горловины - 4 см, размер тулова - 70 см. и диаметр дна - 15 см.

Гончары Самуниса (Мингечаура) перед изготовлением изящных изделий с художественной и зооморфной керамикой вначале глину специально отмучивали на рисунке № 3 представлен крашенный зооморфный сосуд красного цвета, сделан от руки из глины с примесью крупного песка; обжиг ровный от середины шеи животного идет горизонтальная ручка, соединяющаяся с венчиком отверстия диаметром 4,2 см., которое помещено

на спине животного в виде горловины сосуда. Длина всей фигуры 15, см, высота фигуры с головой 11,5 см., внешний диаметр груди фигуры 7,5 см. На поверхности зооморфного сосуда нанесены различные узоры красной краской видимо из охрой.

Таким образом, гончары в зависимости от назначения отдельных видов керамики, предъявляли разные требования к сырью и его обработке. Так как состав глины был неодинаков, поэтому и получалась разница в расцветке посуды: светло-желтая, красная, кирпичная и т.д., присутствие в глине окисей алюминия придают посуде светло-желтый цвет.

Цвет керамики, как известно, зависит еще от способов обжига, но так как в рассматриваемой культуре, преобладающим цветом является красный, то это указывает на существование одного только способа обжига – окислительного при температуре около 900-1000 градусов Цельсия (8, с. 35). Большей частью посуда лепилась от руки, иногда – на плоской, не вращающейся подставке, или при помощи, медленно поворачиваемой руками доски, а возможно, оттискивалась в деревянных или керамических формах.

Исследуемый нами период показал, что керамические изделия вырабатывались без помощи быстро вращаемого гончарного круга. В период кувшинных погребений стал преобладать способ ленточной лепки. До этого при изготовлении сосуда часто пользовались отдельными частями сосуда: нижняя и верхняя половина вместе с горловиной изготовлялись отдельно. На рисунке № 4 представлен крупный сельскохозяйственный красноглиняный кувшин сфероконической формы, а также на верхней части горловины имеется гребенчатый орнамент, на верхней части тулова также нанесен в виде глиняного налепа змеявидный узор. Размеры кувшина: общий вес составлял приблизительно: 50-60 кг, общая высота - 115 см, высота горловины - 11 см, внешний диаметр горловины - 29 см, ширина канта горловины - 4 см, ширина узора в виде змеи - 3 см, размер тулова - 70 см, диаметр дна - 18,5 см.

При рассмотрении фрагментов кувшинов, особенно крупных размеров, можно заметить, что в налепляемой ленте для лучшего сцепления делались впадины и выпуклины.

В поздний эллинистический период гончарный круг имел приспособление, с помощью которого его можно было вращать ногой, и гончар соответственно мог работать обеими руками рисунок № 5.

После того, как нужная форма сосуда получена, часто ее орнаментировали по сырому тесту до обжига, и наносился желаемый рисунок или налепа из глины. Иногда на ручке, на венчике горловины делалась метка владельца сосуда. На рисунках под № 6, 7 и 8.

На рисунке № 6 представлен красноглиняный кувшин с тонкостенной

выделкой, с одной ручкой. Горловина сосуда похожа на венчик лепестка с налепом. Кувшин имеет плоское дно. Размеры кувшина: высота - 22 см, внешний диаметр горловины - 8 см и диаметр дна - 9 см.

На рисунке № 7 представлен кувшин, изготовленный из светлокрасной глины с одной ручкой. Вокруг горловины имеются 11 слоев складок. Часть горловины сломана. Кувшин имеет плоское дно. Размеры кувшина: высота - 17,5 см, внешний диаметр горловины - 8,5 см и диаметр дна - 8,5 см.

На рисунке под № 8 представлена глиняная молочница ялойлутепинского типа с одной ручкой светлорозового цвета, сделанная из тонко-отмученной глины. Туловище округло-биконической формы, слив чрезвычайно длинный. Размеры сосуда: высота - 20 см, размер тулова - 15,5 см, внешний диаметр отверстия - 18,5 см и диаметр дна - 7,5 см.

Но клейм на дне не употреблялся. Иногда поверхность сосуда до обжига подвергалось лощению. Для этой цели чаще всего использовали каменные гладилки, одна из таких гладилок из агата была обнаружена Е.А. Похомовым и Гаибовым на правобережном могильнике в Мингечауре. До обжига в печах готовые изделия сначала просушивались. Судя по огромному количеству и разнообразию глиняной посуды и гончарным обжигательным печам, керамическое производство в это время уже выделилось в самостоятельное ремесло.

По всей вероятности, простую, обыденную посуду изготовляли женщины, а посуду больших размеров, оформленных художественной, зооморфной керамикой выделывали специалисты, ремесленники-гончары.

Большую работу по раскопкам и изучению кувшинных погребений как в Мингечауре, так и в ряде других районов провела Т.И. Голубкина; ею рассмотрен вопрос о зооморфной керамике из Мингечаура, о марках (метках) на керамике, об отдельных находках (4, с. 103-140).

Большие хозяйственные кувшины, обжигались в ямах, такие ямы с находящимися в них большими кувшинами, датируемые I-II вв. н.э., были обнаружены С.М. Казиевым в Акстафинском районе в 1954 г.

Возможно, в этих печах обжигали свою продукцию сразу несколько семей, как это практиковалось в Дагестане (12, с. 20). Детские игрушки, бусы, могли обжигаться в обычных печах, в которых готовилась пища.

На обоих берегах реки Куры были обнаружены обжигательные печи в Самунисе (9, с. 396-403). Вопрос о печах был тщательно разработан Г.И. Ионе (8, с. 31-79) и по его классификации печи делились на три группы:

а) двухярусные гончарные обжигательные печи прямоугольной формы с более или менее сложной системой жаропроводных каналов изображена на рисунке № 9.

Они обнаружены только на территории древнего могильного поля на правом берегу реки Куры.

б) двухярусные гончарные обжигательные печи эллипсовидной и прямоугольной формы изображена на рисунке № 10, у которых внутри топочных камер находятся одпорные стены и упрощенная система жаропроводных каналов. Эти печи были обнаружены в Мингечауре только на левом берегу на территории древних населенных пунктов городища №2 и №3.

г) гончарные горны упрощенного, круглого типа, найденные на окраине территории городища №2. Изображена на рисунке № 11.

Самуниские (Мингечаурские) печи работали на дровах, в отвалах золы вокруг печей было обнаружено много древесного угля. Данный вид топлива был местным, так как территория античного Самуниса (Мингечаура) была богата густым лесом вплоть до строительства ГЭС в 1946-1953 гг.

В лесах Самуниса (Мингечаура) росли такие сорта деревьев как саккыз-агач, карагач, арчан и др. Древесина саккыза-агача при сжигании обладает удивительным свойством: оно медленно разгорается, горит долго с высокой температурой и гаснет чрезвычайно медленно. Установлено, что данная порода применялась в качестве топлива во время обжига керамических печей. Самуниские (Мингечаурские) правобережные печи по своему типу очень близки к так называемым античным или поздне-римским двухярусным печам, и стратиграфические совпадающие с культурным слоем кувшинных погребений, синхронные им и должны быть датированы периодом существования в Самунисе (Мингечауре) культуры кувшинных погребений, т.е. III-I вв. до н.э. и II-I вв. н.э.

Одним из основных факторов ремесленного развития в Самунисе (Мингечауре) печей усовершенствованного типа античного периода, а также массовое производство керамических изделий, следует считать и общее развитие всего уклада хозяйственной жизни местного населения, оседлый земледельческий образ жизни жителей в этот период.

Левобережные печи по типу конструкции относятся к разряду двухъярусных печей эллипсовидной формы, в значительной мере также способствуют кувшинные погребения. Кувшинные погребения, обнаруженные вблизи печей эллипсовидной формы, и по керамическим изделиям и по предметам погребального инвентаря, датируются как поздние захоронения (приблизительно II-III вв. н.э.).

Поэтому есть основание начальную хронологическую грань датировки левобережных печей, главным образом эллипсовидной формы, отнести к концу III и началу IV в. н.э. (10, с. 201-210). К более раннему периоду причислить их нельзя, потому что до этого времени в Мингечауре действовали печи только

правобережного типа. Таким образом, следует заявить, что Левобережные печи эллипсовидной формы, не претерпевая существенных изменений в конструкции, просуществовали здесь вплоть до VII-VIII вв. н.э.

Как показывает анализ кувшинных погребений Южного Кавказа, они в исследуемый период имели повсеместное распространение во всем регионе, как в низменных, так и в предгорных и горных зонах (6, с. 247). Но вместе с тем на сегодняшний день наибольшая плотность некрополей с кувшинными захоронениями фиксируются именно на территории Азербайджана и в частности в долине Куры, Мильской и Муганской степях, предгорьях и горах Большого и Малого Кавказа, а также в Талышских горах (7, с. 30).

Среди керамики из кувшинных погребений можно отметить ряд форм очень устойчивых и распространенных по всему ареалу распространения кувшинных погребений. Например, кувшины с носиками, чашки, так называемого мингечаурского типа, фляги и т.д. Их распространенность указывает на массовую выделку, следовательно, уже на товарность производства. Выше отмечалось о переходе некоторых керамических изделий из одной области в другие, как например, «Ялойлутепинских чайников», в свою очередь, являлись моделями для местных гончаров, подражавших им.

Мастерство ремесленников-гончаров Кавказской Албании вызывает и посей день большое восхищение перед посетителями Национального Музея истории Азербайджана.

Богатейшие археологические материалы, выявленные из античного города Кавказской Албаний Самунис (Мингечаур), являются незаменимыми источниками, как для научно-исследовательских работ, так и для большой просветительской работы по изучению материальной культуры Азербайджана.

Список использованной литературы:

1. Агамалиева С.М. Гончарство Азербайджана (историко-этнографическое исследование), Баку, 1987
2. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. – III в. н.э. Баку, 1990
3. Бабаев И.А. Археологические следы Великого Шелкового пути на территории Азербайджана. «Дорога Страбона» как часть Великого Шелкового пути: Материалы Международной конференции (Баку, 28-29 ноября 2008 г.) Самарканд-Ташкент-2009
4. Голубкина Т.И. О зооморфной керамике из Мингечаура. Материальная культурная Азербайджана, вып. II, Баку,1951
5. Гошгарлы Г.О. Из истории изучения «Дороги Страбона» в Азербайджане.

«Дорога Страбона» как часть Великого Шелкового пути: Материалы Международной конференции (Баку, 28-29 ноября 2008 г.) Самарканд-Ташкент-2009
6. Гошгарлы Г.О. «Поликонфессиональность» древнего Азербайджана по данным археологии. Баку, 2014
7. Гошгарлы Г.О. Типология погребальных памятников античного периода на территории Азербайджана. Баку, 2012
8. Ионе Г.И. О гончарных обжигательных печах из Мингечаура. Материальная культурная Азербайджана, вып. II, Баку,1951
9. Казиев С.М. Новые археологические находки в Мингечауре. Доклад АН АзССР, т. IV, вып. 9, Баку, 1948
10. Казиев С.М., Асланов Г.М. О двух кувшинных погребениях. Материальная культурная Азербайджана, вып. II, Баку,1951
11. Шарифов Д.М. Раскопки в Ялойлутапе (Нухинский уезд, 1926 г.). Изд. Общества обследования и изучения Азербайджана, Баку, 1927
12. Шиллинг Е.. Балхар, Пятигорск, 1936

Emin Məmmədov

Qədim Samunis-Mingəçevirdə saxsı məmulatı istehsalı (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)

Xülasə

Açar sözlər: *Samunis (Mingəçevir), Qafqaz Albaniyasının keramikası və dulus sobaları, Yaloylutəpə mədəniyyəti*

Məqalə Qafqaz Albaniyasının Samunis (Mingəçevir) qədim şəhərinin keramika məhsullarının istehsalı üsullarına həsr olunub. Azərbaycan Tarixi Milli Muzeyinin fondlarında saxlanılan antik dövrə aid arxeoloji materialların əsasında Yaloylutepe və Samunis (Mingəçevir) mədəniyyətləri arasında əlaqə təyin edilmişdir, hansı ki, qədim Qafqaz Albaniyasının oturaq həyat tərzi keçirən əhalisinə məxsus olan yeni arxeoloji mədəniyyət növünü aşkar etmişdir. Bu materialların Yaloylutepedən tapılan keramik əşyalarla müqayisəsi arxeoloqlar tərəfindən (Ye. A Paxomov, S. Kaziyev, İone, Ş. İsmizadə (Sadıxzadə), T. I. Qolubkina, I.A. Babayev, Q. O. Qoşqarlı və başqaları) onların eramızdan əvvəl İV əsrdən bizim eramızın İİİ əsrinə qədər olan dövrə aid olmasını təsdiq etməyə əsas vermişdir. Bu unikal əşyaların digər mədəniyyətlərdən olan məhsulların əsas fərqləri qabların xarici forması, işləmə texnikasına, gilin yandırılması və rənginə görə təyin edilmişdir.

Emin Mamadov

Ceramics production in the ancient Samunis (Mingachevir) (based on the collection of the National Museum of History of Azerbaijan)

Summary

The article is devoted to the production of pottery of the ancient city of Samunis (Mingechevir) of Caucasian Albania. Based on archaeological materials are being kept at the funds of the National Museum of the History of Azerbaijan pertaining to the ancient period, it was established a link between the Yaloylutepe culture and Samunis (Mingechevir) that discovered a new type of archaeological culture specific to the sedentary population of the Caucasian Albania of the ancient period. In the course of identification of these materials with ceramics products from Yaloylutepe it was allowed the archaeologists (E. A. Pakhomov, S. Kaziyev, Jonah S. Ismizade (Sadikhzade) Golubkina T.I, I.A Babayev G.O. Goshgarly et al.) to confirm their presence dating from the IV century BC up to the III century AD. The main differences between these unique items from other cultures have been established by the external shape of the vessels, the art work, and the techniques used to burn clays and its colors.

Иллюстрации



Рис. 1. Красноглиняный квадратный обожженный строительный кирпич. Высота - 24 см., толщина - 5 см. (Национальный Музей истории Азербайджана)




Рис. 2. Крупный сельскохозяйственный кувшин из красной глины сфероконической формы, а также верхняя часть горловины с гребенчатым орнаментом. Общий вес: 30-40 кг, общая высота - 85 см, внешний диаметр горловины - 28 см, ширина канта горловины - 4 см, размер тулова - 70 см. и диаметр дна - 15 см. (Национальный Музей истории Азербайджана)




Рис. 3. Зооморфный сосуд красного цвета, сделан от руки из глины с примесью крупного песка; обжиг ровный от середины шеи животного идет горизонтальная ручка, соединяющаяся с венчиком отверстия диаметром - 4,2 см.
Длина всей фигуры - 15,5 см, высота фигуры с головой - 11,5 см., внешний диаметр груди фигуры - 7,5 см. (Национальный Музей истории Азербайджана)




Рис. 4. Крупный сельскохозяйственный красноглиняный кувшин сфероконической формы, а также на верхней части горловины имеется гребенчатый орнамент, на верхней части тулова также нанесен в виде глиняного налепа змеявидный узор. Размеры кувшина общий вес приблизительно: 50-60 кг., общая высота - 115 см, высота горловины - 11 см, внешний диаметр горловины - 29 см, ширина канта горловины - 4 см, ширина узора в виде змеи - 3 см, размер тулова - 70 см, диаметр дна - 18,5 см. (Национальный Музей истории Азербайджана)




Рис. 5. Методы лепки в изготовления керамических изделий от руки в период античности. Реконструкция С.М. Агамалиева. 1987



Рис. 6. Красноглиняный кувшин с тонкостенной выделкой, с одной ручкой. Горловина сосуда похожа на венчик лепестка с налепом. Кувшин имеет плоское дно. Размеры кувшина: Высота - 22 см, внешний диаметр горловины - 8 см и диаметр дна- 9 см. (Национальный Музей истории Азербайджана)



Рис. 7. Кувшин, изготовленный из светлокрасной глины с одной ручкой. Вокруг горловины имеются 11 слоев складок. Часть горловины сломана. Кувшин имеет плоское дно. Размеры кувшина: высота - 17,5 см, внешний диаметр горловины - 8,5 см и диаметр дна - 8,5 см. (Национальный Музей истории Азербайджана)



Рис. 9. Общий вид печи №19. Вид сверху на межкамерный раздел. Реконструкция Г.И. Ионе. 1948




Рис. 8. Глиняная молочница ялойлутепинского типа с одной ручкой светлорозового цвета, сделанная из тонко-отмученной глины. Туловище округло-биконической формы, слив чрезвычайно длинный. Размеры сосуда: высота - 20 см, размер тулова - 15,5 см, внешний диаметр отверстия - 18,5 см и диаметр дна - 7,5 см. (Национальный Музей истории Азербайджана)




Рис. 10. План Эллипсовидной печи №6. Реконструкция Г.И. Ионе




Рис. 11. План и разрез гончарного горна №10. Реконструкция Г.И. Ионе. 1948

Gülzadə Abdulova

Geyim mədəniyyətində düymələr

Açar sözlər: *düymə, pilək, çarpaz, ilgək, qoza, geyim*

UOT 39

Geyim mədəniyyətində düymələr vacib ünsürlərdən biri hesab olunur. Azərbaycan geyim mədəniyyətinin tədqiqatçıları düymələr haqqında, yeri gəldikcə, məlumat versələr də, bu məlumatlar düymələrin tarixi, onların inkişaf dinamikası, növləri, semantikası, funksiyaları haqqında dolğun təsəvvür yaratmır. Azərbaycanda Tunc dövründən, yəni zərgərlik sənətinin meydana gəldiyi dövrlərdən düymə istehsalına başlanmışdır. İlkin mərhələdə qədim metal inancıyla bağlı olaraq, digər zərgərlik məmulatları ilə yanaşı, düymədən də amulet (həmayıl) kimi istifadə edilmişdir. Bizə elə gəlir ki, metalın mistik gücünə inam qədim türklərin ibtidai inancları arasında əsas yerlərdən birini tutan dağ inancı ilə bağlı olmuşdur. Tədqiqatçı F.Bayatın yazdığına görə "Meşə ayini ilə birləşən dağ qədim türklərin müqəddəs mərkəz anlayışını meydana gətirməkdə və dövlətin mərkəzi vəzifəsini əsaslandırmaqdadır... Mərkəz hər zaman müqəddəs bir vəzifə yerinə yetirdiyi üçün dağlar və orada olan hər şey də müqəddəs olaraq qəbul edilmişdir" (15). Məlumdur ki, filiz mənşəli yataqlar dağlardan əldə olunur və insanlar müqəddəs hesab etdikləri dağın bir parçası olaraq onu üzərlərində gəzdirməklə dağ ruhunun onları qoruyacağına inanırdılar. Misal üçün qeyd edək ki, bu günə qədər "Baba dağı" və "Beşbarmaq" ("Xıdırzində") ziyarətgahlarına gedən insanlar həmin dağlardan özləri ilə xırda daşlar götürərək onları üzərlərində gəzdirir, evlərində un kisəsinin üzərinə, çörək təknəsinə, xəstənin balışının altına, çantalarına və s. qoyur və inanırlar ki, bu onların diləklərinin hasil olmasına kömək edəcəkdir (9). Görünür, insanlar emal edilmiş metalın gəzdirilməsinin daşa nisbətən daha asan olduğunu başa düşdükləri vaxtdan onu ilkin olaraq dağ simvolu kimi istifadə etmiş, bu yolla dağ ruhunun onları qoruyacağına inanmışlar. Etnoqrafiya fondunda mövcud olan XX əsrin əvəllərinə aid araqçının (37) üzərində müxtəlif amuletlərlə yanaşı düymələrin də yer alması göstərir ki, düymələrdən amulet kimi istifadə olunması insanların şüuraltı yaddaşında minilliklər boyunca qorunub saxlanmışdır. Bu hal Anadolu əhalisi

arasında da müşahidə olunur. Anadoluda evlənən oğlanların, kiçik yaşlı uşaqların yeləkləri, başlıqları düymə ilə bəzədilirdi. Bu ənənəyə Balkanlarda, İngiltərədə, Afrikada və başqa yerlərdə də rast gəlinir (17, s.296). Görünür, düymələrin mistik gücünə inamdan irəli gələrək şamanlar da öz geyimlərində ondan istifadə edirdilər. Onlar əsas hissəsi üç qarış uzunluğunda qırmızı parçadan olan papaqlarının ətrafına üç ədəd düymə tikirdilər (16).

Qədim rus dilində "düymə" ("puqovitsa") sözünün əsasında "qorxutmaq", "hürkütmək" ("puqat"), "qorxuluq" ("puqalo") mənalarının durması (25) da təsadüfi olmayıb düymənin şər qüvvələrdən qorunmaq üçün istifadə edildiyinə işarədir(26).

Azərbaycanda, eləcə də digər türk xalqları arasında metaldan şər qüvvələri ürkütmək üçün son dövrlərə qədər istifadə olunmuşdur. Adətən, günəş tutulması zamanı mis qabları arxası üstə çevirir və ağac parçası ilə döyəcləyirdilər. Uşaqların, zahı qadınların üzərinə sancaq və ya başqa metal əşya asır, balışın altına qayçı, hər hansı bir metal parçası qoyur, iynə sancırdılar. Ola bilsin ki, qədimdə bu məqsədlə düymədən də istifadə olunmuşdur.

Tarixi inkişaf prosesində istehsal genişləndikcə, sənət texnologiyasına daha dərindən yiyələnən insanlar metaldan müxtəlif təyinatlı məmulatlar istehsal etmiş, eyni zamanda saxlanc və ya varidat kimi (11, s.25) üzərlərində gəzdirmişlər. İlkin mərhələdə primitiv və naxışsız hazırlanan bu məmulatlara zaman-zaman yüksək bədii çalar verilmiş, tədricən bəzək-zinət əşyaları kimi istifadə olunmağa başlanmışdır. Ona görə düymələri də ən qədim geyim bəzəklərindən biri kimi xarakterizə edə bilərik. Sonrakı dövrlərdə əməli əhəmiyyəti ön plana keçən "düymə və ilgək geyim tarixində kəşf sayılır" (17, 295). Bu günkü müasir geyimin təməli bu tapıntıya bağlıdır (17, 296).

Düymə sözü qədim türkcədə "tuğmek", yəni düymək, bağlamaq kökündən gəlir (14, s.60). Bildiyimiz kimi, Azərbaycan dilində "qönçə" sözünün qarşılığı olaraq da "düymə" ifadəsi işlədilir. Bu söz müxtəlif variantlarda Avropa xalqlarının dilinə də keçmişdir. İngilis dilində düymə sözünü ifadə edən "button" sözü də açılmamış gül - qönçə mənasını verir. Digər Avropa xalqlarının dillərində (alman- "knopf", holland- "knoop", island-"knappr", ispan-"baton", italyan –"bottone", fransız-"bouton" və s.) düymə sözü "qönçə", eyni zamanda "qoza" mənasını verir. Bəzi bitkilərin, məsələn, pambıq, palıd, küknar və s. barı Azərbaycan dilində "qoza" adlanır. Azərbaycan geyim mədəniyyətində ən geniş yayılmış qadın bəzəklərindən olan "qoza" düymələr, yaxalıqlar, ətəkliklər XX əsrin ortalarına qədər xalqın istifadəsində olmuşdur. Doğrudan da arxeoloji düymələrə nəzər saldıqda, demək olar ki, böyük əksəriyyətinin qoza və yarımkürə (bir növ açılmamış gül) formada olduğunu müşahidə edirik. Qədim dövr tunc məmulatlarının bədii xüsusiyyətlərini araşdıran arxeoloq İ.Avşarova Qərbi Azərbaycandan əldə olunmuş düymələrin

konusvari, yarımkürəvi və badamvari formalarda olduğunu qeyd edir ki, (3, s.23) bunlar da qoza və ya düymə (qönçə) ilə oxşardır. Görünür, həmin məmulatları istehsal edən sənətkarlar forma kimi bitkilərin düyməsini və ya qozasını əsas götürmüşlər. Xalq arasında bu gün də "yumru" sözünün sinonimi kimi "qoza" ifadəsi işlədilir (bitkilərin qönçəsi, barı, kiçik şişlər və s.). Bir maraqlı cəhəti də qeyd edək ki, qədim dövr düymələri həm də qalxan formasını xatırladır. Ola bilsin ki, müdafiə silahı kimi istifadə olunan qalxanlarda bu forma düymələrin qoruyucu mahiyyətindən qaynaqlanmışdır.

Pakistan yaxınlığındakı Mohenjo-daro abidəsindən tapılmış balıqqulağından hazırlanmış, beş min il əvvələ aid edilən düymə tarixə ilk düymə kimi düşmüşdür (24, s.852).

İlgəyin meydana gəlməsi ilə geyim mədəniyyətində böyük çevriliş yaranır. Türk mədəniyyət tarixinin araşdırıcısı B.Ögel ilgək sözünün türkcə "ilmek", "bağlamaq", "ilişdirmək" felindən yarandığını qeyd edərək göstərir ki, "Səlcuq dövrünün başlanğıcında da oğuzlar bu sözü bu günkündən çox dəyişik olmayaraq "ilik" şəklində deyirdilər...Xarəzmşahlar dövründə bir az da qıpçaq təsiri altında qalaraq düymə iliyinə ilgük deyilmişdir" (14, s.59). Ola bilsin ki, ilkin mərhələdə amulet, sonralar bəzək kimi istifadə edilən düymələrə insanlar tədricən geyimlərinin bağını ilişdirmiş və əhəmiyyətini gördükcə bu təcrübədən daha geniş şəkildə istifadə etmiş və nəticədə ilgəyi kəşf etmişlər. İlgəyin kəşfi ilə geyim mədəniyyətinə daha geniş şəkildə yol tapan düymələr, günümüzədək öz əhəmiyyətini qoruyub saxlamışdır.

Mingəçevirdə aparılan arxeoloji qazıntılar nəticəsində e.ə. IX-VII yüzilliklərə aid edilən qəbirdən 200-ə qədər tunc düymə tapılmışdır (22, s.68). Müəllif müxtəlif ölçülərdə və skeletin ayrı-ayrı hissələrində yerləşən düymələrin ətraflı təsvirini verərkən, onların üzərində qəhvəyi və boz-çəhrayı rəngli parça qalıqlarının olduğunu da qeyd etmişdir(22, s.68). Bu təsvirlərə əsasən həmin geyim tipini müəyyən etməyə və rekonstruksiyasını verməyə çalışan professor S.Dünyamalıyeva düymələrin üzərində iki-üç rəngli parça qalığının olduğunu nəzərə alaraq, mərhumun əyninə həmin sayda paltarın üst-üstə geyindirildiyi qənaətindədir. O, qeyd edir ki, "Mərhum yan tərəf üstə dəfn edildiyindən bir tərəfə tikilən düymələr də cəsəd çürüdükcə o biri tərəfə düşmüş olur. Beləliklə, sağ və sol qabırğa altında, hərəsində 3 sıra olmaqla, hər sırada 20 ədəd düymə tapılır. Deməli, üst-üstə geyinilmiş üç geyimin hamısı eyni formalı, amma müxtəlif rəngli imiş. Geyimlərin hər biri, hər bir qol altında sıra ilə tikilmiş 20 ədəd iri düymə ilə düymələnibmiş. Qol da sıralama tikilmiş düymələr ilə düymələnibmiş, lakin düymələr ölçüsünə görə nisbətən kiçik imiş. Çütkü də saç altında, başın arxa hissəsində daha kiçik düymələrlə düymələnibmiş. Beləliklə, bütün deyilənləri nəzərə alsaq bu geyimi təxmini təsəvvür edə bilərik. Burada düymələrin paltarın sağ və sol yan tikiş xəttinə paralel olaraq tikildiyi qənaətinə

gəlmək olur"(6, s.23). Bütün bunlar göstərir ki, Azərbaycanda hələ e.ə. I minilliyin əvvəllərindən düymələrdən əməli məqsədlə istifadə olunmuşdur(şəkil-1).

Geyim tarixinin dünyada tanınmış tədqiqatçılarından biri hesab olunan yaponiyalı prof. Tsutom Ema türkiyəli etnoqraf Sabihe Tansuğa yazdığı məktubunda göstərirdi ki, "Düymənin, ilgəyin və şalvar-çəpkənin kəşf edildiyi bölgə Anadoluya çox yaxındır. Xəzər Dənizi civarındadır. Ona görə də Anadolu xalqı arasında düyməli geyimin və şamanistik bəzəklərin izlərini tapmaq mümkündür. Bu da geyim tarixini araşdırmaq baxımından çox maraqlı ola bilər" (17, s.296). Çox güman ki, Tsutom Emanın nəzərdə tutduğu bölgə Azərbaycandır.

Tükiyəli etnoqraf S.Tansuğ yazır ki, "Nisbətən kiçik sayda olan köçəri türk tayfaları bu praktik geyim (düyməli-ilgəkli, şalvar-çəpkənli- G.A.) sayəsində böyük Çin birliyinə qarşı girdikləri döyüşlərdə üstünlük qazanırdılar. Durumu dəyərləndirən Çin dövləti türklərin geyimini qəbul edərək əsgərlərinə ipli, sarıma geyimlərin yerinə ilgəkli, düyməli, şalvarlı geyim tərzini seçmişdir (17, 296).

Azərbaycan ərazisindən tapılan arxeoloji materiallar burada e.ə. II minilliyin sonlarından ilgəkli düymələrdən istifadə edildiyini sübut edir. Arxeologiya fondunda Azərbaycanın Tunc dövrü abidələrindən çoxlu sayda düymənin əldə olunması deməyə əsas verir ki, Azərbaycanın qədim sakinləri düymədən geniş şəkildə istifadə etmişdir. Bu düymələr metal, sədəf, sümük, pasta, gil, daş və sürmədən hazırlanmışdır. Düymələr geyimlərə, oxqabı, at əsləhələrinə tətbiq olunmuşdur. Məsələn, Mingəçevir qazıntılarından əldə edilmiş e.ə.VII-V əsrlərə aid olunan qızıl düymələr ox qabının bəzədilməsində istifadə edilmişdir (50). Düymələrdən ikisi iri, biri isə kiçik həcmlidir. İri düymələrin arxa tərəfinə ilgək bəndlənmiş, kiçik düymədə isə kənarlardan iki oyuq açılmışdır. İlgəkli düymələrin istənilən geyim və ya əşyaya bəndlənməsi üçün köşədən (ensiz dəri ip) istifadə olunurdu. Bunun üçün ilgək əşyada açılan dəlikdən əks tərəfə keçirilir və köşədən hazırlanmış ip ilgəklərin içərisindən keçirildikdən sonra həmin köşə əşyaya bəndlənirdi. Yeri gəlmişkən qeyd edək ki, bu ənənəvi üsul Azərbaycanda kəmərlərin (xüsusən Qarabağ kəmərlərinin) və at əsləhələrinin bəzədilməsində bu günə qədər qorunub saxlanmaqdadır.

Arxeoloji qazıntılardan əldə olunan düymələrin çoxluq təşkil etməsi onlardan ilkin olaraq qoruyucu amulet, ardınca ikili funksiya, yəni bəzək-amulet, daha sonralar isə geyimlərin əyində sabit duruşunun təmin edilməsi üçün istifadə olunduğunu deməyə əsas verir. Məsələn, Çovdardahn tapılan e.ə. II minilliyin sonlarına aid düymələr olduqca kiçik, həm də çoxlu saydadır (şəkil-2). Onlardan geyimin bağlanması üçün istifadə etmək mümkün deyildir. Bizə elə gəlir ki, bu düymələrin vaxtilə qoruyucu funksiya daşıdığı mütləqdir.

Qədim dövr düymələri formasına görə bir-birinə çox bənzəsələr də, ölçü baxımından müxtəlifdirlər. Arxeologiya fondunda mühafizə olunan düymələrin diametri 9 sm-dən – 0,5 sm-ə qədərdir. Arxeoloji düymələrin ilgəyini üç qrupa

ayırmaq olar: 1) düz xəttdən ibarət olan, 2) qövs formalı, (şəkil-3) 3) xaçvari(şəkil-4). Birinci qrupa aid edilən düymələr əsasən Mingəçevir qazıntılarından əldə edilmişdir. Lakin Mingəçevirə yaxın ərazidə yerləşən Xaçbulaq və Çovdardan da düz xəttli ilgəyə malik düymələr məlumdur (31). İkinci qrup düymələr II minilliyin sonu - I minilliyin əvvəllərinə aid olunan Çovdar, Xaçbulaq, Qızılvəng, Ağstafaçay, Gədəbəy, Vardanlı abidələrindən əldə edilmişdir (şəkil-5). Bu düymələr müasir dövrümüzdə düymələrdə istifadə edilən ilgəklərə malikdir.

Çovdardan tapılan düymələrdən birinin ilgəyi özünəməxsusluğu ilə seçilir (32). İki ilgəkdən biri digərinin üzərindən köndələn keçirilmiş və nəticədə xaçvari forma alınmışdır. Bu düyməni üçüncü qrupa aid edirik.

Birinci qrup düymələrin ilgəyi daha primitiv olduğuna görə onları digər qruplara aid etdiyimiz düymələrin sələfi hesab etmək olar.

Arxeoloji düymələrin bir qisminin içərisi durulaşdırılmış pasta ilə doldurulmuş və həmin maddə bərkiyərək düymənin içərisindəki boşluğu tutmuşdur (şəkil-6).

Bərdə şəhərindən arxeoloji qazıntılardan əldə olunmuş VIII-IX əsrlərə aid şüşə sağanağa keçirilmiş tunc düymənin pambıq parça üzərində olması (20, s.135) ondan geyim elementi kimi istifadə edildiyini göstərir. Eyni zamanda bu tapıntı Azərbaycanda artıq bu dövrdə, bəlkə də ondan da əvvəl şüşə düymələrdən istifadə olunması haqqında dəyərli faktdır.

Azərbaycanda düymə istehsalına e.ə. II minilliyin sonlarından başlansa da və onlardan əməli olaraq istifadə edilsə də, düymələrin geyim mədəniyyətinə geniş şəkildə daxil olması çox uzun sürmüşdür. Karl Köhlerin yazdığına görə "XI əsrin ortalarından etibarən geyim tarixində dəyişikliklər baş verir. Geyimlər bədən ölçülərinə uyğun olaraq biçilib tikilməyə başlayır"(30). Bu biçim üsuluna malik geyimlərin əyində rahatlığını təmin etmək üçün düyməyə tələbat yaranır. İlk dəfə olaraq Avropada düymə hazırlayan sənətkarlar birliyi 1250-ci ildə Fransada təşkil olunmuşdur(30).

Orta əsrlər dövrü Azərbaycanda düymələrin növ və çeşidləri haqqında məlumat əldə etmək üçün arxeoloji materiallar azlıq təşkil edir. Bu dövr düymələri haqqında ən dəyərli məlumatları miniatürlərdən əldə etmək mümkündür. Orta əsrlər Azərbaycan miniatürlərini nəzərdən keçirərkən geyimlərdə metaldan, güləbətindən və qiymətli daşlardan hazırlanmış müxtəlif formalı düymələrdən istifadə olunduğunun şahidi oluruq. Bütün düymələr ilgək vasitəsilə bağlanmışdır.

Geyimlər insanın sosial statusunu müəyyənləşdirdiyi kimi, düymələr də həmin məqsədə xidmət edir. Bunu miniatürlərdə daha aydın izləmək mümkündür. Yüksək təbəqənin geyimləri, onlara bəndlənən düymə və çarpazlar nə qədər dəbdəbəli, rəngarəng, diqqət çəkicidirsə, kasıb təbəqənin geyimlərindəki düymələr bir o qədər sadədir. Çox güman ki, belə düymələr ağac, sümük və başqa ucuz materiallardan hazırlanmışdır (23,169; 10, s.31). Yüksək təbəqənin geyimlərində düymələrin

sarı rəngdə təsvir edilməsi onların qızıldan hazırlanmasına dəlalət edir. "Çovqan oynayanlar"(23s.154; s.155), "Baburun Şah İsmayılın əlini öpməsi"(23, s.238-239) miniatürü (şəkil-7) Orta əsrlər dövründə düymələrin tədqiqi baxımından xüsusilə maraqlıdır. Şah İsmayılın cübbəsində təsvir olunan düymələr heç bir miniatürdə rast gəlinmir. Düymələr qızıl çərçivəyə salınmış iri qara rəngli qaşlardandır. Həmin qaşları onun kəmərinin toqqasında və başındakı sarıqda da müşahidə etmək mümkündür. Miniatürdə obrazlardan birinin yaxasında mirvari düymələr görünür. Digər obrazların yaxasında qızıldan hazırlanmış dairəvi və dördbucaqlı düymələr diqqəti cəlb edir. Təkcə bu miniatürdə düymələrin zəngin çeşidinin, yüksək dekorativ tərtibatının şahidi olmaq mümkündür.

Yüksək zümrənin geyimlərində düymələr bərabər məsafədə, sinədən kəmər yerinə qədərdir. Bəzi hallarda qoşa-qoşa, bəzi hallarda isə arada məsafə buraxılmadan ardıcıllıqla düzülmüşdür. S.Dünyamalıyevanın apardığı araşdırmalara görə köynəklər boğaz altda bir düymə ilə bağlanırdı. Cübbənin çiyindən başlayaraq tikilən paralel bəzəkli ilgəklərlə düymələnməsi çox vaxt dekorativ forma daşıyır və əsasən yaxa açıq qalırdı (7, s. 76).

Miniatürlərdə düymələr həm qadın, həm də kişi obrazlarında köynəyin, qaftanın və cübbənin yaxasında təsvir olunur. XVI əsrin əvvəllərində dahi Nizaminin "Xəmsə"sinə çəkilmiş "Bəhram ağ sarayda" miniatüründə qadınlardan birinin köynəyinin yaxasında qara düymələr müşahidə olunur (10, s.146). "Həvtvad və qurd" (23, s.169) miniatüründə də qadınların köynəyinin yaxasında qara rəngli düymələri görmək mümkündür. "İsgəndərin dizlərində ölən Dara" miniatüründə kişilərdən birinin köynəyində düymə vardır (23, s.188). Bu isə onu göstərir ki, Orta əsrlər dövründə kişi və qadın geyimlərindəki ümumilik onlara əlavə olunan düymələrdə də mövcud olmuşdur. Qeyd edək ki, bu cəhət Türkiyə (19) və Orta Asiya xalqları (18, s.52). üçün də səciyyəvi xarakter daşımışdır.

XV-XVI əsr miniatürlərində daha çox nəzərə çarpan ipək sap və güləbətin teldən hazırlanmış düymələrdir. Bu düymələr də əsasən yüksək təbəqənin geyimlərində müşahidə olunur. Belə düymələrin hazırlanması üçün ipək sap və güləbətin tel birlikdə eşilir, sonra eşilmiş tellərdən geyimin (xüsusən cübbənin) yaxasında müəyyən uzunluqda bəzək dekoru salınırdı. Elə həmin tellərdən yaxanın bir tərəfində ilgək, digər tərəfində isə düymə düzəldilirdi. Miniatürlərin əksəriyyətində bu ilgək düymələr sarı, nadir hallarda isə gümüşü rəngdə təsvir edilmişdir. Bu isə onu göstərir ki, haqqında bəhs olunan düymələr həm gümüş, həm də qızıl tellərdən hazırlanmışdır. Bu tipli düymələr Osmanlı geyimlərində də geniş şəkildə istifadə olunmuşdur (19).

Dövlət başçıları və yüksək çinli şəxslər yaxınlarına, səfirlərə, fəxri qonaqlara hörmət əlaməti olaraq hədiyyə etmək üçün qədim dövrdən pul ekvivalentinə çevrilmiş müxtəlif dəyərə malik olan xüsusi geyim fonduna sahib olurdular (18,

s.71-72). Belə dəbdəbəli geyimlər xüsusən saraylara ayaq açır, müəyyən vaxtdan sonra sadələşdirilmiş formada geniş kütlə arasında yayılmağa başlayırdı. Məhz bu səbəbdən Orta əsr geyimlərində ümumilik nəzərə çarpır ki, bunlar arasında düymələr də yer alır. Buna misal olaraq rus milli geyimi olan "sarafan"ı misal gətirə bilərik. Adını fars dilindən götürən və uzun kişi kaftanı mənasını verən, yaxasını güləbətin tellərdən hazırlanmış düymələr bəzəyən (28) "sarafai" (şərəfli geyim), (29) türklərdən ruslara keçmiş, ilkin dövrlərdə voyevodaların və knyazların istifadəsində olmuşdur (27).

Azərbaycan geyim mədəniyyətində düymələrin rolunu öyrənmək üçün Orta əsrlər şifahi xalq ədəbiyyatı və klassik poeziya nümunələri də məlumat baxımından çox əhəmiyyətlidir. XVII əsrdə yaranmış "Abbas və Gülgəz" dastanında nimtənənin yaxasına tikilmiş qızıl düymələrdən bəhs olunur:

Örtübən başına şalı-zər gəzər,
Abıdan nimtənə, qızıl düymələr(1, s.301).

XVIII əsrin görkəmli Azərbaycan şairi M.P.Vaqif gözəli vəsf edərkən yaxasındakı qızıl düyməni xüsusi olaraq vurğulayır:

Güləbətin köynək, abı nimtənə,
Yaxasında qızıl düymə gərəkdir (12, s.110).
və yaxud:
Sərasər yaxası qızıl düyməli,
Baxdıqca özünə fəxarət eylər (12, s.94).

MATM "Etnoqrafiya" və "Xüsusi» fondlarında aparılan araşdırmalar sübut edir ki, geyim mədəniyyətimizdə tökmə, torlama, qəlibkarlıq, qarışıq (bir neçə istehsal texnologiyasının sintezindən ibarət), müxtəlif minerallardan (əqiq, mirvari, mərcan, firuzə və s.), ipək sapdan hazırlanmış düymələrdən geniş istifadə olunmuşdur. Düymələr çəpkənlərin qoluna, qadın köynəklərinin boynuna, kişi köynəklərinin və arxalıqlarının yaxasına, çuxaların, qadın arxalıqlarının bel xəttinə tikilirdi. Etnoqrafiya fondunda aparılan araşdırmalar göstərir ki, XIX əsrin sonlarına qədər düymələr ilgəklər vasitəsilə bağlanırdı. XIX əsrin sonlarından etibarən milli geyimlərdə düymə yerlərinin açılması texnikasının mənimsənildiyi müşahidə edilir və bu yenilik ilkin olaraq qadın və kişi arxalıqlarına tətbiq edilmişdir. Kişi çuxalarında əsasən ilgək və ipək düymələr, eyni zamanda ilgək-qarmaq istifadə olunmuşdur. Yalnız EF 9686 inventar saylı çuxanın belində dörd ədəd metal düymə və ipək ilgək tikilmişdir.

Etnoqrafiya fondunda mühafizə olunan tökmə üsulu ilə hazırlanmış düymələr qaşlı və qaşsız olmaqla müxtəlif ölçü, forma və nəqş ünsürünə malikdirlər (34; 35). Bu tipli düymələrin estetik baxımlılığını artırmaq üçün üzəri qarasavadla örtülmüşdür. Bir qayda olaraq ilgək düyməyə lehimlənməklə birləşdirilmişdir.

Atmaqol arxalıq və çəpkənlərin qollarına da bəzən xırda düymələr düzülürdü.

Ənənəvi milli geyimlərə əlavə olunan atmaqollar dekorativ səciyyə daşıdığından, onlar ehtiyac yarandıqda düymələnirdi (13, s.105). Nəzərdən keçirilən atmaqol nümunələri göstərir ki, bu məqsədlə metal düymələrlə (36) yanaşı müxtəlif qiymətli daşlardan da istifadə olunmuşdur. Xüsusi fondda mühafizə olunan qolçaq nümunəsinin (42) kənarına dirsəkdən biləyə doğru mərcan düymələr bəndlənmiş, qarşı tərəfə isə ilgək tikilmişdir (şəkil-8). Biləkdən aşağı hissənin kənarları isə çaxmapilək asmalarla bəzədilmişdir. Qolçağın üzəri də dekorativ baxımdan çaxmapiləklərlə və mirvarilərlə nəfis şəkildə işlənmişdir.

Torlama üsulu ilə hazırlanmış düymələrin digər bir nümunəsi qızıl suyuna çəkilmiş mis düymələrdir. Onlar əsasən çəpkən, nimtənə kimi çiyin geyimlərində istifadə edilirdi. Bəhs olunan düymələr (33) fondun nadir materiallarından biri olmaqla, sənətkarlıq baxımından da diqqəti cəlb edir (şəkil-9). Düymənin kürə forması kəsb edən baş hissəsinə firuzə qaş oturdulmuşdur. İlgəyə doğru getdikcə yığılaraq armudvari forma alan düymələr 3 sm uzunluqdadır və istənilən geyimə gözəllik bəxş etməyə qabildir.

Azərbaycan geyim mədəniyyətində qoza düymələr geniş yayılmış bəzək elementi olmuşdur. Bu düymələr yuxarıda qeyd etdiyimiz kimi, qoza formasında olduğuna görə xalq arasında belə adlandırılır. Xüsusi fondda mühafizə olunan XII-XV əsrlərə aid edilən (təsadüfi tarıntıdır) XF 281 saylı inventar (şəkil-10) fond kitabına asma adı ilə qeydə salınsa da, əslində onların istifadə təyinatı barədə qəti fikir söyləmək mümkün deyildir. Həmin inventarlar forma baxımından Etnoqrafiya fondunda mühafizə olunan misdən hazırlanmış EF 3819 inventar saylı qoza düymələrlə (şəkil-11) eyniyət təşkil edir. Fərq yalnız birinin kəsmə, digərinin isə torlama üsulu ilə hazırlanmasındadır. Qızıl düymələrə qaş, mis düymələrə isə torlamaçılıq üsulunda geniş tətbiq edilən dənəcik əlavə olunmuşdur ki, bu o qədər də əhmiyyətli olmayan fərqlərdir. Bu tipli qoza muncuq arxeoloji qazıntılar zamanı Kiş kəndindən IX-XI əsrlərə aid məzardan aşkar edilmişdir (43). Arxeologiya fondunda mühafizə olunan Orta əsr Beyləqan şəhərindən tapılmış bir ədəd qoza haqqında da eyni fikirləri söyləmək olar. Çünki eyni formaya malik bəzək elementindən boyunbağı, düymə, asma və ya sırğa kimi istifadə olunmuşdur(şəkil-12). Qoza düymələrin forması yuxarıda qeyd etdiyimiz yarımkürə, konusvari formalı tunc dövrü düymələrinin təkmilləşdirilmiş formasıdır. Yəni, qoza düymələr iki yarımkürə formalı düymənin bir-birinə lehimlənməsindən əmələ gəlmişdir. Bütün bunlar onu göstərir ki, ənənəvi zərgərlik sənətində, eləcə də, geyim mədəniyyətində müəyyən formalar uzun sürən tarixi inkişaf prosesində xırda əlavələrlə, əsası dəyişmədən, genetik varisliyi qorunaraq, nəsildən-nəslə ötürülərək günümüzə qədər çatdırılmışdır.

Bu hal digər materiallarda da müşahidə olunur. Xüsusi fondda mühafizə olunan XF26 inventar saylı e.ə. VII-V əsrlərə aid edilən qızıl düymələr qəlibkarlıq üsulu

ilə hazırlanmışdır. Düymələrin arxa hissəsinə ilgək lehimlənmişdir. Bu düymələrin forması EF 2930 inventar saylı baş bəzəyində təkrarlanır. Başqa sözlə, hər ikisi eyni formalı qəlibdə döyülmüşdür. Sadəcə olaraq baş bəzəyində ilgək əvəzinə tikilməsini mümkünləşdirmək üçün hər iki tərəfindən xırda oyuqlar açılmışdır və kənarları qabartma naxışlıdır.

Etnoqrafiya fondunda mühafizə olunan EF6303 inventar saylı düymələr (şəkil-13) qeyri-adiliyi ilə diqqəti cəlb edir. Əslində düymələr qoza düymələrin təkmilləşdirilmiş variantıdır. Zərgər qoza düyməyə yaradıcı yanaşmış, ona yuxarıdan aşağıya doğru qismən daralan uzun boru əlavə etmiş, borunun baş hissəsinə eşmə tel çəkmiş (bir ədədində aşağı hissəyə də eşmə tel çəkilmişdir), nəticədə mükəmməl bir düymə nümunəsi hasilə gətirmişdir.

Uzun borulu digər maraqlı düymə nümunəsi Xüsusi fondun inventarları arasında yer alan "quşpara" adlanan düymələrdir (44şəkil-14). Düymələr 8 ədəddir və 583 əyarlı qızıldan hazırlanmışdır. Hər düymənin ortasından bir ədəd iri həcmli mərcan asılmışdır. Boruya lehimlənmiş döyməqəlib üsulu ilə hazırlanmış yarımkürə formalı elementin kənarlarından həmin üsulla ərsəyə gətirilmiş ətəkliklər asılmışdır. Ətəkliklərin formasına uyğun olaraq düymələr "quşpara" adlandırılmışdır (asmalar quş siluetini xatırladır). Boruların içərisindən keçirilən qaytanlar mərcanların başına lehimlənmiş qulplara bağlanmışdır. Nəticədə zənginlik və gözəllik bəxş edən bir forma əldə olunmuşdur. Düymələr vaxtilə EF 8664 inventar saylı ləbbadənin yaxasında olmuşdur.

E.ə. II-I əsrlərə aid edilən Şamaxı rayonu Xınıslı kəndindən küp qəbirdən aşkar edilmiş qızıl piləklər (49) (şəkil-15) forma baxımından XF 26 inventar saylı (Mingəçevir e.ə. VII-V əsrlər) piləklərdən (şəkil-16) cüzi fərqlərlə seçilsə də, hər ikisi ilgəkli olması ilə diqqəti cəlb edir. Qeyd edək ki, e.ə. IV - b.e-nın I əsrinə aid edilən qədim yunan incəsənətinə aid arxeoloji tapıntılar arasından eyni tipli qızıl düymələr aşkar edilmişdir. Həmin düymələr Avropaya cəngavərlər tərəfindən Yaxın Şərqdən aparılmışdı (28).

Bəzən düymə ilə pilək eyniləşdirilir. Kəmərlərin, papaqqabağıların, çiyin geyimləri və tumanların, başmaqların, at əsləhələrinin bəzədilməsində istifadə olunan bəzək elementləri xalq arasında "pilək" adlanırdı. Bildiyimiz kimi, tikmə növlərindən biri "pilək tikmə" adlanır və həmin tikmə növü öz əsasını bəhs etdiyimiz piləklərdən götürmüşdür. Qarabağda geniş yayılmış kəmərlərə xalq arasında bəzən elə "pilək" kəmər deyilirdi. Ümumiyyətlə, ilgəkli, ortası və ya kənarları oyuqlu, bütün bəzəklər "pilək" adlanırdı. Ağdam, Xocavənd, Qazax, Şamaxı rayonlarında bu ifadəyə "pərək" şəklində də rast gəlirik (5). Xalq arasında nazik və kiçik əşyalar bəzən pərəklə (piləklə) müqayisə edilərək "pərək kimidir" deyilir. Təsadüfi deyil ki, Azərbaycan zərgərlik sənətində geniş yayılmış döyməqəlib texniki üsulu Qarabağda "çaxmapilək" adlanır. İnventar kitabında düymə adı ilə qeydə alınmış

piləklər əslində düymə kimi deyil, geyimə və ya hər hansı bir məişət əşyasına bəzək vurmaq üçün istifadə olunmuşdur. Məsələn, XF 232, XF128, XF129 inventar saylı piləklərdə açılmış deşiklər kənardadır və o geyimə tikilərsə heç bir düymə oyuğunu və ya ilgəyi saxlamağa qabil deyildir. XF 184 inventar saylı piləklərin hər birində üç oyuq açılmışdır ki, bu da onların tikmə üçün istifadə olunduğunu bir daha təsdiqləyir. Pərək qəlibkarlıq üsulu ilə hazırlandığına görə çox nazik olur və bu səbəbdən də onlar düymə kimi dayanıqlı olmaz, tez əzilib sıradan çıxar, eyni zamanda nazik olduğuna görə ipək parçadan tikilmiş geyimləri zədələmək riski də böyük olardı. Ona görə də düymələrin böyük qismi tökmə və torlama üsulu ilə hazırlanırdı.

Ənənəvi xalq geyimlərində çarpaz adlanan düymələrdən geniş istifadə olunmuşdur. Çarpazlar əsasən çəpkənlərdə istifadə olunurdu. Bu düymə tipi Orta əsrlər dövründən xalqın istifadəsində olmuşdur. Çarpaz düymələr XIV əsr miniatürlərində daha çox izlənir. Kəlilə və Dimnəyə çəkilmiş "Məhəmməd peyğəmbər və ailəsinin Ərəbistanın yalançı peyğəmbəri Mussallimanı qarşılama mərasimi"(23, s.28), "Ərdəşir və arvadı"(23, s.66), "Uçan tısbağa"(23, s.92), "Şahidlik"(23, s.83) miniatürlərində geyimlərin yaxası çarpazla bağlanmışdır. XVI əsr aşıq şerinin görkəmli nümayəndəsi Qurbani dövrünün geyim tiplərini nəzmə çəkərkən çarpaz düymələrdən də bəhs etmişdir:

Qurbani der: heç kəs yarın öyməsin,
Düymələ yaxanın çarpaz düyməsin,
Dəstələ zülflərin, yerə dəyməsin,
Yollar qubarlanar, toz dəyər sənə (4).

Məlumat kiçik olmasına baxmayaraq etnoqrafik baxımdan olduqca qiymətlidir və Orta əsrlər dövründə çarpaz düymələrin xalqın istifadəsində olmasını söyləmək üçün tutarlı dəlildir.

XVII əsrdən etibarən çarpazlar qadın geyimlərində istifadə olunmağa başlayır. Xüsusən, çəpkən, ləbbadə tipli geyimlərin bel xəttinə tətbiq edilirdi.

Çarpaz düymələr iki variantda mövcud olmuşdur. Birinci variantda düymənin bir tərəfinə geyimə bəndləmək üçün iki, digər tərəfə ip keçirmək üçün bir ilgək lehimlənirdi (şəkil-17). Çəpkən, ləbbadə, nimtənələrin belinə qarşı-qarşıya dörd çarpaz tikilir (şəkil-18), ip yuxarıdan aşağıya doğru və ya əksinə olmaqla ilgəklərdən çalın-çarpaz keçirilir və axırıncı çarpazlarda bağlanırdı. Bu geyim bəzəyinin "çarpaz" adlanması da bununla əlaqədardır (2, s.189). İkinci variantda çarpazlara qarmaq lehimlənirdi. Bu zaman artıq çarpaz iplə deyil, qarmağı digər tərəfdə olan ilgəyə keçirməklə bağlanırdı. Bu daha praktik üsul idi.

Əfqanıstandan köçəri türk tayfalarına aid edilən təxminən e.ə. I əsrə aid qəbirdən bir neçə qızıl çarpaz tapılmışdır. Tapılan çarpazlardan biri uzun ətəkli xalatın(kaftanın- G.A.) yaxasının bağlanması üçün istifadə edilmişdir. Çarpazların

yüksək bədii dəyərindən bəhs edən sovet arxeoloqu V.İ. Sarianidi ellin incəsənətinin dünya kolleksiyasında ona tay ola bilən ikinci bir nümunənin olmadığını göstərir(21, s.121-122).Bu gün dünya dəbinə liderlik edən Avropada ilgək-qarmaqlı çarpazlardan IV əsrdə Poma əsgərləri zireh geyimlərinin yaxasını bağlamaq üçün istifadə etsələr də, onlar Avropa geyim mədəniyyətinə yenidən XVI əsrdə daxil olmuşdu. İlk dəfə istehsalına isə 1791-ci ildə Britaniyada Nyueys firmasında başlanmışdır (24, s.852).

Çarpazlar adətən torlama üsulu ilə hazırlanırdı. XX əsrin əvvəllərindən etibarən metal pullardan hazırlanmış çarpazlar da xalqın geniş istifadəsində olmuşdur. Bu məqsədlə metal pullara qarmaq və ilgək lehimlənmişdir. Ənənəvi xalq geyimlərindən biri olan küləcələrin düymələnməsinə nadir hallarda rast gəlinsə də Etnoqrafiya fondunun saxlancları arasında çarpazla düymələnmiş bir nümunə mühafizə olunmaqdadır (38). Küləcənin (baharının) belinə iki ədəd beş minlik Qacar sikkələrindən hazırlanmış ilgək-qarmaq tikilmişdir (şəkil-19). Yuxarıda qeyd etdiyimiz kimi, ilgəklər geyim mədəniyyətində qədim dövrlərdən tətbiq edilmişdir. Əvəllər köşə, ilkin orta əsrlərdən ipək sapla hasilə gətirilən bu ilgəklər sonralar metaldan da hazırlanmışdır. Etnoqrafiya fondunda mühafizə olunan Kəbirlinskilərə məxsus çəpkənin belinə belə dəmir ilgəklər tikilmiş və ip həmin ilgəklərə keçirilərək çarpaz bağlanmışdır (şəkil-18/2). Çarpazlar da ilkin olaraq ilgək formasında hazırlanmış, sonralar yaradıcı zərgərlər tərəfindən təkmilləşdirilərək dekorativ bəzək ünsürləri əlavə olunmuşdur.

Etnoqrafiya fondunda qəlibkarlıq üsulu ilə hazırlanmış yeganə mis çarpaz (39) forma baxımından Xüsusi fondda mühafizə olunan qızıl piləklərlə (46), EF 8156 inventar saylı çarpazlar (şəkil-20) isə XF 32 (şəkil-20/2) inventar saylı gümüşdən hazırlanmış torlama düymələrlə eyniyyət təşkil edir.

Etnoqrafiya fondunda mühafizə olunan EF 8158 inventar saylı çarpaz nümunəsi (şəkil-21) sənət yaradıcılığı baxımından öz mükəmməlliyi ilə seçilir. Çarpaz torlama texniki üsulu ilə hazırlanmış, mərkəzinə bir ədəd firuzə qaş əlavə olunmuşdur. O forma baxımından bir növ kəmər toqqalarına bənzəyir.

Xüsusi fondda mühafizə olunan gümüş düymələr də forma baxımından mükəmməl sənət nümunələridir. XF 31 inventar saylı düymələr (5 ədəd) torlama üsulu ilə hazırlanmış, ortasına şüşə qaş əlavə olunmuşdur (şəkil-22). Naxış dekoruna görə digər torlamaçılıq məmulatlarından fərqlənən düymənin mərkəzi həyətliklərlə üç hissəyə ayrılmış, üzərində eşmə tellər vasitəsilə yarpaq təsvirləri salınmışdır. Yarpaqların kənarları vovlarla bəzədilmişdir. Həyətlikləri bir-birindən ayıran sahə eşmə tellərlə doldurulmuşdur.

Digər torlamalı düymə gül formasındadır (48) və gümüşdən hazırlanmışdır. Səkkiz ədəd ləçək formalı həyətliyin içi vavlarla doldurularaq dekorativ çalar verilmişdir. Bu tip düymələr geniş yayılmışdır və xüsusən qızıl kəmərlərin bəzədilməsində istifadə olunmuşdur.

Bir məsələni də vurğulamaq lazımdır ki, istənilən forma həm qızıl, həm gümüş, həm də mis məmulatlarda təkrarlanır. Bu sifarişçinin sosial durumundan asılı olaraq dəyişirdi. Xüsusi fondda mühafizə olunan XF191, XF192 inventar saylı düymələr Etnoqrafiya fondundakı eyni tipli düymələrin EF3748, EF3750 təkrarıdır və onlardan yalnız materialına görə fərqlənir.

XX əsrin əvvəllərindən etibarən Azərbaycanın bəzəkləri, xüsusən geyim bəzəkləri arasında metal pullardan istifadə olunması geniş dəb halını alır. Bu bəzəklərin sırasına düymələr də daxil olaraq geyim mədəniyyətində özünəməxsus yer tutur. Pul düymələr iki üsulla: pulun arxasına ilgək lehimləməklə və mərkəzində deşik açmaqla hasilə gətirilirdi. Xüsusi fondun materialları arasında hər iki nümunəyə aid inventar mövcuddur. XF169 inventar saylı düymənin arxa hissəsinə ilgək lehimlənmiş, XF 136 inventar saylı düymələrin isə tam mərkəzindən iki ədəd oyuq açılmışdır.

XIX əsrin sonlarında Azərbaycanda basma düymələr tətbiq edilməyə başlayır. Bu dövrdən etibarən sənaye istehsalı ilə hazırlanmış düymələr məişətə geniş şəkildə daxil olur və zərgərlik üsulu ilə hazırlanan düymələri tədricən sıxışdırmağa başlayır. Rəngarəng, ucuz başa gələn düymələr dəblə ayaqlaşmağa çalışan qadınları daha çox cəlb edir, nəticədə qızıl, gümüş, mis düymələr dəbdən düşür və geyim fondumuzu tərk etməyə məhkum edilirdi. Daha ağır nəticə isə zərgərin ağır zəhməti bahasına başa gəlmiş, bəlkə də zərgərlik sənətinin misilsiz nümunələri olan qızıl, gümüş düymələrin, ümumiyyətlə, bütün növ zərgərlik nümunələrinin əridilərək dövrün dəbinə uyğun, daha doğrusu, Avropa tipli məmulatların hazırlanmasına yönəldilməsi idi. Bu halın maddi mədəniyyətimizə vurulan ağır zərbələrdən biri olduğunu hesab edirik. Məhz bunun sayəsində indi muzey fondlarında qızıl, gümüş düymələr olduqca azdır və bu materiallar dövrün mənzərəsini tam canlandıra bilmir. Xüsusi fondda arxeoloji düymələri nəzərə almasaq, qızıldan cəmi bir saxlama vahidi qoza düymə (45), yeddi saxlama vahidi isə pərək və ya pilək düymə (47) (şəkil-23) mövcuddur. Halbuki, XX əsrin əvvəllərinə qədər Azərbaycan zərgərlik sənətində düymə istehsalı geniş şəkildə həyata keçirilmiş, əhalinin bu geyim elementinə olan tələbatı yerli zərgərlər tərəfindən yüksək səviyyədə ödənilmişdir. Belə düymələr vaxtilə beynəlxalq sərgilərdə nümayiş olunmuş, müxtəlif kataloqlarda yer almışdır. 1851-ci ildə Londonda keçirilən sərgidə bakılı zərgər Hacı Məmməd Hüseyin və Hacı Məlik Məmməd müxtəlif eksponatlarla yanaşı qızıl və emallı düymələr də nümayiş etdirmişlər (8). Təəssüflər olsun ki, belə zəngin maddi mədəniyyət nümunələri günümüzə qədər gəlib çatmamışdır.

Beləliklə, Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında qorunan materiallar, Orta əsr miniatürlərində və poeziya nümunələrində rast gəldiyimiz məlumatlar bizə deməyə əsas verir ki, qədim və zəngin bir mədəniyyətə sahiblik edən Azərbaycanda geyim mədəniyyətinin vacib ünsürlərindən biri olan düymələrin tarixinin çox dərin

kökləri vardır. Ulularımız əvvəlcə amulet, sonra amulet-bəzək kimi istifadə olunan düymələrdən geyim elementi kimi istifadə etməyi bacarmış, onu zaman-zaman təkmilləşdirmiş, mükəmməl sənət nümunələri yarada bilmişlər.

İstifadə olunmuş mənbə və ədəbiyyatların siyahısı:

1.Abbas və Gülgəz. Azərbaycanın məhəbbət dastanları. Bakı, Elm, 1979.
2.Abdulova G.S. Ənənəvi qadın geyim bəzəkləri. MATM, 2010 s.
3.Avşarova İ. Xocalı-Gədəbəy tayfalarının bədii tunc məmulatı(e.ə. XIV-VII əsrlər), Bakı, 2008.
4. Azərbaycan aşıq şerindən seçmələr, Bakı, 2005.
5. Azərbaycan dilinin dialektoloji lüğəti //ebooks.azlibnet.az/book-LansM7yI.html
6. Dünyamalıyeva S. S. Azərbaycanın geyim mədəniyyəti tarixi. Bakı, 2003
7. Dünyamalıyeva S. S. Azərbaycan geyimlərinin bədii–dekorativ xüsusiyyətləri. Bakı, 2013.
8. MDTA f.37, s.1; iş.1050; iş.1161.
9. Məlumatı Şamaxı rayon sakini, 1938-ci il təvəllüdlü Alıyeva Badam vermişdir.
10. Nizami Gəncəvi. Xəmsə. Miniatürlər. Bakı, 1983.
11. Rəcəbli Ə. Azərbaycan sikkələri. Bakı, 2012.
12.Vaqif M.P. Seçilmiş əsərləri. Bakı, 1958.
13.Vəliyev F. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti. Bakı, 2010.
14. Baheddin Ögel. Türk kültür tarihine giriş. 5-ci cild. pdf.
15. Bayat F. Türk mitolojisində dağ kültü// Folklor ve edebiyyat. 12-ci cild, №46, 2006\2 pdf.
16.Mehmet Mandaloğlu.Türk kültür çevresinde şamanizm ve şamanlık meselesi www.acarindex.com/)pdf.
17.Sabihe Tansug . Karacaoğlan və Türk giyiminde düğmeler. pdf
18. Горелик М.В. Среднеазиатский мужской костюм на миниатюрах XV-XIX вв.//костюм народов Средней Азии. М.1979.
19. Геза Фехер. Туретские миниатюры.1980.
20. Нуриев А.Б. Ремесло Кавказской Албании (III-VIII вв.). Баку, Элм, 2009
21.Сарианиди В.И. Афганистан: сокровища безымянных царей. М.1983
22.Фоменко В.П. Грунтовое погребение №63 в Мингечауре// Azərbaycanın maddi mədəniyyəti, III cild
23. Cultural heritage of Azerbaijan. Miniatures. Heydar Aliyev Foundation, 2012.
24. Ian McNeil Encyclopedia of the history of technology.pdf
25. http://slovardalja.net/word.php
26. https://mbl.gy/getfile/pid:public_12276

27. https://ru.wikipedia.org/wiki/.
28.http://hearth.narod.ru/home/0003.htm.
29.http://dic.academic.ru/dic.nsf/vasmer/47102.
30.http://www.slate.com/articles/life/design/2012/06/button_history_a_visual_tour_of_button_design_through_the_ages_.html.
31. MATM AF İnv.№ 298, tunc düymə.
32. MATM AF İnv.№ 329, tunc düymə.
33. MATM EF İnv.№ 3791, tunc düymə
34. MATM EF İnv.№397, metal düymə.
35. MATM EF İnv.№ 392, metal düymə
36. MATM EF İnv№ 5917, çəpkən.
37. MATM EF İnv.№ 6789, araqçın, XX əsrin əvvəlləri.
38. MATM EF İnv.№ 7462, küləcə, məxmər, XX əsrin əvvəlləri, Qarabağ.
39. MATM EF İnv.№ 8157, metal çarpaz.
40. MATM EF İnv.№ 3748,metal çarpaz.
41. MATM EF İnv.№ 3750, metal düymə.
42. MATM. XF. İnv №55, qolçaq, məxmər, qızıl, mərcan, mirvari.
43. MATM XF İnv.№ 270, qoza muncuq, qızıl.
44. MATM XF İnv.№108, quşpara düymə, qızıl, mərcan.
45. MATM XF İnv.№ 198,qoza düymə, qızıl.
46. MATM XF İnv.№128, pilək, qızıl.
47. MATM XF İnv.№ 111, pilək düymə, qızıl.
48. MATM XF İnv.№ 32, düymə, gümüş.
49. MATM XF İnv.№ 309, qızıl düymə, e.ə. II əsr, Xınıslı.
50. MATM XF İnv.№ 26, qızıl düymə, e.ə VII-V əsrlər, Mingəçevir.

Гюльзаде Абдулова
Пуговицы в культуре одежды

Резюме

Ключевые слова: *пуговица, плоская пуговица, застежка, петля, коробочка, одежда*

В статье даются сведения об истории, функции, разновидностях, технологии изготовления и способах применения одного из важных элементов культуры одежды – пуговиц. Проведено сравнение и параллельное сопоставление привлеченных к исследованию образцов пуговиц, хранящихся в Археологическом, Этнографическом и Специальном фондах Национального Музея


Истории Азербайджана, установлена генетическая связь между пуговицами, изготовленными в древности и в XIX веке.

Gulzade Abdulova
Buttons on the culture of garment

Summary

Key words: *button, scale, cross, mesh, cone, garment*


The history, main point, types, manufacturing technology, using methods of buttons one of the essential elements of garment culture are informed in the article. Buttons patterns are existed Archaeology, Ethnography and Special Funds of National Museum of Azerbaijan History have been researched, compared and paralleled, at the same time, genetic inheritance between buttons of ancient period and buttons of 19th century has been released.



Şəkil 1



Şəkil 2



Şəkil 3



Şəkil 4





Şəkil 6



Şəkil 5




Şəkil 7



Şəkil 8



Şəkil 9



Şəkil 10




Şəkil 11



Şəkil 13




Şəkil 14
















Şəkil 15





Şəkil 16



Şəkil 17





Şəkil 18



Şəkil 19





Şəkil 20



Şəkil 21



Şəkil 22





Şəkil 23

Tural Şiriyev

Azərbaycanlıların geyim tarixində islam mədəniyyətinin izləri (MATM-ın materialları əsasında)

Açar sözlər: *islam, mədəniyyət, geyim, çarşab, çadra*

UOT 39

Hələ qədim zamanlarda hər bir xalqın milli geyimləri öz formalaşmasının ilkin mərhələsində, başlıca olaraq, coğrafi mühitin, iqlimin təsiri altında olmuşsa da, tarixin sonrakı gedişində vüsət alan etnik-siyasi proseslər geyim mədəniyyətinin də inkişafına güclü təsir etməklə, onu daha çox xalqların qarşılıqlı iqtisadi-mədəni əlaqələrindən asılı etmişdir. Belə əlaqələrin nəticəsi isə mədəni inteqrasiyalara səbəb olmuş və nəticə etibarilə, qarşılıqlı mədəni zənginləşmələri meydana gətirmişdir.

Azərbaycanın milli geyimləri də maddi-mənəvi mədəniyyətin mühüm bir hissəsi kimi, uzun inkişaf yolu keçmiş və xalqın tarixi ilə biləvasitə bağlı olduğu üçün, onun tarixi-mədəni həyatının müxtəlif çalarlarını özündə qoruyub saxlamışdır. Ona görə də, qədim geyim nümunələrinin quruluşu və üzərlərindəki hər bir element xalqın etnik-siyasi və mədəni tarixini izləməyə imkan yaradır. Məhz bu cəhətinə görə, alimlər geyim mədəniyyətinin xalqın etnogenezini öyrənməkdə əhəmiyyətli mənbə olduğunu qeyd edirlər (4, s.99).

Azərbaycan milli geyimləri də özünün zəngin çalarlarına və çeşid müxtəlifliyinə görə dünya xalqlarının mədəni irsinin inciləri sırasındadır. Bu baxımdan qadın baş geyimi dəstləri, xüsusi olaraq, diqqəti cəlb edir.

Azərbaycanda qadın baş geyimləri sırasında çadra və çarşab öz orjinallığına və tarixiliyinə görə xüsusi yer tutur. Çadra və çarşabın tarixi və mənşəyi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəzən tutarlı mənbə və sənədə əsaslanmadan, çarşabın İranda Qacarlar dövründə yarandığını və onun heç bir dini inancla əlaqəsinin olmadığını iddia edirlər. Şübhəsiz, belə mülahizələr əsassızdır və xeyli sayda tarixi sənədlər, fotoşəkillər də sübut edir ki, çadra, çarşab və buna bənzər baş örtüklərindən istifadə edilməsi xeyli keçmişə bağlıdır. İslam alimlərinin böyük bir qrupunun isə nəzəri budur ki, çadra və çarşab məhz islamın gətirdiyi geyim mədəniyyətidir. Bu mülahizənin əsası kimi Qurani-kərimdə Əhzab surəsinin 59-cu ayəsinə istinad edilir:

يَا أَيُّهَا النَّبِيُّ قُل لِّأَزْوَاجِكَ وَبَنَاتِكَ وَنِسَاءِ الْمُؤْمِنِينَ يُدْنِينَ عَلَيْهِنَّ مِن جَلَابِيبِهِنَّ ذَٰلِكَ أَدْنَىٰ أَن يُعْرَفْنَ فَلَا يُؤْذَيْنَ وَكَانَ اللَّهُ غَفُورًا رَّحِيمًا Ya Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin həyat yoldaşlarına de ki, (naməhrəm yanında) çarşablarını örtsünlər. Bu, onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayan və rəhm edəndir." (3, Əhzab surəsi, ayə-59). Ayədə qeyd olunan "cələbib" sözü ərəb dilində "cilbəb" sözünün cəm forması olub, qadının bədənini tamamilə örtən gen paltar mənasını daşıyır. Sözügedən baş geyimlərinin dini təyinatlı olduğunu göstərən digər mühüm bir cəhət də ondan ibarətdir ki, keçmişdə qadınların və yetkinlik yaşı çatmış qızların başıaçıq gəzməsi yolverilməz hesab edilirdi ki, bu da biləvasitə, naməhrəm nəzərindən qorunmaq kimi islamdan irəli gələn ehkamlara bağlı idi. Odur ki, baş geyimlərinə aid olan bu amil, ictimai və sosial mənşəyindən asılı olmayaraq, bütün qadınlar üçün eyni məzmun daşıyırdı.

Tarixi və elmi ədəbiyyatda keçmişdə qadın baş geyimlərinin onların ictimai vəziyyətini əks etdirdiyi və bir növ qadın hüquqsuzluğunun göstəricisi olduğu qeyd edilir (5, s.114). F.Engels isə bunu hətta kişilərin qadınlara qarşı olan zülmü kimi izah etmişdir (2, s.222). Müasir elmi ədəbiyyatda belə bir fikrin ardıcıllarına görə, yaşmaqla qadının ağzını bağlaması, sanki, onun kişi ilə danışmaq hüququ yoxdur – kimi daimi xatırlatma əlaməti daşımışdır (6, s.119). Şübhəsiz, nəzərdə tutulan dövrdə, yəni XIX – XX əsrin əvvəllərində Azərbaycanda qadınların ictimai və ailə vəziyyəti son dərəcə məhdudiyyətlər və hüquqsuzluqlarla səciyyəvi olmuşdur. Odur ki, bir çox dini-əxlaqi dəyərlər öz həqiqi mahiyyətindən uzaq düşmüş və əksər hallarda kortəbii qəbul edilərək, qadınların köləliyini simvolizə etmişdir. Razılaşmadığımız məqam isə budur ki, marksist ideologiyaya tam olaraq yuvarlanan belə müəlliflər öz dövrü üçün (XIX – XX əsr) ənənəvi olan belə baş geyimlərinin xalqımızın uzaq keçmişindən miras qalan mənəvi, əxlaqi cəhətlərini nəzərə almamış və onları yalnız hüquqsuzluq, cəhalət və patriarxalizmin qadınlar üzərindəki despotluğu kimi səciyyələndirmişlər. Halbuki, istər baş örtüyü, istərsə yad kişi qabağında üzün yaşmaqlanması kimi adət və qaydalar, eyni zamanda, mənşəyi etibarilə, öz dövrünün qadın isməti və həyasını ehtiva edən əxlaq və mənəviyyat göstəriciləri olmuşdur. Nəzərə alınmalıdır ki, tarix boyu əxlaqi dəyərlər və bundan irəli gələn qaydalar öz formasını











dəyişsə də, məzmunu etibarilə xalqımızın ruhunda, onun ailə və ictimai münasibətlərində bu gün də yaşamaqdadır.

Keçmişdə əksər müsəlman-şərq ölkələrində də geniş istifadə edilmiş və bədəni topuğa qədər bürüyən çadra, adətən, evdən çıxarkən geyinilərdi. Etnoqraf F.Vəliyevə görə, keçmişdə Abşeron, Muğan, Talış və Naxçıvan bölgələrinin kəndləri istisna olmaqla, çadra kəndli məişəti üçün, demək olar ki, xarakterik olmamışdır. Kənd yerlərində qadınlar, adətən, baş şalının boyuna dolanan qanadı ilə ağız və burunun ucuna yaşmaq alırdılar (4, s.99).

Əsasən biçim tərzinə görə fərqlənən çarşabın Azərbaycanda iki forması geniş yayılmışdı. Daha çox Lənkəran-Astara və Naxçıvan etnoqrafik bölgələri üçün xarakterik olan yarımdairəvi-oval çarşab adətən boğazın altından salınmış qaytanla bağlanırdı (5, s.115). Bu, onu çadradan fərqləndirən başlıca cəhət idi. Xalq arasında "qutu çarşab" kimi tanınan düzbucaqlı çarşablar isə əsasən Şəki-Zaqatala, Abşeron, Qarabağ və Ordubad ərazilərində yayılmışdı (5, s.115). Azərbaycanda bu baş geyimlərinin forma və xüsusiyyətləri haqqında Etnoqrafiya fondunun materialları geniş məlumatlar verir. Əksəriyyəti XIX – XX əsrin əvvəllərinə aid olan çadra və çarşab nümunələri özünün rəngarəng çeşidlərdə hazırlanması ilə diqqəti cəlb edir. Çeşid müxtəlifliyinin başlıca səbəblərindən biri, bu çarşabların ölkənin ayrı-ayrı bölgələrinin timsalında olması və özündə müxtəlif sənətkarlıq məktəblərinin lokal bədii xüsusiyyətlərini əks etdirməsi ilə bağlı olmuşdur. Burada saxlanılan nümunələr əsasında aydın olur ki, çadra ilə çarşab arasında parçanın növünə görə əsaslı fərqlər olmamışdır. İstər çadra, istərsə də çarşablar daha çox sadə rəngli atlasdan, dama-dama keci parçadan və müxtəlif çeşidli ipək parçalardan, bəzən isə xara və çit parçalardan hazırlanırdı. Ölkədə çadra və çarşabın əsas istehsal yerləri Şamaxı, Qarabağ, Basqal, Mücü, Şəki, Gəncə, Şuşa və başqa sənətkarlıq mərkəzləri olmuşdur (1, s.309).

Azərbaycanda Sovet hökuməti qurulduqdan sonra aparılan ideoloji islahatlar nəticəsində xalqın inanc sistemi və ictimai şüurunda ciddi dəyişikliklər yaranmağa başladı. Beləliklə, XX əsrin birinci yarısından başlayaraq, bir çox milli-mədəni dəyərlər kimi, geyim mədəniyyəti də təbəddülatlara uğradı və çadra, çarşab və başqa ənənəvi geyim növləri aradan çıxmağa başladı.

İstifadə olunmuş mənbə və ədəbiyyat siyahısı:

1. Azərbaycan Sovet Ensiklopediyası. On cilddə, X c., Bakı, "Elm", 1987.
2. Engels F. Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi. K.Maks və F.Engels. Seçilmiş əsərləri, II cild, Bakı, 1953.
3. Qurani-Kərim (ərəb dilindən Azərbaycan dilinə tərcümə edənlər: Z.Bünyadov və V.Məmmədəliyev). Bakı, "Azərnəşr", 1991.
4. Vəliyev F.İ. Geyimlər. Azərbaycan etnoqrafiyası. Üç cilddə. II c., Bakı. "Şərq-Qərb", 2007.
5. Vəliyev F.İ. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Bakı, "Şərq-Qərb", 2010.
6. Алекперов А.К. Женская одежда Азербайджана // Исследования по археологии и этнографии Азербайджана. Баку, Изд. АН Азербайджана, 1960.

Турал Ширие
Следы исламской культуры в традиционных одеждах азербайджанцев (на основе материалах НМИА)

Резюме

Ключевые слова: *ислам, культура, одежда, чаршаб, чадра*

Статья посвящается изучению характерные традиционной женских головных уворов чадры и чаршаба. На основе материалах Национального Музея Истории Азербайджана. В статье исследуется действующий фактор на формирование культуры одежды и стало известно что, культура одежды на первом этапе развития формировалось под влиянием географических факторов, в следующих стадиях развития подвергалась больше культурным изменениям, социально-экономическим и политическим факторам. В связи с этим на основе различных видов чадры и чаршаба в статье исследуется их технические и этнографические особенности.

Tural Shiriyev
The traces of islamic culture in the history of Azerbaijani's clothing (on the basis of NMHA materials)

Summary

Key words: *islam, culture, clothing, charshab, chadra*

The article is devoted to studying traditional head dress of women in Azerbaijan, known as chadra and charshab in the past. The article examines the factors that influence the formation of clothing culture and it becomes clear that, while in the first stage it was formed under the influence of geographical factors, in the second stage it was much exposed to the influence of cultural changes, social-economic and political factors. Alongside that, the article studies technical and ethnographic characteristics of chadra and charshab, on the basis of its various samples.

Sevinc Nəsirova

Azərbaycan toxuculuq məmulatları üzərində dini inanclarla bağlı bəzi naxışlar

Açar sözlər: *xalça, romb, göz, bəd-nəzər inancı, qadın-ana inancı*

UOT 39

Dünyanın mədəni irs siyahısında özünə layiqli yer tutan Azərbaycan xalçaları tədqiqatçıların diqqətini daim özünə cəlb edir. Bu diqqəti yaradan isə xalçalar üzərinə toxunmuş kodlar, başqa sözlə naxışlara çevrilmiş müəmmalı suallardır. Tarixi keçmişimizdən, ulularımızın mifoloji düşüncəsindən, həyat tərzindən, ailə məişətindən qaynaqlanan bu naxışlar etnoqrafiya elmi üçün qiymətli mənbədir. Mənfur düşmənlərimizin digər maddi mədəniyyət nümunələrimiz kimi, xalçalarımızı da özününküləşdirmək siyasəti naxışların öyrənilməsini daha da əhəmiyyətli edir. O naxışlar ki, əksəriyyəti imzalı məktub rolu oynayaraq xalçanın əsl sahiblərinin kimliyini, ünvanını təyin etməyə qabildir. Məqalədə bu xalçaların naxış tərtibatı, xüsusilə də ermənilərin saxtalaşdıraraq "Karin" adlandırdıqları (4, s.7) Qarabağın "Açma-yumma" xalçası üzərindəki naxışlardan birini təhlil edəcəyik.

Naxışların öyrənilməsinə uzaq keçmişdən başlanmalıdır. Belə ki, onların çoxu indi bəzək motivi kimi istifadə olunsa da, kökü xalq inanclarına bağlanır. L.Kərimov xovlu və xovsuz xalçaların inkişaf tarixini 4 əsas mərhələyə bölərək, 1-ci mərhələni naxışsız, sadə, təbii rənglərlə toxunmuş xalçaların, 2-ci mərhələni mürəkkəb texnika üsulu ilə üzərinə primitiv naxışlar toxuna bilən kilimlərin, 3-cü mərhələni şəddə, vərni, zili, sumax kimi toxuculuq nümunələri və onların üzərinə daha mürəkkəb naxışların və ornamentlərin toxunmasını, 4-cü mərhələni isə müxtəlif ornamental elementlər və mürəkkəb kompozisiyaların toxunması dövrü kimi xarakterizə edir (24, s.9). Xalça üzərinə həkk olunan hər bir naxış müəyyən ideologiyanı ifadə etmiş və onu araşdıraraq, xalqımızın mifoloji təfəkküründün, inanclarının və etnogenezinin bir çox gizli məqamlarına aydınlıq gətirmək olar. İslam dininin yayılmasına qədər xalqımız arasında müxtəlif inanclar mövcud olmuşdur ki, insanlar onları toxuculuq nümunələri, məişət əşyaları üzərinə həkk edərək özləri də bilmədən yaşatmış və gələcək nəsillərə ötürmüşlər. İslam dininin yayılmasından sonra isə bir çox naxışları stilizə olunaraq başqa görkəmə salınmışlar. Bu islam dinində Allaha inamdan

başqa inamların şirk (Allaha şərik qoşma) sayılması ilə əlaqədar olmuşdur. Təbii ki, bu və ya digər səbəblərdən dolayı naxışların kodlarının açılmasında müəyyən əngəllər yaranmışdır. Məhz bu səbəbdən xalçalar və digər toxuculuq məmulatları üzərində olan naxışları ilk baxışdan yaranan adi görüntü kimi qəbul etmək yalnış nəticəyə gətirib çıxara bilər. Ona görə də hər bir naxışın ifadə etdiyi mənanı aşkara çıxarmaq üçün qayaüstü təsvirlər və ya petroqliflər, toponimlər, şifahi xalq ədəbiyyatı nümunələri (əfsanələr, nağıllar, xalq deyimləri) və mifologiya ilə müqayisəli təhlil və paralellər aparmaq lazım gəlir. Sənətşünas R.Əfəndi də xalçada olan naxışlarla onu yaradan xalqın tarixini, folklorunu, hətta mifologiyasını belə izləməyin mümkün olduğunu yazır (2, s.126.)

Hamının sosial bərabərlik içərisində yaşadığı ibtidai dövrlərdə insanlar mütəmadi olaraq həyat tərzləri haqqında məlumatı daşlar üzərinə həkk edərək bizə çatdıra bilmişlər. Məsələn, xalçaların kənar haşiyəsinə salınan və mollabaşı adlanan ornament rəqs edən insan təsvirlərinin sxematik şəklidir(1, s.100). Həmçinin sonradan Oğuz boyları tərəfindən istifadə edilən damğalar da türk runik yazısının təcəssümü olmuşdur. Xalçalarımız üzərində türk inancları ilə əlaqədar yaranmış və əksini türk damğalarında tapmış bir çox element mövcuddur. Onlardan biri Quba qrupuna aid olan "Qollu Çiçi" xalçası üzərinə toxunmuş "iççi" naxışı olmuşdur (13, s.165). Bütün qədim sivilizasiyalarda olduğu kimi türk xalqlarının da özünəməxsus inanc sistemi olmuşdur. Prof. Erman Artun yazır: "inanc bir şeyi güvənlə doğru sayma tutumudur" (19, s.2,3). B. Akarsu isə inancın tərifini daha dəqiq vermişdir. O, "Fəlsəfə Terimleri Sözlüğü" kitabında yazır: İnanc yetərincə əsası olmayan, dəqiq olmayan bir şeyi doğru sayma, ağıl yolu ilə bir doğruluq payı olduğunu düşünmədən başqasının şahidliyi üzərinə qurulmuş dəlilləri bir şübhə olmadan qəbul etməkdir (17, s.104). Müxtəlif inanclar xalqın mənəvi həyatında özünə ayrılmaz bir yer tutur və bütün mənəvi dünyanın əks edildiyi sahələrdə özünü biruzə verir. İstənilən bir inanc nağıllara, mifoloji dünya görüşünə və onlarla birbaşa bağlı olan xalq tətbiqi sənət nümunələrinə və onların üzərindəki naxışlara təsir edir. Monoteist dinlərədək mövcud olmuş inanclar xalqın mənəviyyatında o qədər güclü bir yer tutur ki, hətta sonrakı dövrlərdə də bu dinlərlə uzlaşdırılaraq qorunub saxlanır.

Xalqımız arasında yayılmış bu inancların çoxu türk xalqlarının qədim dini Göy Tanrıçılığın qalıqlarıdır. Şamanizm sözü isə rus alimləri tərəfindən elmə daxil edilmişdir. Hazırda yalnız Altay və Yakut xalqları arasında şamanizm mövcuddur. Lakin qədim türklərin şamanizmi Altay və Yakut şamanizminin olduğu səhifəni çox geridə qoymuş, inkişaf etmiş bir vəziyyətdə idi. Sözsüz ki, Çindən Bizansa, İrana qədər geniş bir ərazini fəth etmiş bir xalqın dini dar dünyagörüşünə malik, maldarlıqla məşğul olan xırda tayfaların inandıqları dinlərdən daha inkişaf etmiş bir din olmuşdur (21, s.1). Türk xalqları arasında şaman sözü deyil, qam sözü daha çox istifadə olunmuşdur.Türk xalqlarının bütün dini inancları, mifoloji

dünyagörüşü və şifahi xalq ədəbiyyatı bu dinin təsiri altında formalaşmışdır. Aparılan araşdırmalar göstərir ki, hazırda da islam dinini və ya xristianlığı qəbul etmiş bu xalqlar arasında şamanizmin qalıqları qalmaqdadır. M.Uraz bununla əlaqədar yazır: "Qeyd etmək lazımdır ki, bir sıra yabancı dinlər yayılarkən bunlar üzərində qədim türk inanclarının və şamanizmin təsirlərini görmək mümkündür" (23, s.197). Şamanizmin xristianlığa təsiri haqqında rus müəllifləri də yazmışdır. Hətta Q.V.Ksenofontovun şamanizmin xristianlığa təsiri haqqında fikirləri "Xrestes. Şamanizm i xristianstvo" adlı əsərində öz əksini tapmışdır (26, s.130). Hətta müəllif başqa bir əsərində xristianlıq və sibir xalqlarının şamanizmi arasında paralellər aparmış, İsanın və şamanların şəfaverici cəhətlərini eyniləşdirmişdir (27,s.17-18). Şamanizmin qalıqları olan buynuzlu heyvanlara, ağaclara inam müxtəlif naxışlar şəklində qarşımıza çıxsa da, bu naxışların islam dini ilə heç bir əlaqəsi olmamış, məhz Göy Tanrı dininin təcəssümü olmuşdur.

Toxuculuq məmulatları üzərində ən çox görülən naxışlardan biri rombdur. Bu fiquru demək olarki, MATM EF-da bir çox nümunə üzərində izləyirik (inv.4325, 5105, 5250, 5751, 6116, 6183, 6194, 6196, 6197, 6242, 6243, 6276, 6276, 6277, 650, 6654). Geniş tədqiq olunmasa da, bu fiqurla əlaqədar elmi ədəbiyyatda müxtəlif fikirlər var. Bu naxışın araşdırılmasına başladığımız zaman elm aləminin ikiyə ayrıldığını müşahidə etdik. B.Tuncay bu fiqurun qadın başlanğıcını simvolizə etdiyini və əslində "ana" mənasında işləndiyini qeyd edir (15). Qonşu Türkiyə kilimlərində də bu fiqura sıx rast gəlmək olur. Bu səbəbdən türk toxuculuq məmulatlarını da araşdırmaya cəlb etmişik. Anadolu naxışlarını araşdırmış M.Erbek Elazığ, Sivas kilimləri üzərində sıx görülən bu motivi məhsuldarlıq, bərəkət rəmzi kimi xarakterizə edir (18, s.54,55,56). Avropa alimləri də bəzən B.Tuncay kimi bu elementi qadın-ana kultu ilə bağlamışlar. Məsələn, fransız alim F.Lenormant bu naxışı qadın emblemi kimi səciyyələndirir (31, s.187). Professor V.Muradov bu naxışın adını İrəvan qrupu xalça və kilimlər üzərində bir neçə dəfə çəkmişdir (12, s.72,92). Araşdırmamız zamanı rombun istifadə tarixinin çox qədim, yayılma arealının isə əsasən Yaxın Şərq olduğunun şahidi olduq. Assuriya, Babil və Qərbi Asiyada araşdırmalar aparmış V.H.Vayes möhür və silindrlər üzərində bu fiquru təsbit etmişdir (31, s.76). Hətta müəllif rombları Assur, Suriya-Hitit silindrlərində addımbaşı gördüyünü vurğulayır (30, s.187). "Zümrüd anası" adı ilə məşhur olan Assuriya silindrlərindən biri üzərində də bu naxış həyat ağacının bir tərəfində təsvir olunmuşdur (30, s. 76). Qədim şərq ölkələrinin ərazisində istifadə olunan bu naxışa Azərbaycanda Qobustan qayaüstü rəsmlərində də rast gəlirik. Burada eyni ilə xalçalarda olduğu kimi təsvir olunmuş ox başlı romb Tanrının animistik təsəvvürü kimi yozulmuşdur (28, s.66). Maraqlısı isə odur ki, bu naxış xalçalar üzərinə bəzən sırf Qobustan petroqliflərindəki və eyni ilə V.H.Hardın təsbit etdiyi silindrlərdəki kimi toxunmuşdur. Xüsusilə "Açma-yumma" xalçası Tanrının animistik təsvirinin

analoji təkrarı şəklində toxunmuşdur (6,7) (şəkil 1 və 2). J.Blek və A.Qrin qarğıdalı dənəsi, yerin simvolu, göz və qadın başlanğıcı kimi izah edilən rombun Mesopotamiya incəsənəti üçün tarixə qədərki çağlardan Neo-Assur zamanına qədər adi bir işarə olduğunu yazırlar (29, s.153). Qarabağ xalça məktəbinə xas olan "Malıbəyli", Şirvanın "Molla Kamallı", "Əlixanlı", "Ərciman", "Gəzməli kilim" adı ilə məşhur olan xalça və xalça məmulatları üzərində də bu naxışı izləyirik. İstər fondda tədqiq etdiyimiz xalça və xalça məmulatları, istərsə də Qədim Şərq ölkələrində aşkar edilmiş silindr möhürlər üzərində bu motiv tək işlənmir. Onunla birgə adətən ox başı motivi, xaç və ulduz naxışları işlənir. V.Muradov İrəvan qrupu xalçaları üzərində romb fiquru ilə yanaşı "qoşabuyunuz", səkkizguşəli ulduz, nəbati və digər klassik elementlərin adını çəkir (12, s.92.). Romb naxışı adətən yuxarıda adını çəkdiyimiz xalçalar üzərində ana gölləri təşkil edir. Qazax xalçaçılıq məktəbinə xas ola "Qara-Qoyunlu " xalçası üzərində də bu naxışı izləyirik. Lakin, bu adla məşhur olan xalça üç bədii quruluşda toxunur. Onlardan birini təsvir edən zaman L.Kərimov xalçanın yaşlı ustalar tərəfindən "Heykəl" adlandığını yazır (xalçanın bu forması üzərində romblar toxunmuşdur-N.Sevinc) (25, s.151). Eyni zamanda müəllif "Bilici" xalçasının bədii təhlilini verən zaman 1932-ci ildə Dağ Bilicidə yaşlı xalça toxucularının xalçadakı böyük elementə "Heykəl" (Romb nəzərdə tutulur-N.S.) adını onun qadın büstünü təsvir etdiyi üçün verdiklərini yazır (25, s.181). Məhz bu məlumat romb fiqurunun sirrinin açılmasında açar rolunu oynayır. Deməli, heykəl adı ilə məşhur olan sonradan unudulan naxış qadın fiquru ilə əlaqədar olmuşdur. Bu isə yuxarıda qeyd etdiyimiz kimi B.Tuncay və F.Lenormantın fikirlərini təsdiq edir. Qədim Şərq ölkələrində matriarxat dönəmində qadına olan inanc özünü müxtəlif arxeoloji tapıntılarda da göstərir. Məsələn, Anadolu Mədəniyyətlər muzeyində çoxlu belə fiqur var (16, s.56,111). Hətta bu muzeydə eramızdan 6 min il əvvələ aid olan tanrıça heykəllərindən birinin bədənində romb fiquru həkk edilmişdir (16, s.33). Assur məbədlərində ilahə İnnananın üzərində də bu figur təsbit edilmişdir (29, s.153). Bu fikrə əsasən də, rombun qadın-ana inancı ilə əlaqədar olmasının doğruluğunu düşünmək mümkündür. Nəzərə alsaq ki, matriarxat dönəmində qadın həm odu, həm yaşayış sahəsini qoruyurdu, onun qoruyucu amulete çevrilməsi də çox təbii olmuşdur. Romb naxışı sehrli qoruyucu funksiyaya malik olmuşdur. Beləliklə, əvvəllər romb şəkilində olan qadın amuleti sonradan göz şəklində yozulmağa başlamışdır. Romb stilizə olunaraq göz formasına düşmüş və əhali arasında adını dəyişsə də, mənasını və funksiyasını dəyişmədən yenə öz varlığını davam etdirmişdir.

Bütün digər türk xalqları kimi Azərbaycan xalqının da ən qədim və bu günədək gəlib çıxmış inanclarından biri də bəd nəzərə, yaxud el arasında deyildiyi kimi "kəm göz"ə inanc olmuşdur. Bu inanc özünü toxuculuq nümunələri, əsasən də xalçalar üzərində daha aydın büruzə verir. Belə ki, xalçalarımızın bir çoxunda bəd nəzərdən

qorunmaq üçün konkret olaraq göz toxunmuşdur. Bəzi toxuculuq nümunələri üzərində ilk baxışdan bu naxış gözə bənzəməsə də, digərlərində insan gözünə bənzər motivi aydın görmək mümkündür. Ümumiyyətlə, xalq arasında evi, sevdiyi insanları , mal-mülkü bəd nəzərdən qorumaq üçün müxtəlif üsullardan istifadə olunmuşdur. Bunlardan üzərlik otu yandırılması, başa duz fırladılması, evlərdən müxtəlif tikanlı otların asılması kimi metodların adını çəkmək mümkündür. Xalq arasında bəd nəzərdən qorunmaq üçün ən çox istifadə olunan üsul üzərlik bitkisinin yandırılması olmuşdur. Üzərlik yabanı halda da Azərbaycanın bir çox bölgələrində bitir. Onun haqqında məlumatlara Xaqanı, Nizami, M.Kaşqarinin əsərlərində rast gələ bilirik. Azərbaycanda hələ erkən orta əsrlərdə bəd nəzərə qarşı üzərlik bitkisindən istifadə olunması Nizami Gəncəvinin "İsgəndərnamə" əsərində "Qaytarır, rədd edir gələn bəlanı" misrası ilə təsdiqlənir (5, s.346). Üzərlik qədim türkcə üz "qabaqlamaq", "üstünlüyə malik olmaq", "qalib gəlmək", "udmaq", "üstün gəlmək" və ondan düzəlmiş üzər "ləğv edər", "məhv edər", "kənar edər" sözündəndir. Mil düzündə eradan əvvəl II-I əsrlərə aid kurqandan 1953-cü ildə bir saxsı qabda üzərlik toxumlarının tapılması Azərbaycanlıların hələ qədimdən bəri ovsunlarında ondan istifadə etdiklərini sübut edir (5, s.345). Maldar əhali arasında isə heyvanları göz dəymədən qorumaq məqsədilə istifadə olunan müəyyən inanclar mövcud idi. Dolanacaqlarını heyvanlar təşkil edən maldarlar müxtəlif üsullarla daha çox süd verən, daha ətli-yunlu, gözəgəlimli olan heyvanlarını daha iti gözlü hesab etdikləri insanların bəd nəzərlərindən qorumaq üçün heyvanın üzərinə dağdağan budağından hazırlanmış göz muncuğu asarmışlar (11). Eynilə dağdağanın bıçaq kimi iti alətlərlə kəsilməsi də düzgün sayılmazmış, çünki o zaman dağdağan öz mistik qüvvəsini itirərmiş. Hətta müxtəlif yollarla gözə gətirmiş insanın paltarından xəlvəti olaraq bir parça kəsib daha sonra üzərinə soğan və sarımsaq qabığı əlavə edilərək üzərlik otu ilə yandırılması inamı da mövcud imiş (10). Üzərlik yandırılan zaman göz dəymiş yaxud xəstə, nasaz adam üçün belə oxuyurlar:

Üzərlik, paşa üzərlik,
Xalları qoşa üzərlik,
Kim səni gözə gətirib,
Gözləri daşa üzərlik (14, s.40).

Azərbaycanlılarda keçmiş əqidəyə görə həyatda yaxşı nə varsa, hamısına-körpəyə, xüsusilə oğlan uşağına, qəşəng qıza, pəhləvana, təzə evə, sağmal heyvana, güclü öküzə, döyüşkən qoça, yaxşı ata, yumurtalarının hamısından cücə çıxarmış qırt toyuğa, arı pətəyinə, barlı ağaca, bol tərəvəzli bostana, ipək qurduna və s. nəzər dəyə bilər, xalq arasında deyildiyi kimi "nəzər yandıra bilər" (5, s.303).

Türk xalqları arasında ən geniş yayılmış vasitələrdən biri isə üzərində göz muncuğu gəzdirilməsidir. Gözləri rəngli insanların nəzərinin daha iti olduğuna bu gün də inam var. Mavi gözlü insanların gözü baxdıqları insana toxunarmış, mavi

muncuğun isə bu göz dəyməsindən qoruyacağına inanılardı (22, s.77). MATM EF-da üzərində göz toxunmuş çox sayda toxuculuq məmulatı var. Göz naxışı daha çox məfrəş, palaz və xalçalar üzərində yer alır. Fondda 6360, 6603, 9282, 8945, 8447 inventar nömrəli məfrəşlər üzərində müxtəlif həndəsi fiqurlar içərisində göz naxışı təsvir olunmuşdur. Bunlardan 6603 inventar nömrəli Şirvan bölgəsinə xas məfrəş üzərində səkkiz bucaqlı şəklində gözlər təsvir olunmuşdur. 9282 inventar nömrəli məfrəş isə kvadrat şəkilli gözlərlə bəzədilmişdir. 8447 inventar nömrəli məfrəş isə tamamilə gözlərlə bəzədilmişdir. Göründüyü kimi tam xalçanın üst hissəsində dairə içərisində gözü ifadə edən nöqtələr toxunmuşdur. 7218 inventar nömrəli xalça üzərində konkret gözə bənzər bir element xalça üzərinə toxunub. Hətta fikir versək göz muncuğu amuletini belə xatırladır .

Digər 5105 inventar nömrəli XVIII əsrə aid Qarabağ xalçası üzərinə göz motivləri toxunmuşdur. Xalçalar üzərində bəzən stilizə olunaraq sadə nöqtəyə bənzəyən bu naxış onu toxuyanın xalça vasitəsilə evini-ocağını bəd nəzərdən qorumaq istəyindən irəli gəlmişdir. L.Kərimov bəzi haşiyələrdə belə naxışların ‘’gözlü” adıyla toxunduğunu qeyd etmişdir (3, tablo 190, şəkil 8). Lakin bu haşiyələrdə göz əvəzinə xaç toxunmuşdur. Dənizli-Fəthiyyə bölgəsindəki yörüklər tərəfindən toxunduğu düşünülən və Türk İslam Əsərləri Muzeyində sərgilənən bir kilimin orta zəmisi “üstəgəl” şəklində göz motivləri ilə doldurulmuşdur (20, s.113).

Ümumiyyətlə, türk xalqları arasında göz motivini müəyyən həndəsi fiqurlar içərisində və şəklində təsvir etmək adəti olmuşdur. Belə ki, bir kvadratın dörd bərabər üçbucağa bölünməsi ilə əmələ gələn forma Anadolu kilimlərində daha çox istifadə olunur. Türkiyə Qaratəpə ərazisində toxucular nəzərə qarşı pis (kəm) baxışın bu motivlə dördə və ya ikiyə bölünərək təsirinin azaldığı düşünürlər (20, s.107,108). Göz-nəzər inancı Babil, Misir, Şumer, Akkad Anadolu kimi ən qədim sivilizasiyaların bir çoxunda görülmüşdür(18, .s.120). Yunanların “matisma”, ərəblərin “əl-eyn” ya da “isabetul-eyn”, iranlıların “bəd nəzər”,hindlilərin “sehir” dedikləri bu təsirli qüvvənin türklərdəki adı “nəzər”, “göz dəyməsi”, “pis göz” , “kəm göz”dür (18, s.120). Xalçalar üzərində belə bir amuletin olması çox təbii, hətta zəruri bir detal olmuşdur. Çünki evin ən görkəmli yerinə asılan xalça üzərinə toxunmuş göz inanca görə kəm gözü qaytarır. Xalça qədimdən bəri anaların qızlarına verdiyi ən vacib cehizlərdən biri olmuşdur. Əlbəttə, hər bir ana övladı üçün toxuduğu xalçaya müxtəlif nəzərdən qorunma elementləri toxuyaraq onun gələcək evini, ailəsinin səadətini, doğulacaq körpəsini və mal-mülkünü mühafizə edə biləcəyini düşünürdü. S.Etikan və H. Kılıçarslan belə yazırlar: Pis gözün zərərli təsirini önlədiyi və nəzərə yaxşı rəsir etdiyi üçün xalça və toxuculuq məmulatlarının başlanğıc və sonunda yer alan və “kilimlik” deyilən qismində göz motivi toxunmaqdadır (20, s.113). Eyni zamanda bu toxuculuq məmulatları onu toxuyanın evini, xoşbəxtliyini nəzərdən və kəm gözdən qoruduğuna inanılan və yerə sərilən bir növ nəzərlikdir (20, s.106). Qadınlar nəinki toxuduğu xalçaya, həmçinin toxuma alətlərinə belə göz dəyəcəyindən ehtiyat etmişlər. Hətta islam dini yayılandan sonra belə bir inanc yaddaşlardan silinməmişdir. Lakin öz mühafizə

formasını dəyişmişdir. İnsanlar artıq müqəddəs Quran-i-Kərimdən müəyyən ayələrin sehrinə və bu Allah kəlamlarının onları qoruyacağına inanmışlar. Müxtəlif ayələri amulet şəklində evlərinin müəyyən hissələrində mühafizə etməyə, yaxud üzərlərində gəzdirmə adəti yayılmağa başlamışdır. Bu toxuculuq nümunələrinə də təsirsiz ötüşməmişdir. Müəyyən toxuculuq məmulatları üzərində ərəb, bəzən isə kiril əlifbası ilə "Ya Allah", yaxud "Ya Əli" sözləri toxunmağa başlamışdır.

Məqalədə xalqımızın dini inanclarından biri olan bəd-nəzər inancı, onun xalqımızın toxuculuq məmulatlarına təsiri araşdırılmışdır. Müəyyən olunmuşdur ki, bu gün də aktual olan bu inanc islam dininin təsirindən sonra da səngiməmişdir. Həmçinin bu inancın qədim zamanlarda qadın-ana kultu ilə əlaqədar olduğu məlum olmuşdur. Qadınların qoruyucu amulet kimi əbədiləşdirilməsi, sonradan onların stilizə olunaraq romb, daha sonralar isə bəd-nəzər inancına keçməsinə gətirib çıxarmışdır.

İstifadə olunmuş mənbə və ədəbiyyat siyahısı :

1. Abdullayeva M.Ə. Azərbaycan dilində xalçaçılıq leksikası. Bakı, 1988.
2. Əfəndi R., Əfəndi T. Tarix, folklor və mifologiya mənbəyi // Azərbaycan xalçaları. Cild 3, N-6, Bakı, 2013.
3. Kərimov L. Azərbaycan xəlçəsi. Bakı-Leninqrad, 1961.
4. Qarabağ xalçaları. Kataloq. Red.: N.Vəlixanlı. Bakı, 2013.
5. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nigah. Bakı, 1994.
6. Milli Azərbaycan Tarixi Muzeyi Etnoqrafiya Fondu inv. 6196. Qarabağ "Açma yumma".
7. MATM EF inv. 6194. Şuşa "Açma yumma".
8. MATM EF inv. 6197. Qarabağ kilimi.
9. MATM EF inv. 6276. Qarabağ kilimi.
10. Məlumatçı Novruzəliyeva Pəlvər. 83 yaş. Quba rayonu Afurca kəndi.
11. Məlumatçı Vəlixanova Kifayət. 76 yaş. Ağdam rayonu.
12. Muradov V. İrəvan qrupu. Bakı, 2013.
13. Nəsirova S. Azərbaycan xalçalarında türk mifologiyasının izləri //Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası). Bakı, 2014,N-1.
14. Rzayev N. Qayalar danışır. Bakı 1985.
15. Tuncay B. http // bextiyartuncay.wordpress.com/2015/02/.
16. Anadolu Medeniyyetler Müzesi. Ankara, 2006.
17. Akarsu B. Felsefe terimleri sözlüğü. Ankara, 1975.
18. Erbek M. Çatalhöyükden günümüze Anadolu motifleri. Ankara, 2002.
19. Erman A. Türklerde islamiyyet öncesi inanc sistemleri. http // turuz.com .
20. Etikan S., Kılıçarslan H. Düz dokumalarda nazar inancı ve göz motifi // ART-E. Kas/ara 2012, Vol. 5. İssue 10.
21. İnan A. Tarihde ve bugun şamanizm. III baskı. Ankara, 1986.
22. Kalafat Y. Doğu Anadoludan eski türk inancının izleri. Ankara, 1990.

23. Uraz M. Türk Mifolojisi. İstanbul, 1994.
24. Керимов Л. Азербайджанский ковер. Том 2.Баку, 1983.
25. Керимов Л. Азербайджанский ковер. Том 3.Баку, 1983.
26. Ксенофонтов Г. В. Хрестес. Шаманизм и христианство. Иркутск, 1929.
27. Ксенофонтов Г. Шаманизм (избранные труды). Якутск, 1922.
28. Alok E. Petroqlyps of Gobustan. Azerinşaat.
29. Black J., Green A. Gods, demons and symbols of ancient Mesopotamia. London, 1992.
30. Hayes W.H. Cylinders and other ancient oriental seals. New York, 1909.
31. Hayes W.H. The seal cylinders of western Asia. Washington, 1910.

Sevinje Nasirova

Some paterns connected with religious beliefs on Azerbaijan weaving materials

Summary

Key words: *carpet, romb, eye, evil eye, mother cult*

Weaving materials, especially paterns on our carpets are the source of learning life style religious beliefs from past up today and even the great source of learning etnogeny. This article deals with the figure romb which was widely used on our weaving materials. It was found out that this pattern was used on petroglyphs and cylinder seals all over Eastern countries. This pattern was formed by deep beliefs to mother and women which was widely spread in the East, later it stylized into the shape of an eye. But the meaning has not changed. Inspite of it the pattern used as a romb and an eye has kept its meaning of protection.

Севиндж Насирова

Некоторые узоры, связанные с религиозными убеждениями, на ткацких материалах Азербайджана

Резюме

Ключевые слова: *ковер, ромб, глаз, сглаз, культ женщины-матери*

Узоры на материалах ткачества, особенно на коврах, являются источником для изучения религиозных убеждений и этногенеза. В данной статье исследуется один из широко распространенных узоров в виде ромба. Было выяснено, что узоры были использованы на петроглифах, цилиндрических печатях во всех странах Ближнего Востока. Узор возник в связи с широко распространенной верой в женщину-мать, а позже стилизованно приобрел форму глаза. Несмотря на это, использованный в качестве ромба и глаза узор сохранил смысл и функцию оберега.

Qərənfil Əsədova

L.F. Knitin "Şamaxı bazarı" təsviri sənət əsərinin tarixi-etnoqrafik baxımdan təhlili

Açar sözlər: *L.F. Knit; Şamaxı bazarı; avropalı tacirlər; Səfəvilər*

UOT 39

XX əsr Azərbaycan tarixinə mədəni yeniliklər əsri kimi daxil oldu. Bu dövrdən etibarən Orta əsrlərdən qəlibləşmiş düşüncələr və həyat tərzi yeniləndi. Xalqın arasında maarifçilik ideyalarının yayılması nəticəsində getdikcə zəmanəsinin yeni tələbləri ilə ayaqlaşan nəsil formalaşmağa başladı.

XX əsrdə Azərbaycanda müxtəlif elmlərin inkişafı ilə yanaşı tarix elminin inkişafında da mühüm addımlar atılır. Orta əsr mənbələri tədqiqata cəlb edilir. Bartold, Minorski, Petruşevskinin onlar üzərindəki tədqiqatları daha da dərinləşdirilərək ictimaiyyətə təqdim olunmağa başladı. Bu işdə Azərbaycan Tarixi Muzeyinin də xüsusi rolu olmuşdur. Müəssisə tariximizə aid olan istənilən maddi mədəniyyət nümunəsini toplamaqla elmin inkişafına öz tövhələrini vermişdir. Bu cəhətdən maraqlı olan nümunələrdən biri də muzeyin Təsviri materiallar fondunda saxlanılan 1938- ci ildə L. F. Knit tərəfindən kətan üzərində yağlı boya ilə 153× 256 sm ölçudə çəkilmiş "Şamaxı bazarı" adlı rəsm əsəridir (9), (11, s.246-247). Tablo XX əsrin məhsulu olsa da, mövzu baxımından Orta əsrləri əks etdirir. Əsərə diqqət yetirməklə və onun obrazlarını incələməklə hətta, tarix elmi ilə birbaşa məşğul olmayanlar da Orta əsrlərdə şəhər həyatı, ticarət münasibətləri barəsində özlərində təsəvvür formalaşdıra bilərlər. Tabloya baxdıqca müəllifin Azərbaycan tarixinə nə qədər dərindən bələd olması aydın görünür. Obrazların dəqiq təsvir olunması, həmçinin şəhər darvazalarının və bazar meydanın strukturunun dəqiqliklə təsvir olunması müəllifin onların əks olunduğu mənbələrə bələd olduğuna şahidlik edir. Həqiqətən də araşdırdıqda məlum olur ki, XX əsrin 30- cu illəridə muzeyin "Azərbaycanda feodalizm tarixi" şöbəsinin materialları əsasında və onun əməkdaşlarının rəhbərliyi ilə rəssamlar Haqverdiyev, Q.B. Piralov və L.F. Knit tariximizin müxtəlif dövr və hadisələrini əks etdirən tablolar yaratmışlar.(6, s.49) Rəsm əsərində tarixi baxımdan dəqiqlik də məhz burdan qaynaqlanır.

Əsərə baxdıqda geyimlər əsasında buradakı obrazların təqribən neçənci əsrə

aidliyi və haralı olması barəsində mülahizə irəli sürmək olur. Rəsm əsərini Z. Hacıyeva " XVIII əsrdə Şamaxıda meydan" adı ilə təqdim edir.(7, s. 50) Lakin, onun sujet xətti və obrazlarının xarici görünüşü XVI-XVII əsrlər Səfəvi hakimiyyəti dövrü üçün daha xarakterikdir. Muzeyin fondunda isə bu rəsm əsəri " Şamaxı bazarı" adı altında qeyd olunmuşdur.

Rəsm əsərinin təsviri: Şəhərin qala qapıların qarşısında təşkil olunan bazarın fonunda Şamaxının yolları, evləri və onların arxasında ucalan dağları təsvir olunmuşdur. Bazar meydanın mərkəzində iri tərəzi quraşdırılmışdır. Burada hər şey tapmaq mümkündür: meyvə, tərəvəz, iplik, parça, mal- qara və s. Ətraf cərgələrdən birində isə xidmətlər göstərilir. Məsələn, dəllək elə açıq havada öz müştərisinin saçını qırxır.

Qızılbaş papaqı qoyan və arxasındakı qoruqçuları ilə ağ at üzərində qürurla irəliləyən şəxsin qarşısında əlini sinəsinin üzərinə qoyaraq, başını əyib təzim edənlərin davranışından belə aydın olur ki, həmin şəxs yüksək vəzifə sahibidir. Onlardan irəlidə isə qoşa öküzləri və arabaları ilə yolu tutmuş kəndliləri əllərindəki şallaqlarla döyərək uzaqlaşdırmağa və yolu açmağa çalışan bazar nəzarətçiləri və darğalar təsvir edilir.

Qızılbaşların əsas ağalıq dövrü Səfəvilər dövlətinin mövcud olduğu XVI- XVIII əsrin əvvəllərini əhatə etdiyindən tematik olaraq demək olar ki, tabloda həmin dövr əks olumuşdur. (Tarixdən məlumdur ki, Səfəviləri «Qızılbaşlar» adlandırırdılar, çünki Səfəvilər başlarına təpəsi nazik və hündür, qırmızı papaq qoyub, onun da ətrafına sarıq dolayırdılar (5, s.13). Orta əsr miniatürlərində də digər obrazlardan qızılbaşlar məhz başlarına qoyduqları bu formalı papaqlarla fərqləndirilirdilər. Şirvan ərazisində qızılbaş əyanın ağa kimi qarşılanması bəhs etdiyimiz təsviri sənət əsərini I Təhmasibin Şirvanşahlar dövlətini ləğv etməsindən və bəylərbəyliyinə çevirməsindən sonrakı dövrə yəni, 1538- ci ildən sonraya aid etməyə şərait yaradır. (2, s. 218- 219) Hötsün tədqiqatlarına əsaslanaraq Əfəndiyev qeyd edir ki, XVI əsrin başlanğıcından 1535-ci ilə qədər bu cür baş geyimləri uzanır, XVI əsrin ikinci yarısından isə qısalaraq əsas etibari ilə enləşir və 1570- ci illərdə bütünlüklə əmmamənin içindən uzanan qırmızı başlıq yox olur" (5, s. 13) Bu məlumatlar bizə imkan verir ki, təsvirdəki qızılbaşın sarığının altındakı qırmızı papağın uzun olduğunu əsas gətirərək təsviri sənət əsərini tematik olaraq XVI əsrin I ortalarına aid edək.

Индийский историк Сурьянрайн Мурти 21 октября 1957 г. оставил следующую запись: «Посещение Музея истории Азербайджана доставило мне большое удовольствие. Древняя история освещена очень хорошо. Этот район имеет большое значение с точки зрения историка. Таким музеем в городе Баку можно гордиться. Очень хорошо отражена освободительная борьба в Азербайджане в 1905-1920 гг. и её конечная победа. Ознакомление с материалами музея представило для меня большой интерес».

Делегация деятелей культуры Мексики, делегация деятелей культуры Китая, писательница Д.Максимович и делегация журналистов из Югославии, лауреат международного конкурса пианистов-исполнителей им. Чайковского Лю-Ши-Кунья, участники Ташкентской конференции писателей стран Азии и Африки – Тлыач Вагаш (Таиланд), Прагад Мадхан Гимира (Непал), писатель из Чили – Францизско Колоана.

Делегация Мексики 24 июня 1961 г. оставила следующую запись: «Приветствуем музей истории Азербайджана и поздравляем его сотрудников с успешным выполнением их высокой миссии. Сохранять живой историю народа – значит сохранять его дух».

Делегация деятелей культуры Китая отметила что «музей истории Азербайджана раскрывает замечательную историю развития этой республики. Осмотр музея помог нам ознакомиться с многовековой и славной культурой азербайджанского народа...».[68]

Большой друг Азербайджана, турецкий поэт Назым Хикмет, посетив Музей, оставил запись: «Вы создали замечательное произведение, достойное великого народа. Музей не хранилище мертвых вещей и неподвижных фотографий, а зеркало последовательно сменявшейся и уходящей в глубь тысячелетий жизни. Создателям Музея с благодарностью».[69]

Бунтарский, революционный тонус поэзии Назыма Хикмета встречал признание и любовь народа и пристальное полицейское внимание, аресты, смертный приговор выталкивали поэта из страны.

Совсем ещё юный поэт, в 1921 г. приехал в Москву, три года жизни в советской столице, дружба с Маяковским, творчество этих лет стали вехой в идейной и литературной биографии поэта. В 1924 г. вернувшегося на

68 Труды Музея истории Азербайджана. Баку. 1962. Том V. С.217.
69 Материалы по истории Азербайджана. Баку. 1961. Том IV. С. 202.

родину Назыма Хикмета ждал приказ об аресте, и вновь скрываясь, он через Западную Европу снова приехал в Москву, отсюда Назым посылает свои стихи в Баку, которые печатаются в различных журналах и газетах. В 1927 г. Хикмет приезжает в Баку. Свои впечатления он изложил в ярком, образном стихотворении «Поездка в Баку», преподнеся в качестве эпиграфа свои же строки: «Баку – это сердце, наполняющее её свежей кровью».

Завершают стихотворение поэтические строки:

«Как мне хочется кинуться
В омут ночи
И бежать, и петь, и кричать на бегу,
Как не пел, не кричал и не бегал давно,
Целовать этих чёрных людей
В замасленных рубашках рабочих,
Пасть ниц
На святую землю Баку».

В этом же 1927 г. Назым Хикмет посвятил Баку ряд стихотворений: «Байрамоглу», «Ответ нефти», «Каспийское море»…

В 1928 г. в Баку вышел в свет первый сборник стихотворений Назыма Хикмета «Песня поющих сердец».

Преследования, тринадцать лет тюремного заключения, голодовка-протест, вынужденная эмиграция не смогли сломить дух поэта-трибуна, но покалечили сердце человека. Тяжело больной, вопреки запретам московских врачей, Назым Хикмет в 1957 г. в последний раз приехал в Баку на премьеру его пьесы «Гарибе адам» («Чудак») на сцене Азербайджанского драматического театра. В памяти сидящих в зале зрителей надолго запечатлелся вечер премьеры, когда ещё до поднятия театрального занавеса, в правительственной ложе появился статный, красивый Назым Хикмет и обратился к замершему залу. Он говорил, что врачей беспокоило состояние его сердца, но они не понимали, что счастье и радость не могут навредить сердцу, а я счастлив, – говорил Хикмет. Я счастлив! Осуществление постановки моей пьесы в Баку, в городе, от которого отделяет от моей Родины всего 45 минут полёта. Эмоциональность, искренность короткого выступления поэта, светлая улыбка, не сходившая с лица, рождали чувство радости и веру, что Н.Хикмет счастлив.

Для иностранных гостей посещение Баку, как правило, было первым знакомством с Азербайджаном и экспозицией Музея призваны были познакомить их с историей азербайджанского народа, а для Н.Хикмета история Азербайджана была давно и хорошо известна, более того, он любил этот край, его народ, что нашло отражение в его поэтическом наследии, а запись в книге почетных гостей – это лишь оценка музейной экспозиции.

После восстановления независимости Азербайджана пересмотру и переосмыслению подверглись и вопросы отечественной истории. На коллектив Музея истории ложилась обязанность пересмотреть действующую экспозицию, собрать материал для освещения новых разделов, что повлекло необходимость реэкспозиции с временным закрытием Музея для посещения. Время не пощадило здание, насчитывающее «солидный возраст» – 100 лет, в котором располагался Музей истории. Это не укрылось от внимания президента республики Ильхама Алиева и в 2005 г. по его инициативе и поручению в музее начался капитальный ремонт и реставрационные работы. На три года музей был закрыт для посещения, что и объясняет отсутствие записей впечатлений посетителей.

7 мая 2008 г. двери Национального музея истории Азербайджана открылись для всех посетителей, желающих познакомиться с многовековой историей азербайджанского народа.

С новой экспозицией знакомились почётные гости, посетившие Азербайджан: президенты иностранных государств, представители общественных и правительственных делегаций, послы стран, аккредитованные в республике, учёные, многочисленные туристы, преподаватели и просто отдельные лица. Приведем некоторые высказывания гостей, оставленные в Книге почетных гостей НМИА:

«Вся история азербайджанского народа, полная как трагических, так и светлых знаменательных событий, является блестящим примером того, как отважный и мудрый народ может сам решать свою судьбу вопреки тяжелейшим испытаниям, через которые он прошёл. Справедливо замечено, что народ выживает во все времена, если он дорожит своей историей и умеет бережно хранить её и донести до своих потомков. Я восхищаюсь способностью азербайджанского народа властвовать над временем. Владимир Воронин. Президент Республики Молдова. 24 апреля 2008 г.»

«Бережно сохраняя память о своём прошлом, Азербайджан может с уверенностью смотреть в будущее. Искренне тронут вниманием, с которым сотрудники Музея относятся к нашей общей истории. Оставляя потомкам память о героизме азербайджанцев, сражавшихся за нашу родную Беларусь, вы вносите неоценимый вклад в воспитание будущих поколений Беларуси и Азербайджана, укрепление наших братских уз» Посол Республики Беларусь в Азербайджанской Республике Николая Пацкевич. 27 июня 2013 г.»

«Спасибо за возможность познакомиться со страницами великой истории великого народа! Декан факультета международной журналистики МГИМО (У) МИД Росси Скворцов Я.Л. 4 апреля 2014 г.».

«Делегация из Санкт-Петербурга, в лице ректора и деканов Северо-

Западного Института Президентской Академии выражает восхищение и благодарность руководству и сотрудникам Музея за любовь к истории и культуре великого народа Азербайджана! Благодаря Вашему профессионализму и знаниям мы в полной мере смогли оценить прошлое и настоящее Баку и его гостеприимных жителей. 01.04.2014 г.»

«Ваш музей оставил у меня большие воспоминания об истории Азербайджана – страны с глубоким и славным прошлым, удивительным настоящим и, я не сомневаюсь, с великим будущим. Восхищён тем, как хранят культурное достояние. Профессор, доктор исторических наук Лебедев».

«Благодарим администрацию музея за глубокие сведения об истории страны, которые заботливо сохранены для современников. Тронуты бережным отношением к истории и историческим экспонатам. 12.07. 2012 г. Проф. Чо Хё Тын (Южная Корея), Ли Бенжамин (Южная Корея)».

«Замечательный музей, прекрасное впечатление об истории, культуре, развитии традиций Азербайджана. Огромное спасибо за доставленное удовольствие и внимание. Проф. доктор политических наук Яровая А.В. 20.02. 2012 г. г. Одесса.»

Музей стал и местом встречи коллег – представителей музеев ближнего и дальнего зарубежья. Участники международных конференций, которые проводил и проводит Национальный музей истории Азербайджана, проявляли большое внимание и интерес чисто профессионального характера. Директор Эрмитажа М.Пиотровский, выступая 24 ноября 2010 г. на торжественном мероприятии в честь 90-летия музея, отметил, что «это хороший повод, чтобы обсудить многие практические вопросы нашего взаимодействия с этим прекрасным музеем Азербайджана, тем более что у нас есть давние двусторонние связи». Ознакомившись с экспозицией, М.Пиотровский подчеркнул, что насыщенность подлинными материалами придаёт им особый интерес, а «…слова Мингячевир, Бейлаган созвучны с великими открытиями, раскопками и приятно было видеть, что найденные в результате этих раскопок подлинные материалы представлены в экспозиции».

Обретение суверенитета и независимости Азербайджанской Республикой позволило и музееведам пересмотреть, переосмыслить ряд вопросов истории своего народа, в частности, по достоинству оценить роль Г.З.Тагиева. В особняке Тагиева, где разместился Музей, были воссозданы несколько мемориальных комнат как дань памяти Г.З.Тагиева в общественной жизни, которого забота о просвещении и культуре азербайджанского народа занимала доминирующее место. Это и определило реакцию крупного учёного-музееведа из Санкт-Петербурга М.Пиотровского на новацию азербайджанских коллег: «Благотворителей в истории было всегда много, но далеко не всегда мы

о них помним так, как следует. И здесь Национальный музей истории Азербайджана подаёт очень хороший пример. Эту книгу-альбом о Тагиеве[70*] я буду показывать в России, говоря о том, что нужно меценатов, и помнить, и делать для них тоже добрые дела».

Учёный-историк из Казахстана, директор Института истории и этнологии С.Мажитов тоже высоко оценил новаторство азербайджанского музея: «Тагиев это не только миллионер, меценат, это человек, которому Бог позволил сотворить себе памятник при жизни…через благотворительность… дал образование азербайджанской женщине»

Выступая в ноябре 2010 г., директор Национального исторического музея Беларуси Сергей Вечер обратился к азербайджанским коллегам: «Хотелось бы надеяться на установление тесных контактов между нашими музейными учреждениями, потому что у нас много общего: и в истории государственности, и создания музея». Слова представителя белорусской историко-музейной общественности созвучны с мыслями и чувствами азербайджанских коллег, открытых для добрых дружеских и творческих связей. В 2012 г. вышла из печати подготовленная решением Учёного совета Национального музея истории Азербайджана книга «Они сражались за Беларусь» («Участие азербайджанцев в освобождении Беларуси»), рассчитанная на широкую читательскую аудиторию и Азербайджана и Беларуси. При написании книги были использованы и материалы белорусских коллег. На презентации книги в Музее присутствовал посол Беларуси Н.Е.Пацкевич и сотрудники посольства, авторам книги была вручена почетная грамота. Но самое примечательное, в Минске в июле 2014 г. провели также презентацию книги «Они сражались за Беларусь», сопровождаемую фотовыставкой. Не это ли пример творческих, да и дружеских связей азербайджанских и белорусских музеев?

Присутствовавшие на конференции представители музеев 15 стран были единодушны в высокой оценке азербайджанского музея, организации научно-исследовательской и просветительской работы. Выступающие отмечали важность восстановления творческих связей с азербайджанскими музеями, отмечая, что НМИА наряду с большой научно-исследовательской деятельностью, осуществляет важную работу по совершенствованию и расширению экспозиции, пополнению фондов новыми экспонатами, хранению и реставрации музейных предметов, внося тем самым свой вклад в сохранение всемирного культурного наследия. Участники конференции отмечали многообразную деятельность Музея и его творческие достижения благодаря государственной политике и личному вниманию президента Азербайджанской Республики Ильхама Алиева.

70* Книга-альбом «Гаджи Зейналабдин Тагиев». Баку, 2010.

Национальный музей истории Азербайджана, как и свидетельства летописцев, хроникеров осуществляет связь с прошлым, связывает времена и поколения, духовно обогащая человека, позволяя ему соприкасаться с ценностями, уходящими вглубь веков, задумываться о корнях своего рода, о событиях в жизни своего народа, своей страны, мира. Если есть историческая память, следовательно, может быть и историческое беспамятство, а это как нравственный «склероз» губительно и для человека, и для народа. Поэтому так важно знать и хранить страницы истории, что и является главным предназначением музея. Исторический музей по своей роли и значимости в обществе можно с полным правом именовать «грандиозной книгой человечества». «Книгой» этой обеспечено долголетие, поколение историков-музееведов, сменяя друг друга, будут вписывать новые страницы, возможно, дополнять своих предшественников, но важно, что музей будет жить, а посетители иметь возможность читать и перечитывать «дела давно минувших лет».

Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin 2015-ci ildə gördüyü elmi-ekspozisiya, elmi tədqiqat, elmi-kütləvi və fond işlərinin

H E S A B A T I

Elmi tədqiqat işləri planlarının yerinə yetirilməsi haqqında məlumat

Təsdiq olunmuş plana əsasən Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşları Azərbaycan tarixinin bütün dövrlərinə aid maddi mədəniyyət abidələrinin toplanması, mühafizəsi, tədqiqi, nəşri, onların ekspozisiya və sərgilər vasitəsilə nümayişi və təbliği istiqamətində 4 problem üzrə 13 mövzunu əhatə edən 23 iş üzərində çalışmışlar. Cari ildə planda nəzərdə tutulmuş 3 mövzu və 12 iş yerinə yetirilmişdir.

Muzeyin elmi tədqiqat planına daxil olan **I problem** *"Azərbaycan xalqının qədim dövrdən bu günə qədərki tarixini əks etdirən maddi və mənəvi mədəniyyət nümunələrinin muzeyin ekspozisiyasında və sərgilərdə nümayişi və təbliği"* adlanır. Problemə daxil olan *"Azərbaycanın qədim, orta əsrlər, yeni və Xalq Cümhuriyyəti dövrlərini, Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətini əks etdirən ekspozisiyanın daimi təkmilləşdirilməsi və yeniləşdirilməsi, müxtəlif mövzularda sərgilərin qurulması"* mövzusu üzrə (mövzunun rəhbəri: elmi işlər üzrə direktor müavini, t.ü.e.d. Nərgiz Əliyeva) daimi ekspozisiyada 3 bölmə yenidən qurulmuş, 1 yeni bölmə yaradılmışdır. Xarici əlaqələr və sərgilərin təşkili şöbəsinin müdiri, t.ü.f.d. Səbuhi Əhmədovun rəhbərliyi ilə aparılan bu iş çərçivəsində "Azərbaycanın sualtı arxeologiyası", "XIX əsrdə Azərbaycanda sənaye, rabitə və nəqliyyat", "Azərbaycanlıların soyqırımları" bölmələri yenidən qurulmuş, adıçəkilən bölmələrdə ümumilikdə 400-dən artıq eksponat və fotoşəkil, rəsm əsərləri, maketlər, heykəl, banner və informasiya panelləri yerləşdirilmişdir. AMEA Rəyasət Heyətinin tövsiyəsi ilə muzeyin ekspozisiyasında yenidən qurulan "Azərbaycanlıların soyqırımları" bölməsi ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımların tədqiq edilməsi baxımından olduqca aktual və vacibdir. Bölmədə "1918-ci il azərbaycanlıların soyqırımları", "Fövqəladə Təhqiqat Komissiyasının materialları", "Qubada soyqırım memorialı", "Bakı qırğınları", "Şamaxı qırğınları", "Quba qırğınları", "Qərbi Azərbaycan, Naxçıvan və Qarabağda qırğınlar", "Soyqırımın XX əsrin əvvəllərinə aid incəsənətdə əks olunması" hissələri yaradılmış, sensor kompüteri quraşdırılmış, burada Azərbaycan, ingilis və rus dillərində tarixi sənədlər, elmi məqalələr yerləşdirilmişdir. Muzeyin ekspozisiyasında həmçinin soyqırımı mövzusunun davamı olan yeni "Xocalı soyqırımı" bölməsi də yaradılmışdır. Bölmədə 35 eksponat, 40-a yaxın fotoşəkil, 2 rəsm əsəri, müvafiq informasiya panelləri yerləşdirilmiş, Xocalı soyqırımını əks etdirən fotoşəkillərin yer

aldığı monitor qurulmuşdur. "Azərbaycanlıların soyqırımları" bölməsinin aprelin 24-də elmi ictimaiyyətə təqdimatı keçirilmiş, təqdimat mərasimində iştirak etmiş AMEA Prezidenti akademik Akif Əlizadə, akademiyanın rəhbərliyi, alimlər görülən işləri yüksək qiymətləndirmişlər.

Ekspozisiyanın təkmilləşdirilməsi işi çərçivəsində digər elmi şöbələr və fondlar müvafiq zalların vitrinlərində eksponatları yeniləşdirmiş, annotasiyaları yoxlamışlar. Ekspozisiyada 40-dan çox etnoqrafik, 60-dan artıq arxeoloji material yenilənmişdir.

Mövzuya daxil olan "Azərbaycan Milli Elmlər Akademiyasının 70 illiyinə həsr olunmuş sərginin keçirilməsi və Milli Azərbaycan Tarixi Muzeyinin 95 illiyinə həsr olunmuş kitab-albomun nəşri" işi çərçivəsində oktyabrın 21-də adıçəkilən sərginin açılışı olmuşdur. Sərgidə cari ildə 95 illiyini qeyd edən Milli Azərbaycan Tarixi Muzeyinin keçdiyi yola nəzər salınıb, onun Azərbaycan elminin inkişafında, tarixi tədqiqatların aparılmasında xidmətlərini əks etdirən və muzeyin fondlarında qorunan maraqlı eksponatlar, nəşrlər nümayiş olunub. Sərgi zamanı yeni çapdan çıxmış "Milli Azərbaycan Tarixi Muzeyi" adlı kitab-albomun təqdimatı olmuşdur. Muzeyin direktoru, akademik Nailə Vəlixanlının müəllifliyi və tərtibatçılığı ilə nəşr olunan bu kitab-albomda muzeyin yaranma tarixi, onun elmi və maarifçilik fəaliyyəti, strukturu, nəşrləri, muzey əməkdaşları və s. haqqında ətraflı məlumat öz əksini tapmışdır.

Mövzuya daxil olan "Faşizm üzərində Qələbənin 70 illiyinə həsr olunmuş sərginin keçirilməsi və sərginin kataloqunun nəşri" adlı işin icrası çərçivəsində mayın 5-də muzeydə "Azərbaycan İkinci Dünya müharibəsi illərində" sərgisinin təntənəli açılışı olmuşdur. Sərgidə 17 döyüş bayrağı, 483 eksponat, 230 fotoşəkil, 13 rəsm əsəri və 10 iriölçülü reproduksiya nümayiş olunmaqla ön və arxa cəbhələrdə vuruşan Azərbaycan qəhrəmanlarının materialları, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən azərbaycanlıların şəxsi əşyaları, sənədləri, döyüş sursatları nümayiş olunur. Əcnəbi qonaqların, turistlərin rahat məlumat almaları üçün sərginin materiallarının annotasiyaları və onlar haqqında məlumat 3 dildə - Azərbaycan, rus və ingilis dillərində verilmişdir. Muzeyin təcrübəsində ilk dəfə olaraq sərgidə "Tarixə toxun" ("Touch to history") bölməsi yaradılmışdır ki, ziyarətçilər burada müharibə dövrünün abu-havası ilə əyani şəkildə tanış ola bilərlər. Sərginin açılış mərasimində "Azərbaycan II Dünya müharibəsi illərində" adlı sərgi kataloqunun da təqdimatı keçirilmişdir. Akademik Nailə Vəlixanlının elmi redaktorluğu, t.ü.f.d. Səbuhi Əhmədovun müəllifliyi ilə Azərbaycan və rus dillərində nəşr edilən kataloqda sərgidə nümayiş olunan materialların fotoşəkilləri yer almış və sərginin bölmələri, eksponatlar haqqında ətraflı məlumat verilmişdir.

II Problem *"Muzeyin fondlarında qorunan maddi mədəniyyət nümunələrinin, Azərbaycan tarixinin müxtəlif dövrlərinin elmi tədqiqi və nəşri, respublika və beynəlxalq səviyyəli elmi konfransların, seminarların keçirilməsi, Azərbaycanın müxtəlif bölgələrinə toplama işi məqsədilə ekspedisiyaların təşkili"*dir. Bu problem 10 mövzunu əhatə edir.

"Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu və problemləri" respublika elmi konfransının keçirilməsi" mövzusu üzrə aprelin 7-də Azərbaycanın ilk peşəkar arxeoloq və muzeyşünası Davud bəy Şərifovun anadan olmasının 130 illiyinə həsr olunmuş V Respublika elmi konfransı keçirilmişdir. Konfrans muzey

işi, muzey pedaqogikası, bərpa işi və muzeylərin gənc nəslin vətənpərvərlik tərbiyəsində rolu bölmələrində işləmişdir. Konfransda Tarix Muzeyinin əməkdaşları ilə yanaşı Elmlər Akademiyasının digər elmi tədqiqat institutlarının, ali məktəblərin, muzeylərin alim və mütəxəssisləri, digər əməkdaşları 50-dən artıq məruzə ilə çıxış etmişlər (mövzunun rəhbəri: elmi işlər üzrə direktor müavini, t.ü.e.d. N.Əliyeva).

"Azərbaycanın orta əsr saxsı məmulatı" elmi tədqiqat layihəsi" mövzusu üzrə "Azərbaycan sferokonusları" kataloqu üzərində iş hesabat dövründə davam etmişdir. Kataloqun nəşrini aktuallaşdıran əsas məqam həmin qablar haqqında ziddiyyətli fikirlərin yer almasından ibarətdir. Həm bu amil, həm də sferokonusların əksər nümunələrinin nəfisliyini, mükəmməlliyini, eləcə də beynəlxalq ticarətdəki rolunu nəzərə aldıqda qeyd olunan mövzuda kataloqun hazırlanması bir zərurətə çevrilmişdir. Hesabat dövründə kataloq üçün 554 sferokonus və onların fraqmentləri seçilmişdir. Onlardan 286 eksponat kataloqa cəlb edilib və elektron pasportu hazırlanıb. Aparılmış işlərin əsas istiqamətini sferokonus nümunələrinə aid annotasiyaların redaktə edilməsi və ön sözün yazılması təşkil etmişdir (mövzunun rəhbəri: Arxeologiya elmi fond şöbəsinin müdiri, t.ü.f.d. N.Quluzadə).

"Azərbaycan xalqının mədəni irsi (Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında)" silsilə kitabların hazırlanması" mövzusu üzrə 2015-ci ildə Azərbaycan tarixinin elmi ekspozisiyası şöbəsinin əməkdaşları tərəfindən "Azərbaycan incəsənəti" məqalələr toplusu hazırlanmışdır. Topluya muzeyin fondlarında qorunan Üzeyir Hacıbəylinin, Sidqi Ruhullanın, Sara Aşurbəylinin, Fatma Muxtarovanın və b.-nın materiallarından, həmçinin fondlarda və daimi ekspozisiyada yer alan eksponatlardan bəhs edən 11 məqalə təqdim olunmuşdur. Məqalələr toplusu redaktəyə təqdim olunub (mövzunun rəhbəri: Azərbaycan tarixinin elmi ekspozisiya şöbəsinin müdiri, t.ü.f.d. Z.Dulayeva).

Həmin mövzuya daxil olan "İslam mədəniyyəti və Azərbaycan məişəti" kataloqununun hazırlanması və nəşri" işi çərçivəsində adıçəkilən kataloqun ilkin variantı hazırlanmış və redaktəyə təqdim olunmuşdur. Kataloqda Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan 600-ə yaxın dini təyinatlı eksponat yer almışdır. Burada ilk dəfə olaraq, faktiki material əsasında xalqın inanc sistemi ilə bağlı ənənəvi mərasimlər, ayinlər, geyim nümunələri, ibadət vasitələri, gündəlik məişətdə özünə yer tutan islam mədəniyyəti etiketləri etnoqrafik xüsusiyyətlərin qarşılıqlı təsiri fonunda təqdim edilmiş, xalqımızın məişət həyatında islam dininin rolu əks olunmuşdur (icraçı: Etnoqrafiya elmi fond şöbəsinin böyük elmi işçisi, t.ü.f.d. T.Şiriyev).

"Azərbaycan xalqının mədəni irsi (Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında)" silsilə kitabların hazırlanması" mövzusu üzrə "Rəşid bəy və Məmməd bəy Əfəndiyevlərə həsr olunmuş kataloqun hazırlanması və nəşri" (icraçı: Xarici əlaqələr və sərgilərin təşkili şöbəsinin k.e.i. N.Əsədova) və "Azərbaycan musiqi alətləri" kataloqunun hazırlanması və nəşri" (icraçı: Xarici əlaqələr və sərgilərin təşkili şöbəsinin k.e.i. İ.Muradəliyeva) işləri çərçivəsində fondlardan eksponatlar seçilmiş, hər iki kataloqun ilkin variantı hazırlanmışdır.

"Azərbaycan zərgərlik sənəti" monoqrafiyasının hazırlanması" mövzusu çərçivəsində muzeyin Xüsusi, Arxeologiya, Etnoqrafiya, Silahlar və bayraqlar fondlarında iş aparılmış, material toplanılmışdır. Monoqrafiyada Azərbaycan zərgərlik sənətinin qədim dövrdən bu günə qədərki inkişaf dinamikası araşdırılır,

zərgərlik sənəti sahələri etnoqrafik baxımdan işıqlandırılır. Monoqrafiyanın ilkin variantı hazırlanmışdır (mövzunun rəhbəri: Etnoqrafiya elmi fond şöbəsinin müdiri, t.ü.f.d. G.Abdulova).

"Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi dövlətlərinin sikkələri" kataloqu" mövzusu üzrə adıçəkilən kataloqa daxil olacaq 1400-dən artıq sikkə seçilmiş, fotoları çəkilmiş və annotasiyaları yazılmışdır. Kataloqa əsasən Azərbaycan ərazisində tapılmış sikkə dəfinələrinə məxsus, qismən alqı yolu ilə fonda daxil olmuş nadir sikkələr daxil edilmişdir. Sonuncular sırasında Qaraqoyunlu hökmdarı Qara Yusifin, Ağqoyunlu padşahı Rüstəmin, Səfəvi şahı I İsmayılın pulları xüsusi diqqət çəkir. Kataloqun ilkin variantı hazırlanmışdır (mövzunun rəhbəri: Numizmatika və epiqrafika elmi fond şöbəsinin müdiri, t.ü.e.d. Ə.Rəcəbli).

"Azərbaycan xalçaları (MATM-nin kolleksiyası əsasında) silsilə kitab-albomların hazırlanması,, mövzusuna daxil olan "Azərbaycan xalçalarının həndəsi naxışları" kitab-albomunun hazırlanması" işi üzrə muzeyin Etnoqrafiya fondunda saxlanılan xalçalar üzərində tədqiqata başlanılmışdır. İşin məqsədi muzeydə qorunan xalçaların ornamentlərinə fənlərarası vəhdətdə fərqli yanaşmaqdan ibarətdir. Kitab-albomda kvadrat və üçbucaq formalı həndəsi naxışların elmi təsnifatı verilir, xalçalar üzərindəki naxışlar elmlərin vəhdətində tədqiq olunur. Kitab-albom redaktəyə təqdim olunub (icraçı: Elmi maarif şöbəsinin aparıcı elmi işçisi, m.ü.f.d. N.Yusifova).

"H.Z.Tağıyevin həyat və fəaliyyətinə həsr olunmuş tədqiqatların aparılması, onların kitab, buklet, albomlar vasitəsilə nəşri" mövzusuna daxil olan "Milli Azərbaycan Tarixi Muzeyində H.Z.Tagıyevə məxsus əşyalar" kataloqunun hazırlanması işi üzrə materialın toplanılması davam etdirilmiş və kataloqun tərtibatına başlanılmışdır. İş prosesində kataloqun tədqiqat predmetinin genişləndirilməsi qərara alınmış, kataloqda H.Z.Tağıyevə məxsus əşyalarla yanaşı muzeyin yerləşdiyi H.Z.Tağıyev sarayının, xatirə muzeyinə daxil olan otaqların bədii-memarlıq xüsusiyyətlərinin, ornamentlərin araşdırılması da məqsədəuyğun bilinmişdir. Bu məqsədlə müvafiq mətn hazırlanmışdır. Kataloqunun məzmunun dəyişməsi və işin həcminin artması ilə əlaqədar onun adının dəyişdirilməsi və işin 2016-cı ilin sonunadək uzadılması haqqında muzeyin Elmi Şurası tərəfindən qərar qəbul edilmişdir. AMEA İctimai Elmlər Bölməsinin qərarı ilə "Milli Azərbaycan Tarixi Muzeyində H.Z.Tagıyevə məxsus əşyalar" kataloqunun "Hacı Zeynalabdin Tağıyevin sarayı" kitab-albomu ilə əvəz edilməsi və işin daha bir il uzadılması haqqında qərar qəbul olunmuşdur (mövzunun rəhbərləri: elmi katib, t.ü.f.d. F.Cabbarov, elmi fond işləri üzrə direktor müavini-baş mühafiz, t.ü.f.d. M.Zeynalova).

"Qadın geyim bəzəkləri" kataloqu üzərində işə başlanılmış, materiallar seçilmiş, mövzuya aid xüsusi ədəbiyyat nəzərdən keçirilmişdir. Kataloqun mənbə bazasını muzeyin Etnoqrafiya, Arxeologiya və Xüsusi fondlarda saxlanılan materiallar təşkil edir (mövzunun rəhbəri: Etnoqrafiya elmi fond şöbəsinin müdiri, t.ü.f.d. G.Abdulova).

"Saxsı oyuncaqlar" kataloqunun hazırlanması" mövzusu üzrə kataloqun ilkin variantı hazırlanmışdır. Kataloq girişdən, 220-dən artıq saxsı oyuncağın annotasiyasından və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqata cəlb olunan oyuncaqlar erkən tunc dövründən son orta əsrlərə kimi uzanan zaman

kəsiyini əhatə edir. Saxsı oyuncaq nümunələrinin böyük əksəriyyəti Mingəçevirdən aşkar edilmiş və IV-VIII əsrlərə aiddir. Kataloqda saxsı oyuncaqların tədqiqi tarixinə, hazırlanma üsullarına, tapıldığı il və məkanlara, tipoloji təsnifatına və digər məsələlərə aydınlıq gətirilmişdir (mövzunun rəhbəri: Arxeologiya elmi fond şöbəsinin müdiri, t.ü.f.d. N.Quluzadə).

III Problem *"Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında cari texniki işlərin aparılması, orada mühafizənin və təhlükəsizliyin təmin olunması məqsədilə müasir infrastrukturun təşkili"* adlanır. Problemə 1 mövzu - *"Fond materiallarının işlənməsi, kompüterləşdirilməsi və pasportlaşdırılması"* daxildir (mövzunun rəhbəri: elmi fond işləri üzrə direktor müavini, t.ü.f.d. M.Zeynalova). Mövzu üzrə aşağıdakı işlər yerinə yetirilmişdir:

- elmi fond şöbələri və fondlar 2015-ci ilin iş planına uyğun olaraq fond işi çərçivəsində ekspozisiyaya verilmiş, həmçinin geriyə qaytarılmış eksponatları aktlaşdırmış;
- fondlara daxil olmuş yeni materiallar ilkin işlənərək inventar kitabında qeydiyyatdan keçirilmiş;
- fond əməkdaşları muzeyə müraciət edən müxtəlif yerli və xarici təşkilatlara və tədqiqatçılara (o cümlədən, televiziya şirkətlərinə, Elmlər Akademiyasının müvafiq institut və təşkilatlarına və s.) metodiki və əməli yardım göstərmişlər.

Mövzuya daxil olan "Bərpaya və konservasiyaya ehtiyacı olan fond materiallarının bərpa və konservasiyası" işi çərçivəsində 2015-ci ildə muzeyin Bərpa laboratoriyası tərəfindən 2620-dən artıq muzey eksponatı bərpa və konservasiya edilmişdir.

Hesabat dövründə muzeyin kitabxanasında "Nadir kitablar" kataloqunun ikinci hissəsi üzrə iş davam etmişdir. Həmçinin muzeyin kitabxanasından AMEA Mərkəzi Elmi Kitabxanasına fondun zənginləşdirilməsi məqsədilə 2632 ədəd kitab verilib.

Mövzu üzrə "Muzeyin məlumat bazasının təkmilləşdirilməsi" işinin bir hissəsi yerinə yetirilmişdir. Hesabat dövründə fondlarda 4000-dən artıq eksponatın elmi pasportu tərtib olunmuşdur.

Cari ildə Tarixi Əşyaların Fond-Satınalma komissiyası tərəfindən muzeyə 635 ədəd material hədiyyə kimi qəbul olunmuş, 1 eksponat - XIX əsrə aid qızıl suyuna çəkilmiş gümüş gəlin baş bəzəyi satın alınmışdır.

IV Problem *"Elmi maarif, elmi kütləvi işlər"i əhatə edir. Problemə daxil olan mövzu "Azərbaycan tarixinin KİV, internet vasitəsilə təbliği, təhsil müəssisələri, ictimai təşkilatlarla əlaqələrin genişləndirilməsi"* adlanır (mövzunun rəhbəri: Elmi maarif şöbəsinin müdiri, t.ü.f.d. B.Sayılov). Muzeyin bir sıra əməkdaşları (N.Vəlixanlı, M.Zeynalova, H.Əliyeva, F.Cabbarov, S.Əhmədov, G.Abdulova, B.Sayılov, N.Quluzadə, S.Vahabova və b.) muzeyin fəaliyyətinə, Azərbaycan tarixinin müxtəlif problemlərinə dair televiziya, radio, mətbuat və İnternet vasitəsilə çıxış etmişlər.

Hesabat dövründə ötən ilin noyabr ayından başlanılmış Milli Azərbaycan Tarixi Muzeyinin Azərbaycan Respublikası Təhsil Nazirliyi və Bakı Baş Təhsil İdarəsi ilə birgə həyata kecirdiyi "Elm-Təhsil-Muzey vəhdətinə məntiqi yanaşma" layihəsi çərçivəsində muzeydə Bakı şəhəri orta məktəblərinin şagirdləri ilə müxtəlif tarixi mövzular üzrə məşğələlər aparılmışdır. Noyabrın 17-də Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun və AMEA Milli Azərbaycan Tarixi Muzeyinin birgə təşkilatçılığı ilə muzeydə "Çiçəklər" adlı uşaq rəsmləri sərgisi keçirilmişdir.

Sərgidə Dövlət Uşaq Flarmoniyası və Hövsan Mədəniyyət evinin rəsm dərnəyinin üzvləri olan 16 gənc rəssamın 67 əsəri nümayiş olunmuşdur (icraçı: Elmi maarif şöbəsinin aparıcı elmi işçisi, m.ü.f.d. Nardanə Yusifova).

Hesabat dövründə Xarici əlaqələr və sərgilərin təşkili şöbəsinin təşkilatçılığı ilə muzeydə 20 Yanvar faciəsinə həsr olunmuş tədbir (19 yanvar), "Xocalısız..." adlı anım tədbiri (25 fevral), Beynəlxalq muzeylər gününə həsr olunmuş tədbir (18 may) keçirilmişdir. Keçirilən tədbirlər arasında muzeyin ictimai təbliği və tanıdılması baxımından "BP-Azərbaycan" şirkətinin mart ayında muzeydə keçirdiyi "Açıq qapı" günləri, həmçinin mayın 14-də Təhsil Nazirliyinin Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinin və YUNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının birgə layihəsi olan "Məktəblilər üçün muzey həftəsi - Muzeylər və Ekologiya" adlı proqram xüsusi əhəmiyyət daşıyır.

Hesabat dövründə muzey bir neçə mötəbər elmi tədbirlərin keçirilməsində tərəfdaş kimi çıxış etmişdir. Bunların arasında fevralın 9-da 1905.az saytı ilə birgə keçirilmiş 1905-ci il erməni-azərbaycanlı qırğınlarının 110 illiyinə həsr olunmuş tədbiri və mayın 14-də AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi ilə birgə təşkil olunmuş Z.Bünyadovun ingilis dilində çap olunmuş "Xarəzmşahlar-Anuştəginlər dövləti. 1097-1231" kitabının təqdimat mərasimini qeyd etmək olar. Hər iki tədbir muzeydə keçirilmişdir.

Hesabat dövründə muzeyin İnternet səhifəsində yeni məlumatların operativ yerləşdirilməsi təmin olunmuşdur. Hesabat dövründə 73 mindən artıq istifadəçi muzeyin saytına müraciət etmişdir. Muzeyin "Facebook" sosial şəbəkəsindəki səhifəsinin istifadəçilərinin sayı 826, "Twitter" səhifəsində 26 nəfərə çatmışdır.

2013-cü ildən muzeydə fəaliyyətə başlamış "H.Z.Tağıyev klubu"nun üzvləri üçün cari ildə muzeyin Elmi maarif şöbəsinin əməkdaşları tərəfindən məşğələlər keçirilmiş, kluba orta və ali məktəblərdən yeni şagird və tələbə üzvlər cəlb edilmişdir.

2015-cı ildə muzeydə 400 ekskursiya aparılmışdır. Ümumilikdə, hesabat dövrü ərzində muzeyi 5800 adam ziyarət etmişdir, o cümlədən:

- "BP-Azərbaycan" şirkətinin təşkil etdiyi "Açıq qapı" günlərində (yanvar, mart aylarında) - 2300 nəfər;
- 18 May – Beynəlxalq muzeylər günü çərçivəsində keçirilən "Açıq qapı" günündə - 1000 nəfər.

Hesabat dövründə Bakı Dövlət Universitetinin, Turizm İnstitutunun, Mədəniyyət və İncəsənət Universitetinin, Rəssamlıq Akademiyasının tələbələri muzeydə təcrübə keçmişlər.

Nəşriyyat fəaliyyəti, elmi məqalələr:

Cari ildə 7 kitab çap edilmişdir:

1. Azərbaycan II Dünya müharibəsi illərində. Faşizm üzərində qələbənin 70 illiyinə həsr olunmuş sərginin kataloqu. Mətnin müəllifi: S.Əhmədov. Bakı, AFpoliqrAF, 2015, 120 s.
2. Азербайджан в годы Второй мировой войны. Каталог выставки, посвященной 70-летию Победы над фашизмом. Автор текста: С.Ахмедов. Баку, AFpoliqrAF, 2015, 120 с.
3. Milli Azərbaycan Tarixi Muzeyi-95. Kitab-albom. Tərtibatçı və mətnin

müəllifi: N.Vəlixanlı. Bakı, 2015, 176 s.

4. N.Əliyeva. Azərbaycanın elmi-mədəni mühitinin öyrənilməsində ərəbdilli ədəbiyyatın rolu (XI-XIII əsrlər). Bakı, Elm və təhsil, 2015, 368 s.

5. P.Gözəlov. Naxçıvan bayraqları. Bakı, 2015, 64 s.

6. Ə.Rəcəbli. Şirvanşahlar dövlətində sikkə zərbi (VIII-XVI yüzillər). Bakı, 2015, 240 s. (Azərbaycan, ingilis, rus dillərində).

7. Milli Azərbaycan Tarixi Muzeyinin elmi məqalələr toplusu. Bakı, 2015, 420 s.

Cari ildə muzey əməkdaşlarının 60 məqaləsi və 2 məruzəsi çap olunmuşdur.

Muzey əməkdaşlarının iştirak etdiyi ölkədaxili elmi forumlar:

Hesabat dövründə muzeyin 22 əməkdaşı ölkədə keçirilən 18 respublika və 4 beynəlxalq səviyyəli elmi forumlarda iştirak etmişlər.

Muzeydə keçirilmiş konfranslar, seminarlar, sərgilər

Cari ildə Milli Azərbaycan Tarixi Muzeyində 1 konfrans - aprelin 7-də Davud bəy Şərifovun anadan olmasının 130 illiyinə həsr olunmuş "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu və problemləri" mövzusunda V respublika elmi konfransı keçirilmişdir.

Hesabat dövründə muzeydə 2 sərgi - "Azərbaycan İkinci Dünya müharibəsi illərində" və Azərbaycan Milli Elmlər Akademiyasının 70 illiyinə həsr olunmuş sərgilər açılmışdır.

Beynəlxalq əlaqələr

Hesabat dövründə Milli Azərbaycan Tarixi Muzeyi öz xarici əlaqələrini genişləndirərək Bakıdakı Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin texniki dəstəyi ilə Rusiya Dövlət Tarixi Muzeyi ilə birbaşa telekörpü qurmuşdur. Hər iki muzeyin direktorları arasında baş tutan telekörpü zamanı birgə əməkdaşlıq haqqında fikir mübadiləsi aparılmış, mütəxəssis hazırlığı, ekspozisiyaların qurulması, elmi tədqiqatların aparılmasında təcrübə mübadiləsi barəsində razılıq əldə edilmişdir.

Mayın 15-də Milli Azərbaycan Tarixi Muzeyində "Müasir muzeylərdə bərpa və konservasiya metodikası" mövzusunda seminar keçirilmişdir. Seminarda Ankaranın Qazi Universiteti İncəsənət fakültəsinin "Maddi mədəniyyətin qorunması" bölümünün müəllim heyəti, muzeyin Bərpa laboratoriyasının mütəxəssisləri, fond müdirləri iştirak etmişlər. Seminarda muzeylərdə maddi mədəniyyət nümunələrinin qorunması, bərpası ilə bağlı məruzələr dinlənilmiş, sənət əsərlərinin mühafizəsinə dair müzakirələr aparılmışdır.

Cari ildə muzey əməkdaşları aşağıdakı beynəlxalq elmi tədbirlərdə iştirak etmişlər:

1. "Mədəni irs, yerli iqtisadi inkişaf, turizm və media arasında interdistiplinar əlaqələrə baxış" III Beynəlxalq konfrans. Makedoniya, Ohrid şəhəri, 16-21 yanvar (ekspozisiyanın təhlükəsizliyi üzrə direktor müavini-ekspozisiya müdiri t.ü.f.d. Həbibə Əliyeva).

2. Rusiya EA Arxeologiya İnstitutunun təşkil etdiyi "Arxeoloji tədqiqatlarda yeni materiallar və metodlar" Gənc alimlərin III Beynəlxalq elmi konfrans. Rusiya Federasiyası, Moskva şəhəri, 16-19 mart (kiçik elmi işçi Laçın Mustafayev).

3. "Muzey və arxiv kolleksiyaları 1941-1945-ci illər Böyük Vətən müharibəsinin tarixi haqqında" beynəlxalq elmi-praktiki konfrans. Rusiya Federasiyası, Moskva şəhəri, 25-26 may (kiçik elmi işçi t.ü.f.d. Pərvin Gözəlov).

4. "İN HOC SIGNO VINCES" Beynəlxalq veksilloloji simpozium. Rusiya Federasiyası, Sankt-Peterburq şəhəri, 27-28 may (kiçik elmi işçi t.ü.f.d. Pərvin Gözəlov).

5. İCOM-un Baş assambleyasının 30-cu iclası. Fransa Respublikası, Paris şəhəri, 1-3 iyun (kiçik elmi işçi t.ü.f.d. Pərvin Gözəlov).

6. Beynəlxalq Avrasiya Qadın Forumu. Rusiya Federasiyası, Sankt-Peterburq şəhəri, 23-26 sentyabr (direktor akademik Nailə Vəlixanlı).

7. Beynəlxalq Türk-İslam Tarixində Ali Təhsil Simpoziumu Türkiyə Respublikası, Bolu şəhəri, 22-23 oktyabr (elmi işlər üzrə direktor müavini t.ü.e.d. Nərgiz Əliyeva).

8. "Təhsil və dünyada qarşılıqlı asılılıq" Beynəlxalq konfransı. Yunanıstan Respublikası, Saloniki şəhəri, 21-24 oktyabr (elmi işçi Səidə Həmzəbəyova).

9. MDB Gənc Alimlərinin Forumu. Rusiya Federasiyası, Moskva şəhəri, 25-28 oktyabr (kiçik elmi işçi Emin Məmmədov).

10. Sen-Jermen Milli Arxeologiya Muzeyində xidməti ezamiyyət. Fransa Respublikası, Paris şəhəri. 14 noyabr-13 dekabr (Arxeologiya elmi fond şöbəsinin müdiri t.ü.f.d. Nasir Quluzadə).

11. "Xəzər dənizi sahillərində tunc və dəmir dövrü" Beynəlxalq elmi konfransı. Fransa Respublikası, Paris şəhəri. 4-5 dekabr (muzeyin direktoru akademik Nailə Vəlixanlı, Arxeologiya elmi fond şöbəsinin müdiri t.ü.f.d. Nasir Quluzadə).

12. VI Regional Cənubi Qafqaz ölkələrinin muzeyləri üçün treninq-seminar. Gürcüstan Respublikası, Tbilisi şəhəri. 24-27 noyabr. (elmi fond işləri üzrə direktor müavini-baş mühafiz t.ü.f.d. Məhfuzə Zeynalova).

Kadr hazırlığı

Cari ildə muzeydə 185 əməkdaş (onlardan 50 nəfər elmi işçi) fəaliyyət göstərir. Əməkdaşlardan 1 nəfər akademik, 3 nəfər elmlər doktoru, 15 nəfər fəlsəfə doktorudur. Muzeyin fəlsəfə doktoru hazırlığı üzrə 3 doktorantı və 8 dissertantı, elmlər doktoru hazırlığı üzrə 1 doktorantı və 4 dissertantı var. Keçmiş doktorant Fuad Ağayev bu il dissertasiya işini müdafiə edib.

Elmi-təşkilati fəaliyyət

Cari ildə muzey təsdiq olunmuş struktur əsasında fəaliyyət göstərmişdir. Muzeyin yeni nizamnaməsi qəbul olunmuşdur. Elmi Şuranın 8 iclası keçirilmişdir.

Təltiflər və mükafatlar haqqında məlumat

Azərbaycan Respublikası Prezidentinin 3 noyabr 2015-ci il tarixli sərəncamı ilə akademik Nailə Vəlixanlıya "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.

Mündəricat

MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ-95

Nailə Vəlixanlı. Milli Azərbaycan Tarixi Muzeyinin 95 illik inlişaf yolu 5

Nərgiz Əliyeva. Azərbaycan Tarixi Muzeyində qədim və orta əsrlər tarixinin tədqiqi və təbliğinə dair (1960-1970-ci illər)....15

Фархад Джаббаров. Из опыта музеефикации и научного исследования истории Азербайджанской Демократической Республики в Национальном музее истории Азербайджана....38

TARİX

Səbuhi Əhmədov. XIII-XVI əsr məzar daşları və divar relyeflərində silah təsvirləri 56

Sevinc Vahabova. Şifahi xalq ədəbiyyatında Azərbaycan hərb sənəti nümunələrinin təsviri....69

Aygün Quliyeva. Şirvanşahlar Sarayı Kompleksinin tarixinə aid bəzi mənbələr haqqında (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) 75

Güntəkin Nəcəfli. Çar Rusiyasının Şimali Azərbaycanda erməni dövləti yaratmaq siyasətinin mənbələrinə dair 88

Zülfiyyə Cəlilova. Çarizmin milli-müstəmləkəçilik və ermənilərin antitürk siyasətinin nəticələri 101

Rəşad Qasımov. Azərbaycanda milli ordu quruculuğu prosesində Osmanlı dövlətinin roluna dair (Osmanlı arxiv sənədləri əsasında)....108

Emin Dadaşov. Fotomateriallar Bakıda törədilmiş 1918-ci il mart soyqırımının öyrənilməsində mənbə kimi (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)....122

İlahə Xantəmirova. Mirzə Bala Məhəmmədzadənin bir məqaləsinin izi ilə....134

Санубар Касимова. Гербы трех Азербайджанских республик....141

Зарифа Дулаева. Воспоминания ветерана югославского движения сопротивления 151

Rəna Səfərova. Vətən çağıranda (Züleyxa Seyidməmmədovanın MATM-dakı materialları əsasında)....162

Махфуза Зейналова. Азербайджанские дивизии в годы второй мировой войны 174

Bəhman Kərimov. İkinci Dünya Müharibəsi dövründə azərbaycanlıların İtaliya və Yuqoslaviya partizan hərəkatında iştirakı tarixindən....186

Инна Костина. Врачи-азербайджанцы на фронте и в тылу....201

Зарифа Дулаева. «Баку – самый дорогой мне город» (Из истории антифашистского движения в Германии) 214

Фуад Агаев. Война глазами фронтового корреспондента (на материалах Национального Музея Истории Азербайджана)....225

Инара Мурадалиева. Некоторые штрихи к портрету

академика Абдуллы Караева (на основе документов Национального музея истории Азербайджана) 231
Нармин Багирова. К материалам историка-востоковеда, директора Института востоковедения АН Азербайджанской ССР Абдулкерима Ализаде.....237
Elməddin Quliyev. Ziya Bünyadovun "Azərbaycan Atabəyləri dövləti (1136-1225)" monoqrafiyasında bəzi məsələlərə dair 245
Саида Гамзабекова. Труд В.Минорского – «История Ширвана и Дербенда X-XI веков» как фундаментальное сочинение по истории Северного Азербайджана.....257

ARXEOLOGİYA, NUMIZMATİKA, EPİQRAFİKA

Nasir Quluzadə, Xəqani Almənmədov. 2014-cü ildə Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya Fonduna daxil olan arxeoloji və təsadüfi tapıntılar.....270
Həbibə Əliyeva. Milli Azərbaycan Tarixi Muzeyində qorunan təbərzin-baltaların epiqrafik yazı nümunələri haqqında 281
Nardanə Yusifova. Azərbaycan və Türkiyənin bəzi memarlıq abidələri üzərindəki epiqrafik yazılarda olan analoji dekor detallarının araşdırılmasına dair 292
Laçın Mustafayev. Quba rayonunun Püstəqasım kəndindən əldə edilən təsadüfi arxeoloji tapıntılar.....299
Aida İsmayılova. Orta əsr mətbəx keramikasına dair (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında).....309
Эмин Мамедов. Керамическое производство в древнем Самунисе-Мингечауре (на основе коллекции Национального Музея истории Азербайджана) 317

ETNOQRAFİYA

Gülzadə Abdulova. Geyim mədəniyyətində düymələr.....328
Tural Şiriyev. Azərbaycanlıların geyim tarixində islam mədəniyyətinin izləri (MATM-ın materialları əsasında) 347
Sevinc Nəsirova. Azərbaycan toxuculuq məmulatları üzərində dini inanclarla bağlı bəzi naxışlar.....351
Qərənfil Əsədova. L.F. Knitin "Şamaxı bazarı" təsviri sənət əsərinin tarixi-etnoqrafik baxımdan təhlili 359

Зарифа Дулаева. Краткий исторический очерк 95-летней деятельности Национального музея истории Азербайджана.....365

Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin 2015-ci ildə gördüyü elmi-ekspozisiya, elmi tədqiqat, elmi-kütləvi və fond işlərinin **hesabatı** 462

MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ
- 2015 -

Kompüter tərtibatı:
Emin Dadaşov

Kəsim: 25x18, Çap vərəqi: 16, Tirajı: 200